AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
HÜSEYN CAVİDİN EV MUZEYİ

# HÜSEYN CAVİD

# ƏSƏRLƏRİ

## 5 CİLDDƏ

# HÜSEYN CAVİD

# ƏSƏRLƏRİ

## BİRİNCİ CİLD

***ŞERLƏR VƏ POEMA***

*Tərtib edəni*: **Turan CAVİD**
*Redaktoru*: **Teymur KƏRİMLİ**

*Ön söz:* **Gülbəniz BABAXANLI,**
**Teymur KƏRİMLİ**

*Çapa hazırlayan:* **Gülbəniz BABAXANLI**

## BİR NEÇƏ SÖZ...

*«Babam Hüseyn Cavid bir günəş idi. Yüksəldi, parladı, yarasaların gözünü kor etdi. Lakin dumanlar onun qarşısını aldılar...»*

Qardaşım Ərtoğrol Cavid bu sözləri 1939-cu ildə yazıb. Mən isə Hüseyn Cavid haqqında heç vaxt yazmamışam, demək olar ki, yazmamışam. Buna indi ehtiyac duyuram. Xatirələr qalaq-qalaqdır. Hər şeyi təfərrüatına kimi qələmə almaq niyyətindəyəm. İndilik isə mətnləri bərpa edib beşcildliyi çapa hazırlayarkən və onun qarşısında övlad olaraq son borcumu yerinə yetirərkən səbəbini bilmədiyim bir duyğu məni bu kitaba ön söz yazmağa sövq edir.

Ərtoğrolun ifadə etdiyi kimi, kor yarasalar 1937-ci ildən sonra Cavidin ailəsinə də, onun əsərlərinə də həqarət ediblər. Bu isə 1956-cı iləcən davam edib. Sonralar da ara-sıra bu həqarətlərin şahidi olmuşam. Cavidin əsil bəraəti 1981-ci ildə 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar Mərkəzi Komitənin 21 iyul tarixli qərarından sonra baş verdi. Bir küll halında isə mətnlərinin, əsərlərinin bəraəti indi, yəni bu beşcildliyin vasitəsilə gerçəkləşir.

Xatırlatmaq istəyirəm ki, beşcildlik Cavid əsərlərinin ən mükəmməl nəşridir və oxucuların, tədqiqatçıların, rejissorların, naşirlərin, bir sözlə, Ca-

vidə üz tutacaq hər bir kəsin indən belə yalnız bu nəşrə istinad etməsini istərdim. Bunun isə bir sıra səbəbləri var:

Əvvəla, imlasının qorunması Hüseyn Cavid üçün çox əhəmiyyətliydi və elə bu səbəbdən də o, bəzən əlyazmalarının sonunda bunu xüsusi xatırladırdı: «İmlasına toxunmamalı!». Bir halda ki, özü belə istəmişdi, deməli, bu sözləri onun bir müəllif olaraq vəsiyyəti kimi də qəbul etmək olar.

1958-ci ildən etibarən nəşr edilməkdə olan kitablarını istisnasız olaraq mən tərtib etsəm də dilinin, imlasının qorunması naminə göstərdiyim bütün cəhdlər uğursuzluqla nəticələnib. Bəzən Mərkəzi Komitə, bəzən Yazıçılar İttifaqı, bəzən də nəşriyyatlar səviyyəsində yaradılan əngəlləri ortadan qaldırmaq mümkün olmayıb. Cavid əsərlərinin indiyəqədərki bütün nəşrlərinin redaktələrini onun dilinə kobud müdaxilədən başqa nə adlandırmaq olar?

İndi Hüseyn Cavidin orijinal mətnini oxucuya müəllifinin yazdığı şəkildə təqdim edərkən Əliağa Vahidi də rəhmətlə anmaq istəyirəm. 1958-ci ildə Cavidin bəraətdən sonrakı ilk kitabını «Azərnəşr»ə təqdim etdim. Mətni sadələşdirməyi, Cavidin dilini «islah» etməyi o zaman ehtiyac içərisində yaşayan Əliağa Vahidə təklif etdilər. Vahid isə: — Mən nə karəyəm ki, ustadın yazdığına əl gəzdirim? — deyə təklifdən imtina etmişdi. «Azərnəşr»də çalışan rəfiqəm Həbibə Məmmədxanlı bu söhbətin şahidiydi. Nəhayət, bu «şərəfli missiyanı» Əkrəm Cəfər yerinə yetirdi…

Cavid yaradıcılığına bəzən hətta kobud zorakılıq səviyyəsində müdaxilələr çox olub. Bu baxımdan təkcə «Hərb və fəlakət» şeirini xatırlatmaq bəs edər. Şeir əslində üç hissədən ibarətdir. 1958-ci ildə onun yalnız birinci hissəsi, 1984-cü ildə

nəşr olunan dördcildlik «Əsərlər»də isə birinci və üçüncü hissələri çap olunub. «Hərb və fəlakət»in başlıca qayəsi isə onun ikinci hissəsində ifadə olunur. Bu, artıq imla məsələsindən daha ciddi bir problemdir. Yaxud, 1918-ci ildə yazdığı və bütün digər nəşrlərdə «Məzlumlar üçün» başlığı ilə verilmiş şeirin əsli «Kars və Oltu ətrafında səbəbsiz (!?) olaraq alçaqcasına qətl və yağma edilən məzlumlar için» adlanır.

Müxtəlif illərdə guya Hüseyn Cavidi müasir oxucu üçün daha anlaşıqlı etmək niyyətində olan naşir və redaktorları başa düşməkdə çətinlik çəkmişəm. Axı belə bir təşəbbüsdə bulunanların heç biri Cavid mətnlərinin ədəbi-estetik, tarixi və məfkurəvi mahiyyətinə vaqif olmayıblar. Dahi türkoloq Mehmet Fuad Köprülü yazırdı ki, Hüseyn Cavid təmiz və kamil bir üsluba malikdir. Amma təəssüf ki, o illərdə Köprülünün səsi buralarda eşidilə bilməzdi.

Cavidin dili barədə nisbətən müfəssəl və obyektiv qənaətləri ilk dəfə Mustafa Haqqı Türkəqul yazdı: «Cavidin dili istər Azərbaycan daxilində, istərsə Azərbaycan xaricində ən çox münaqişə və mübahisə olunan bir mövzudur. Məlum olduğu kimi İstanbul türkcəsi ilə Azərbaycan türkcəsi arasında ufaq da olsa bir ləhcə fərqi vardır. Cavid İstanbul türkcəsini mənimsəmiş, bu şivəni bütün incəliklərinə qədər öyrənmişdir. Yaradıcılığının ilk dövrlərində, bilxassə şeirlərində, İstanbul şivəsini məharətlə kullanan şair, sonralar yaratdığı əsərlərində bu şivəni Azərbaycan ədəbi türkcəsinə yaxınlaşdırmağa çalışmış və demək olar ki, bu işdə müvəffəq olmuşdur. Bunun üçün də Cavidin türkcəsinə nə tamamilə İstanbul türkcəsi, nə də tamamilə Azərbaycan ədəbi türkcəsi demək qabildir. Cəsarətlə deyə bilərik ki, Cavid bu iki türkcə

şivə arasında bir körpü yaratmış və bu iki şivə arasındakı məsafəni qısaltmışdır... Cavidin işlətdiyi türkcə olduqca dadlı və işlənmiş, gözəl bir türkcədir. Şimali və Cənubi Azərbaycan, Türkiyə və Türkistan və s. türk ellərində tək bir münəvvər bulunmaz ki, Cavidi oxusun və anlamasın.»

...1937-ci ildə NKVD nümayəndələrinin evimizdən apardığı «Attila», «Çingiz», «Telli saz», «Şəhla» və «İblisin ilhamı» faciələri istisna olunarsa Cavid əsərlərinin külliyyatı hesab edə biləcəyimiz bu nəşrdə istər Köprülünün dəyərləndirdiyi həmin təmiz və kamil üslub, istərsə də Mustafa Haqqı Türkəqulun ümumtürk ədəbi dilinin XX yüzil Azərbaycan ədəbiyyatındakı yeganə timsalı olaraq səciyyələndirdiyi Cavid yaradıcılığının əldə olan bütün nümunələri olduğu kimi, yazıldığı şəkildə ilk dəfədir ki, təqdim edilir.

Qeyd etdiyim kimi əvvəlki nəşrlərdə təhriflər çox olub. Bu barədə Azər Turanın «Cavid Əfəndi» kitabında ətraflı bəhs olunduğundan mən indi onların üzərində ayrıca dayanmaq istəmirəm. Bu nəşrdəki mətnlərlə əvvəlki nəşrlərin müqayisəsi də bunu aydın göstərəcək.

Beşcildliyə Hüseyn Cavidin indiyə qədər bizə məlum olmayan şeirləri, məktubları (əvvəllər ixtisarla dərc olunmuş məktubların tam mətni) hətta yaradıcılığının ilk dövrlərində fars dilində yazdığı şeirlərin tərcümələri də daxil edilmişdir. Beləliklə beşcildlikdə Cavid dilinin təkamülünü də müşahidə etmək mümkün olacaqdır.

Bilirəm ki, Cavid əsərlərinin bu nəşri hamı tərəfindən heç də birmənalı qarşılanmayacaq. Bu mənada etiraf etmək istərdim ki, həyatımı həsr etdiyim müqəddəs bir işi yekunlaşdırarkən mən yalnız belə hərəkət etməliydim. «İmlasına toxunmamalı!» Bu, atamın tövsiyəsi və vəsiyyətiydi.

***

Yeri gəlmişkən Hüseyn Cavidin «Peyğəmbər» əsəri ilə bağlı bir neçə kəlmə demək istərdim. Tövsiyəm xüsusi ilə teatrlarımıza aiddir. Cavid «Peyğəmbər» dramını səhnə üçün yazmamışdı və əsərin tamaşaya qoyulmamasında israrlıydı. Bunu nəzərə almağınızı istərdim.

***

Təəssüf ki, Cavid əsərlərinin bu mükəmməl nəşrini görmək onun böyük təəssübkeşi Heydər Əlirza oğluna nəsib olmadı. Hər şeyə görə — atamı Vətən torpağına qovuşdurduğuna, əzizlərimi bir sərdabədə — Cavid məqbərəsində görüşdürdüyünə, Cavid ocağının çırağını yenidən yandırdığına... və nəhayət, Cavid külliyyatının bu mükəmməl nəşri üçün sərəncam verdiyinə görə: unudulmaz Heydər Əliyevə Tanrıdan rəhmətlər diləyirəm.

***Turan CAVİD***
***19 mart, 2004-cü il***

*P.S. Uzun onilliklər boyu üzərində işlədiyi və demək olar ki, ilkin vəziyyətində bərpa etdiyi bu nəşri böyük Cavidin sevimli qızı Turan Cavidin görməməsi bizi də yandırır. Yeganə təsəllimiz – onun müəyyən etdiyi yolla getmək – Cavidin imlasına toxunmamaqdır. Ancaq beşcildliyin indiyədək Cavid nəşrlərinin ən mükəmməl nəşri olacağı Tu-*

*ran Cavidin ruhu ilə yanaşı, bizdə də böyük qürur və qıvanc duyğuları doğurmaqdadır. Qoy Tanrı bütün Cavidlərin ruhunu şad eləsin! Qoy onların narahat ruhu  bu beşcildlikdən azacıq da olsa təskinlik tapsın.*

**_Teymur KƏRİMLİ,_**
**_beşcildliyin redaktoru,_**
**_8 yanvar, 2005-ci il_**

## HÜSEYN CAVİDİN HƏYAT VƏ YARADICILIĞI

Filosof şair, böyük dramaturq Hüseyn Cavid Azərbaycan ədəbiyyatı tarixində öncül yerlərdən birini tutur. Adətən onu ədəbiyyatımızın Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı kimi klassik sənətkarları ilə müqayisə edirlər. Lakin bununla yanaşı, Hüseyn Cavid sənətdə heç kimə bənzəməyən, orijinal bir yaradıcılıq yolu keçmiş və özündən sonra ölməz əsərlər qoyub getmiş söz ustalarından biridir. Minillik Azərbaycan ədəbiyyatının növbəti inkişaf mərhələsi sayılan XX əsr Azərbaycan ədəbiyyatında XIX yüzillik Qərb romantizminin təsiri ilə yaranmış romantizm ədəbi cərəyanından söhbət açarkən onun ən böyük nümayəndələrindən biri kimi Hüseyn Cavidin adını çəkməmək mümkün deyil. «Şeyx Sənan», «İblis», «Topal Teymur», «Peyğəmbər», «Xəyyam», «Seyavüş» kimi dramları, «Azər» poeması, bütöv bir silsilə lirik-fəlsəfi şeirləri ilə H.Cavid öz adını Azərbaycan ədəbiyyatının qızıl səhifələrinə əbədi həkk etmişdir. Öz dahiyanə əsərləri ilə Hüseyn Cavid Azərbaycan dramaturgiyasını istər mövzu, istər xarakter və obrazlar qalereyası, istərsə də xronotop baxımından olduqca zənginləşdirmiş, dramaturgiyamızı dar lokal məkandan çıxararaq qlobal məkana salmış, ümumbəşəri ideyaların təb-

liği ilə dünya səviyyəsinə qaldırmış, Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadədən, dramaturgiya məktəbinin başqa nümayəndələri olan Nəcəfbəy Vəzirov, Əbdürrəhimbəy Haqverdiyev, Cəlil Məmmədquluzadədən sonra bu janrın tarixinə yeni uğurlu səhifələr yazmışdır.

Hüseyn Abdulla oğlu Rasizadə 1882-ci il oktyabr ayının 24-də Azərbaycanın qədim elm və sənət, mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan şəhərində ruhani ailəsində anadan olmuşdur. İlk ibtidai təhsilini evdə alan, sonra isə 1891-1896-cı illər arasında mollaxanada davam etdirən Hüseyn 1896-1898-ci illərdə görkəmli maarifpərvər ziyalı və istedadlı pedaqoq Məhəmmədtağı Sidqinin «Tərbiyə» məktəbində oxumuş, daha sonra isə regionun pedaqoji mərkəzlərindən sayılan Təbrizin «Talibiyyə» mədrəsəsinin müdavimi olmuşdur. O dövrdə Yaxın və Orta Şərqin şeir dili sayılan fars dilini çox gözəl mənimsəmiş Hüseyn ilk qələm təcrübələrini də məhz bu dildə ərsəyə gətirmiş, müəllimləri və ədəbi-mədəni mühiti tərəfindən təşviq edilmiş, gələcəyin böyük şairi kimi etiraf edilmişdir.

Ömrü boyu kasıb yaşamış, öz əlinin zəhməti ilə bir tikə halal çörək qazanmış Hüseyn Cavid 1904-cü ildən – 22 yaşlı bir gənc ikən əmək fəaliyyətinə başlamış və Gürcüstanın Kaxetiya ərazisində şosse yolu çəkən idarədə podratçılıq etmişdir.

1906-1908-ci illər arasında Türkiyədə həm gözlərini müalicə etdirən, həm də İstanbul Universitetinin Ədəbiyyat Bölümünün müdavimi olan Hüseyn Rasizadə 1909-cu ildə «Cavid» ədəbi təxəllüsünü seçmiş və bundan sonra onun ailəsi bu soyadı altında tanınmışdır. Ağır maddi durum üzündən Türkiyədə qala bilməyən Hüseyn Cavid 1910-cu ildə Azərbaycana qayıdır və bir müddət

Gəncədə açılmış ruhani seminariyasında müəllim işləməyə başlayır. Bundan sonra H.Cavid bir müddət Gəncədə və Tiflisdə pedaqoji fəaliyyətlə məşğul olmuş, hətta Gəncə dəmiryolunda mühasiblik də etmişdir.

1915-ci ildən Bakıya köçən H.Cavid «Səfa» məktəbində müəllim işləmiş, Bakıda təşkil olunmuş «Ədəbiyyat komissiyası»na üzv seçilmişdir.

1918-ci ildə erməni quldur dəstələrinin Bakıda türk genosidi törətdikləri zaman Hüseyn Cavid Təbrizə, oradan isə doğma vətəni Naxçıvana getmiş, həmin şəhərdəki «Rüşdiyyə» məktəbində müəllim işləmiş, gələcək ömür-gün yoldaşı Mişkinaz xanımla ailə həyatı qurmuşdur.

1919-cu ildə bütün dünyada baş verən qlobal proseslərin təsiri altında Milli hökumət – Azərbaycan Demokratik Respublikası qurulduqdan sonra yenidən Bakıya köçən H.Cavid hazırlıq kurslarında ədəbiyyat fənnini tədris etmiş, bir müddət qız məktəbində şəriətdən dərs demişdir. 1919-cu ilin mayında keçirilən Müəllimlər İttifaqının iclasında idarə heyətinin üzvü, həmin ilin iyulunda isə Azərbaycan Müəllimlər konfransında Təlifat Heyətinə seçilmişdir.

Ömrünün son on yeddi ilini Bakı Müəllimlər Seminariyası – Darülmüəlliminlə bağlayan H.Cavid burada öz ürəyincə olan uğurlu pedaqoji fəaliyyət göstərmiş, dahi şair və dramaturq olmaqla yanaşı, həm də istedadlı bir müəllim kimi də tanınmış və ədəbi-ictimai mühitdə etiraf edilmişdir.

Elə bu illər Cavidin bir yazıçı və ədəbiyyat xadimi kimi fəaliyyətinin çox coşğun və səmərəli bir dövrünü təşkil edir. Biz onu 1920-ci ilin martında «Yaşıl qələm» dərnəyinin ümumi iclasında cəmiyyətin nizamnaməsini hazırlayan komissiyanın,

1921-ci ilin avqustunda «Tənqid-təbliğ» teatrının repertuar komissiyasının, 1923-cü ilin yayında Azərbaycan yazıçı, ədib və şairlərinin təşkilat komissiyasının, bir neçə ay sonra təşkil olunmuş «Azərbaycan ədib və şairlər dərnəyi»nin idarə heyətinin üzvü kimi görürük. Bu zaman o, qırx yaşını təzəcə keçsə də, artıq təkcə Azərbaycanda deyil, eləcə Zaqafqaziya və bütövlükdə İttifaq miqyasında ağsaqqal ədiblərdən biri kimi şöhrət qazana bilmişdi. Bu illərdə H.Cavidin əsərləri müxtəlif ölkələrin səhnələrində dalbadal böyük uğurla tamaşaya qoyulmuş, görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayev H.Cavidin eyniadlı faciəsi əsasında «İblis» operasını yazmışdı. Bir sözlə, heç nə faciələr müəllifi H.Cavidin taleyində yaxınlaşan fırtınadan xəbər vermirdi. Ancaq fırtına da yaxınlaşırdı…

Ancaq sönməzdən əvvəl çıraq daha parlaq şölə saçdığı kimi, H.Cavidin də fiziki əbədiyyətə qovuşmazdan öncə şöhrəti zirvəyə qalxmaqda davam edirdi. Böyük ədib canlı klassikə çevrilirdi. 1924-cü ildə «Peyğəmbər» dramı Azərbaycan Xalq Maarif Komissarlığının nəşriyyatında çap edilmiş, elə həmin ildə Bakıdakı II dərəcəli 16-cı qız məktəbinə H.Cavidin adı verilmiş, «İblis» faciəsi ilk dəfə kitab şəklində çap edilərək oxucuların istifadəsinə verilmişdi.

1925-ci ilin fevralında H.Cavid Bakıda keçirilən I Türkoloji qurultayda iştirak etmişdir. 1926-cı ilin iyun-oktyabr aylarında gözlərini müalicə etdirmək üçün Berlinə ezam edilən H.Cavid oradan böyük ədəbi-bədii, fəlsəfi-ictimai, mədəni-mənəvi təəssüratla qayıdır və «Azər» poemasında, eləcə də bu səfərin təəsüratlarının məhsulu olan «Knyaz» faciəsində bu təəssüratdan uğurla istifadə edir.

1926-cı ildə nəşr edilən «Topal Teymur» əsəri Azərbaycan Akademik Teatrında tamaşaya qoyulur, bir ildən sonra isə Xalq Komissarları şurasının qərarı ilə Azərbaycan ədəbiyyatının inkişafında göstərdiyi çoxillik xidmətlərə görə H.Cavidə fəxri təqaüd verilməsi məsələsi irəli sürülür.

1928-ci ildə «Şeyx Sənan» faciəsi Təbriz teatrında tamaşaya qoyulmuşdur. Sonrakı illərdə Cavid Yeni əlifba komitəsinin konfransında, Bakıda Gürcüstan yazıçıları ilə birgə keçirilmiş ədəbi-bədii tədbirdə yaxından iştirak etmişdir. Həmin ilin iyununda o, Zaqafqaziya Şura yazıçıları və incəsənt xadimləri birliyinin təşkilat komissiyasına üzv seçilmiş, Şura yazıçılarının müşayiəti ilə Gürcüstana və Ermənistana səfər etmişdir. 1930-cu ilin martında Tiflis Dövlət Qırmızı Ordu teatrında Cavidin «Knyaz» pyesi ilk dəfə tamaşaya qoyulmuşdur. Böyük maraqla qarşılanmış həmin əsər bir aydan sonra Bakı şəhərində Türk Bədaye Teatrında tamaşaçıların müzakirəsinə verilmişdir.

1931-1932-ci illər arasında Cənublu-Şimallı vətənin övladranının taleyindən bəhs edən «Telli saz» və böyük İran şairi Əbülqasim Firdövsinin 1000 illik yubileyinə həsr edilmiş «Seyavüş» faciəsi H.Cavidin qələmindən çıxmışdır.

Sonrakı illərdə Azərbaycan Şura Yazıçıları Cəmiyyətində fəal iştirak edən H.Cavid həmin cəmiyyətin təşkilat komitəsinin I plenumunda iştirak etmiş, Azərbaycan Şura Yazıçıları İttifaqının Təşkilat komitəsində qəbul komissiyasının işində iştirak etmişdir.

1934-cü ildə «Seyavüş» əsəri «Azərnəşr»də çap olunur və Azərbaycan Dövlət Teatrında tamaşaya qoyulur. Əlbəttə, bütün bu uğurlar Cavidi yazıb-yaratmağa ruhlandırmaya bilməzdi və nəticə olaraq bir-birinin ardınca böyük ədibin qələmindən

«Xəyyam» və «Şəhla» pyeslərinin çıxmasına səbəb olur. Bu illərdə artıq Azərbaycan yazıçılarının ən hörmətli və nüfuzlu üzvlərindən biri kimi H.Cavid 1935-ci ilin dekabrında keçirilən Zaqafqaziya dramaturqlarının Bakı müşavirəsində, Moskva, Leninqrad və Minsk şəhərlərində keçirilən Azərbaycan poeziyası və dramı günlərində yaxından iştirak etmişdir.

Məşum tarixə – Cavidin həbs edilməsinə bir il qalmış Cavidin «Xəyyam» pyesi ədəbi əsərlər müsabiqəsində mükafata layiq görülür və ədibə pul mükafatı verilməsi nəzərdə tutulur.

Azərbaycan ziyalılığının bir çox görkəmli nümayəndələri kimi, 1937-ci il Cavidin taleyində də çox ağır taleyüklü bir tarixə çevrilir. Həmin ilin iyun ayının 3-də Cavidə qarşı millətçi ittihamı irəli sürülür, ertəsi gün böyük şair və dramaturq həbs edilir. Tam iki il müddətində Cavid keşlə və Bayıl həbsxanalarında ağır dustaqlıq şəraitində yaşadıqdan sonra 1939-cu ilin 4 iyulunda antisovet təbliğatında iştirakına görə 8 il həbs cəzası alaraq Sibirə sürgün edilmişdir. Uzun illərin mənəvi-psixoloji təzyiqlərindən sonra onsuz da səhhəti pozulmuş şair, 1941-ci il dekabrın 5-də İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko qəsəbəsində vəfat etmişdir. Əlamətdardır ki, Azərbaycan ədəbiyyatının ən görkəmli simalarından biri olan H.Cavid qardaş Ukrayna ədəbiyyatının ən görkəmli simalarından biri olan Taras Şevçenkonun adını daşyıan qəsəbəyə pənah gətirmiş və məhz burada dünyasını dəyişərək əbədiyyətə qovuşmuşdur.

***

H.Cavid ədəbiyyat aləminə şeirlə gəlmiş və bütün ömrü boyu poetik yaradıcılığını davam et-

dirmişdir. Hələ ilk qələm təcrübələrindən onun istedadlı bir şair olduğu nəzərə çarpır. Ədəbi yaradıcılığa şair və publisist kimi başlamış Hüseyn Rasizadə ilk mətbu əsərlərini 1904-cü ildə «Şərqi-Rus» qəzetində oxuculara təqdim etmişdir. Sevimli müəllimi Məhəmmədtağı Sidqinin vəfatı münasibətilə Urmiyadan yazdığı məktub qəzetin 23 yanvar sayında nəşr olunmuşdur. Bundan sonra gənc ədibin müntəzəm olaraq «Həyat», «İrşad», «Tərəqqi», «Həqiqət», «İqbal», «Açıq söz» kimi mətbu orqanlarında çıxış etdiyini görürük.

Hüseyn Cavid dramatik yaradıcılığa 1910-cu ildə yazdığı «Ana» pyesi ilə başlamışdır. Əsər 1913-cü ildə Tiflisdə nəşr olunmuşdur. Səhnəciyin mövzusu orta əsr italyan novellasından götürülsə də (bu fakt yazıçı Elçin tərəfindən müəyyən edilmişdir), Cavid onu yerli şəraitə, Azərbaycan-türk mentalitetinə uyğunlaşdırmış və orijinal bir əsər meydana gətirmişdir. Burada hələ parlaq faciəvi obrazlar yaratmağa müvəffəq olmamış H.Cavid fabulanın özünün faciəviliyindən və orijinallığından ustalıqla bəhrələnməklə maraqlı bir əsər meydana qoymuşdur.

1913-cü ildə H.Cavidin bir sıra şeirləri «Keçmiş günlər» adı altında Tiflisdə nəşr edilmişdir. Cəmisi 24 səhifədən ibarət olan bu kiçik məcmuədə Hüseyn Cavidin 1905-1913-cü illər arasında yazdığı lirik və romantik, ictimai və intim məzmunlu əsərləri toplanmışdır. Bu şeirlərdə H.Cavid fərdin arzuları ilə cəmiyyətin tələbləri arasındakı ziddiyyətləri açıb göstərməyi bir mütəfəkkir sənətkar, humanist şair kimi qarşıya qoyur.

H.Cavidin insan taleyinin problemləri barədə narahatlığını, öz millətinin keçmişi, bugünü və gələcəyi haqqında qayğılarını ifadə edən şeirlər 1905-1917-ci illər arasında qələmə alınmış örnək-

ləri əhatə edir və «Bahar şəbnəmləri» adlanan ikinci poetik topluda cəmlənmişdir.

Hələ 1906-1908-ci illərdə İstanbul Universitetinin Ədəbiyyat bölümündə təhsil aldığı zaman Türkiyə mətbuatında şeirləri dərc olunan Hüseyn Cavid qardaş ölkənin ədəbi mühitində də tanınmış, «Vərəmli qız» adlı poetik əsəri İstanbulda keçirilən şeir müsabiqəsində mükafata layiq görülmüşdü.

H.Cavid böyük dramaturq olmazdan öncə böyük şair, böyük lirik olmuş və lirik-fəlsəfi yaradıcılığını bütün ömrü boyu davam etdirmişdir. Onun şeirlərini oxuduqca sanki başlanğıcda sakit axan, qıjıldayan, daşlardan töküldükcə isə etirazlı bir nərə çəkən dağ çeşməsinin, dağ çayının səsini eşidirsən. Elə buna görədir ki, H.Cavidin şeir dili səmimi, saf insan duyğularının tərənnümündə nə qədər həzin, kövrək, lirikdirsə, insanlara zülm və müsibət gətirən şər qüvvələrə, heyvani instinktlərə tabe olub öz həmcinslərini zülmət və cəhalətdə saxlayan riyakarlara qarşı mübarizədə o qədər kəskin, amansız, qəti və hayqırtılıdır. Bu baxımdan H.Cavidin poeziyasında romantika ilə realizmin heyrətamiz bir vəhdətini görürük. Şair xeyirin təntənəsinə nə qədər işıqlı romantik xəyallar bəsləyirsə, şərin məhvi üçün də o qədər səbirsiz, acıqlı tədbirlər irəli sürür.

H.Cavid bir şair kimi orijinaldır, təkraredilməzdir, yalnız özünə, öz sənətinə xas olan poetik ifadə və vasitələrin müəllifi kimi çox uğurlu bir dəsti-xətti vardır.

Cavidin şeir yaradıcılığındakı romantik bədbinlik, ruh düşkünlüyü və ümidsizlik zaman keçdikcə mübariz bir ovqata, nizamivarı bir «inqilabçılığa» çevrilir. Şairin ilk poetik örnəkləri didaktik məzmunu, keçmişin ideallaşdırılması ilə seçilir.

«Hübuti-Adəm» («Adəmin (cənnətdən) enməsi»), «Yadi-mazi» («Keçmişin yada salınması») kimi «Keçmiş günlər» poetik toplusuna daxil olan şeirlər bu qəbildəndir.

Lərzan ediyor ruhumu bin dürlü məzalim,
Əfsus... ki, mazi ədəm, ati isə müzlim...

H.Cavid poeziyasının bu dövrü üçün solğun, xəstə bənizli gözəllərdən, onların tezliklə heçliyə qovuşacağından danışmaq – o dövr romantizminin ayrılmaz əlamətlərindən biri kimi nəzərə çarpmaqdadır. Ancaq maraqlıdır ki, ümumbəşəri problemlərdə bədbinlik göstərən şair, feminizm məsələlərində sanki bu bədbinlikdən silkinib çıxır, bəşəriyyətin xilas yolunu qadına məhəbbətdə, qadın gözəlliyində, qadın sevgisində görür. Bu baxımdan «Bənim Tanrım» şeiri proqram səciyyəsi daşıyır:

Hər qulun cihanda bir pənahı var,
Hər əhli-halın bir qibləgahı var.
Hər kəsin bir eşqi, bir ilahı var;
Bənim Tanrım gözəllikdir, sevgidir.

Həzz etmədim firqədən, cəmiyyətdən,
Zevq alamam hərbdən, siyasətdən,
Bir şey duymam fəlsəfədən, hikmətdən;
Bənim ruhum gözəllikdir, sevgidir.

Gözəl sevimlidir, cəllad olsa da,
Sevgi xoşdur, sonu fəryad olsa da.
Uğrunda bənliyim bərbad olsa da,
Son dildarım gözəllikdir, sevgidir.

Gözəlsiz bir gülşən zindana bənzər,

Sevgisiz bir başda əqrəblər gəzər,
Nə görsəm, hanki bəzmə etsəm güzər,
Həp duyduğum gözəllikdir, sevgidir.

Qoşma janrında yazılmış bu şeirdə Hüseyn Cavid Füzüli poetik məktəbinini birbaşa varisi kimi çıxış edir. «Sevgisiz bir başda əqrəblər gəzər» poetik ifadəsi Füzulinin Həbibiyə yazdığı təxmisindəki «kəlləmin sümükləri içində əqrəblər məskən saldıqda belə sənin məhəbbətini unutmaram» anlamlı misraları çox xatırladır. «Keçmiş günlər» toplusunda şairin az sayda olsa da, qəzəlləri vardır ki, bu janrda qələmə alınmış ən yaxşı örnəklərlə yarışa girə bilər. XIX əsrin ədəbi ənənəsinə uyğun olaraq, Cavid fars dilində də qəzəllər yaratmışdır. Ancaq aydındır ki, onun ana dilində qələmə aldığı qəzəllərini bədii-estetik cəhətdən farsdilli şeirləri ilə heç cür müqayisə etmək olmaz.

Cavidin bir türkcə, iki farsca qəzəli vardır. Türkcə qəzəl:

Məndən ayırdı fələk cəfapişə yarimi,
Tar etdi zülfi-yar kimi ruzigarimi.

beyti ilə başlayır.

Farsca qəzəllərin biri vətən mövzusunda, o biri isə məhəbbət mövzusundadır. H.Cavidin ilk qələm təcrübələrindən biri kimi, Hacı Zeynəlabidin Tağıyevə həsr etdiyi farsca qəsidə də maraq doğurur. Ümumilikdə, Cavidin şeirlərində dərin bir həyat fəlsəfəsi, sağlam bir məntiq, insanın kamalına möhkəm inam özünü göstərməkdədir. Gələcəkdə dramlarında qoyub həll edəcəyi bir çox problemlərin «eskizini» şeirlərində cızır Cavid:

Pək tuhaf!.. Bir firqə digər firqənin

Xaliqindən diksinib olmaz əmin.
Halbuki, hər kəscə haq bir, tanrı bir...
Ya bu sərsəmlik, bu azğınlıq nədir?!

Ancaq poeziyasında Cavid hər şeydən öncə, böyük bir lirikdir, ülvi məhəbbətlə sevən və bəzən məşuquna ərklə şikayətlənən, hətta ondan küsən bir aşiqdir:

Bana anlatma ki, eşq, aləmi-sevda nə imiş,
Bilirim bən səni, get! Hər sözün əfsanə imiş.
Get, gülüm, get, gözəlim! Başqa bir aşiq ara, bul!
Duydum artıq sənin eşqindəki məna nə imiş!..
Bivəfasın, mələk olsan belə uymam daha, get!
Kim ki, uymuş sana, gönlüm kibi divanə imiş.
Yetişir, get! Bəni qəhr eyləmə, tərsa qızı, get!
Anladıq şəfqəti-ayini-məsiha nə imiş...

1912-1918-ci illər H.Cavid yaradıcılığında daha çox dramatik janrın yüksəlişi ilə xarakterizə olunur. «Maral» (1912) əsərinin mövzusu Azərbaycan qadınlarının faciəsini özündə əks etdirir. Özündən xeyli yaşlı olan varlı Turxan bəyə ərə verilən Maral müsəlman qadınının hüquqsuzluğu ilə barışmaq istəmir, öz ürəyinin səsi ilə hərəkət etmək qərarına gəlir. Amma Maralda bu, yalnız arzu şəklindədir və lazım gəldikdə o, kifayət qədər qətiyyət göstərə bilmir. Milli əxlaq normalarının qoyduğu tabular Maralın azadlığa və sərbəstliy2ə doğru gedən yolunu amansızlıqla kəsir, onu fiziki məhvə məhkum edir.

Klassik faciə kimi «Maral»da bir çox nöqsanların olduğunu görürük. Bu əsərdə H.Cavid hələ özünün bütün dramatik ustalığını açmağa və reallaşdırmağa nail olmamışdır. Buna görə də H.Cavidin ilk daha kamil, ülvi bir sevgi dastanı

kimi adətən «Şeyx Sənan» faciəsi nəzərdən keçirilir.

«Şeyx Sənan» (1914) – Hüseyn Cavidin ilk uğurlu faciəsi sayılır. Yazıldığı gündən əsər Azərbaycan teatrlarında müntəzəm olaraq tamaşaya qoyulmuş, şərəfli bir səhnə yolu keçmiş, tamaşaçıların böyük rəğbətini və məhəbbətini qazanmışdır.

Hələ facieni qələmə almazdan öncə yazdığı «Şeyx Sənan» şeirində Cavid öz bədii-estetik qayəsini bu cür ifadə edirdi:

«Nədir mənası eşqin?» Söyləyənlər nerdə, bir gəlsin,
Görüb qüdsiyyəti-Sənanı lal olsun xəcalətdən!..

«Şeyx Sənan»ın yazılmasından xeyli əvvəl poeziyamızda «eşqin mənası» haqqında sənətkar sözünü hələ XII əsrdə Gəncə dahisi Nizami demişdi. «Xosrov və Şirin»də, «Leyli və Məcnun»da Nizami ilahi səviyyəyə qalxan insan məhəbbətinin yaratdığı möcüzələri açıb ortaya qoymuşdusa, Cavid də qəfil bir bəla kimi insan qəlbini çulğayan eşqin möcüzəli dəyişdirici gücünü dramatik bir dillə ifadə etməyə nail olmuşdu.

H.Cavid bu əsərində simvolik obrazlar kimi istifadə etdiyi Şeyx Sənan və Xumarın vasitəsilə dünyəvi məhəbbəti inkar edən din xadimlərini – istər müsəlman, istər xristian olsun – tənqid edir və təbiətin gözəlliyə və ülviliyə çağırışı kimi mənalandırdığı insani eşqin təbliği tərəfində dayanır. Elə buna görədir ki, qadınlardan uzaq qaçmaq fəlsəfəsi ilə yaşayan Şeyx Sənan və monastıra gedərək özünü Allaha ibadətə həsr etmək istəyən Xumar eyni bir bəlaya – məhəbbət bəlasına düçar olurlar.

H.Cavidin ikinci böyük faciəsində – «İblis»də də hadisələr konkret lokal məkanda deyil, daha

çox simvolik bir xronotopda cərəyan edir ki, bu da ümumiyyətlə, H.Cavid sənətinin aparıcı xüsusiyyətlərindən biridir.

Hüseyn Cavidin ümumbəşəri qlobal mövzulardan daha konkret və lokal mövzulara keçidini onun 1917-ci ildə tamamladığı «Şeyda» faciəsində görürük. Əsər fəhlə mövzusuna, bir növ inqilabi və sosialist ide1yaların təbliğinə həsr edilsə də, onun qəhrəmanlarını bu yolda fanatik bolşeviklər obrazında görmürük. Cavid böyük bir sənətkar kimi, daha çox ətrafında görüb müşahidə etdiyi real insanları və faktları qələmə almışdır.

1920-1926-cı illər arasında Hüsyen Cavid «Peyğəmbər» və «Topal Teymur» pyeslərini qələmə almışdır.

Kütləvi və keçici hakim təmayüllərə, reformist və radikal inqilabçı təsirlərə, açıq ideoloji soyqırımına bədii müqavimətin klassik örnəyi olaraq bu dövrdə Cavid yaradıcılığını nəzərdən keçirmək mümkündür. «Peyğəmbər» əsərinin mövzusu və qəhrəmanı tarixdən alınsa da, əsərdəki fəlsəfə və ideal yazıldığı dövrün hadisələri ilə yaxından bağlı idi. «Zamanın qırılmış bağlarını» (Şekspir, «Hamlet») yenidən bağlamaq vəzifəsini Mələk Məhəmmədə həvalə edir. Cavid «düşünüb haqqı bulan arif» insanı peyğəmbər, tanrı səviyyəsinə qaldırır, dünyanı öz məhvərinə qaytarmaq vəzifəsini onun üzərinə qoyur.

«Topal Teymur»un (1922) estetik mahiyyəti və obyektiv-fəlsəfi mahiyyəti çağdaş «cahangircik-lər»ə, cırtdan tiranlara qarşı etiraz və istehza ilə dolu idi. Cavid nifrət etdiyi və lənətlədiyi «qan püskürən, atəş savuran» şahlar və xaqanlar haqqında mədhiyyə yazmazdı və Teymurləng də səh-

nəyə bu məqsədlə gətirilməmişdi. Bəlkə əksinə, Cavid «İblis»də şəri şər dühasının – İblisin dili ilə ifşa etdiyi kimi, «Topal Teymur»da da tiranlığı müharibə tanrısının – Teymurun dili ilə ifşa edirdi. İblis insanın özündə olan yamanlıq və şər deməkdir. Teymur da Cavidi məhz «özünü dərk etmiş tiran» kimi cəlb edirdi. Əsərdə gerçəkləşən və ancaq gerçəkləşdikdən sonra qavranılan mənəvi korluq və topallıq-şikəstlik ən parlaq şəkildə Teymurun Ankara savaşına qərar verdiyi anda özünü göstərir. Faciədə bu qərar bütün İslam, Yaxın və Orta Şərq miyqasında bir günah, «siyasət və rəyasət» bəlası, «qardaq qırğını» olaraq damğalanır. «Qanlar tökülüb, Ankarada qiyamət qopduqdan» (M.Ə.Sabir) sonra Teymurun son sözləri bu savaşdakı qalibiyyəti bir məğlubiyyət olaraq dərk etdiyini göstərir: «Hiç məraq etmə, xaqanım! Sən kor bir abdal, bən də dəli bir topal! Əgər dünyanın zərrə qadar dəyəri olsaydı, yığın-yığın insanlara, ucu-bucağı yoq məmləkətlərə sənin kibi bir kor, bənim kibi bir topal müsəllət olmazdı.»

Hər iki dramda təhlil və təsvir ənənəvi maarifçi-romantik məcrada, tarixi və dini mövzular çərçivəsində, XX yüzil Azərbaycan romantizminə verilən fəlsəfi, estetik son şəklin, ovqatın və bədii ritmin davamı kimi cərəyan edir.

Hüseyn Cavidin yaradıcılığı bir tərəfdən ə Türkiyə-Azərbaycan ədəbi əlaqələrini əks etdirmək baxımından son dərəcə səciyyəvidir. Onun pyeslərinin əksəriyyətində hadisələr Türk-Turan dünyasında cərəyan edir və qəhrəmanlar bu dünyadan seçilmiş igid türk oğul və qızlarıdır. Məhz buna görə böyük Səməd Vurğun ustadı tənqid edərək:

Nədən şeirimizin baş qəhrəmanı
Gah Turandan gəlir, gah da İrandan?

deyə sual verirdi.

1932-ci ilin mayında, böyük İran şairi Əbülqasım Firdövsinin anadan olmasının min illiyi münasibətilə qələmə alınmış «Seyavüş» faciəsi Cavidin yaradıcılıq xorunda kənar səs kimi qəbul edilə bilmir. Təsadüfi deyil ki, əsərə yazdığı epiqraf-qeyddə Cavid bu sözləri işlədir: «Başda həkim Firdevsi olaraq şu vaqiəyi təsvir edənlər az deyil. Müəllif də yorğun duyğularını dinlətmək üzrə şu mevzuya doqundu və «Şahnamə»yə yaqlaşmaq istərkən uzaqlaşmış bulundu.»

Əlbəttə, Cavid bu uzaqlaşmaq sözü ilə onunla Firdövsi arasında keçən min ildə insan psixologiyasının necə dəyişdiyini bildirmək istəmişdi. Bir İran-Turan qarşılaşması yaratmaq istəyən Firdövsidən fərqli olaraq, Cavid bir insan yaxınlaşması səhnəsi təsvir etmək və bu yolda hansı ehtirasların maneə yaratdığını göstərmək istəmişdi.

1923-cü ildən yazılmağa başlanmış və eləcə də başa çatdırılmamış «Azər» poeması Azərbaycan və Avropa lövhələrini, xalqımızın həyatından alınan ayrı-ayrı səhnələri əks etdirir.

Bütün yaradıcılığı boyu xeyirlə şəri qarşılaşdıran və ümumbəşəri xeyirin qələbəsinə öz sənətkar töhfəsini verən Cavid, sənətkar qələminin bu son qu quşunda həm də iki fərqli həyat və dünyagörüşü tərzi kimi Şərqlə Qərbi qarşılaşdırmış, son nəticədə üstünlüyü yenə də insanlığa vermişdir.

Gözlərini müalicə etdirmək üçün Avropaya gedən Cavid bu əsərini canlı müşahidələri və təəssü-

ratları əsasında qələmə almışdır. Əsərdə xüsusən Rusiya qaçqınlarının Avropadakı acınacaqlı həyatı, şərq xalqlarının azadlıq mübarizəsi təbii və səmimi boyalarla verilmişdir.

«Azər» lirik-epik, fəlsəfi bir poemadır. Şair ömrü boyu onu düşündürən problemləri bu orijinal quruluşlu poemada bədii şəkildə təsbit etmişdir. «Azər» əslində, poema ilə mənzum dram arasında keçid mövqeyində duran bir əsərdir. Əsərin bir sıra hissələri lirik, bir sıra hissələri epik poema təsiri bağışlayırsa, bir sıra hissələrində mənzum dram ünsürlərini görməmək mümkün deyildir. Beləliklə, Cavid öz bədii-estetik və ideya amalını ifadə etmək üçün poetik janrın bütün formalarından istifadə edir.

1930-1937-ci illərdə Hüseyn Cavid «Telli saz», «Seyavüş», «Şəhla», «İblisin intiqamı», «Xəyyam» dramlarını qələmə almışdır. Mövzusu bütöv Azərbaycan xalqının Güney və Quzeydəki həyatından götürülmüş «Telli saz» bizə gəlib çatmamış, yalnız onun fabulası qalmışdır. Bu əsərlərdən ən çox uğur qazananı «Seyavüş»dur.

«Seyavüş» faciəsini Cavid böyük İran şairi Firdovsinin 1000 illik yubileyinə bir sənətkar töhfəsi kimi qələmə almışdı. Bu əsərdə artıq tarixi mövzu yeni dövrün ədəbi tələbləri səviyyəsində həll edilirdi. H.Cavid artıq öz ədəbi-estetik aktuallığını yeni dəyərlər işığında ehya etməli olan «Şahnamə» motivlərinə, o sıradan «Səyavuş» dastanına yeni baxımdan yanaşırdı. Cavid tarixdən alınmış bu mövzunu öz ədəbi-mədəni, ictimai-siyasi mühiti üçün yenidən işləməyə, ondan didaktik-psixoloji fayda əldə etməyə çalışır və büna nail olurdu.

Əyalətdən çıxmış bir insan kimi, Cavid bu əsərdə bəzən kəndlə şəhəri qarşı-qarşıya qoyur və üstünlüyü sadəliyi, səmimiliyi, açıqürəkliliyi özündə təmsil edən kəndə verirdi. Beləliklə, Cavidin qəhrəmanı əslində şahzadə, aristokrat deyil, kənd mühitində tərbiyə almış demokratik ziyalılığın nümayəndəsi kimi fəaliyyət göstərirdi və bu demokratizmlə Cavid dövründə hökm sürən totalitarizmin mübarizəsində Seyavüşün faciəvi taleyi çox təbii görünürdü.

H.Cavid yaradıcılığında uzun müddət itmiş sayılan və nəhayət. Şairin övladı turan cavidin Titanik səyləri nəticəsində əldə edilən «Xəyyam» pyesinin xüsusi yeri vardır. «Seyavüş» kimi, «Xəyyam» da müəyyən ədəbi-tarixi münasibətlə – böyük şair və alim Ömər Xəyyamın 1000 illik yubileyi münasibətilə qələmə alınmış bu pyes filosof-sənətkarın cəmiyyətdə çəkdiyi ağrı-acıların təsvirində Cavid üçün doğma bir mövzunu əks etdirirdi.

Cavidin əksər dramları kimi, «Xəyyam»ın da mövzusu «İrandan» gəlirdi. Görkəmli alim, filosof və şair Ömər Xəyyamın bütün mütərəqqi bəşəriyyət tərəfindən keçirilən minillik yubileyinə böyük Şərq şairi Cavid də öz töhfəsini verməli idi. Ancaq təbii ki, Cavid bir türk şairi kimi Xəyyam fenomenini doğuran ictimai-ədəbi mühiti də ön plana çəkməli idi. Firdövsini türk dövlətinin demokratizmi, şeirə-sənət verdiyi yüksək önəm doğurmuşdusa, Xəyyamı da eynilə oxşar mühit – bir türk hökmdarı olan Alp Arslan və onun oğlu Məlikşahın elm, şeir və sənət üçün yaratdığı münbit mühit doğurmuşdu. Cavid bunun vurğulanmasına xüsusi fikir verir və sanki bundan bir türk şairi kimi qürur duyur, türk hökmdarının bə-

şər tarixi qarşısında xidmətini vurğulamaqla öz etnik mənşəyi ilə fəxr edir.

Faciənin əsasında fərd və cəmiyyət qarşıdurmasından daha çox, Mosart və Salyeri sindromu – istedadla cılızlığın qarşılaşması və bu mübarizədə ikinci tərəfin hər cür xəyanətə əl ataraq butaforik qələbə çalması durur. Əslində isə, «Topal Teymur»da olduğu kimi, bu yalançı «qələbədən» uduzan bütün bəşəriyyət olur. Şeyx sənandan sonra Xəyyam Cavid yaradıcılığında yeni monumental aşiq obrazı kimi canlanır. Bütün yaradıcılığı boyu bir aşiq kimi təzahür edən Cavid lirik qəhrəmanı dörddə bir əsrdən sonra xəyyamda yenidən ətəqana dolur, öz şirin və cəlbedici eşqini oxucuya və tamaşaçıya yoluxdura bilir. Böyük dramaturq göstərmək istəyir ki, xeyirlə şər yalnız ictimai münasibətlər sferasında, müharibə və sülh məsələlərində deyil, eyni zamanda şəxsi münasibətlər sferasında da böyük faciələrə səbəb olur, ictimai inkişafa öz mənfi təsirini gösətər bilir, insan ğalelərini sındırmaqla kənar müşahidəçilərdə katarsis doğurur.

Sosialist realizminin «konfliktsizlik» nəzəriyyəsindən xeyli əvvəl qələmə alınmış «Xəyyam» faciəsində Cavid sosialist cəmiyyətində sənətkarın düşdüyü ağır vəziyyəti, qələm azadlığına vurulan dəhşətli zərbəni də incə eyhamlarla ifadə etməyə nail olmuşdur. Əsərdə türk hökmdarı Məlikşaha nə qədər hörmət və məhəbbət ifadə olunsa da, ümumilikdə, sənətkar şəxsiyyətini dar çərçivəyə alan inzibati-amirlik sistemi imperiyanın timsalında dərin tənqidə məruz qalmışdır.

Hüseyn Cavidin örnəksəl həyatı və yaradıcılığının əsas ideya istiqaməti olan romantizmi XX əsr

Azərbaycan ədəbiyyatının mürəkkəb, çoxşaxəli və zəngin gedişində öz səsi və nəfəsi ilə seçilən qanunauyğun və əlamətdar bir hadisə kimi bu gün də öz məna və əhəmiyyətini saxlamaqdadır.

Beşcildlik tərtib olunarkən mərhum Turan Cavidin gözlədiyi əsas prinsip – «imlasına toxunmamalı!» prinsipinin gözlənilməsinin bir təzahürü də yeni orfoqrafiya qaydalarında öz əksini tapmayan apostrof işarəsinin saxlanması olmuşdur. Xüsusən Cavidin şer dilində bu işarənin çox böyük əhəmiyyəti və mövqeyi vardır.

***Gülbəniz Babaxanlı-Kəngərli,***
***Teymur Kərimli,***

# ŞEİRLƏR

# KEÇMİŞ GÜNLƏR

## HÜBUTİ-ADƏM

Diyorlar bir zaman Adəmlə Həvva
Yaşarmış rövzeyi-cənnətdə tənha.
O bir mə'va ki, pək biganəyiz biz,
Bu topraqdan uzaq, qəmsiz, kədərsiz.
O bir mə'va ki, ruhani, münəvvər,
Uçarmış orda zərrinpər mələklər.
O bir mə'va ki, nəşr eylər sərasər
Əməllər, nəş'ələr, güllər, çiçəklər.
Gözəl, asudə bir mə'vayi-sevda;
Geniş, azadə bir səhrayi-xulya.
Xəzansız bir baharistani-cavid,
Ki solmaz orda əsla bərgi-ümmid.
Fərəhdən ağlar insan bəlkə, bilməm!
Bulunmaz orda lakin hüznü matəm.
Əvət, bir öylə xoş mə'vada tənha
Yaşarmış qayğısız Adəmlə Həvva.
Yaşarmış məstü şeyda, şadü xəndan;
Yaşarmış vəqfi-sevda, safü üryan.
Degilmiş süs geyim onlarca adət;
Fəqət geydikləri bir tül ki, iffət.
İki dildadeyi-zevqü şətarət,
Olub vüslətgüzini-bəzmi-ismət;
Gülümsər daimi bir sur içində,
Yaşarkən öylə nuranur içində,
Hücum etmiş də süfli ehtirasat,
Qabarmış adəmiyyət hissi... heyhat!
O ülviyyət, o ülvi sərmədiyyət

Zəbuni-ehtiras olmuş nihayət,
Nihayət, incə bir vəhşi təmayil,
O ülvi eşqi etmiş məhvü zayil.
Birər heykəl kibi məbhutü heyran,
Hicab altında qalmışlar hərasan.
Sararmış bət-bəniz, uçmuş təravət;
Hücum etmiş haman rəngi-səfalət,
O dəm ənvarə müstəğrəq, sərazad;
Gözəl bir qız, səmavi bir pərizad
Gəlib Həq canibindən əldə fərman,
Demiş: Çıq, ey səfalətpərvər insan!
Çıq, ey qafil bəşər! Dəf ol, çəkil, get!
Bu lahuti təfərrücgahı tərk et!
Degil layiq sana gülzari-cənnət...
O süfliyyətlə hissi-adəmiyyət
Bu ülviyyatı hiç eylərmi idrak?
«Çe nesbət xakra ba aləm-e pak!?»*
Düşün, baq nerdəsin, bir kərrə anla!
Bu mə'va öylə bir firdevsi-ə'la
Ki, hər bir levsdən, hər məfsədətdən,
Bütün vəhşətdən ari bir nişimən...
Sən əvvəl xeyrü şərdən bixəbərdin,
Çocuq ruhilə bipərva gəzərdin;
Nə buldun, qürbi-Həqdən böylə sapdın?
Düşün! Naqis bəşər, bir baq nə yapdın!?
Bu gün qüdsiyyətin olmaqda bərhəm;
Yazıq! Aldandın, ey biçarə Adəm!
Təəssüf biəsər... Pək çoq yanıldın,
Nədamət bisəmər... Pək gec ayıldın.
Edər lahutiyan səndən şikayət,
Səninçin burda pək müşkül iqamət.
Çəkil, get! Rəhbərin şəhmari-isyan;
Açılmış onda baq bir qövri-nisyan
Ki, həp müzlim, kədərza, tabfərsa,
Müləvvəs bir cədəlgah: iştə dünya!

---

* Torpaq pak aləmə yaraşarmı? (*red.*)

Degilmişsin hərimi-qüdsə məhrəm;
Eşin Həvvayı al kəndinlə bahəm.
Enib qıl aləmi-nasuti məskən,
Nədir əzvaqi-dünya anla, ögrən!
Əzil, qəhr ol, keçənlər keçdi, heyhat!
Budur Həqdən səninçin son mükafat!
Qoşarsın bir zaman məhkumi-xüsran,
Ararsın gülşəni-lahuti giryan.
Yaşarsın vadiyi-zillətdə mə'yus,
Fəqət dönməz, o günlər geçdi, əfsus!
Cihan durduqca həp nəslin bərabər,
Bu müdhiş zərbədən qurtulmaz, inlər.
Bu qəflət, öylə bir süfli cinayət
Ki, verməz kimsəyə bir ləhzə rahət.
Bu gün əxlaf için səndən əmanət
Qalan yalnız fəlakətdir, fəlakət!..
Əmin ol, nerdə nəfs olmuşsa hakim;
Həqiqi eşqi məhv etmiş məzalim.
Kimin ülviysə ruhu, söz onundur,
Əsiri-nəfs olan daim zəbundur.

## BAKIDA

Balaxanı neft mə'dənlərinə gedərkən M ə s' u d ilə Ş ə f i q ə arasında bir müsahibə
Şəfiqə bir az xəyalpərvərdir, uzaqdan neft buruqlarını görüncə sevinərək Məs'uda göstərir.

Ş ə f i q ə

Uzaq, uzaq, pək uzaq yerdə iştə bir orman!
Nasıl da xoş, nə qədər şairanə sərvistan!
Baq, iştə baq, nədir onlar? Nə söylədinsə yalan...
Gəzib dolaşsa — diyordun — bu şəhri bir insan,
Çiçəkli bir küçücük bağçadan əsər bulmaz.
O sərvlər səni təsdiq içinmi? Ay qurnaz!
Nədir o mənzərə? Bir baq, nasıl da cazibədar
Ki, hər baqışda doğar qəlbə bir süruri-bahar.
O sərvlikdə gəzənlər degilmi həp məs'ud?
Degilmi — Allah için söylə — həpsi vəcdalud?

(*birdən-birə heyrətlə*)

Dəgişdi bət-bənizin, şöylə zəhrxəndinlə
Nə söyləmək diliyorsun? Aman, çabuq söylə!..

M ə s' u d

Nə söyləyim, nə düşündünsə həpsi nəş'əpəzir,
Gözəl, sevimli, fəqət şairanə bir təsvir...

Bu bir həqiqətə bənzər xəyali-müzlimdir
Ki, pişgahi-nigahında şöylə dalğalanır.
«Xəyal içində bəşər daima səadət arar,
Həqiqətin yüzü lakin, gülümsəməz, ağlar».[1]
O sərvlər ki, uzaqdan sana təbəssüm edər,
Bir az da yaqlaşalım: baq, həmən təcəssüm edər:
Önündə bir sürü dəhşətli, sisli abidələr
Ki, daima saçar ətrafa kirli rayihələr.
O sərvlikdə çayırdan, çiçəkdən iz yoqdur,
Görürkən anlıyacaqsın ki, həp bataqlıqdır.
Gözəl, təmiz su bulunmaz, cəhənnəmi bir çöl...
Ki, zift aqar, birikir, hər tərəf olur göl-göl...
Şu «sərvlik» dedigin həp müləvvəs ehramlar,
Çamurlu, isli buruqlardır, öylə mənzərədar.
Yığın-yığın bəşəriyyət o müzlim ormanda
Yaşar, qoşar, çalışır zift içində, hər yanda.
Həyatı güldürəcək bir ümidə bağlanaraq,
İş arqasınca qoşuşmaqda həpsi çırpınaraq.
Bir az da yaqlaşalım, gör zavallı insanlar
Nələr çəkər yaşamaqçın! Nasıl yaşar onlar!
Görüncə tab edəməzsin, acırsın, ağlarsın,
Nədir bəlayi-məişət, duyarsın, anlarsın.

Ş ə f i q ə

Xayır, o levhəyi bən görmək istəməm, dönəlim...

M ə s’ u d

Fəqət niçin əcəba! Söyləməzmisin, gözəlim?

---

[1] «Az, çoq xəyaldan gəlir insanə təsliyət,
Püriğbirardır, yüzü gülməz həqiqətin».
*Əbdülhəq Hamid*

## Ş ə f i q ə

Niçinmi? Göksümü gəl dinlə, sonra halımı bil,
Baq iştə, öylə tamaşaya varmı taqəti-dil?
Birər-birər bana anlatdığın o mənzərədən
Gönüldə hasil olur sadə gizli bir şivən.
Həmən dönüb gedəlim, bəncə fəzlə seyr etmək…
Yazıq!.. Bəlayi-məişət həyatı məhv edəcək.
Ağır dəmirlərin altında həp əzilmək için
Uzaq, fəqət pək uzaq, pək yabancı ölkələrin
Fəqir, zavallı, səfalətkəşidə evladı
Qoşub gəlir iş için, həpsinin bu mö'tadı...
Çoluq-çocuq, ana, həmşirə, qız, nişanlı, gəlin;
Vətəndə həp gözü yollarda müztərib, qəmgin...
Məlali-həsrətə düşgün kədərli ailələr,
Bu gün, yarın diyə həp intizar içində mələr.
Yarınkı gün, kimi mə'yus olub təvərrüm edər;
Sönüb gedər, yaşamaz, cümlə kainata küsər.
Fəqət yaşar kimi, yə'sü ümid içində yaşar,
Soluq həyat ilə aqşam, səhər yanar, sızlar.
O binəvaları yad eylədikcə həp bunlar
Cəfaya, zəhmətə qarşı gökus gərib çabalar.
Bu rəzmgahi-məişətdə yıpranır həpsi,
O zift aqan quyular onların əcəl qapısı...
Səqətlənir çoqu qoldan, qabırğadan, beldən,
Yarım cəsəd, yarım insan qalıb düşər dildən.
İkinci bir yeni zillət təməsxür eyləyərək
Gülər zavallıya, bədbəxt adam nə yapsa gərək...
Xayır, bu halı düşündükcə artıyor kədərim;
O qanlı məzbəhə getməkdən ehtiraz edərim.
O sərvlər nə imiş şimdi anladım, bildim;
Birər məzar daşıdır həp kədərnüma, müzlim.
Uzaqdan öylə gözəlkən, təqərrüb etdikcə
Xəyalı, hissi üzər cangüza bir işgəncə.
Xayır, şu kirli, müləvvəs mühitə bən varamam!
Həmən çabuq dönəlim, hər şey anlaşıldı, tamam.

M ə s’ u d

Fəqət çoq aldanıyorsun, bənim gözəl mələyim,
Düşündügün gözəl, amma yanılma, sevdiciyim.
Bu nəş’əsiz, bu kədərza, bu müzlim aləmdən
Ziyalanır bütün evlər, cihan olur rövşən.
O zift aqan quyular mənbəyi-səadətdir;
Aqıb gedən sular altındır, eyni-sərvətdir.
Baq, iştə həp o buruqlar birər böyük bütdür
Ki, pişgahinə çoq kimsə varmadan bükülür.
Bu şəhr içində görüb duyduğun o hissi-nişat,
Bütün o dəbdəbələr, həp o anlı, şanlı həyat,
Bütün o təntənələr, həp o süslü heykəllər (?!)
Bu sisli, isli buruqlarla iftixar eylər.

Ş ə f i q ə

Əvət!.. O sərvətü saman içində zənginlər
Kədər nə... bilməyərək istirahət etsinlər!
Fəqət zavallı fəqir orta yerdə qəhr olsun,
Zəhərli qazları yutsun da yıpranıb solsun.
Səbəb nə? — səhhətə düşman — o nəmli yerlərdə
Fəqir olan çürüsün!.. Haqqü mə’dələt nerdə?

M ə s’ u d

Bu anlaşılmayacaq bir suali-müşkildir
Ki, həll edilməsi zənnimcə, qeyri-qabildir.
Bu fikrə qarşı nə mazi cavab verdi, nə hal;
Sənin bu fikrini kəşf eylər ancaq istiqbal...

## YADİ-MAZİ

Mazi!.. O gözəl xatireyi-şevqü-şətarət
Hər an oluyor hafizəpirayi-təhəssür.
Ati!.. O qaranlıq gecə, pürteyfi-mərarət
Daim ediyor ruhumu ləbrizi-təəssür.

Hərdəm nəzərim maziyi-pürnəşvəyə nazir,
Cuşiş veriyor gönlümə hala o mənazir.

Hala o mənazir, o üfüqlər, o səmalar!..
Ruhumda oyandırmada bin sübhi-rəbii.
Tə'qib edərək bir-birini leyli-səfalar,
Əyyami-ələm əqlimə gəlməzdi təbii.

Bir ləhzə düşünmək nədir anmazdım o dəmlər,
Yakmakda bu gün ruhumu suzişli ələmlər.

Hər şey bana xəndan görünürdü o zamanlar,
Oqşardı küçük qəlbimi həp tazə çiçəklər.
Pərran idi bir yanda tərəbza kələbəklər,
Guya sevişirlər, öpüşürlərdi həp onlar.

Gülqönçələr eylərdi səhər vəqti təbəssüm,
Bülbüllər isə həpsi yekavaz tərənnüm...

Əflaka baqarkən bəni məftun ediyordu
Parlaq günəşin mənzəreyi-şə'şəədarı.
Aqşam duramaz, qərbə misafir gediyordu

Şərqin o gözəl bakireyi-ləm’ənisarı.

Lakin gecə bir başqa təmaşa buluyordum,
Yıldızlara heyrətlə baqıb şad oluyordum.

Yıldızlara heyrətlə baqar, öylə sanırdım,
Həp tazə gəlinlər gəzinir ruyi-səmada.
Bir heykəli-sevda kibi pürşö’lə sanırdım,
Gördükcə o məhzun qəməri seyrü səfada.

Hər mənzərə binlərcə lətafət saçıyordu,
Guya ki, bədaye’ bana ağuş açıyordu.

Əfsus!.. O gözəl günləri etdikcə təxəttür,
Coşmaqda bu gün duyğularım böylə dəmadəm.
Məhv etmədə şimdi bəni alami-təhəssür;
Hərdəm qara xülyalar olub qəlbimə məhrəm.

Lərzan ediyor ruhumu bin dürlü məzalim,
Əfsus... ki mazi ədəm, ati isə müzlim...

## OTUZ YAŞINDA

Otuz yaşında sararmaq, açılmadan solmaq;
Bu, iştə bir mələyin virdi-şairanəsidir.
Otuz yaşında  gömülmək məzara, məhv olmaq;
Bu, bir şikəstəəməl dilbərin təranəsidir.

Əvət, bu sisli, dəyərsiz həyat için hər kəs,
Nə umsa cümlə hədər, həp birər çocuqca həvəs...

Otuz yaşında!? Fəqət pək tuhaf... nasıl? Nə demək!
Bu sirri bilmək için bir gün eylədim israr,
O nazlı çöhrə şəfəqlər saçıb gülümsəyərək;
Sevimli gözləri ta qarşısında xəndənisar

Olan bir aynaya mə'tuf olub da söylədi: «Baq!
Gülümsəyən şu rəsim yoqmu? Sevdiyim ancaq

Şu levhədən, şu gözəl çöhrədən ibarətdir,
Bən istərim o təravətlə daimi yaşamaq...
O, yirmi bir sənəlik qönçeyi-lətafətdir
Ki, həp təravəti-hüsniylə zevqyab olaraq

Həyatə qarşı gülər gözlərində istiğna,
Nasıl da bənziyor - insaf için - o çöhrə bana...

Əvət, şəbabımı təsvir edən o kölgə için,
Pərəstiş eyliyərək bən həyatı sevmədəyim.
Duyunca bir ufacıq inhitat o çöhrə için

İçimdə hiss edərim sanki bir əzabi-əlim.

Şəbabü hüsnlə az-çoq həyata imrənilir;
Şəbabi-afəl için həfreyi-məzar iyidir.

Bütün qadınlığı təsmim edən, əzib bitirən,
Çoluq-çocuqlu, müşəvvəş həyat için daim.
Bir iştika duyulur ruhi-lərzədarimdən,
Sürəkli ömrə onunçin tənəffür etmədəyim.

Bən istəməm ki, şəbab ömr için sürüklənsin:
Bu fikrə bir deyəcək varmı? Söylə, Allah için!»

— Xayır, gözəl mələk! İnsaf için düşündüyünüz
Bir az xəyala, bir az şe'rə bənziyorsa da... siz
Əmin olun ki, pək aldanmıyorsunuz: yalınız
Bu tatlı fikri yaşatmaq qolay deyil, biliniz!

Bu gün, yarın dəyişir ruhunuz, təbiətiniz,
O yolda başqalaşır zevqi-şairiyyətiniz.

Bu gün sıqıntılı zənn etdiyin sürəkli həyat,
Həyati-ailə bilsən yarın nasıl sevilir?
Çoluq-çocuq sana ithaf edər də xoş nəğəmat,
O dəm gözündə cihan pərdə-pərdə cilvələnir.

İnan, o türrəyi-şəbrəngin olsa bərfalud,
Həyata sən yenə məftun olursun... olma ənud!

## GECƏYDİ...

Gecəydi... Hər yeri sarmışdı bir sükuti-həzin,
Donuq ziyalı fənərlər baqardı həp qəmgin.
Yavaş-yavaş gediyordum yolumla pürfikrət,
Önümdə ərzi-vücud etdi bir soluq surət.
O, bir cavan idi, küskün baqışlı, həm yorğun;
Vücudi xəstə, mükəddər, həyatı pək durğun...
Kəsik nəfəslə yürür, söylənir də, inlərdi,
O bir xəyali-bəid arqasınca titrərdi.
Nədənsə cəzb ediyordu o hər adımda bəni,
Həmən məraq ilə tə'qibə başladım izini.
Onunla, iştə onun kölgəsilə pək məhzun
Yürür, gedər, düşünürdüm; göründü bir balkun
Ki, süslü pencərəsi, şıq, ipəkli pərdələri
Nasılsa eylədi dilxun zavallı dərbədəri.
Dayandı qarşıda, həsrətlə əşkbar olaraq,
Həzin-həzin baqınıb söylüyordu sızlayaraq:

«Sən, ey sevimli mələk! Ah... zalım, ey zalım!
Sən ey nədimeyi-ruhum, ümidi-iqbalım!
Sən, iştə həp sən idin cilvəgahi-amalım,
Keçərdi günlərim əvvəl səninlə şatirü şən.

Nə oldu? Söylə, niçin böylə bivəfa çıqdın?
Şikəstə gönlümü bilməm niçin yaqıb-yıqdın?
Niçin ümidimi məhv eylədin? Nədən bıqdın?
Nədən atıb bəni, əğyara həmdəm oldun sən?!
Bən eşqə uymaz, inanmazdım, ey pəriyi-səhər!

O hissi bəndə fəqət sən yaratdın... ey dilbər!
Hüzuri-qəlbimi aldın da, ömrüm oldu hədər,
Tutuldum iştə o dami-bəlaya qafil ikən...

Bənimlə hər gecə həmbəzm olub gülümsər idin,
Məhəbbət olmasa aləm xarab olur der idin.
Dodaq-dodaqda öpüşdükcə xeyli söz verdin,
Nə oldu, yüz çevirib, qaçdın aqibət bəndən?

Fəqət bahari-şəbabımda bir çiçək buldum,
Qaçırdım əldən, onun həsrətilə məhv oldum.
O sənsin, ah... sən! Uğrunda baq nasıl soldum?
Səninlə söndü həyatım, yanıb kül oldum bən.

Gəl, iştə qəlbimi gəl yar, çıqar məhəbbətini!
Gözəl mələk! Bəni gəl qurtar, al əmanətini!
Yetər, yetər!.. Çəkəməm qeyri bari-firqətini,
Qapında kəndim için qazmaq istərim mədfən.»

Zavallı gəncin o titrək püriştika səsini,
Sükuti-leyli yaran nəş'əsiz təranəsini
Kim anlar, ah... ona kim e'tina edər? Heyhat!..
O aşiyana girən şey fəqət süruri-nişat...
O infialı, o suzişli halı kim dinlər?
Verir cavab ona ancaq sitəmli qəhqəhələr.
Qopub gələn o şətarətli səs bir istiğna
Ki, daima onu yaqmaqla həzz alır guya...
O sərsəri, o səfil... onca fəzlədir yaşamaq,
Yaşarsa, həp yanaraq yə's içində məhv olacaq.
Sönük vücudu saçar hər dəm atəşin fəryad,
Fəqət nə çarə! Əsərsiz bütün bu istimdad...

Nihayət, oldu rəhakari-iztirabı onun
Əlində patlayan atəşli bir cılız qurşun.

Ayaqda durmaq için onda yoqdu tabü təvan;

Sərildi yerlərə, lakin püriztirabü fəğan.
Diyordu: «Yoq daha səbrim, gecikmə, gəl, mələyim!
Gəl, iştə, getməliyim; əlvida!.. Gözəl mələyim!..»

## BİR RƏSM QARŞISINDA

Həzin bir çöhrə, bayğın bir nəzər, suzişli bir mənzər,
Geniş bir cəbhə, ülvi bir zəka, düşküncə bir sima.
Əvət, düşküncə bir sima; fəqət pək nazlı, pək dilbər...
Bənim ən sevdiyim bir levhə, bir təsviri-pürmə’na.

O dalğın gözlərə baqdıqca ruhum eylər iste’la,
O gözlər hər baqışda fikrə yüz bin rəmz edər ima.

O lahuti baqışlar pək dərin, pək heyrətəfzadır,
Nə hikmətlər arar bilməm ki, əlvahi-təbiətdən?
O solğun çöhrədə bir nuri-səfvət var ki, pək nadir...
O, bəncə, mürtəsəm bir levhədir rəngi-həqiqətdən.

Məhəbbət, ya səmimiyyət təcəssüm etsə aləmdə,
Təcəlli eylər ancaq böylə bir ruhi-mücəssəmdə.

Nə küskün bir nəzər, ya Rəb? Nə mə’sumanə
bir surət!
Nə düşkün bir sehir, ya Rəb? Nə məzlumanə
bir fitrət!
Gülərmi, bilməm ağlarmı? Bütün iczimlə heyranım,
Fəqət bir nazənin sima ki, təqdisə şitabanım.

Silinməz levhi-qəlbimdən o nəqşi-nazənin,
ölsəm;
Ona ruhumla, vicdanımla məftunim. Niçin?
Bilməm!

## ELMİ-BƏŞƏR

*«Bir məktub münasibətilə»*
*Bəradərimə:*

«Kəsbi-irfan için, fəzilət için
Çalış, uğraş!» diyorsun... İştə bənim
Ən böyük, ən sevimli amalım,
Qayeyi-məqsədim budur. Lakin,
Nə için gizləmək gərək, yetişir...
Nə qədər pürümidü biaram
Gecə-gündüz çalışsam, uğraşsam,
Yenə ən son nəticə hiçlikdir.
«Aramaq, bulmaq, ictihad etmək,
Arif olmaq...» diyordun, iştə bu bir
Ruhpərvər, sevimli xülyadır
Ki, inanmaq əbəs... nasıl, nə demək.
İstərim anlıyormusun? Məsəla:
Şimdi yerdən səmaya doğru dərin,
Pək dərin bir fəza təsəvvür edin,
Yüksəlib bir bəyaz qanatlı hüma
Tizpərvaz bir firiştə kibi —
Şöylə dalsın onun dərinliyinə;
Nə olur? Şübhə yoq ki, şəhpərinə
Bir rəxavət olur da müstevli;
Yorulur, sonra çırpınır, bayılır,
Sönər əvvəlki e’tila həvəsi;
Uçamaz artıq, iştə son nəfəsi...
Qafil insan da həp o fikrə əsir.

Bəşəriyyət zavallı, pək mə'sum...
Daima bir səraba aldanaraq,
Qoşuyor, sanki bir dəniz bulacaq,
«Bilmək, öyrənmək» öylə bir uçurum
    Ki, onun intihası yoq, dibi yoq...
    «Bilirim» söyləyən də var pək çoq.
Nəmə lazım... o bir xəyalətdir.
«Elmü irfan» nədir, bən anlamadım,
Çünki həp cəhlə doğrudur hər adım.
«Bəşəriyyət kamalı buldu» denir...
    İştə bürhan! «Bu gün də bir qanun
    Kəşf olunmuş...» fəqət bitərmi zünun?!
Bir həqiqət bu gün müsəlləm ikən,
Onu mütləq yarınkı hikmətlər
Zəhrxəndilə örsələr, zədələr,
İki gün sonra eyni hikmətdən
    Daha çoq şübhələr, tərəddüdlər
    Duyar insan, bu iştə elmi-bəşər!..

## QADIN!

Qadın! Ey sevgili həmşirə, oyan!
Ana! Ey nazlı qadın, qalq! Uyuyan
Daima mevtlə həmduş oluyor,
Zillü mehnətlə həmağuş oluyor,
İştə sıyrılmada həp zülmətlər!..
Ağarır dan yeri, qalq, iştə səhər!..
Oyan, ətrafını seyr et də, düşün!
Bütün evladi-vətən iştə bu gün
Yalınız səndən umar sədrə şəfa,
Yalınız səndə bulur ruha qida.
Ana evladını bəslər, böyütür,
Anasız millət, əvət, öksüzdür.
Sənin aləmdə vəzifən, hissən
Nə böyük, həm nə ağırdır, bilsən?!

Qadın! Ey sevgili, şəfqətli mələk!
Bu qədər səbrü təhəmmül nə demək?
O lətafət, o nəcabətlə sana
Bu əsarət, bu həqarət nə rəva!?
Sən nəsin?.. Kəndini bil, zə'fi bıraq!
Həp nəsibinmi sənin sillə, dayaq?
Çəkmə ah öylə mükəddər, məhzun,
Ağla, göz yaşların aqsın, coşsun!
Ağla, fəryadını duysun ərlər,
Bəlkə insafa gəlib rəhm edələr.
Ağla, çırpın! O lətif, incə səsin
Çınlasın, mevclənib yüksəlsin.

O səsin qüvvəti, tə'siri böyük...
Ağla, ta lərzəyə gəlsin yer, gök.

Baq, baq insan nə qədər aldanıyor?
Xayır, əsla bəni sən dinləmə, dur!
«Ağla, həp ağla!» dedim, pək yanılış.
Ağlamaqdan nə çıqar sanki? Çalış!
Oluyor iştə hüququn pamal,
Çalış, öyrən, ara, bul, haqqını al!
Pərdeyi-zülmət içindən sıyırıl!
Qəhrəmanlar kibi qavğaya atıl!
Fəzlü irfanla mücəhhəz olaraq
Cəhli yıq, qəfləti yaq, iczi bıraq!
Kimsədən gözləmə yardım əsla;
Yalınız kəndinə kəndin ağla!

## KÜÇÜK SƏRSƏRİ

Uyuyor... caməxabı toz, topraq;
Nə bir ümmidi var, nə kimsəsi var.
O bir öksüz, o bir soluq yapraq;
Nə də məhzün göküs keçirməsi var!?

Ona yoldan geçənlərin yürəgi
Daş kəsilmiş də yasdıq olmuşdur.
Yoq onun şimdi kimsədən diləgi;
Uyuyor... binəva yorulmuşdur.

Günəşin qızğın, odlu zərbəsinə
Hədəf olmuş vücudu; həm də əlil...
Bir küçük qulbə yoq ki, kölgəsinə
İltica eyləsin zavallı səfil!

Zülmü fisqin, cinayətin yolunu,
Sədd için həbsxanalar yapılır.
Şimdi mə’sum ikən, səfalət onu
Mücrim e’lan edər, yarın asılır.

Haqqa varmaq, pərəstiş etmək için
Yücəlir bir tərəfdə mə’bədlər.
Daş, çamur, haq rizası namümkün...
Aldanır, aldanır zavallı bəşər.

# ÖKSÜZ ƏNVƏR

Doquz yaşında zəki, uslu bir çocuq: Ənvər...
Sınıfda tam iki yıldır, birincilikdə onun
Şərəfli bir adı var; daima müəllimlər
Sevərdilər onu. Lakin o şimdi pək yorğun.

O şimdi pək mütəfəkkir... cihanda iştə onun
Həyatı, nəş’əsi, ümmidi tək bir annəsi var.
Fəqət o, bəlkə üç ay var ki, xəstə, giryənümun
Nəzərlərilə üzər binəvayı leylü nahar.

Zavallı annəsi söndükcə yavrucuq yanıyor,
Yanıb da qavruluyor; ən böyük düşüncələri
Yarınkı matəmi güldürmək üzrə aldanıyor,
Fəqət qadın ərimiş, onda yoq həyat əsəri.

Çocuq davam ediyor dərsə hər sabah; lakin
Nə söylüyorsa müəllim, o bir şey anlamıyor.
Dalıb, dalıb gediyor, dərs için, vəzifə için,
Toqat yiyorsa da biçarə susmuş, ağlamıyor.

Səkiz gün oldu ki, artıq xəbər yoq Ənvərdən,
O şimdi dərsə davam etmiyor, qadıncığazın
Qoşar məzarına, öksüzcə ağlar, inlərkən
Gəlincə xatirə mazi, düşüb qalır bayğın.

Sorar sınıfda müəllim o kimsəsiz çocuğu,

Qızar da söylənərək hər gün arqasınca onun:
«Aman, nasıl yaramaz! Baq, bu həftə keçdi
dəxi
Nə bir xəbər, nə bir iz var? Demək o bir
çapqın...»

Yarınkı gün o soluq çöhrə pürməlalü təəb,
Sınıfda ərzi-vücud etdi. Dərsə başlanaraq
Müəllim əkşi, çatıq yüzlə püritabü qəzəb,
Görüncə Ənvəri, qaldırdı:
— Ey! Çocuq, bana baq!
Sən, iştə hanki cəhənnəmdə, söylə, nerdə idin?
Düşünmə, söylə!
— Əfəndim, şey...
— Ah, dəni, yaramaz!
Nasıl da baq dalıyor, sanki tilkidir qurnaz!..
Çocuqcığazda cavab: iştə bir sükuti-həzin...

Gözündə dalğalanır incə bir bahar buludu,
O həp baqıb duruyor, yoqdur onda hiylə
və suç...
Sükuta qarşı müəllim qəzəblə bir, iki, üç
Toqatlayınca, çocuq bircə kərrə hıçqırdı:

«Aman, vay, annəciyim!..», sonra qəşş olub getdi;
Bu səs sınıfda olan cümlə qəlbi titrətdi.

# İLK BAHAR

*Küçük bir məktəbliyə*

Bahar, bahar gəlmiş, yenə ilk bahar;
Güllər, çiçəklər gülər, quşlar oynar.
Göyün altın saçlı qızı nur saçar,
İnsanların tutqun gönlünü açar.
Dağlar, çəmənlər geyinir al, yaşıl;
Yerlər, göylər parıldar ışıl-ışıl.
Bülbüllər ötüşür, cəh-cəh vururlar,
Güllüklərdə düyün, dərnək qururlar.
Sevgili bir çoban, on bir yaşında,
Düdük çalar aqar sular başında.
Ətrafında qoyun, quzu hoplaşır,
Oynar, mələr, qoşar yenə toplaşır.
Bir yanda bir dul qadın ağır-ağır
Xəstə yavrusunu öpüb oynadır.
Bir yanda məktəbli bir çoq qız, oğlan
Oynaşıb oquşur həp bir ağızdan.
Əl-ələ, qol-qola şadan olurlar,
Haqqın qüdrətinə heyran olurlar.

## QIZ MƏKTƏBİNDƏ

— Quzum, yavrum! Adın nədir?
                    — Gülbahar.
— Pəki, sənin anan, baban varmı?
                    — Var.
— Nasıl, zənginmidir baban?
                    — Əvət, zəngin, bəyzadə...
— Öylə isə, geydiyin geyim niçin böylə sadə?
Yoqmu sənin incilərin, altın biləziklərin?
Söylə, yavrum! Hiç sıqılma...
                    — Var əfəndim, var... lakin
Müəlliməm hər gün söylər, onların yoq qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
— Pək doğru söz... Bu dünyada sənin ən çoq sevdiyin
Kimdir, quzum, söylərmisin?
                    — Ən çoq sevdiyim ilkin
O Allah ki, yeri-göyü, insanları xəlq eylər.
— Sonra kimlər?
                    — Sonra onun göndərdiyi elçilər.
— Başqa sevdiklərin nasıl, yoqmu?
                    — Var...
                    — Kimdir onlar?
— Anam, babam, müəlliməm, bir də bütün insanlar...

## ÇİÇƏK SEVGİSİ

*Ədibi-möhtərəm Əlibəy Hüseynzadəyə*

Sevimli, nəş'əli; dört-beş yaşında bir sarışın,
Mələk baqışlı, gözəl bir qız iştə oynayaraq
Qoşardı bağçada... bir şey görüb də etdi məraq:
— Əfəndim, annəciyim! Şöylə saçdığın nə?
                                        — Saqın,
Quzum, ayaqlama! Bunlar çiçək toxumlarıdır.
Səninçin iştə bir az sonra pəmbə, mavi, sarı
Gözəl çiçəklər açar həpsi; anladınmı?
                                        — Xayır,
Xayır, bən onları sevməm; bənimki pək ayrı,
Şu yanda, baq şu küçük yerdə ayrı olmalıdır.
— Pəki, mələk çocuğum, hər toxumdan al da bir az,
Bəyəndiyin yerə saç... Kəndin iştə qönçeyi-naz!..
Çocuqcığaz gülərək həp birər-birər ayırır;
        — Bu pək gözəl, bu nasıl? — der, saçardı
                                                        həpsindən,
        O, şimdi bir kələbək... hopluyor sevincindən.

Şu vəq’ədən azacıq bir zaman keçib getdi...
Gülümsəməkdə ikən şəms, o nevərusi-bahar,
Təbəssüm etməyə yüz tutdu büsbütün əzhar,
Sarıb da bağçayı həp rəngə, nura qərq etdi.
Fəqət o nazlı mələk nerdə?!
Şimdi yapyalınız,
Dərin bir uyquya dalmış məzar içində o qız!

# BAHAR
# ŞƏBNƏMLƏRİ

## HƏRB VƏ FƏLAKƏT

*Anadolu hərbzədələrinə yardım münasibətilə*

Uçar, uçar, yenə ruhum diyari-hüznə qoşar,
Uzaq, uzaq, pək uzaq bir mühit içində yaşar.
Soğuq, soğuq!.. Gecə keçmiş, bütün cihan susmuş,
Uzaqda inliyor ancaq zavallı bir bayquş.
Gözümdən uyqu çəkilmiş də çarpıyor qəlbim,
Nədənsə bilmiyorum, ah! Xeyli müztəribim.
Önümdə dalğalanır teyflər, qızıl qanlar,
Başımda patlıyor atəşli, sisli vulkanlar.
Təcəssüm etmədə qarşımda bir cihani-ələm,
Dönüb də tərsinə guya yanar bütün aləm.
Yığın-yığın bəşəriyyət ölümlə pəncələşir,
Fədayi-nəfs edərək haq için qoşar, güləşir.
Yakar, yıkar, əzilir, məhv olur, basar, basılır,
Vətən yolunda ölür, öldürür, asar, asılır.
O top, tüfək, o qılıclar, zəhərli qumbaralar
Nə istər, ah, niçin böylə gürləyib parlar!?
Nədir şu qəhrü fəlakət? Nədir bu qəhtü qəla?
Nədir şu kinü ədavət, nədir bu dərdü bəla?
Aman, nə mənzərə! Duyduqca sarsılır vicdan.
Nə dəhşət, ah!.. Düşündükcə çıldırır insan.
Təməddünün sonu vəhşətmidir, nədir əcəba?..
Xayır, xayır... nə diyor baq ricali-bəzmara;
Siyasət ərləri gür-gür gürüldüyor hər an,
Böyük səadət umar həp şu qanlı fırtınadan.
Bütün şu vəlvələ onlarca bir bəşarətdir.

Yarınkı bayramı təbrik için işarətdir.
“Böyük, küçük, qara, ağ, həp xristiyan, islam,
Şəhərli, köylü, maarifpərəst, cahili-tam.
Bütün bəşər nə hüquq istiyorsa, həp alacaq;
Qəvi zəif ilə bir yerdə kamran olacaq... ”
Deмək ki, qalmayacaq zülmdən cihanda nişan...
Aman, nə tatlı bir əfsanə, həm nə süslü yalan!
Əvət, bu nəş’əli, həm şairanə bir xülya,
Xəyala, hissə pək uyğun, sevimli bir rö’ya...
Bu tatlı hiss ilə həp ənbiya, bütün ürəfa,
Fününü fəlsəfədən zevq alan böyük üdəba,
Zəif için didinib, çırpınıb yorulmuşlar,
Fəqət nəticədə həp əski halı bulmuşlar.
Qucaq-qucaq edilən tatlı və’dlər pək çoq;
Saqın inanma! Yalan... Yoq, zəif için haq yoq!..
İnanma! Aciz için yoq hüquq, inanma, xayır,
Cihanda haq da, həqiqət də həpsi qüvvətdir.

* * *

Bir zamanlar şərəfli Turanın,
O cihani ğəyuri qavğanın
Qəhrəman, bərgüzidə evladı,
Türklərin anlı-şanlı əcdadı
Saldırıb titrətirdi yer yüzünü,
Hökm edər, dinlətirdi hər sözünü.
Nə zaman kişnəsəydi türkün atı,
Qırılırdı bir ölkənin qanatı.
Həp krallar, prenslər, xanlar,
Ulu şahlar, kibirli xaqanlar[1],
Papalar, həp xəlifələr hər gün
Diz çökərlərdi türkə qarşı bütün.
Çünki parlardı ərlərin qılıcı,
Həpsi qartal kibiydi saldırıcı.
Həpsi bir zevq alırdı qüvvətdən,

[1] Çin hökmdarları.

Ululuqdan, müzəffəriyyətdən.
Bunu gördükdə qomşu devlətlər,
Məmləkətlər, zavallı millətlər
Həp boyun bükdü, türkə yalvardı,
Mərhəmət gördü... canı qurtardı.
Sonra lakin bu mərhəmət, bu aman,
İştə tarix!.. Türkə verdi ziyan.
Qavrulub əski sızlayan yaralar,
Fışqırıb durdu odlu qumbaralar.
Mərhəmətkarı mərhəmətlə deyil,
Qəhrü şiddətlə qıldılar tənkil.
Böylə dəhşətli, qanlı mənzərələr,
Hər zaman eyləməkdə cəlbi-nəzər.
İştə bir levhə! [1] Görmək istərsən,
Baq da gör!.. Ah bir baqıb görsən?!
O şəhamətli türkün evladı
Şimdi topraq yiyor da, fəryadı
Çıqmış əflaka, həp yanar, sızlar.
İştə baq! Yavrular, xanım qızlar
Titriyor pənceyi-fəlakətdə,
Həp ölüm qarşısında, zillətdə...
Həpsi avarə, həpsi ac-çıplaq,
Həpsi biçarə... Baq, gözündən iraq?!
Həpsi qan ağlıyor da zarü zəbun,
Həpsi məhzun, şikəstəpər, dilxun…
Həpsi qardaşca bir nigah arıyor,
Bir kömək, bir pənahgah arıyor.
Dinləyən kim... fəqət o fəryadı?
Avutan kim... o qəlbi-naşadı!?
Nə fəlakət bu, həm nasıl müdhiş!?
Ah, ölüm ən böyük səadət imiş...

* * *

Arqadaş, yoldaş! Ey vətəndaş, oyan!

---

[1] Anadolu hərbzədələrindən kinayə

Yatma artıq, yetər... Dəyişdi zaman;
Sıyrılır, baq, yavaş-yavaş zülmət,
Barı dan yıldızından al ibrət!
Nə diyor, baq, o pəmbə çöhrəli nur?
Səhər olmuş, demək, günəş doğuyor.
Azacıq varsa hissü vicdanın,
Qalq, oyan! Sönməmişsə imanın,
Qalq, oyan! Gör nə fikrə xadimsin?
Kimlərin oğlusun? Nəsin? Kimsin?
Sürünüb durma böylə, bir yüksəl!
Bir düşün, gör beş-altı əsr əvvəl
Nə idin? Şimdi nerdəsin? Bu nə yə’s?
Əcəba yoqmu səndə izzəti-nəfs?
Bir qədər sərxoş oldun, iştə yetər,
Diksinib bir ayıl da gör nə xəbər!?
Adəm evladı qol-qanat açaraq,
Çarpışır yerdə, göydə od saçaraq.
Yetişir, haydı zə’fi, əczi bıraq!
Qan, alev püskürən mühitinə baq!
Baq da bir an təsəvvür et yarını,
Daha sür’ətlə at adımlarını!
Kim baqıb dursa bil ki, qeyb edəcək,
Ayaq altında məhv olub gedəcək...
Sürüsündən kənar olan qoyunu
Canavar parçalar, görüb də bunu
Dona qalmaqda varmı bir mə’na?
Bunca zillət yetişmiyormu sana!?
Çoq əzildin, yetər, ər oğlu ər ol!
Çırpınıb careyi-xilas ara, bul!
Qoşaraq nura, cəhli et pamal!
Həp sənindir şərəf, ümid, iqbal.
Şaşırıb durma böylə... Bir aydın
İdeal arqasınca qoş, çırpın!
İdealsız nicat ümidi məhal...
“İttihad!” İştə ən böyük ideal!
Səni qurtarsa, qurtarır birlik,

Çünki birlikdədir fəqət dirlik!..

*Kanuni-əvvəl 1916*

## DƏNİZ TAMAŞASI

Günəş qürub ediyor; göy... mühitimiz gömgöy...
Göz işlədikcə gönül uçmaq üzrə çırpınıyor,
Günəş qürub ediyor; göy... fəza, dəniz gömgöy...
Uzaqda, yalnız üfüqlərdə var bir aləmi-nur.
        Bütün gözəlliyi həp sanki toplamış Yaradan,
        Dənizdə xəlqə nişan verməк istiyor əl’an.
Uzaqda bağçalar, əlvan çadırlar, ormanlar,
Alevlənib də parıldar, gümüş sular çağlar.
Mələklər əl-ələ vermiş uçar, qaçar, oynar;
Mənəkşə, pəmbə çiçək püskürür yanardağlar.
        Qüruba qarşı dəniz səhneyi-lətafət olur,
        Qüruba qarşı dəniz başqa bir qiyamət olur.
Çocuqkən, iştə gözəl xatirimdədir, gecələr
Öyüb də cənnəti təsvir edərdilər... daim
Maraqlanır, düşünürdüm: nədir şu bilməcələr?
Yalanmı? Doğrumu - derkən yanardı idrakım.
        Fəqət bu gün şu üfüqlərdə parlayan əlvan,
        İnan, - diyor bana, - cənnətdən etmə şübhə, inan!
Günəş dalıb gediyor, köşkü andıran gəmimiz
Uçar, uçar, qoca qartal qanatlarilə uçar.
Dərin-dərin düşünürkən sönük baqışlı dəniz
Onun sükutunu yırtar da, bir gürültü saçar.
        Günəş sönüb gediyor, ay həzin-həzin doğuyor,
        Hava sərinliyor, əsmərcə zərrələr yağıyor.
Fəza, dəniz, bütün ətraf kölgə, həp kölgə...
Köpük saçan gəminin ta ucunda bən tənha,

Qoyulmuşum köpürən xızlı nəhri dinləməyə
Ki, çağlayıb geri aqdıqca sarsılır dərya.
Balıqlar oynaşaraq həp inadü hiddətlə
Hücum edər, atılır arqamızca şiddətlə.
Gönül çocuq kibi seyr eylədikcə əylənərək,
Şu tərs aqıntıyı keçmiş həyata bənzətiyor.
Baqıb-baqıb düşünürkən, dəniz çiçəklənərək,
Dağıtdı fikrimi nagah bir şəlaleyi-nur.
O, iştə özlədiyim, sevdiyim gözəl mehtab...
Ki hər dəqiqə edər ruha gizli-gizli xitab.
Qucaq-qucaq əritilmiş gümüş dənizdə aqar;
Aqar da dalğalanır, cəzb edərdi hər nəzəri.
Gönül bu levhəyi duyduqca yüksəlir, qalqar,
Uçardı göylərə, təqdis edərdi həp qəməri.
Fəqət qəmərlə bərabər işıqlı yıldızlar,
Parıldaşır, aqışır, titrəşirdi xəndənisar...
Əvət, əngin fəzada ruh uçaraq,
Kəşf edər sanki bir yığın mə'na.
Kəhkəşan sütlü nəhri andıraraq,
Əzəli bir kitab oqurdu bana.
Göy, dəniz iştə bir-birindən uzaq,
Eyliyor ayrı-ayrı cəlbi-məraq.
Göydə bir bitməyən dərinlik var
Ki, donar hər düşüncə heyrətdən.
Uça bilsəydi bəlkə insanlar,
Bir şey anlardı bəlkə qüdrətdən.
Bu dərinlik, bu ölçüsüz boşluq
Veriyor hissə, fikrə sərxoşluq.
Bu dərinlikdə bir həqiqət var,
Gizlidir gərçi kor beyinlər için;
Lakin ülviyyətilə həp parlar,
Bəllidir görmək istəyənlər için.
Hər təfəkkür ki, istiyor cövlan,
İştə bir bitməyən geniş meydan!
Bu tamaşaya qarşı bir müddət
Qapılıb getdi ruhi-müztəribim.

Arıyorkən fəzada bir qüvvət,
Çarpınıb durdu nagəhan qəlbim.
        Dəli, sərsəm düşüncələr coşaraq,
        Göydə uçmaq dilərdi həp qoşaraq.
Azacıq keçməmişdi... bir tufan
Qoparaq, çıldırıb qudurdu dəniz.
Baqdım oynar da sallanır hər an,
Bir beşikdən seçilmiyor gəmimiz.
        Fırlamış bir gürültü ortalığa,
        Dalğa, həp dalğa, hər tərəf dalğa...
Yuca dağlar qədər, əvət, qocaman
Dalğalar gürləyib gəlir hər an.
Gəmi sərsəmləyib şu fırtınadan,
Bağırır, sanki istiyor da aman.
        Yüksəlir, yüksəlirdi ərşə qədər,
        Alçalır, alçalırdı fərşə qədər.
Vardı hər gözdə bir təlaş əsəri,
Qorqu çökmüşdü hər kəsin yüzünə.
Öndə bir möhtəriz baqışlı pəri
Düşünürkən, baqıb ala gözünə,
        Gördüm atəşli bir əməl saqlar,
        Ta uzaqlarda bir təsəlli arar.
Bu həzin levhədən nədənsə bənim
Sarsılıb ruhum inlər, ağlardı.
Bora şiddətlə hayqırır daim,
Göy gürüldər, dəniz də çağlardı.
        Yalvarıb haqqa dinli ya dinsiz,
        "Allah, allah!" səsilə doldu dəniz.
Bu keşakeşdə möhtəşəm, məğrur,
Qoca, səksən yaşında bir sima,
Ulu bir dağ mətanətilə vəqur
Qoca bir türk edib namazı əda;
        Vird oqur, haqqa eylər ərzi-niyaz,
        Bəlkə dağ sarsılır, o sarsılmaz.
Onca tə'siri yoq şu tufanın,
Parlıyor qəhrəmanca nasiyəsi;

Oqunur çöhrəsində Turanın
Şanlı tarixi, keçmiş ən'ənəsi;
    Öylə daim mühib, ağır, düşkün
    Baqınırkən əzər mühiti bütün.
Göydən ayrılmayan alevli gözü
Saçar ətrafa şö'leyi-iman.
Budur ancaq duası, virdi, sözü:
"Ey böyük Tanrı! Ey böyük Yaradan!
    Hər bəladfn əsirgə yurdumuzu,
    Kamran eylə şanlı ordumuzu..."

*Qara dəniz, 1912*

## ŞEYX SƏN'AN

*Türbəsi önündə*

Oyan, ey piri-xoşdil! Qalq, ayıl bir xabi-rahətdən!
Qiyamətdir, qiyamət!.. Qalq, oyan, zevq al bu fürsətdən.

Mələklər göydən enmiş, feyz alırlar xaki-pakindən,
Seçilməz şimdi əsla məqbərin gülzari-cənnətdən.

Donanmış hər tərəf pürşö'lə yıldızlarla... caizdir
Ki, Tiflis ərşi-pürəxtərlə dəm vursun rəqabətdən.

Ayıl, ey şeyxi-vəcdavər! Ayıl, baq gör nə aləmdir?
Cihan sərməst olub rəqs eyliyor şevqü-şətarətdən.

Uyub sən bir mələksimayf satdın dini, imanı,
Atıb ehkami-Qur'anı, uzaqlaşdın təriqətdən.

Fəqət xoş bir təriqət qoydun, əsla məhv olub getməz,
Cihan durduqca parlar, yüksəlir, düşməz təravətdən.

Ziyarətgahını gülbusələr təzyin edər hər an,
Sən əhli-eşq için bir Kə'bə yapdırdın məhəbbətdən.

"Nədir mə'nası eşqin?!" söyləyənlər nerdə? Bir gəlsin,
Görüb qüdsiyyəti-Sən'anı, lal olsun xəcalətdən.

Məhəbbətsiz bütün mə'nayi-xilqət şübhəsiz hiçdir,
Məhəbbətdir əvət, məqsəd şu pürəfsanə xilqətdən.

*Tiflis*

## RƏQS

Ruhum yenə ləbrizi-səadət...
Ya Rəb, bu nə tufani-lətafət?!
Göydən yerə enmiş kibi cənnət,
Yer-yer saçılır nuri-məsərrət.
Həp qol-qola pürşevqü şətarət
Rəqs etmədə - azadeyi-sənət -
Ərvahi-lətifi-mələkiyyət.

Bilməm bu nə halət, nə qiyafət?
Ya Rəb, bu nə səfvət, nə səbahət!
Həp şe’rlə əlhani-zərafət
Məmzuc olaraq sanki bu saət,
Qarşımda gülümsər əbədiyyət.
Bu levheyi-ülviyyətə, əlbət,
Rö’ya deyəməm, eyni-həqiqət...

Olmaz bu qədər nəş’əli rö’ya,
Ruhum buna qane deyil əsla.
Heyhat!.. Bu bir səhneyi-sevda...
Bir səhneyi-sevda ki, sərapa
Məczub ona hər bir dili-şeyda.
Ərvahi-məlaik belə guya
Eylər onu həsrətlə təmaşa.

Ənvarə bürünmüş kibi hər yer,
Ahəngi-məsərrətlə gülümsər;
Bin naz ilə hər çöhreyi-dilbər

Ərz etmədə bir nəş’eyi-digər;
Gözlər, hələ gözlər, hələ gözlər!..
Ya Rəb, nə qədər cazibəpərvər!?
Ya Rəb, nə qədər xariqəgüstər!?

Titrək, dağınıq, şuxü füsunkar,
Qumral, sarışın, dalğalı saçlar.
Ənzari-tamaşagərə yollar
Mənsur olaraq bir yığın əş’ar,
Gahi olub əzvaqilə sərşar,
Pürxəndə edər hər ləbi-səhhar
Parlaq və bəyaz incilər isar.

Əfsus ki, ömrüm kibi hər an,
Hər xətvədə bu leyli-zərəfşan
Bir hiçliyə olmaqda şitaban,
Həsrətlə baqıb iştə uzaqdan
Dan yıldızı guya edər e’lan:
“Yaqlaşmada artıq dəmi-hicran,
Ey məsti-məhasin olan insan!
Al! İştə günəşdən sizə fərman!..”

## HƏR YER SƏFALI, NƏŞ’ƏLİ...

Hər yer səfalı, nəş’əli, hər şey tərəbnisar...
Hər dəm gülümsədikcə günəş məst olur bahar.
Dağlar çiçəklə süslənərək səbzü dilgüşa...
Quşlar ötər, sular aqıb ətrafa gül saçar.
Seyr eylədikcə bən şu gözəl kainatı, həp
Ruhum uçar, uçar, əbədi bir səfa duyar.
Cənnət qədər bu mənzərə mö’cüznüma... fəqət
Həp bisəmər, deyilsə nəsibim visali-yar.
Didari-yar, iştə odur cənnətim bənim;
İnsan olan cihanda nasıl sevgisiz yaşar!?
Həp sevgidir gözəlliyi insana sevdirən,
Məhrumi-eşq olunca gözəllik də can sıqar.
Dünyada varsa devləti-cavid, o, eşqdir;
Olmaz sevib-sevilməyən ömründə bəxtiyar.

## ÇƏKİNMƏ, GÜL!..

Çəkinmə, gül! O lətif, incə, nazlı qəhqəhələr
Simaxi-ruhimi öpdükcə məsti-zevq olurum.
Şaqır-şaqır ötüşündən, ey əndəlibi-səhər,
Bir e'tila duyarım, başqa bir səfa bulurum.

Nədən şəfəqli bulutcuqlar öylə çöhrəndə
Bir ehtizaz ilə nəşr eyləməkdə şəbnəmlər?
Günəş gülər, bulut ağlarsa, ey mələkxəndə,
Səmada qevsi-qüzehlər saçar təbəssümlər.

Bütün bir ömrə bərabərdir öylə hər gülüşün,
Bilirmisin, gözəlim, ah, sən nə afətsin!?
Bu abü tab ilə bir mevceyi-lətafətsin.

Çəkinmə, gül! Ləbi-lə'lin həyatı güldürsün;
Şu halə qarşı bütün bənliyim qalır məbhut,
Baq, iştə heykəli-camid qadar əsiri-sükut...

## SEVİNMƏ, GÜLMƏ, QUZUM!..

Sevinmə, gülmə, quzum, kimsənin fəlakətinə,
Bu hal, əvət, eyi bir şey deyil, sevinmə, saqın!
Sevinmə başqasının hali-pürsəfalətinə,
Toqunma qəlbinə bikəslərin, zavallıların.

İnan ki, bir acı söz, bir baqış, bir incə gülüş
Kədərli, sıtmalı bir qəlbi tırmalar, yaralar.
O qəlb avunsa da, aldanma, incinib küsmüş,
Sağalmaz iştə o, yıllar keçər də həp sızlar.

Toqunma, ruhum! Əvət, kinlidir fələk, bir gün
Qızar, həmən gücənib intiqam alır səndən.
Bu gün gülən yarın ağlar, saqın öyünmə, düşün!
Düşün də munis ol! İncitmə, qırma kimsəyi sən!..

## PƏMBƏ ÇARŞAF

Pəmbə, şəffaf, ipəkli bir çarşaf,
Lərzişi-səfvətilə hər saət;
Ruhi-məcruha eyliyor ithaf,
Nazənin bir firiştə, bir afət.
Bu təsəttür nasıl da cazibədar!
Bunda pək incə bir lətafət var.

Sanki bir nevşükuftə gül fidanın
Pəmbə tüllər ihatə qılmışdır.
Ya ki bir kevkəbi-dirəxşanın
Üstünü həp şəfəqlər almışdır.
Bən açıq şe'rdən də həzz edərim,
Fəqət ən gizli şe'ri pək sevərim.

Açaraq sivrilir çoq afətlər,
Saf və azadə sanki bir zanbaq...
Sən əmin ol ki, ey şükufeyi-tər,
Gülə pək başqa fər verir yapraq!
Söylə! Dünyada hanki sən'ətkar,
Kölgəsiz bir rəsimdə sən'ət arar!?

O vücudi-lətifi qoy sarsın
Nurdan işlənən ipək tellər.
Bəncə məğrurü möhtəriz baqışın
Ruhi təltif için kifayət edər.
Örtün! Örtün!... Fəqət unutma, saqın!
Sənin açmaq zamanın: iştə yarın!..

## XURAMAN-XURAMAN

Səhər vaqtı, ya Rəb, nə gördüm ki, canan
Gəlir şadü xəndan, xuraman-xuraman.
O məstanə gözlər süzüldükcə hər an
Alır can, dökür qan, xuraman-xuraman.

Çəkildim təhəssürlə yoldan kənara,
Dayandım yeşil, sayəban bir çinara.
Baqıb gördüm əzm eyliyor laləzara,
O sevdayi-rəqsan, xuraman-xuraman.

Aqıb getdi... bən biqərar izliyordum,
Nihayət, yetişdik çəmənzara, durdum.
Kəsilmişdi həp taqətim, bən oturdum,
O eylərdi seyran, xuraman-xuraman.

Cihan cənnət olmuş da, gördüm gülümsər,
Açar qəlbi açdıqca güllər, çiçəklər.
Günəş ruhi-insana bin nəş'ə sərpər,
Füruzanü taban, xuraman-xuraman.

Gəzindikcə baqdım o parlaq sitarə,
Şətarət verir adəta, nevbaharə:
Səfa bəxş edər sanki əğyarə, yarə
Təbəssümlə hər an, xuraman-xuraman.

Nələr bəkliyordum o dilbər mələkdən?

Şaşırdım, bilinməz nələr söylədim bən,
Gönül çırpınır, sızlar, amma o həp şən...
Saqınmaz, alır can, xuraman-xuraman.

Tərəhhüm bulunmaz o afətdə əsla;
Əvət, fərq yoq onca həp ağla, sızla...
Təbah olsa dünya, gülümsər o hala,
Saçar qəlbə tufan, xuraman-xuraman.

Nə sehr eyləmiş derkən, axır nə etmiş!?
Dalıb getmişim, bənliyim sanki bitmiş;
Ayıldım ki, halımdan ürküb də getmiş,
Hərasanü heyran, xuraman-xuraman.

## UYUYOR

Əsmə, dur! Əsmə, ey nəsimi-bahar!
Uyuyor, yari-işvəkar uyuyor.
Dalğalandıqca zülfi-zərrintar,
Sarıyor pəmbə hüsnü altın nur.
O gözəl çöhrənin əsiri ikən,
Əcəba, qısqanırmısın bəndən?!

Əsmə, bir dur! Bıraq, bıraq uyusun
Nevbaharın şu nazənin qızını.
Ötüşən quşlar! İştə siz də susun!
Susun artıq! Şu Zöhrə yıldızını
Seyr edin iştiyaqü həsrət ilə,
Bu gözəl levhə sonra düşməz ələ.

Bu çiçəklikdə, siz əmin olunuz,
Böylə bir gül yetişməmiş əsla.
Kim bilir! Düşsə cənnətə yolunuz,
Bulunur bəlkə böylə bir sima,
Bulunur bəlkə böylə bir afət!
O da şayani-şübhədir, əlbət...

Günəş! Ey xilqətin gözəl gəlini!
Uyuyor iştə nazlı həmşirən!
Sən də dur! Saçma bir ziyalərini,
Sən də bir an için çəkil, gizlən!

Bir az əylən bulutlu dünyadə,

Mane olma bu tifli-nevzadə.

Bəstəri-nazı həp çiçəklərdir,
Oqşayor iştə gül yanaqlarını,
Yeşil otlar öpər dəqiqədə bir
Pəmbə, tombul, lətif ayaqlarını.
Aqışıb ən küçük sular xəndan,
Ninni söylər o şux için hər an.

Uyuyor... bixəbər şu vəlvələdar,
Şu səfasız, vəfasız aləmdən.
Uyuyor... baq nə xoş, gülər yüzü var,
Şaşırır şübhəsiz bu halı görən.
Şimdi rö'yada kim bilir, bu mələk
Hanki aləmdə əylənir gülərək.

Uyuyor... pək sevimli, pək mə'sum,
Bir çocuq ruhi var şu fitrətdə.
Hələ rast gəlməmiş bu taleyi-şum
Böylə bir nazəninə xilqətdə.
Hüsni-mütləq enərsə yer yüzünə,
Qonar ancaq bunun gülər yüzünə.

Uyuyor... Of! Ey bəlalı gönül,
Çırpınıb durma! Sən də sus artıq,
Vurma, sus! İştə susdu həm bülbül;
Dur, həyatım da getsə, dur azacıq,
Uyuyor çünki aşinayi-xəyal,
Uyuyor çünki qayeyi-amal...

## GÖRMƏDİM

Bilmədim, uydum şu məcnun gönlümün fəryadinə,
Eşqə dil verdim, bəladan başqa bir şey görmədim.
Ruhi-məcruhum gözəllərdən vəfa bəklər yenə,
Bən hənuz əsla cəfadan başqa bir şey görmədim.

Görmədim əsla dikənsiz gül, qaranlıqsız işıq,
Hər visalı daima tə’qib edər bir ayrılıq.
Söylüyorlar: “Daimi zevqi-səadət var”, yazıq!
Seyr edib boş iddiadan başqa bir şey görmədim.

Gördüyüm hər müztərib simaya duydum mərhəmət,
Yara, həm əğyara yar oldum da, sevdim bicihət;
Aşina zənn etdiyim hər yüzdə heyhat!... Aqibət
Boş təməllüqdən, riyadan başqa bir şey görmədim.

Hər məhəbbət bir xəyanət, hər gülüş bir hiylədir,
Hər səadət ruhu oqşar pək sönük bir şö’lədir.
Bəlkə var səhvim? Fəqət gördüklərim həp böylədir...
Görmədim, əsla bəladan başqa bir şey görmədim.

## BƏN İSTƏRİM Kİ...

Bən istərim ki, gözəllər, bütün gözəlliklər
Uzaq-uzaq, pək uzaq bir üfüqdə əylənsin.
Uzaq və incə təbəssümlərilə şamü səhər
Həyata nuri-səfa sərpərək  çiçəklənsin.

Gözəl mələksə... bulutlarda göy yüzündə yaşar:
Uzaq, bəşərdən uzaq bir mühitə mail olur.
Uzaq, bəşərdən uzaq, gizli bir fəzaya qoşar;
Yaşar mələk kibi, xoş bir xəyali-müğfıl olur.

Əvət, uzaqda səadət var, eşqə hörmət var,
Yaqın zəhərlidir, amma uzaqda cənnət var;
Uzaqda var əbədiyyət ki, başqa ne'mətdir.

Cihanı cənnətə təşbih edər də bir şair,
Gözəl bir afəti bə'zən mələk sanır, sevinir,
Fəqət səadəti - aldanma, pək müvəqqətdir!

## VƏRƏMLİ QIZ

Sarı gül! Ey şikəstə, solğun nur!
Niçin aludeyi-xəyal oldun?!
Çeşmi-nazında başqa rəmz oqunur,
Söylə, bir söylə, sən niçin soldun?!

Düşünüb durma böylə incə, dərin;
İncəlik ya dərinlik afətdir.
Nerdə əvvəlki tatlı cilvələrin?
Bu nə halət, nasıl qiyafətdir!?

Bən dilərdim ki, cümlə züvvarın
Sana həmşireyi-səfa deyələr!
Niçin ağlar nigahi-bimarın,
Səni qoynunda bəsləmişmi kədər?!

Ah... bilməm nə sehr var səndə,
Gönül ancaq səninlə nəş'ə bulur.
Sən mələksin, təvərrüm etsən də,
Yenə ruhum sənin əsirin olur.

## KARS VƏ OLTU ƏTRAFINDA SƏBƏBSİZ (!?) OLARAQ ALÇAQCASINA QƏTL VƏ YƏĞMA EDİLƏN

## MƏZLUMLAR İÇİN

Verin!.. Verin də, əvət, susdurun şu fəryadı,
Aman! Əsirgəməyin mərhəmətlə imdadı.
Verin! Verin!.. Gözü yollarda bir yığın bəşərin,
Nə heyrət, ah! Əsərsizmi bunca ahü ənin!?
O çırpınan, əzilən, qəhr olub gedən füqəra
Deyilmi? Yoqsa o sizdən deyilmidir əcəba!?
O titrəşib-mələşən yavrular niçin çabalar?
Niçin yanar əli qoynunda müztərib analar?
O qız, gəlin, o sönən hicləgah, o yaslı dügün,
Nədir o mənzərə? Bir an təsəvvür et də düşün.
Tuhaf deyilmi!? Hənuz irmədən bahari-ümid,
Kəfənli çölləri al lalələr qılar təmcid.
O qarlı dağları təzyin edən qızılgüllər
Deyil cənazə... birər xəndədir, həyata gülər.
Gülər bəni-bəşərin duyğusuz səfillərinə,
Gülər həmiyyətə biganə səngdillərinə.
Gülər ədalətə, insafa, haqqa, vicdana,
Gülər həqayiqi-İncilə, hökmi-Qur'ana,
O parə-parə cəsədlər demək bu gün məs'ud...
Gəmirməz onları artıq bir ehtiyaci-ənud.
Fəqət qalanlar, o bikəslər – ah ya Rəbbi!
Nə yapsın!? İştə qoşar canlı bir cənazə kibi.
Qoşar zəlami-fəlakətdə ac, soluq, bihuş,

Qoşar ümidi-səadətlə müztərib, mədhuş.

Qoşar, qoşar da arar bir şərareyi-iman,
Arar zəlami-fəlakətdə şö'leyi-vicdan.
Fəqət nə çarə!? Sönər həpsi, yoq ümidi-nicat.
Qulaqlar iştə sağır, kimsə dinləməz, heyhat!..
Əvət, budur bu çobansız qoyunların halı,
Yatanların budur əfsus, halı, iqbalı...

Ah, əvət, həp dəyişdi ruhi-bəşər,
Hökm edər şimdi başqa fəlsəfələr.
Haq, ədalət, təbiət iştə bu gün
Əbdi-məzluma qarşı pək küskün...
Yaşadan kainatı qüvvətdir,
Gücsüzün həp nəsibi zillətdir.
Əvət, acizlərin cəzası budur,
Kim ki, məzlum olursa, zalım odur!
Həp cihan qanlı bir kitab əl'an,
Bu, fəqət bir səhifədir ondan.
Qopuyor hər tərəfdə bin fəryad,
Seyr edin, iştə hər tərəf bərbad.
Kürreyi-ərzi qaplamış həyəcan,
Verilir hər dəqiqə bir qurban.
Patlıyor hər tərəfdə bir vulkan,
Şərqü qərb iştə püskürür al qan...
Əcəba, bunca çarpışan, vuruşan,
Qan tökən, can verən, qoşan, boğuşan,
Məhv edən, məhv olan, kəsib-kəsilən,
Qəhr edən, qəhr olan, əzib-əzilən,
Düşünün bir, niçin, niçin əcəba!?
Bu qiyamət niçin olur bərpa?
Anlamış çünki hər nəfər mutlaq,
Qalib olmaqdadır bu gün hər haq.
Həp damarlarda iştə qan coşuyor,
Həpsi yalnız hüquq için qoşuyor.
Kim ki, biganədir hüquqa, əvət,

Xain əllərdə məhv olur əlbət.
İştə, qarşındadır misalı bu gün,
Səndə göz varsa seyr edib də düşün!..
Bisəbəb (?) qəhr olan zavallıların
Sana şamil deyilmi halı yarın?
Yaşamaq istəsən çalış, çabala,
Rə'd olub gurla, bərq olub parla!
Yoqsa fəryadü nalə zaiddir,
Bir həqiqət bu: "əzməyən əzilir!.."

*Naxçıvan, kanuni-əvvəl, 1914*

## ÇOBAN TÜRKÜSÜ

Açmasın çiçəklər, gülməsin güllər,
Ötüşməsin şirin dilli bülbüllər,
Dərdim çoqdur, ellər, ellər, ay ellər!
Yar-yar deyib gecə-gündüz ağlarım.

Göz yola dikməkdən bağrım oldu qan,
Bir xəbər yoq hilal qaşlı yarımdan,
Yaralı gönlümü olmaz oqşayan,
Yar-yar deyib gecə-gündüz ağlarım.

Gülməz, yüz bahar olsa, gülməz yüzüm,
Yardan başqa bir gözəl görməz gözüm,
Sanki anadan ayrılmış öksüzüm,
Yar-yar deyib gecə-gündüz ağlarım.

Öz yurdumda bir qəribdən seçilməm,
Əsir kibi bir dost, bir yaqın bilməm.
Cihan cənnət olsa bir ləhzə gülməm,
Yar-yar deyib gecə-gündüz ağlarım.

Məcnun gönül Leylasını unutmaz,
Başqa bir gözəl dərdimi uyutmaz.
Bir məsəldir: "Tərlan yerin sar tutmaz!"
Yar-yar deyib gecə-gündüz ağlarım.

Göy yüzündə görür-görməz hilalı,

Keçər fikrimdən yarımın xəyalı,
Dərbədər gönlümün artar məlalı,
Yar-yar deyib gecə-gündüz ağlarım.

Xatirə gəldikcə mavi gözləri,
Süzgün baqışları, tatlı sözləri,
Dolaşırım dağı, daşı, düzləri,
Yar-yar deyib gecə-gündüz ağlarım.

Yosma dilbərim deyilmiş ədasız,
Pək nazlıdır, amma deyil vəfasız,
Nə çarə!? Eşq əhli olmaz bəlasız,
Yar-yar deyib gecə-gündüz ağlarım.

## DÜN VƏ BU GÜN

Dün səadətlə parlayan gözlər
Şimdi yə’sü kədər nisar eylər.
Dün təhəvvürlə gürləyən sözlər
Şimdi bir başqa macəra söylər.
Dünkü xəndan gönül bu gün sızlar,
Dün sönən bir əməl bu gün parlar.

Mərhəmətsizdir iştə köhnə fələk,
Bəşəriyyətlə əylənir daim.
Bəşəriyyətlə əylənir gülərək...
Dünkü məhkum olur bu gün hakim,
Dünkü bədbəxt olur bu gün məs’ud,
Dünkü məs’ud olur bu gün mərdud.

Başqa, pək başqa şimdi zevqi-cihan,
Dünkü peymanələrdə qan coşuyor.
Dünkü mə’murələr bu gün viran,
Dünkü viranələr bu gün mə’mur...
Həp pozulmuş da dünkü peymanlar,
Yeni dost olmuş əski düşmanlar.

Yoq təbiətdə öylə bir qüvvət,
Əbədi, həm də paydar olsun.
Həp dəyişməkdədir bütün xilqət,
Həp dəyişməkdədir həyatü fünun,

Olmayan varmı inqilaba zəbun?

Varmı sarsılmaz öylə bir qanun?!

Seyr edin iştə kainatı bütün,
Devrilir hər adımda bir əzəmət,
Dinləməz dünkü hadisatı bu gün,
Parlıyor hər dəqiqə bir hikmət.
Hər qaranlıqda çırpınır bir nur,
Hər həqiqətdə bir xəyal uyuyur.

*Bakı, 1915*

## QÜRUBƏ QARŞI

Yanar ruhum dəmadəm, ruhi-məcruhum yanar, sızlar,
Bütün aləm dəyişmiş sanki, həp qəsvətnüma,
məhzun...
Bütün ətrafı sarmış bir məlal; ağlar, cihan ağlar;
Gönül məhzun, hava məhzun, günəş məhzun, səma
məhzun...
Günəş, dilbər günəş sıyrılsa yalnız sisli çarşafdan,
Olur zənnimcə hər kəs, hər gönül bir an için xəndan.

Günəş, əngin, nihayətsiz fəzanın nazlı sultanı,
Niçin? Bilməm niçin çıqmaz o xəlvətgahi-ismətdən?
Niçin afaqı sarmaz şö'leyi-hüsni-zərəfşanı?
Niçin məhrum edər hissü xəyalı feyzi-söhbətdən?
"Niçin? Bilməm niçin!?" derkən, aman ya Rəb, nələr
duydum!?
Bulutlar sıyrılıb nagah müdhiş bir xəbər duydum:

Günəş, heyhat!.. O, qəhrindən qızarmış qanlı bir sima
Ki, hər bir nəzreyi-xunini bir dəhşət bəyan eylər.
Əvət, hər nəzrəsindən bəlli bir əsrar, bin mə'na;
Qopan hərbü vəğadan sanki yüz bin macəra söylər,
Dəmadəm fışqıran atəşli, zəhragin dumanlardan
O gülgün çöhrə guya sarsılır, məhcub olur hər an.

Əvət, dalğın günəş, tutqun günəş haqsız deyil, zira
Bütün yirminci əsrin müstəbid evladı həp alim...
Əvət, dalğın günəş, yorğun günəş haqsız deyil, zira

Bütün yirminci əsrin müstəid evladı həp zalim...

Əyilməzkən mələk insana, olmuş aqibət şeytan,
Nədən şeytana əbd olsun bu gün alinijad insan!?

Cihan bir qətlgah olmuş, aman yoq zülmü vəhşətdən,
Bu insan məzbəhindən kimsə çıqmaz, kimsə
qurtulmaz.
Bütün tarixi həp gözdən keçir ta büd'i-xilqətdən,
Əvət, bir böylə hüznavər, ələmpərvər bahar olmaz.
Gönüllər qan, çiçəklər qan, bütün çöllər, çəmənlər
qan,
Dənizlər qan, bulutlar qan, hava qan, iştə hər yer qan...

Böyük başlar dumanlanmış da, atəş püskürür hər an,
Qılıclar, süngülər, toplar, tüfəklər gürləyib parlar.
Nə istər bir-birindən anlaşılmaz, sayğısız insan!?
Olur mə'murələr viran, qopar atəşli tufanlar.
Fəqət bunlar, bu vəhşətlər, bu dəhşətlər niçin bilməm?
Əcəb, xalimi insafü mürüvvətdən bütün aləm!?

Bu qəsvətlər niçin bilməm? "Niçin? Ya Rəb, niçin?"
derkən,
Qopub bir seyhə, müdhiş bir səda, bir nə'reyi-hey-hey!
Həmən sarsıldı ruhum, tüklərim ürpərdi dəhşətdən;
Dəmadəm yıldırım, şimşək çaqar, patlardı peydərpey,
Bu qızğın seyhə guya gürləyib söylərdi: - Ey qafil!
Fəlakətsiz səadət, qayğısız rahət deyil qabil.

Əmin ol, nerdə dirlik varsa, mütləq orda qavğa var;
Bu bir qanuni-hikmət, sirri-xilqətdir ki, məhv olmaz.
Basıb-kəsmək, yaqıb-yıqmaq azalmaz, daima artar;
Bu bir baziçeyi-qüdrət ki, bundan kimsə qurtulmaz.
Çalış həp qalib ol, mərd ol! Bu, aydın bir həqiqətdir:
"Cihan bir nazənin dilbər ki, yalnız mərdə qismətdir..."

*Qocur, 1915*

## HƏRB İLAHI QARŞISINDA

Ey odlu şəhpərilə saçan zəhri-intiqam!
Ey hərb ilahı! Ey sırıtan kinli əjdəha!
Oldunsa bunca qəhrü fəlakətlə şadkam,
Artıq bitir şu səhnəyi, ey müftəris dəha!
Endir şu qanlı pərdəyi, ey rəhnümayi-şər!
Endir də bir qədər nəfəs alsın bəni-bəşər.

Sarmış bütün cihanı həyahuyi-dəhşətin:
Yalnız bəşərmi pənceyi-qəhrində sarsılan?
Hakim havada, yerdə, su altında vəhşətin,
Vəhşilərin də zülmdən olmaqda bağrı qan.
Qaplanlar iztirab ilə hər an dilər aman,
Qartallar iştə etmədə həp tərki-aşiyan.

Ey şiddətü qəzəb savuran hamiyi-zəfər!
Artıq yetər, usandı cihan, sən də bir usan!
Tərk et şu qanlı toprağı, artıq çəkil, yetər:
Hər kəs didişmədən yorulub, şimdi ruh açan
Azadə bir havada çiçəklənmək istiyor,
Pək tatlı bir ümidilə əylənmək istiyor.

Şərr olmadıqca xeyrə qavuşmaq məhal olur,
Qəsvətli, sisli hər gecədən bir günəş doğar.
Hürriyyət öylə nazlı bir afət ki, pək vəqur,
Qan aqmadıqca kimsəyə gülməz o işvəkar.

Zatən bu, köhnə yurdumuzun köhnə adəti,

Hər tanrının qan içməyə var hüsni-rəğbəti.

Zülmət dağıldı, zülmü fəsad oldu payimal,
Hər yerdə sanki haqqü ədalət gülümsüyor.
Al bayrağın qanatları altında, pürməal
Hər çöhrə, hər dodaq saçıyor ləm'ə-ləm'ə nur.
Hürriyyət? Ah, o bəncə fəqət tatlı bir xəyal...
Dünyada varmı hürr, əcəba? İştə bir sual!...

*Bakı, 17 nisan, 1917*

## İŞTƏ BİR DİVANƏDƏN BİR XATİRƏ

*"Sən nəsin? Kimsin?" deyən ariflərə*

Arqadaşlar! Sormayın, hiç sormayın!
Sızlayan bir qəlbə atəş vurmayın!
        Sormayın, ariflər! Ey fərzanələr!
        Anlamaz dərd əhlini biganələr.
Sormayın əsla, kimim bən? Ya nəyim?
Şimdi bən bir qayğısız divanəyim.
        İştə gönlüm bir yıqıq viranədir,
        Hər nə söylərsəm bütün əfsanədir.
"Bən nəyim?" Kəndim də bilməm, vaz keçin!
Sən nəsin? Boş bir sual insan için.
        Bir müəmmadır ki, "bənlik" - həll edən
        Yüksəlir lahuta fərti-nəş'ədən.
Bən hiçim, hiçdən çıqan hiçdir fəqət,
Zənn edərsəm sizdə də yoq mə'rifət.
        Göz-qulaq - görmək, eşitmək aləti,
        Çoq zaman aldatmış insaniyyəti.
Hər nə göstərsəm, nə söylərsəm sizə,
E'tibar etməzsiniz hiç bir sözə.
        Çünki bən divanə, siz qafilsiniz,
        Dilsizim bən, yoq sizin də hissiniz.
Söhbətə mailsəniz, diksinməyin!
Dinləyin! Ah, əfv edin, incinməyin!
        Çünki anlaşmaq deyildir pək qolay,
        Laylalaylay, laylilaylay, laylalay.
Bir zamanlar bən ənisi-yar idim,

Əhli-mə’na, məhrəmi-əsrar idim.
Gülşəni-vəhdətdə həp şamü səhər
Seyr edərdim qayğısız, azadəsər.
Bixəbərdim... sezmiyordum xilqəti,
Bilmiyordum çünki mevcudiyyəti.
Hiçlik, ah... ən xoş dəmi-səmtü sükun,
Bir gözəl cənnətdi, heyhat!.. Ən zəbun,
Ən dəni bir hiss, əvət bir kor buğa,
Ruhumu yoqluqdan atmış varlığa.
Bir zaman baqdım ki, yoq nurü səfa;
Bir küçük məhbəsdəyim: zülmətnüma...
Çırpınıb durdum, fəqət yoq qurtuluş,
Qəşş olub qaldım həmən, bitabü huş.
Səssiz, ünsüz ağlıyordum məsti-xab;
Nagəhan bir seyhə, bir müdhiş xitab:
“Qalq! Ey insan oğlu, qalq!” əmr eylədi,
Sarsılıb beynim həmən sərsəmlədi.
“Vay!” deyib birdən bağırdım, zar-zar,
Içqırıb həp sızlıyordum biqərar.
Sonra gördüm başqa bir aləmdəyim,
Bir yığın insan için əyləncəyim.
Həpsi xürrəm, həpsi pürvəcdü tərəb,
Anlamazdım bən, nədir, aya, səbəb?!
Ağlamaqdan qalmamışdı bəndə hal,
Bir küçük məcnun idim pəjmürdəhal.
Onlar amma gah gülər, gah əylənir,
Bən sükut etdikcə durmaz, söylənir.
Ninni söylərlərdi gah aram ilə,
Bə’zən oqşarlardı həp pürvəlvələ.
Keçdi az-çoq, bən dəyişdim büsbütün,
Taleyi-mənhusuma doğmuşdu gün.
Ağlamazdım, şimdi pək dilşad idim,
Qayğısız, azadə bir nevzad idim.
Hər nə görsəm zevq alırdım bilmədən,
Yar idim həm yara, həm əğyara bən.
Sanki bir cənnət kəsilmiş kainat,

Başlamış artıq münəvvər bir həyat.
Daima məs'udü fərrüxbal idim,
Daima xoşbin idim, xoşhal idim.
İştə bir mə'sum idim, azadəsər,
Uçmaq istərdim müzəffər, nəş'əvər.
Anbaan bulduqca bən nəşvü nüma,
Ruhumu qaplardı bitməz bir səfa.
Artıyordu ömrə hər gün rəğbətim,
Çünki bipayan idi hürriyyətim.
Qayğı bilməz bir çocuqkən, nagəhan
Fikrimi cəzb etdi digər bir cihan.
Kəsbi-irfan etməyə əzm eylədim,
Elmə qoşdum, hər nə duydum, bəllədim.
Ruhi-mə'sumanəm olmuş dərbədər,
Fəzl için hər ləhzə yüksəlmək dilər.
İstəməzdim rahət, artıq biqərar,
Çırpınırdım ruzü şəb pərvanəvar.
Əldə kəskin bir silah olmuş qələm,
Fikrimə hökm eyliyordu dəmbədəm.
Hər nə görsəydim məraqavərdi həp,
Mütləqa durmaz, arardım bir səbəb.
Artaraq fəzlü kamalım anbaan,
Yüksəlirdim, yüksəlirdim durmadan.
Fikrimi işğal edən hər bir xəyal,
Ruhumu eylərdi ilqa bin sual;
Kəşf için sərsəm gönül məftun idi,
Kim onu həll etsə Əflatun idi.
Çırpınırdım daima irfan için,
Hiç sanırdım ömrü bir nadan için.
Məlcə'im olduqca məktəb, mədrəsə,
Qəlbimə gəlməzdi hiç bir vəsvəsə.
Zevq alırdım məscidü meyxanədən,
Feyz alırdım aqilü divanədən.
Saçma bir dəftərçə, sərsəm bir kitab,
Ruhumu eylərdi daim hissiyab.
Fəzlü irfan əhlinə heyran idim,

Elm için başdan keçər insan idim.
Kainati-elm, o bir dilbər həyat,
Ən müqəddəs bildiyim bir kainat...
Elm, əvət, pək sevdiyim dildar idi,
Ən gözəl bir yari-əfsunkar idi.
Elmə vermişdim gönül arifmisal,
Bilmiyordum başqa aləm, başqa hal.
Bilmiyordum qəm nədir, sevda nədir,
Bilmiyordum aşiqi-rüsva nədir.
Vardı tək bir həmdəmim: fəzlü kamal,
Vardı tək bir munisim: ərbabi-hal.
Həp çalışmaq, uğraşıb durmaqla bən,
Qoşdururdum fikrimi hiss etmədən.
Aqibət, bir gün yoruldum, inlədim;
Sonra küskün ruhumu həp dinlədim;
Çoq düşündüm, çoq daşındım, bir zaman
Guşeyi-üzlətdə tutdum aşiyan.
Etmədim insana artıq e'tibar,
Adəm oğlundan fərar etdim, fərar.
Bəncə mərdud oldu hər dəftər, kitab,
Həp təfəkkürdən olurdum zevqiyab.
Bildiyim hər bir həqiqət əskidi,
Başladım təmyizə hər nikü bədi.
Gördüyüm hər şeydə bir mə'na arar,
İctihad etmək dilərdim biqərar.
Artıyorkən iztirabım anbaan,
Xeyli daldım... bir də baqdım, nagəhan
Əski bütlər qalmamış, həp qırmışım,
Uçmuş əqlim, büsbütün çıldırmışım.
Gözlərimdən qaldırılmış pərdələr,
Baqdım, ağlar gördüyüm hər şey gülər.
Heyrətimdən bən də güldüm, aqibət,
Gözlərim gördüm yaşarmış bicihət.
Tüklərim ürpərdi, həp sərsəmlədim,
Baqdım, artıq başqa bir aləmdəyim;
Sıçrayıb beynimdə qan vulkan yapar;

Gah enər qəlbimdə bir tufan yapar.
Bəncə həp mahiyyəti-əşya bütün
Başqa rəng almaqdadır guya bu gün.
Əski hissiyyat əzilmiş sərbəsər,
Əski "bən"dən hiç bulunmaz bir əsər.
Hər həqiqət sanki ölgün bir xəyal...
Hökm edər ruhumda artıq başqa hal.
Bəncə, xilqət şimdi bir əfsanədir,
Kim ki, həll etmək dilər, divanədir.
Bir oyuncaqdır cihan başdan-başa,
Qafil insanlar da bənzər sərxoşa.
Səndələr hər kəs əməlsiz, qayğısız,
Həpsi kəndindən xəbərsiz, sayğısız.
Söyləşirlər, anlaşılmaz sözləri,
Həp baqarlar, görməz amma gözləri.
Daima miskin, düşünməz, sərsəri...
Bir çürük xulyaya heyran əksəri.
Gah übudiyyət edib yıldızlara,
Gah əyilmişlər dilara qızlara.
Çoq zaman məğlub olub bir heyvana,
Tanrı zənn etmiş, tapınmışlar ona.
Böylə, gəmsiz bir yığın mərkəb kibi,
Otluyorkən... iştə - məslək mövcibi
Fırlamış meydana bir qaç dahiyə,
Korları irşad için gəldik deyə.
Kəşf edib yoqluqda bir mevcudi-haq,
Birdir, e'lan etdilər, mə'budi-haq.
Birdir, amma hökm edər hər bir şeyə,
Həm də əsla bənzəməz hiç kimsəyə.
Xəlq edər, həm məhv edər, pək müqtədir...
Çünki hər bir qüvvətin fevqindədir.
Hökm edər, söylər, onun ilhaminə
Vaqif olmaz aciz insanlar... yenə
Duysa bir şey, həp o dahilər duyar,
Sonra onlar xəlqi eylər hissədar.
Xəlq, xaliqdən uzaq, həm bixəbər,

Yalnız onlar əmr edər, ya nəhy edər.
Çünki onlar pək yaqın ülviyyətə,
Həm də pək layiq xitabi-qüdrətə;
Parlamış hər kimdə ənvari-dəha,
Aləmi-əsrara olmuş aşina.
İştə onlar, hər biri bir qəhrəman,
Həp çalışmış durmadan, sarsılmadan.
Bir dügün... onlarca hər bir təhlikə,
Həpsi olmuşlar fəda bir məsləkə.
Həpsinin amalı bir, əfkarı bir,
Həpsinin iqbalı bir, idbarı bir.
Həpsi yalnız bir həqiqət aşiqi,
Həpsi bir vicdanla dinlər xaliqi.
Həpsinin qəlbində bir sevdası var,
Həpsi Məcnun, həpsinin Leylası var.
Həpsinin ruhunda bir cənnət gülər,
Həpsi şəfqət bəslər, ülviyyət dilər.
Ağlamışlar həpsi insaniyyətə,
Xadim olmuşlar bütün bir niyyətə.
Parlamış həpsində bir haq şö'ləsi,
Xeyrə munis, şərrə düşman cümləsi.
Haqdan almış həpsi ilhamatını,
Dinləmiş həm kəndi hissiyyatını.
Hər kəs inşad eyləmişdir bir kitab,
Ta ki, ihzar eyləsin bir inqilab.
Başqa bir "bənlik" ararkən hər biri,
Uymaz olmuş bir-birə çoq sözləri.
İştə hər dahidə var bir e'tiyad,
Yan baqıb təqlidə, eylər ictihad.
Pək təbiidir ki, hər sahibhünər
Bir təcəddüd, bir xüsusiyyət dilər.
Gərçi az-çoq bir-birindən fərqi var,
İştə onlar həpsi bir şahrah arar.
Dinləyib əslafı həp fikr etdilər,
Göstərib əxlafa bir yol, getdilər.
Sonra, lakin sonra pək çoq sürmədən,

Fırlayıb meydana bir çoq rahzən,
Onların fikrində bulmuşlar təzad;
Hər biri bir yolda etmiş ictihad.
Bir-birindən xəlqi istikrah için
Hər biri bir dürlü olmuş xuşəçin.
Bir yığın əfsanə, bin lafü gəzaf
Uydurub hər kəs çıqarmış ixtilaf.
Hər biri boş bir xəyal almış ələ,
Uğraşıb dünyaya salmış vəlvələ.
Ayrılıb bir mürşidin peyrəvləri,
Ayrı məzhəblər çıqarmış; hər biri
Bir yığın böhtanlar icad eyləmiş,
Pirinə həzyanlar isnad eyləmiş.
Anlamaz, kor xalqı qandırmış bütün,
Hər nə qusmuş, həp inandırmış bütün.
Qübbə yapmışlar küçük bir həbbəyi,
Söyləmiş: "haq bəndə..." hər külxanbəyi.
Hakim olmuşlar bütün izanlara,
Hər kəs uymuşdur o bivicdanlara.
Firqələr təşkil edilmiş anbaan,
Olmamış əskik niza hiç bir zaman.
İzləyib hər firqə çıqmaz bir çığır,
Bir dügün-dərnək qurulmuş zırhazır.
Hər kəs uymuş kəndi sərsəm fikrinə,
Düşman olmuş çoqlar öz həmfikrinə.
Eyləmiş hər kəs təsəvvür qayəsiz,
Başqa yol, bir başqa xaliq, başqa iz.
Hər kəs aldanmış da sapmış bir yana,
Bin çeşid bütlər yapıb tapmış ona.
Hər kəsin ruhunda bir xaliq gülər,
Öylə bir xaliq ki, xəlq etmiş bəşər.
Pək tuhaf!.. Bir firqə digər firqənin
Xaliqindən diksinib olmaz əmin.
Halbuki, hər kəscə haq bir, tanrı bir...
Ya bu sərsəmlik, bu azğınlıq nədir?!
Bir yığın insan arar zülmətdə nur,

Bir yığın: haq bizdədir, söylər durur.
Bir güruh eylər pərəstiş vəhdətə,
Bir güruh eylər təməllüq kəsrətə.
Hər kəs artıq izləyib bir yol gedər,
Əyri, düz, çirkin, gözəl - iman edər.
Cahil - arif, bir çoban - bir feyləsuf
Kəndini sanmaqda... ərbabi-vüquf.
Hər kim əvvəldən inanmış hər nəyə,
Bir də ram olmaz o digər bir şeyə.
Haq təcəssüm etsə birdən həpsinə,
Tutduğundan kimsə vaz keçməz yenə.
Çünki pək gücdür unutmaq keçmişi,
Həm düşünmək istəməz bir çoq kişi.
Hökm edər "mazi" bütün vicdanlara,
"Əskilik" eylər nüfuz izanlara.
Əski adətlər birər zəncir olub,
Dəmbədəm etməkdə təsxiri-qülub.
Sorsalar: dünyada kimdir hökmdar?
Bən derim: ölmüşlər, ölmüş duyğular.
Bir həqiqətdir bu... varsa şübhəniz;
Ta çocuqluqdan nə öyrənmişsəniz,
Hər nə yad etmişsəniz dün ya bu gün,
Qəlbinizdən həp silin bir-bir bütün:
Valideyn ağuşu, məktəb, mədrəsə,
Qorqu, ümmidü təvəkkül, vəsvəsə.
E'tiqad, əxlaqü adət, hər nə var,
Həp kökündən qaldırın divanəvar...
Həp qırın, həp çeynəyin, həp məhv edin!
Hiç zərər yoq, bir müvəqqət səhv edin!
Səhvinizdən ta ki doğsun şübhələr,
Həp seçilsin haqqü batil, xeyrü şər.
İştə bir meydan ki, istər qəhrəman,
Hər kimin var meyli, etsin imtihan.
Etsəniz bir böylə cür'ət, şübhəsiz,
Qarşınızdan pərdələr qalqar təmiz.

Bir də aldanmazsınız hər kahinə,
Fikri çaldırmazsınız hər xainə.
Başlayıb artıq münəvvər bir həyat,
Məhv olur həp əski, ölgün kainat.
Köhnə mevhumata yol verməzsiniz,
Haqqı dinlər, başqa şey görməzsiniz.
Seyr edib insanların əf'alını,
Fikrini, amalını, hər halını,
Heyrət eylər, daima ağlarsınız,
Daima ağlarsınız, sızlarsınız;
Halınız ənzarı cəlb eylər bütün,
Seyr edənlər həp gülümsərlər bütün.
Çünki Məcnun zənn edər hər kəs sizi,
Kimsə dərk etməz fəqət Leylanızı.
Kimsədən gəlməz kömək hiç bir zaman,
Ürkərək sizdən qaçar yeksər cihan.
Siz də bipərva olub mərdümgiriz,
Nerdə insan görsəniz ürkərsiniz.
Ərzi-didar etsə sizlərdən biri,
Göstərib heyrətlə bir çoq sərsəri,
Xalqa söylərlər: "Qaçın bundan, aman!
Şarlatandır, şarlatandır, şarlatan!
Sözləri həp saçma... yoq mə'na, filan,
Həp yalandır, həp yalandır, həp yalan..."
İştə diqqət lazım... ey ərbabi-hal!
İmtihan istər, nə lazım qilüqal.
Bir cəsarətdir bu... iqdam etsəniz,
Böylə bir azadə yoldan getsəniz,
Siz də bir məcnun olub ağlarsınız;
Bən nəyim? Yaxud kimim, anlarsınız;
Ən nihayət, hər həqiqət bəllənir,
Haq nədir? Nəymiş? Nihayət bəllənir.
Öncə "bənlikdən" təcərrüd qılmayan,
Kəndi nəfsindən uzaqdır hər zaman.
Kim ki, əql istər, o, məcnun olmalı;
Hər fəlakət gəlsə məmnun olmalı;

Yoqsa gevşək, duyğusuz, boş bir beyin,
Sirri-xilqətdən nə anlar, söyləyin!?
        Canlı meyyitlərcə zor idraki-haq,
        Görməz ə’ma, doğsa hətta bin şafaq.
Nuri-haq bir çöhrədir, daim gülər,
Dərkdən aciz fəqət biganələr.
        Dərk edənlər mütləqa məczub olur,
        Fərti-eşqindən həmən, illət bulur.
Çıldırıb sərsəmlər, ağlar, həm gülər,
Başqa bir aləmdə rəqs etmək dilər.
        Tərk edib canana bixud canını,
        Həp arar mə’şuqeyi-vicdanını.
Biqərar istər sarılsın boynuna,
Nagah anlar: yarı girmiş qoynuna.
        Ruha artıq başqa ülviyyət gəlir,
        Aləmi-lahuta qalqar, yüksəlir.
Yüksəlir, əngin fəzalardan aşar,
Ərşi-istiğnada bipərva yaşar.
        Təşneyi-irfan ikən dərya bulur,
        Mevt ararkən zindeyi-cavid olur.

*Tiflis, 1912*

# UNUTULMUŞ ŞEYLƏR

## EY RUHİ-PÜRSÜKUN!..

Ey bənliyimdə hakim olan ruhi-pürsükun!
Ey ruhi-münfəil! Səni gördükcə həp zəbun;
Gördükcə daima səni sərgəşteyi-zünun,
Həp varlığım haman oluyor sanki tarümar.

Sən bəxtiyar idin o zamanlar ki, büsbütün
Bir şe'rü zevq içində yaşardın... Fəqət bu gün,
Baq, ziştbin olub da nə buldun? Bir az düşün!
Həp kainata qarşı nədir bunca iğbirar?

Hər şey sənin gözündə bir əfsanə, bir yalan...
Bir aldanış demək bütün alayişi-cihan.
Sevmək, sevilmək, eşq, vəfa, xəndə ya fəğan;
Bunlar da göstərişmidir, ey ruhi-sər'ədar!?

Aldanmamaq, bu səncə bu gün iştə son məraq...
Guya sərabi-müğfil imiş həp yaqın, uzaq;
Lakin yetər, şu halı bıraq, istəməm, bıraq!
Əsla təhəmmül etməyə yoq bəndə iqtidar.

Aldan bir az, yazıq sana!.. Qəhr olduğun yetər,
Baq, aldanıb da, çırpınaraq zümreyi-bəşər
Daim qoşar ümidi-səadətlə bixəbər,
Daim xəyal içində yaşar, həm də bəxtiyar...

Çıq şübhədən, sükunu bıraq, aç da balü pər,

Çırpın fəzayi-zevqü şətarətdə pürzəfər.
Qoş daima məhəbbətə, nifrətdən et həzər!
Bədbin olub da kəndinə dünyayı qılma tar!

Çırpın kədərlərinlə, sürurunla daima;
Bə’zən kədər, düşüncə, qırıqlıq da bir səfa...
Sev, ağla, inlə! Bəlkə bulursun bir az şəfa,
Çırpın xəyalü hiss ilə həp məstü biqərar.

Bir nazlı çöhrə, ya düşünür bir həzin nigah,
Bir giryə, bir təbəssümi-nazik, dərin bir ah,
Bir şairanə mənzərə, bir qanlı hərbgah,
Xoş bir şükufəzar və ya tazə bir məzar.

Hər levhə bir həqiqəti söylər təranədir,
Hər kölgə hissi oqşayacaq bir bəhanədir.
Dünya nədir? O, iştə fərəhnakü münkəsir,
Bir aşiyani-zevqü səfa, bir xərabəzar...

## KÜÇÜK BİR LEVHƏ

Ehtizaz etmədə hər yanda behişti nəfəxat,
Oqşuyor səhni-çəmənzarı yenə ruhi-bahar.
Şəms, o nevzadi-təbiət gülüyor şə’şəəbar,
Saçıyor hər tərəfə rəngi-səfa, nuri-həyat.
Sanki hər şey gülüyor, ərzü səma həp məsrur,
Hər tərəf mevceyi-nur...

Kainata veriyor nəş’ə nəsimi-səhəri,
Sərvlər qaməti-mevzun ilə həp məsti-qürur...
Bir tərəfdə ötüşür şevqü şətarətlə tüyur,
Pərdə-pərdə eniyor, yüksəliyor nəğmələri.
Süslənib naz ilə bir yanda gülümsər əzhar,
Pürsəfa, ləm’ənisar...

Gəzinir qarşıda bir tifli-məlahət yalınız...
Hər ədasilə o şux aləmi eylər məshur.
İştə, səyyar çiçək denməyə şayan bir qız!
Çeşmi-məxmurinə baqdıqca yürək çırpınıyor,
Allah, Allah! Nə qədər ülvi... o mavi gözlər!
O səmavi gözlər!

Həp çiçəklərdə təməvvüc edən əlvani-sürur,
Əks edib çöhreyi-gülgununa eylər ləm’an;
Zülfi-zərtarını yaldızlar ilahi bir nur,
İştə bir levhə ki, hər zairi eylər heyran;
İştə bir şe’r ki, hər şairi eylər təltif,
Nə qədər şe’ri-lətif!

*Böyükdərə*

## İKİ HƏMŞİREYİ-LƏTAFƏTVAN

Bə’zən əsla umulmayan yerdən
Nə qədər bəxtiyar olur insan!
İştə, bən yə’s içində inlərkən,
Ruhi-məcruhimi edən xəndan,
İki sevda pərisi ləm’əfəşan.
        Biri - nevrəstə, nevdəmidə çiçək...
        Biri - nadidə, naşənidə mələk...

Birinin çöhreyi-dilaşubi,
Ləbi-gülguni, seşmi-məxmuri,
Zülfi-şəbrəngi, rəngi-məhcubi,
Ğərq edər nura qəlbi-rəncuri;
Şərqə məxsus o bir gözəl huri...
        Kim bilir! Bəlkə şimdi cənnətdən
        Yerə enmiş gəzər o qönçədəhən.

Lakin əfsu...s qeyri-qabildir,
Bəncə təsviri-halı digərinin.
O, bir ülvi xəyala bənzətilir
Ki, edər hər baqışda şair için
Pürməali nəşidələr təlqin.
        Söylüyür iştə hər bir ə’zasi
        Ki, bənim əsrin ən gözəl Venüsi.

Gərdəni-safını öpən o xəfif,
O təməvvücnüma ipək saçlar
Nəşr edər kainata qarşı lətif,

Pürzəhəb bir ziyayi-rayihədar,
Nəşvəza bir bahari-pürəzhar.
        O səmavi nigaha qarşı fəqət
        Duyar insan mədid bir heyrət.

Şu dilara, sevimli mənzərədən
Ruha bir başqa e'tila gəliyor.
O gözəl çöhrələr gülümsərkən
Saçar ətrafa sanki nuri-sürur,
Ah, mümkünmü olmamaq məshur?!
        Qadın! Ey möhtərəm ənisi-bəşər!
        Sənsiz öksüz qalırdı hissi-bəşər!

*Böyükada*

## BİR QIZIN SON FƏRYADI, YAXUD ZİNDAN GUŞƏSİNDƏN BİR SƏS

Yürəkdə qaldı məramım, duyulmaz oldu səsim;
Gözümdə qalmadı nur, ah, iştə son nəfəsim!..
Məzalim atəşi yaqdıqca qavrulur bədənim,
Nə hali-müdhiş! Aman, son günüm bumuydu bənim!?
Solub bahari-şəbabım, dəyişdi hər halım;
Bu surətim, bu vücudum, bu dönmüş iqbalım;
Bənimlə doğmuş imiş sanki iztirabü kədər!..
Zəmani-şəb... uyuyor hər kəs, istirahət edər.
Bütün cihan uyuyor, bisəda, tüyurü vühuş,
Nücumi-zahirə həp nimxab, həp bihuş...
Sükunü heyrətə dalmış fəzayi-naməhdud.
Təbiət aləmi olmuş da sanki xabalud;
Bana ənis olacaq iştə bir soluq sima!
Qəmər, bənim kibi müğbər, o şəbnəvərdi-səma.
Bənim kibi o da bixabü müztərib-əhval...
Bənim kibi o da bitab, həm qərini-zəval...
Bu fərqimiz var: o, varəsteyi-məzalimdir,
Bənim nəsibi-həyatımsa zülmi-zalimdir.
O, bəxtiyardır, artıq əsarət anlamıyor,
Gözəl-gözəl gəzinir, hür yaşar o solğun nur.
Fəqət, üzər bəni hər ləhzə bir vərəmli xəyal,
Əcəlmi yaqlaşıyor? Ya nədir bu küskün hal?
Nədir bu teyfi-məqabir gözümdə şö'ləfüruz!?
Tükətdi səbrimi, ya Rəb, bu hali-vicdansuz.

Xayır, xayır, yaşamam qeyri, ey kədərli həyat!

Çəkil də get, bana rahət ver! İstəməm heyhat!..
Bən istəməm yaşamaq, hər ümidim oldu təbah,
Yürəkdə qaldı bütün dərdü həsrətim, eyvah!..

Sən, iştə ey gecənin aşinayi-razi qəmər!
Gəzib dolaşdığın afaqa eylədikcə nəzər;
Guzərgəhindəki həmşirələr, xanım qızlar
Səninlə söyləşərək həsbihal edər, zinhar!
Unutma, halımı aç söylə! Yalnız onlar için
Bu can çəkişməyə verdim riza ki, bəlkə yarın
Bu zülmü duymayaraq bəxtiyar olur onlar.
Əvət, bu nəmli, işıqsız, bu kirli zindanlar
Yerim deyildi, fəqət kəndim ixtiyar etdim,
Bənim bu, iştə, vəzifəmdi. Əlvida!. Getdim.

*Tiflis*

## QOMŞU ÇİÇƏYİ

Sarışın balkonun kənarında,
Yazın atəşli zərbəsilə solub
Fəri uçmuş beş-altı saqsı çiçək,
Gah bihiss, gah titrəyərək,
Bəkliyor mavigözlü bir mələyin
Nurdan dökmə nazik əllərini.

Həpsinin hüsni-pürqübarında
Artıyor hər dəqiqə hüzni-qürub;
Gələrək şimdi bir pəriyi-şəbab,
Əldə bir dəsti eyliyor sirab;
İştə bayğın baqışlı hər çiçəyin
Güldürür çöhreyi-mükəddərini.

Nə qadar xoş... o nazənin rəftar!
Nə dilaşub... o zülfi-zərrintar!
Həp o simayi-şux, o nimnigah,
O şəhamətli, atəşin gözlər
Ruhi-əş’arə bir təcəlligah
Olaraq nuri-e’tila sərpər.

Bir çiçəkdən seçilmiyor hərgiz,
Həm də bir qönçədir ki, pək nadir...
O gül əndamı iştə seyr ediniz!
Pəmbə güldən gözəl deyil də nədir?!
Mütəsəvvirmidir ki, bir insan
Onu görsün də olmasın heyran?

## NƏCMİ-GEYSUDAR

Sən ey yüksək fəzalardan aşan səyyahi-zərrinpər!
Uzaq, ey nəcmi-geysudar! Uzaq gəz, ərzə yaqlaşma!
Uzaqdan pək gözəlsin, mənzərən pək tatlı, pək dilbər,
Məhəbbət yoq təqərrübdə, şu məhrəkdən saqın, şaşma!

Təfərrücgahın ey səyyari-ülvi, pək geniş... yüksəl!
Bu alçaq yer sana layiq deyil, yüksəl, yaqın gəlmə!
Münəvvər saçlarınmış sanki zəhralud bir məş'əl,
Yaqarmış xəlqi!.. Hər kəs qorquyor, uç get, saqın gəlmə!

Bizim topraqda naməqbul olur biganələr daim,
Onunçün sevməz insanlar səni, hər kəsdə nifrət var.
Məramın qəhr isə, get! Onları təsmim edər daim
Şu ərz üstündə yüz binlərcə geysudar yıldızlar.

*Bakı*

## İBTİLAYİ-QƏRAM

Dinliyorkən lisani-şe'rimi bən,
Bir yetimin lisani-halı kibi,
Yüksəlir bir inilti qəlbimdən,
Titrətir ruhi-lərzədar şəbi.

Daima bir səraba aldanırım;
Ağlarım, sızlarım, fəqət o zaman,
Ruhi-şe'rimdə çırpınır sanırım
Bir qırıqlıq, bir ehtiyaci-nihan.

Öylə bir ehtiyaci-mübhəm ki;
Ona vabəstə e'tilayi-xəyal,
Şe'ri-şair bulur onunla kamal.

İştə ahəngi-leyl, səmti-səma,
İştə dalğın dəniz, diyor sanki
Həp sükuti-bəliğ içində bana:
Ruhi-şairdə mevcidi-ilham
Bir məziyyət var: "İbtilayi-qəram!.."

## ŞE’R MƏFTUNU

Pürhəvəs, şe’rə mübtəla bir qız:
Nura aşiq sevimli bir yıldız.
Kəndi bir şe’ri-pürməlahət ikən,
Şe’rə bilməm bu incizab nədən?!.
Daima gözlərində şe’r oqunur,
Gəliyor iştə, həm də pək məsrur...
Göydən enmiş mələk kibi pürnur,
Göyə çıqmış bəşər kibi məğrur...
Bu nə fitrət! Nə hali-vəcdəfruz?
İştə hər bir ədası taqətsuz.
Nə qədər şairanə bir sima!
Həp gözəlliklər onda cilvənüma...
Bir həzin kölgə var o saçlarda,
Gecə qoynunda bəsləmiş guya.
Nə müəlla bəşər? Nə nazlı mələk!..
Göydən əsla ayırmıyor gözünü,
O bir afət, o bir sevimli çiçək
Ki, öpər pəmbə dalğalar yüzünü.
Ona biganədir cihanda kədər,
Daima şux, daima dilbər...
Hüsnü eşq eyləsə təcəssüm əgər,
Böylə bir qız qiyafətində gəzər.

*İstanbul*

## DƏNİZ PƏRİSİ

Hər tərəf nəş'ədar, hər yer şən...
Yenə hər şeydə bir təravət var.
Günəşin cilveyi-lətifindən
Vəcdə gəlməkdə nevərusi-bahar.

Dənizin səfheyi-səma rəngi
Yenə elmasparələr saçıyor.
Çırpınan ruh için oqur sanki
Hər küçük dalğa bir nəşideyi-nur.

Pəmbə şəmsiyyəsilə bir dilbər,
İştə sahil boyunca sallanaraq,
Süzülən pəmbə bir qayıqda yüzər,
Bir Mələkdir ki, xabgahi-şəfəq...

Mayıs oqşar da gül yanaqlarını,
Bayılır, məsti-zevq olub titrər.
Gah öpər möhtəris dodaqlarını
Əndəlibanə tatlı zümzümələr.

Ah... bilməm bu hüsni-xoşəlhan
Hanki qəlbin şükuftə qönçəsidir?
Bu mələk qız, bu nuri-xoşcərəyan
Əcəba, bir dəniz pərisimidir!?

*Kağızxanə*

## BİLMƏM KİMƏ?..

Çocuqluğumda eşitmişdim eşqin atəşi var,
Diyordular ki, o hər hanki qəlbə düşsə yaqar.
Bu incə söz o zaman pək tuhaf gəlirdi bana,
Gülümsəyib də diyordum: zavallı insanlar!
Nasıl da hər sözə bel bağlayıb da aldanıyor?
Nədən bu eşq əcəba xalqı eyləsin bizar?
Bu yolda yansa da, qəhr olsa, kimsə dönməz imiş!
Demək, bu öylə bir əfsanədir ki, əfsunkar!
Bu sirri duymaq için uyqusuz qalıb, gecələr
Düşüncə ruhumu əzdikcə eylədim israr...
Şu vəq'ədən nə qədər keçdi bilmədim, bir gün
Önümdə ərzi-vücud etdi bir mələkrüxsar.
Baqıb-baqıb duruyorkən sitəmli gözlərinə,
Yaşardı gözlərim, oldum o gündən eşqə düçar.
O gündən iştə bütün bənliyim əsir olaraq,
Onun xəyali-bədiiylə bir təsəlli arar.
Fəqət o nazlı mələk kimdi? Of, bilməm ki!
O bir pəriyyi-səmavidi: şuxü cazibədar.
Sən!.. Ah, əvət, o pəriçöhrə nazənin sən idin,
Səninlə ruhuma ilham olundu həp əsrar.
Nə var ki, bilməm o şahin baqışlı gözlərdə?!
Gəlincə xatirə qəlbimdə bin cərihə açar.
Gönül, bəlalı gönül yadi-həsrətinlə sənin,
Gözəl mələk, gecə-gündüz yanar, yanar, sızlar.
Cihanda hər nə gözəllik təsadüf etsə bana,
Gözüm fəqət səni izlər, səninlə nəş'ə duyar.
Sən olmasan verəməzdim bən eşqə bir mə'na,

Bu yolda sən bana rəhbərsin, eyləməm inkar.
Bu yolda həp bana təlqini-hiss edən sənsin,
Gönül fəqət səni sevməkdə bir səadət umar,
Əsiri-eşqini lakin unutma, insaf et!
O bir təbəssümə qane... o bir xəyala qoşar.
Xəyal!.. Əvət, yaşatan yalnız əhli-halı odur,
Yaşarsa bir gönül, az-çoq xəyal içində yaşar.

## BU GECƏ

Dərin-dərin uçurumlar, vərəmli fırtınalar
Bütün-bütün sıqıb əzməkdə ruhumu bu gecə.
Səninlə, ah, sənin yadi-həsrətinlə yanar,
Yanar, səni anarım, dilbərim! Fəqət səncə,
Bu bir həyati-müxəyyəl, həzin bir əyləncə...

Gözəl mələk! Gecələr daima səmaya baqar,
Qəmərdən, ah... o soluq çöhrədən səni sorarım.
Onun ziyayi-rəqiqiylə həp uçar, qalqar,
Arar, bulur, səni dinlər kədərli duyğularım,
Kəsik təranələrim, həp zəhərli qayğularım.

Bütün cihan uyuyor, kainat həp dalğın...
Məgər xəyali-bəidinlə ruhi-məcruhum,
Qəmərdə birləşərək pək acıqlı, pək çılğın
Bir iştiyaq ilə giryandır, ey bənim ruhum!

Sizin üfüqdə qəmər böylə, pəkmi nazlı doğar?
Nədən cəbini-lətifin səhabəpuşi-hicab!?
Hərimi-nazinə pərvaz edən şüai-nəzər
Qalır zülami-təhəyyürdə münkəsir, bitab...

## A…H, YALNIZ SƏN!

Ruhum, ey aşiyani-əsrarım!
Həp uzaq, bəzmi-vüslətindən uzaq,
Qürbət ellərdə təlxkam olaraq,
Səni özlər də sızlayıb yanarım.

Gecə-gündüz həyati-müztəribim
Sənin alami-həsrətinlə sönər;
Fikrə gəldikcə həp keçən günlər,
Daima çırpınıb durur qəlbim.

Səndən ayrıldığım zaman o gözəl,
Tatlı, süzgün baqışların guya
Pək dərin bir sükut içində bana
Demək istərdi: "Get, fəqət tez gəl!"

Öpüb əmdikcə tombul əllərini,
Ruhum ağlardı, iştə sən o zaman
Oqudun gözlərimdə pürhəyəcan
Bir əsirin sönən əməllərini.

Sonra titrək, kəsik əda ilə sən
Yalınız: "Get, saqın unutma!" - dedin.
Uça bilsən də şimdi bir gəlsən,
Halımı seyr edib olurdun əmin.

İştə! Hər nevbahara nəş'ə verən
Qönçələr, nəğmələr, təbəssümlər,
Al şəfəqlər, nəsimi-şuxi-səhər
Bana biganə... a…h! Yalnız sən!

## QƏMƏR!..

*A.Sura*

Odamda bir gecə səbrim tükəndi, bitdi macalım;
Vücudum atəşi-humma içində həp yanıyordu.
Bütün mühitimi süzdükcə artıyordu məlalım,
Gözümdə bir sürü teyfi-əməl qanatlanıyordu.

Səma gözəldi, hava safü xəndəriz... fəqət bən
Bu iğbirari-siyəhrəng içində məhv oluyordum;
Dəniz kənarına endim, dərin-dərin düşünürkən,
Kədərlərim bəni üzmüşdü, bir tərəfdə oturdum.

Dəniz də heyrətə dalmış, bənim kibi o da düşgün...
Bənim kibi o da müstəğrəqi-xəyal idi; lakin
Bən ağlıyordum, o, xamuş... bən həyatıma küskün,
O eyliyordu dərağuş önümdə bir təni-simin.

Qəmər, o çöhreyi-dilbər, o nuri-cazibəpərvər,
Çiçəklənirdi onun sinəsində hər yeri üryan;
Qəmər, o misrə'i-bərcəstə, a…h o şe'ri-münəvvər,
Gülümsüyor, onu əmdikcə mavi bir ləbi-rəyyan.

Bəni o nuri-lətif eyləmişdi kəndinə məftun;
O simbər qızı dalğın nəzərlərimlə öpərkən
"Qəmər! Qəmər!.." deyə qarşımda sanki bir
dili-məhzun
Anar da keçmişi, həp çırpınırdı inliyərəkdən.

"Bu hanki səs, bu nasıl bir iniltidir?" deyə daldım,
Həmən önümdə sənin çöhreyi-həzinini buldum.

## NİÇİN!?

Bən niçin məsti-eşqi-yar oldum?
Bu nə xülya ki, bən düçar oldum?
Bən niçin böylə dilfikar oldum?
Niyə məftuni-zülfı-tar oldum?
Niyə bədbəxti-ruzigar oldum?

Mərhəmətsiz mələk, ədalı gözəl;
Gör nələr yapdı bir visalə bədəl!
Yeni gülmək dilərdi şəmsi-əməl,
A…h pək bəxtiyar idim əvvəl...
Bən niçin məsti-eşqi-yar oldum?

Sevərim... Son nəfəsdə inlərkən
Yenə atmam o nazlı dilbəri bən.
O gözəl gözlər, a…h o qönçə dəhən,
Çıqmıyor bir dəqiqə fikrimdən,
Bu nə xülya ki, bən düçar oldum?

Səhər aşiq o nurun ismətinə;
Bayılır pəmbə gül təravətinə;
Cümlə heyran ikən nəzakətinə,
Uyar-uymaz onun məhəbbətinə,
Bən niçin böylə dilfikar oldum?

Hər gönül bağlı bir vəfakarə;
Arıyor dərdi-eşqə bir çarə.
Bən niçin böylə qaldım avarə?

Niçin uydum o çeşmi-səhharə?
Niyə məftuni-zülfi-tar oldum?

Nə olur? Beş dəqiqə ləbbərləb
Yaşasaydıq onunla məsti-tərəb;
Of, bilməm ki... Mərhəmət, ya Rəb!
Bəni qəhr etdi iztirabü təəb,
İştə! Bədbəxti-ruzigar oldum.

## GET!

Bana anlatma ki, eşq, aləmi-sevda nə imiş?
Bilirim bən səni, get! Hər sözün əfsanə imiş.
Get, gülüm, get, gözəlim! Başqa bir aşiq ara, bul!
Duydum artıq sənin eşqindəki mə’na nə imiş!..
Bivəfasın, mələk olsan belə uymam daha, get!
Kim ki, uymuş sana, gönlüm kibi divanə imiş.
Yetişir, get! Bəni qəhr eyləmə, tərsa qızı, get!
Anladıq şəfqəti-ayini-məsiha nə imiş!
Səni bir sadədil, azadə mələk sanmış idim,
Neyləyim!.. A…h gönül ruhuna biganə imiş.
Səni təqdis edərək bir daha sevməm əsla,
Nə imiş sanki bu eşq!?.. Aşiqi-şeyda nə imiş!
Aləmi-zevqü səfadan bana bəhs etmə, saqın!
Bildik artıq bu cihan mülkü nə viranə imiş!..

## MƏ’YUS BİR QƏLBİN FƏRYADI

Ey nəşvəli, ey işvəli ümmid!
Lə’nət sana, ey afəti-cavid!
Artıq yetər, əl çək, bən usandım;
Əvvəl səni bir bakirə sandım,
Arqan sıra gəzdim yapa-yalnız,
Hər məkrinə uydum sənin, ay qız!
Get! Anladım artıq nə imişsin,
Duydum ki, nasıl fitnə imişsin.
Bir başqa dilaşüftəyi get, bul!
Keç, get! Sırıtıb durma, kənar ol!
Dəf’ ol ki, gözüm görməsin əsla,
Yaqdın bəni, ey sıtmalı xulya!
Qarşımda durub titrəmə, ey zill!
Bitdim, daha yoq bəndə təhəmmül.
İnsan nə qədər maili-qəflət!?
Səndən umuyor zevqi-səadət!
Var bir quru hikmət, o da yanlış...
Ümmid ilə guya yaşanırmış!
Bir söz ki: yalan, saçma, xurafat...
Aldanmam o əfsanəyə, heyhat!..

Ey yə’s! Sən ey hüzni-sərazad!
Ağuşuma gəl, qıl bəni dilşad!
Ruhimlə bərabər yaşa yalnız,
Gəl gəlbimə gir, ey sarı yıldız.
Yalnız bana ol munisü həmdəm!
Yalnız olayım bən sana məhrəm,

Sevdim səni, ey sevgili dilbər!
Gəl, ağlayalım şimdi bərabər.
Çöhrən mütəvərrim kibi küskün...
Səndən çəkinir hər kəs onunçün.
Dalğın baqışından qaçar insan,
Bilməm nədən etmiş bəni heyran?
Aləm səni zənn etsə də çirkin,
Lakin bana sor! - bəncə gözəlsin.
Hürr olmaq için xeyli yoruldum,
Eş kəndimə yalnız səni buldum.
Zira sana yar olmayan insan
Zənciri-əsarətdə verir can!
Ruhum irər ülviyyətə səndən,
Sənsiz əzilir, məhv olurum bən.
Qəlbimdə əgər varsa mətanət,
Səndən, yenə səndəndir o qüvvət.

Ümmid ilə insana gələn hiss
Ya kizbü riyadır, ya təbəsbüs.
Lakin sana məftun olan əhrar,
Laqeyd olur, ey yari-füsunkar!
Miskin yaşamaz, zülmə tapınmaz,
Rahət nə, səfalət nədir anmaz.

Sənsiz yaşasam, bağrım olur qan,
Qoş, gəl bana, ey rəhbəri-vicdan!
Uç, gəl bana, ey həmdəmi-hissim,
Bir dərbədərim, yoq bir ənisim.
Sənsiz yaşamaq bəncə tənəzzül,
Sənsiz gəbərirsəm o da bir züll...
Gəl, ruhumu güldür də çəkil, get!
Ya qəlbimi yar, parçala, məhv et!..

## SON BAHARDA

*Həmşirəzadəm için*

Kədərli, sisli bir aqşamdı, ağlıyordu səma;
Bütün üfüqləri sarmışdı möhtəriz, məhcub
Bulutlar... iştə o matəmnisar dəmdə bana
Uzatdı dəsti-qəza pək acıqlı bir məktub.

O bir kitabeyi-məqbərdi, eyləyincə nəzər,
Gözüm qarardı, təəssürlə münfəil, məbhut.
Düşündüm, ağladım; artıq o şəb sabaha qədər,
Gözümdə dalğalanıb durdu süslü bir tabut.

Sənin o nuri-təbəssüm saçan dodaqlarını,
O nazlı çöhrəni andıqca tirə oldu xəyal.
İnanmaq istəmiyordum ki, gül yanaqlarını
Əcəl xəzan kibi çöksün də eyləsin pamal.

Yazıq!.. O yaşda kim ümid edər ki, böylə,
sənin
Bahari-hüsnün olur zibi-hicləgahi-ədəm?
Doquz yaşında umulmaz bir iftiraqi-həzin!
Əcəb, şükufeyi-sevdamısın?[1] Nəsin? Bilməm...

Niçin, niçin solu verdin, zavallı Mə'suməm?
Yaraşmıyor o kəfən duşi-nazəninində!

---

[1] Şükufeyi-sevda - Bir qaç gündə açıb solu verən bir çiçəkdir (*müəllif*).

Nədir o çini-müəbbəd, quzum, cəbinində?
Bu kainata nədən küsdün, ey mələk, bilməm!?..

Nədən həyata gücəndin? Bilinmiyor səbəbi;
Xudamı gördü səzavar qürbi-rəhmətinə?
Kitabi-hüsnünü bir şe'ri-naşənidə kibi,
Oqur-oqur, doyamazdım onun səbahətinə.

Anar o dəmləri bən şimdi müztərib, düşkün,
Kamali-yə'slə tiflanə ahu zar edərim.
Səninlə, baq, sənin alami-həsrətinlə bu gün
Ənini-matəmə bənzər bütün nəşidələrim.

Gözümdə şimdi cihan bir sərabi-giryənümud...
Bütün təbiəti sarmaqda bir məlalü kədər;
Sevimli, tazə çiçəklər olub xəzanalud,
O hüsni-naimi-cavidə sanki matəm edər.

Yarın sənin kibi onlar da həp sönüb bitəcək,
Bu gündən iştə o solğun, vərəmli çöhrələri
Yarınki levheyi-matəmgüzini ərz edərək,
Diyor ki, hər fərəhin var sonunda bir kədəri.

Əvət, gözəl mələyim! Hər səfa ələmlə bitər;
Bu bir lətifeyi-qüdrət, bu bir həqiqətdir.
Fəqət bahari-şəbabında bir şükufeyi-tər
Açılmadan sararıb solsa, mütləqa acınır.

Bu nüktə, iştə, budur ruhumu müəzzəb edən,
Düşündürən bəni ancaq bu... yoqsa inləyərək -
Sönən həyati-bəşər sadə bir təhəvvüldən,
Bir inqilabi-həzindən ibarət olsa gərək...

*İstanbul, 1909*

# MÜXTƏLİF
# ŞE'RLƏR

***

Verdim o gün ki, zülfi-pərişanə gönlümü,
Saldı nigar o zülfdə zindanə gönlümü.

Yalvardım iczinən ona, bəlkə xilas edə,
Zənciri-zülfə bağladı divanə gönlümü.

Hər qədr uydum ol büti-tərsa cəmalinə,
Yandırdı şəm'i-hüsnə çü pərvanə gönlümü.

Gülzari-hüsnə Yusifi-dil çıxdı seyr edə,
Saldı o yar çahi-zənəxdanə gönlümü.

Etdikcə mən məhəbbət o kafər balasinə,
Etdi cəfayi-naz ilə viranə gönlümü.

Vəslə yetirməyib, gecə-gündüz fəraqdə
Təbdil edibdi laləsifət qanə gönlümü.

Bəzmi-vüsalə həsrəti-ümmidvar idim.
Saldı bəlayi-firqətə məstanə gönlümü.

Gülçini-binəva idim, oldum müridi-şeyx,
Yandırmışam mən atəşi-hicranə gönlümü.

## QƏZƏL

Qəlbimi çaldı yarın nazla Məsiha nəfəsi,
Nə edim, yoxdu yazıq aşiqinin dadrəsi.

Məni məftun eləmiş nazlı gözəllər daim,
Bircə an da könülün eşqə azalmaz həvəsi.

Kimə izhar eləyim dərdimi, öldüm qəmdən,
Nə ürək qaldı, nə yarın mənə xoş söz deməsi.

Vermişəm qəlbimi bir işvəli tərsa qızına,
Ki çox aşiqlər ilə dolmuş onun dairəsi.

Ona huri demərəm, huridə olmaz belə naz,
Görməmişdir belə bir nazlı bəşər silsiləsi.

Qəlbimin Yusifini saldı zənəxdan çahına,
Sanki bir bülbülü həbs etdi onun can qəfəsi.

De yazıq Gülçinə, məcnunluğunu tərk eləsin,
Çünki Leyli dəvəsindən kəsilib zəng səsi.

*(Farscadan tərcümə edəni M.Soltan)*

## QƏZƏL

Ruhumda yar üçün yenə sevda cəlalı var,
Hüsnündə gör onun necə Yusif cəmalı var!

Açmışdı qol-qanad yenə şəhbazı təb'imin,
Eşqin fəzası övcünə uçmaq xəyalı var.

Yə'qub kimi kor oldu gözüm ağlamaqla, ah,
Çün Yusifin fəraqı ucundan məlalı var.

Ay üzlü yarımın qədi bir sərvdir səhi,
Üzdə — günəş, qaşında gözəl cüt hilalı var.

Səhvən qədinə sərv dedim, sərv bağlıdır,
Yaqut ləblərində onun mey xisalı var.

Almış xumar gözləri səbrü qərarımı,
Etmiş şikar könlümü, qətl ehtimalı var.

Qəddim əyildi ol sənəmin əyri zülfütək,
Qəlbim əsiri oldu o zülfün, zəvalı var.

Zahid! Nəsihətin bizə lazım deyil, burax,
Yarın dodaqlarında da Kövsər zülalı var.

Gülçinə yar vəsli behiştdən də yaxşıdır,
Çox söyləmə ki, orda pərilər vüsalı var.

*(Farscadan tərcümə edəni M.Soltan)*

## QƏZƏL

Məndən fələk ayırdı vəfapişə yarimi,
Tar etdi zülfi-yar kimi ruzigarimi.

Səbrim tükəndi, yox qəmi-hicranə taqətim,
Hicri-nigar əlimdən alıb ixtiyarimi.

Bir əhli-dərd yoxdu bu viranə şəhrdə,
Tainki kəşf edim ona mən hali-zarimi.

Dərdi-fəraq dəhrdə bir müşkül əmr imiş,
Ya Rəb, tükətdi taqətü səbrü qərarimi.

Bəzmi-vüsalə məhrəm olan vəqtdə bilmədim
Məndən fələk kənar edər ol gülüzarimi.

Bir aşiqəm ki, laləsifət tuş qılmışam
Tiri-bəlaya mən bu dili-dağdarimi.

Ya Rəb, əsib səmumi-cəfa bir dəqiqədə
Qıldı əvəz xəzana mənim növbaharimi.

Başə əcəl yetişdi, fəraq öldürür məni,
Bir görmədim o ahu baxışlı nigarimi.

Hər kəs ki, Arifa, çəkib eşqin bəlasini,
Mən’ eyləməz görəndə mənim ahü zarimi.

## QƏZƏL

Olubdu qəlbimə hakim mənim məlali-vətən,
Başımda şur ilə məskən salıb xəyali-vətən.

Vətən, vətən deyərək hər diyara səs salıram.
Düşərmi bircə dilimdən mənim məqali-vətən[1]?

Vətən məhəbbətini əmr edibdi peyğəmbər,
Xoş ol kəsə, ona həmdəm olub vüsali-vətən...

Neçün şərafətini, fəxrini verib əldən,
Bu qədər yurduna biganədir ricali-vətən?

Ürək dolubdu nədən, sanki qan piyaləsidir,
Tapıbdır əksini qəlbimdə bəlkə hali-vətən?

Zəmanə ötsə də möhnətli, qanlı qəlbimdən,
Əminəm, heç də silinməz bu ibtizali[2] - vətən.

Tərəhhüm eylə mənə, hüdhüdi-Səba, çatdır,
Səlamımı eşidə bəlkə növnihali-vətən.

Gərəkdi əzm ilə, hümmətlə ittihad etmək!

---

[1] Vətən söhbəti (*red.*)
[2] Zillət (*red.*)

Sizinlə bağlıdır iqbalü həm zəvali-vətən.

Əgər sual edələr — Salikin xəyalı nədir?
Deyin həqiqəti, ancaq olub məali-vətən.

*(Farscadan tərcümə edəni İ.Cəfərpur)*

## HACI ZEYNALABİDİN TAĞIYEVİN YARDIMI MÜNASİBƏTİLƏ

Ədiblərin qələmi belə hekayə yazdı,
Bülbüllərin dilindən gülzarə namə yazdı.
Şən nəğməli tutilər yaşıl rəngli qələmlə,
Çox bəzəklər yaratdı, gülşənsərayə yazdı.
Hər ölkədə, diyarda, şəhər, kənd məktəbinə,
Namələrlə bərabər çoxlu xitabə yazdı.
Məclislərdə deyilən sözlər, xitabələrdən,
Onun üçün katiblər bir çox hekayə yazdı.
Naxçıvanda gözəl bir yeni məktəb açıldı,
O böyük şəxs adına daşda abidə yazdı.
Müsəlmanlar onunla sevindi, fərəhləndi,
Sözsüz bu bir dərmandır, xalqın dərdinə yazdı.
Budur o səxavətli Hacı Zeynalabidin,
Soyadı Tağıyevdir, həmin ünvanə yazdı.
Min manat bəxşiş verib, böyük bir yardım ilə,
Yerlərdə və göylərdə bir parlaq ayə yazdı.
Tükənməz ətasilə ümumxalq arasında,
Günəş kimi nur saçmış geniş səmayə yazdı.
Qızların təhsiliyçün bir çox məktəblər açdı,
Onlar üçün arxayın, möhkəm himayə yazdı.
Qadınlara oxumaq, böyük ya kiçik olsun,
Daha lazımdır hər bir şeydən ziyadə yazdı.
Bakıda mədəniyyət işıqları yandırdı,
Mətbuat onun haqda hər gün bir namə yazdı.
Dəmiryol işlərini əlinə almasıyla,
Şə’ni müsəlmanların qalxdı ucayə yazdı.

Kimdir Hatəm Tai ki, ona bərabər olsun,
Tayı yox, Süleymana onu həmpayə yazdı.
Avropadakı məşhur jurnal, qəzetlər belə,
Haqqında çox tə'riflər deyib məqalə yazdı.
Nuşirəvana bənzər, ölməzdir o, yaşayar,
Adı itməz, ömrünə olmaz nəhayə yazdı.
Səxavətin gücilə bütün dərdlər sağalar,
Səxavətlə mis belə dönər kimyayə yazdı.
Elm əsasını qoyan, maarifin hamisi,
Elm əhlinə süd verən mehriban dayə yazdı.
Bir çox pullar sərf etdi elm, hünər yolunda,
Müdrik adı, şöhrəti qalxır səmayə yazdı.
Biliyin faydası var həm dünya, həm üqbada,
Biliklə əldə olar məqsəd və qayə yazdı.
Elm – gülüstandırsa, o, elmin bağbanıdır,
Çiçəklənəcək məktəb yaxın zəmanə yazdı.
Ağaclar yaşıllaşır elmin işığı ilə,
Geyindirir onları yaşıl qəbayə yazdı.
Çox çəkmədən ağaclar gözəl meyvələr ilə,
Rəngarəng incilərdən alar pirayə yazdı.
İndi Qafqaz əhlinə vacibdir elm oxumaq,
Göz açmalıdır əhli işıq dünyayə yazdı.
Başqa millətlər hamı bəhrə almış elmdən,
Bizə qalmışdır ancaq baxmaq ətayə yazdı.
Xarici xalqlar daim hərəkətdə zamantək,
Ümidi müsəlmanın qalmış ah-vayə yazdı.
İndi hamıdan artıq elm gərəkdir bizlərə,
Savadsızlıq qul edər, salar bəlayə yazdı.
Naxçıvanda başlanmış yeni tədbir bu yolda,
Şükr olsun o qüdrətli, böyük Xudayə yazdı.
Digər xalqlartək bu xalq elmə sahib olacaq,
Bu xalqın ümidinə yoxdur nəhayə yazdı.
Xalq elçiləri ömrü uzun olsun, əbədi,
Elmin talibləri də çatsın səfayə yazdı.
Çox çəkməz ki, bizlər də mədəniyyət alarıq,
Şükür böyük Allaha, o bihəmtayə yazdı.

Hacı Zenalabidin uzun illər ömr etsin,
Rəhim Allahdan olsun ona himayə yazdı.
Tai istərdi olsun səxavətdə ikinci,
Damla olmaz bərabər sonsuz dəryayə yazdı.
Ondan minlərlə yardım edildi məktəblərə,
Çatdıraq Şərq xalqını parlaq ziyayə yazdı.
Durduqca dünya, adı çıxmayacaq yadlardan,
Heç vaxt olmayacaq o, xalqa biganə, yazdı.
Allah bəndəsi içrə sən yeganə yaranmış,
Dövran şahıtək saldın sən yerə sayə yazdı.
Adın böyük, lakin çox təvazökar olmusan,
Səni kiçildən nadan düşsün bəlayə yazdı.
Oxutdun yeni sistem müəllim məktəbində,
Baxma, deyildi sənə minlər kinayə, yazdı.
Göndərildi bu şeir şagirdindən Sidqiyə,
Nöqsanlı olsa da o, böyük ustadə yazdı.
Bu sözləri ən kiçik şagirdin yazmış sənə,
Odlu şam ətrafında uçan pərvanə yazdı.

*(Fars dilindən tərcümə)*

## MƏRSİYƏ

Kərbəla padşahının adını eşidən kəs,
Dərhal o əza məclisinə matəm saxlar.
Matəm məclisində başına döyər,
Həmin məclisdə şah ilə gəda arasında fərq olmaz.
Ey ürək, sən bir an da bu müsibətdən qafil olma,
Cəza günündə onun şəfaətindən başqa heç bir
mükafat yoxdur.
Əgər bir an açıq gözlə baxsan,
Şəhidlər ağası, susuz şaha sən;
Fatimə bir küncdə kədərli oturduğunu görərsən.
O gecə nalə edərək, əza saxlamışdır.
Oğlunun cənazəsinə baxaraq, deyir:
Məgər sənin qatilin Allahdan şərm etməyib?
Zeynəb isə göz yaşlarını axıdaraq,
Səhərdən axşamadək şəhid şahına
matəm saxlamışdır.
Bir an, Arif, bu müsibətdən qafil olma,
Ariflər məclisinə sənin vücudun bir qənimətdir.

*(Fars dilindən sətri tərcümə)*

## NÖVHƏ

Gönlüm quşu geyib genə matəm libasını,
Ağaz edibdi nəğmeyi-möhnət fəzasını.
Gəlmiş fəğanə neytək ucaldıb nəvasını,
Bərpa qılıb nə növ müsibət əsasını,
Ta bir doyunca saxlıya millət əzasını.

Millət vücudi fani olub, iki göz qalıb,
İslam dini tərk olub, ancaq ki, söz qalıb,
Xaki-vətən həvaya gedib, bəlkə toz qalıb,
Sönmüş təməddün atəşimiz, bircə köz qalıb,
Söndürmək istiyorlar onun da ziyasını.

Olduq cəhalətilə əcəb dəstgiri-ğəm,
Hər səmtdən bizə yetişir möhnətü ələm.
Tab eylədik nə zillətilə, yetdi hər sitəm.
Məhsub qıldı bizləri əğyari-kəl'ədəm,
İndi rəva bilir bizə hər bir cəfasını.

Bihimmət olduq, olmadı bizlərdə bir xəyal,
Əğyar içində olduq odur kim füsürdəhal,
Çün əmr edibdi himmət için mürşidi-kəmal,
«Han təqləül-cibal məə himmətür-rical»*
Himmətlə kəsb ediblə, təməddün səfasını.

---

* «Kişilərin himməti dağı yerindən qaldırar»

Hər millət öz hüququna çox mail oldular,
Hər bir rəşadət eylədilər, sail oldular.
Axırda istədiklərinə nail oldular.
Odlar töküldü gərçi, vəli xoşdil oldular,
Çox kimsə çün məmatda tapmış bəqasını.

Qismət gər istəsən sana abi-həyat ola,
Zülmata qoy qədəm ki, nəzərdə məmat ola,
Heyhat o kəs ki, nərdi-məarifdə mat ola,
Lazımdı nərdbaz üqulül-zəvat ola,
Millət yolunda gözləyə ta haq rizasını.

Hər millət öz təriqinə hürriyət axtarır,
Kəsb etdigi məarifə bir qiymət axtarır,
Hər nəhv olursa, öz işinə surət axtarır.
Cəhd ilə müslimin özünə töhmət axtarır,
Geymiş həmişə əgninə qəflət libasını.

Gözdən rəvadı su yerinə xuni-dil gələ,
Qan ağla, ey bəlalı göz, aramsan hələ?
Aləm köçüb, yatıbdı bizim miri-qafilə,
Va həsrəta, əcəb işimiz düşdü müşkülə,
Bu işlərin fəna görürəm intihasını.

Ögrətdi bilmirəm bizi kim bu cəhalətə?
Vəhşilik irs olub bu gün əbnayi-millətə.
Mö’tad ediblə yaxşı bizi xabi-qəflətə.
Biz millətin ayılmağı qaldı qiyamətə,
Baislərin Xuda özü versin bəlasını.

Oldu əcəb bu əsrdə pəjmürdə halımız,
Lal oldu qəflətilə lisanü məqalımız,
Nə ar var, nə elmü hünər, nə kamalımız,
Yox bircə məktəb açmağa əsla xəyalımız,
Ta görməyək bu halilə millət bəlasını.

Həll eyləmək qabaqca gərək tez bu müşküli,
Bilsin vətən çocuqları əvvəl vətən dili.
Gəlməz nəvayə görməsə bülbül çəmən güli,
Təsdiq edər danışdırasan hər bir aqili,
Hər millət öz dilində tapıb müddəasını.

İşlər fənadı, bir neçə məktəblər olmasa,
Onlarda cannisar müəllimlər olmasa,
Qafqazda yox müəllimimiz, digər olmasa,
Bunlar ki, var səlahidi, vallah gər olmasa,
Mütləq xərab ediblə təməddün binasını.

İslamdan qalan bizə bir ad olub fəqət,
Cəhlilə mə'rifət evi bərbad olub fəqət.
Əbnayi-millət öz dilinə yad olub fəqət,
Cansız vücudlar bizə ustad olub fəqət,
Viran ediblə zülmilə millət əsasını.

Bu xoş zamanda yüz çevirib bəhcət aləmi,
Qılmış əhatə ne'məti-hürriyyət aləmi,
Ləğv oldu müstəqilə olan devlət aləmi,
Huşyar olun, amandı, gedib qəflət aləmi,
Şimdi hamı ucaldır ədalət livasını.

Xan, bəy zamanı getdi, ədalət zamanıdır,
Keçdi cəhalət aləmi, qeyrət zamanıdır.
Xam olmuyun ki, mütləqa devlət zamanıdır.
İndi maarif əsri, səadət zamanıdır,
Hər millət öz hüququnun istər bəhasını.

Qafqazda fikr qılsala sahibkəmallar,
Artıq tənəbböh artırı bu qilü qallar,
Hər bir gönüldə nəqş olunub min xəyallar,
Öz cəhlimizlə yetdi bizə infiallar,
Seyr etdik elmsizliyin axır vəfasını.

Oldu bəlayi-millətə hər kəs ki, mübtəla,
Əhli-vəfadı, bişək, olub layiqi-bəla.
Dilxun olubdu Saliki-biçarə bərməla.
Millət qəmilə az qalıb axır cünun ola,
Hər dəm odur ki, neytək ucaldır nəvasını.

*Xeyirxahi-vətən: H.Rasizadə*
*«İrşad», 18 yanvar 1906*

## HALİ-ƏSƏFİŞTİMALIMI TƏSVİRDƏ BİR AHİ-MƏZLUMANƏ:

Hər kəs aləmdə bir bəlaya düçar
Olur, amma bənim kibi olamaz.
Künci-möhnətdə qalmışam naçar,
Şu gönül dərdinə dəva bulamaz.

Ğəmi-hicrilə biqərar olmuş,
Çünki məhcuri-bəzmi-yar olmuş.

Gönlümün halını edər təsvir
Ruyi-zərdimlə çeşmi-xunbarım,
Əhli-zevq istər eyləsin təqdir
Ki, nasıl yarimiş bənim yarım.

Hər kəsin zikri bəzmi-zevqü səfa,
Virdim olmuş bənim də va əsəfa.

Edər eşq əhli rəsmi-yara məraq,
Ehtimal, alsın onla həsrətini.
Yarım olmaz bənim gözümdən iraq,
Bulmuşum çün gönüldə surətini.

Yürəgim rəngi-ərğəvan olmuş,
Ərimiş, laxta-laxta qan olmuş.

Bana layiq görürsə əhli-qərəz,

Bənzətim yarımı çəmən gülünə.
İstəməm, versələr cihanı əvəz,
Dağınıq zülfünün kəsik telinə.

Deyəməm ki, nə dürlü zibadır,
Xələt ol yara qanlı dibadır.

Yaralar cismi-nazəninində
Qızarır, sanki qönçeyi-güldür.
Zə'f məşhuddur cəbinində,
Bəncə təsviri-halı müşküldür.

Məhv olur fikr edincə cismü tənim,
Aman Allah! Odur bənim vətənim!

Bir zaman şu vətən maarifcə
Sayılırdı yer üzrə bir gülşən.
Kəsbi-qəflət edib təsadüfcə
Şimdi olmuş libası qanlı kəfən.

Get-gedə qabili-zəval olmuş,
Ayaq altında paymal olmuş.

Biz, həqiqət, zavallı yavrularız,
Şu vətən bir sevimli validədir.
Əbəs əğyardan vəfa umarız,
Babamız yoq ki?! Şöylə haldədir.

Bizə göz dikmiş ol vəfa kanı,
Madərin yavrusilədir şanı.

Ey vətən! Ey gönül pərəstarı!
Var ümidim, qüsura baqmıyasan,
Bizə tərcih edib də əğyarı
Bıraqıb nari-hicrə yaqmıyasan.
Səni bu hala saldı qəflətimiz,

Daha əfv et, yetər nədamətimiz.

Gülüyor həp tamam əhli-cihan
Şu əsəfiştimali-halimizə,
Aman Allah! Nə dərdi-bidərman,
Gəliyormiydi hiç xəyalimizə?

Bizi, ey yer! Yarıl da kamına çək!
Eyidir bu həyatdan ölmək.

Mayeyi-iftixarı ər kişinin
Vətən uğrunda bəzli-himmətdir.
Lafə baqmazlar, iştə hər kişinin
İşi ayinəsində müsbətdir.

Qeyrət istər ki, can nisar edəlim,
Mədəniyyətlə iftixar edəlim.

Daha məhv etdi artıq istibdad,
Yaqdı zülm atəşinə canımızı.
Oldu hər bir hüququmuz bərbad,
Dinləməz kimsə əlamanımızı.

Bu nə dəhşətli haldır, ya Rəb,
Bilməm ki, nədir bu hala səbəb.

Ey vətən! Səndə parlayanda ziya
Büsbütün əhli-qərb cahilimiş.
Şimdi bulmuş vüqu əksi-qəza,
Əcəba bu nasıl təğafilimiş?

Kim təsəvvür edərsə bu hali,
Varlığı hissdən olur xali.

Bizi bu hala sevq edən biar

Mütləqa xabi-cəhlə talmış imiş.
Bizi iğfal edən zaman əğyar
Devri-aləmcə mat qalmış imiş.

Şimdi qeyrət edərsə millətimiz,
Yenə evdət edər səadətimiz.

Hər şita bir baharı mevcib olur,
Vardır əmniyyətim bu hala bənim.
Yenə onlar ən əski halı bulur,
Hiç məraq etmə, nazənin vətənim.

Bana gəl! Gəl bana, zavallı vətən!
Hiç unutmam səni bu halilə bən.

Dəxi yad etmə bir də mafatı,
Möhtəmil, şahraha yol bulalım.
Hələ saçmaqda ol füyuzatı,
Ləməatilə feyziyab olalım.

Vardır ümmid sübhi-iqbalə,
Şəbi-hicrana yoqmu dünbalə?!

*1907*

## QOCA BİR TÜRKÜN VƏSİYYƏTİ

Yavrularım! Ey ömrümü şənləndirən, güldürən,
Alnı açıq oğullarım, gözəl, yosma qızlarım,
Bir qayəsiz uçurum var, ayrılmıyor önümdən,
Ömrüm vəfa etməz bana, bəlkə pək az yaşarım.

Artıq bana dar gəliyor həp şu əngin üfüqlər,
Sanki ruhum qanatlanıb şimdi pərran olacaq.
Qarşımızda yanğın kibi görünən al şəfəqlər,
Ehtimal ki, yarınkı gün bəni sönmüş bulacaq.

Əcəl güclü, bən gücsüzüm, kimsə ondan qurtulmaz,
Toplaşınız, vardır sizə bir qaç sözüm, dinləyin.
Getməliyim, vəsiyyətsiz ölsəm ruhum şad olmaz,
Qulaq verin sözlərimə, birər-birər bəlləyin.

İlk istəyim: hiç bir zaman sevgidən əl çəkməyin,
İnsan oğlu sevgi içın yaratılmış, doğmuşdur.
Yer yüzünü qardaş bilin, insan qanı dökməyin,
Bu dünyada bir qaşıq su çoq zalımlar boğmuşdur.

Kimsəyə kin bağlamıyın, yigit olun, mərd olun,
Vicdanınız elmas kibi nur saçaraq parlasın.
Qonum-qomşu, yaqın-uzaq hər kəslə həmdərd olun,
Qırıq gönülləri yapın, bıraqmıyın sızlasın.

Zülmə hərgiz yaqlaşmıyın, doğru yoldan şaşmıyın,

Tanrı haqdır, haqqı sevər, ədalətdən xoşlanır.
Yaltaqlığa imrənməyin, kibrə hiç yanaşmıyın,
Öz haqqını bilməyənlər ən sonunda daşlanır.

Arslan kibi cəsur olun, fəqət haqsız çıqmayın,
Haqsızlığa qarşı qoyun, bıraqmayın şımarsın.
Zalımları, cəlladları çeynəyin, hiç qorqmayın,
Türk millәti, görülməmiş, boyun büksün, yalvarsın.

Baq! Şu yanda gülümsüyən yeni doğmuş ay nədir?
Şəfəqlərin doğurduğu bir qızdır ki, hər yerdə
Türk adını e'lan için bir səmavi aynədir,
İştə! Bizim tariximiz… həm yerdə, həm göylərdə.

Ey sevgili quzularım! Sizdən bən ayrılırkən,
Bəndən sizə son vəsiyyət: hərgiz məhzun olmayın.
Vicdanımla, namusumla yaşar, haqqı bilirkən,
Güclükmü var himmətinə qavuşmaqda Tanrının!?

Namus, vicdan insanlarda iki böyük qanatdır,
Onlar ilə Adəm oğlu yüksək göylərdən aşar.
Namus, vicdan bizlər için daimi bir həyatdır,
Türk eli həp o hiss için doğmuş, onunla yaşar.

Bir millətin tarixidir kökü, yurdu, yuvası,
Tarixiniz baş ucundan hərgiz əskik olmasın.
«Altay» dağı, «Makan» çölü, həm də «Yasın» ovası»*
Birər aydın səhifədir, hər türk gərək anlasın.

Südü təmiz, əsil oğul bilməzmi ki, əcdadı
Nasıl doğub yaşamışlar, nə ərliklər etmişlər.

Bilməli ki, tez məhv edər zaman nankor evladı,

---

* Bu yerlərin hər üçü türk tarixi-ümumisincə böyük bir əhəmiyyəti haizdir – H.C.

Öz nəslini unutanlar çoqdan sönüb getmişlər.

Bir millət öz kökü üstə bitər, böyür, yüksəlir,
Köksüz ağac çabuq qurur, çiçək  açmaz, bar verməz.
Baqın, görün tarixiniz sizə nələr göstərir,
Həp şərəf, həp böyüklükdür, ancaq şaşılar görməz.

Mərd atalar yigitlikdə nam almamış yalınız,
Ta əskidən onlarda var elm, hikmət həvəsi.
Günəş kibi tarixləri parlatıyor, baqsanız,
Səmərqəndin darülfünunları, rəsədxanəsi.

Əvət, arslan yavrularım! Türk eli həp şanlıdır,
Elmas kibi ləkəsizdir, saqın, qafil olmayın.
Əsr, iyirminci əsrdir! Vəzifəsi pək ağır…
Arş iləri!
Qomşular yol aldı, geri qalmayın!

# BƏNİM TANRIM

Hər qulun cihanda bir pənahı var,
Hər əhli-halın bir qibləgahı var,
Hər kəsin bir eşqi, bir ilahı var,
Bənim tanrım gözəllikdir, sevgidir.

Həzz etmədim firqədən, cəmiyyətdən,
Zevq alamam hərbdən, siyasətdən,
Bir şey duymam fəlsəfədən, hikmətdən,
Bənim ruhum gözəllikdir, sevgidir.

Gözəl sevimlidir, cəllad olsa da;
Sevgi xoşdur, sonu fəryad olsa da;
Uğrunda bənliyim bərbad olsa da,
Son dildarım gözəllikdir, sevgidir.

Gözəlsiz bir gülşən zindana bənzər,
Sevgisiz bir başda əqrəblər gəzər,
Nə görsəm, hanki bəzmə etsəm güzər,
Həp duyduğum gözəllikdir, sevgidir.

## BİR ZAMANLAR

Bir zamanlar sənin pəmbə kölgəndə
Pək bəxtiyar idim, nazlı dilbərim.
Hənuz bəxtiyarlıq duyulmaz bəndə,
Yalnız gülümsərdi məhzun gözlərim.

Ayrılıq nə yaman dərd imiş, aman!
Sənsiz halım gündən-günə pərişan,
Vüslət dəmlərini anar da hər an,
İzlər yollarını yorğun gözlərim...

Sənsiz bütün duyğularım bunalmış[1],
Zehnim, fikrim durmuş, həp dona qalmış,
Uyqum çəkilmiş, gönlümü qəm almış,
Yalnız arar səni vurğun gözlərim.

[1] Sıqılmış, boğulmuş

## NOVRUZ BAYRAMI

İştə novruz! Yetişdi fəsli-bahar,
Gəldi işrət zamanı, qardaşlar!
Nə gözəl bayram... Ah, nə xoş fürsət!
Sayılır əhli-zevqə bir ne’mət!..
Böylə şad gün düşərmi bir də ələ?
Keçirin beş gün ömrü ləzzət ilə.

Yalınız hanki evdə yas varsa,
Bir onun borcudur ki, tutsun əza.
Birinin ölsə qardaşı naçar,
Qara bayram tutar... bir adət var.
Hər kimin yoqsa böylə bir üzri,
Eyşü nuş eyləsin o... yoq zərəri.
Gərçi «əlmömünün üxüvvə» demiş
Əmri-peyğəmbəri hekayə imiş.
Cümlə qardaş, — diyor Rəsuli-Xuda,
Hanki islamədir bu söz əcəba?

Bəlkə bir başqa xəlqədir bu kitab?
Nəyə lazım, canım, sıqıntı, əzab.
Bütün İranda, cümlə Balkanda,
Çırpınır qardaşın qızıl qanda!
İştə bir qətlgaha dönmüş yer!
Məhv olan yüz deyil ki! Yüz bindir.

Ana! Həmşirə! Ey nişanlı gəlin!

Siz də əsla sıqılmayın, sevinin.
Əzilib məhv olursa ailələr,
Sizə aid deyil bu qəmli xəbər.
Getsə iffət, kəsilsə əmcəklər,
Sevinin!.. İstəməz düşüncə, kədər.

Bütün aləm dağılsa, od tutsa,
Bizə lazımdı şimdi zevqü səfa.
Bir müsəlman ki, onda qeyrət var,
Sevinir, keyf edər, çalar, oynar.

Sevinin! Zurna, toy çalın, sevinin,
Nə gözəl bayram! Of, gülün, sevinin!
Dinə, namusa küsdünüzsə, gülün!
Sevinin, həp gülün!.. Nə nəş’əli gün?!

## «İSMAYIL BƏY»

*Məktəb çocuqlarına*

İsmayıl bəy, o bir böyük türk idi,
Bir günəşdi, Krım üfüqlərindən
Parlayıb ətrafı nura qərq etdi,
Yıldızlar yaratdı şəfəqlərindən.

İsmayıl bəy türk yurduna şan verdi,
Öksüz, ölgün millətinə can verdi.

İsmayıl bəy açdı yumuq gözləri,
Açdı sağır qulaqları, dinlətdi.
Qan coşduran ruhlu, kəskin sözləri
Dilsizlərə yürək verdi, söylətdi.

İsmayıl bəy türk yurduna şan verdi,
Öksüz, ölgün millətinə can verdi.

Ərəb, əcəm, xüsusən türk evladı,
Qəlbində bir yığım məhəbbət bəslər.
Böyük tanır o sevgili ustadı,
O fazil mürşidə bin hörmət bəslər.

İsmayıl bəy türk yurduna şan verdi,
Öksüz, ölgün millətinə can verdi.

Onun məsləki bu idi daima:

«İşdə birlik; dildə, fikirdə birlik…»
İş, fikir, dil birliyi, olmayınca,
Əvət, pək çətindir cihanda dirlik.

İsmayıl bəy türk yurduna şan verdi,
Öksüz, ölgün millətinə can verdi.

İsmayıl bəy ölməz, yaşar, həp yaşar,
Tarixlərdə, gönüllərdə, dillərdə.
Böyük ruhu yüksək göylərdən aşar,
Böyük adı yad olunur hər yerdə!..

İsmayıl bəy türk yurduna şan verdi,
Öksüz, ölgün millətinə can verdi.

*1914*

## TÜRK ƏSİRLƏRİ [1]

Erkək, qadın, əskər, çocuq, ixtiyar
— Əsir — deyə, binlərcə türk evladı:
Issız bir adanın qoynunda sızlar,
Sorulmaz dərdi, duyulmaz fəryadı.

İştə kinli bir məzarlıq ki, hər gün
Yığın-yığın insan yutar da,  doymaz;
Sağlam vücudlar belə düşgün, ölgün,
Ümidsiz bir heykəldən fərq olunmaz.

Gülümsərlər, fəqət həp gözlərində
İntiqamlı şimşəklər çaqar, durur.
Çırpınırlar, solmuş bənizlərində
Bir çoq gizli, sönük əməllər uyur.

Yalnız soğuk, yağmur, bora, fırtına
Oqşar durur şu məhzun gönülləri;
Üryanlıq, xəstəlik, aclıq bir yana,
Susuzluqdan həp qurumuş dilləri.

Amansız qartalın vəhşi dırnağı,
Mə’sum yavruları didib parçalar.
İştə ədalət! Yılanlar yatağı
İnsanlara məskən verilmiş qərar.

---

[1] Bakıda, Nargin adasında.

Nerdə o sərxoşlar ki, həp «qardaşlıq,
Birlik, bərabərlik» deyə sayıqlar.
İştə bir vəhşət ki çəkilməz artıq,
Dost deyil, düşman belə görsə ağlar.

Ey türk eli! Ey milyonlar ölkəsi![1]
Saqın, duyma nədir bu hal, bu dəhşət;
Titrətməsin səni şu qardaş səsi,
Korluq, sağırlıq o da bir səadət!..

[1] Bakı

## QAÇQIN

Örtünmə, dur! Kimsin, nerəlisin sən?
Gözəl qaçqın, başı bəlalı qaçqın!
Gül ki, nur saçılsın qonçə ləbindən,
Ey hər halı mələk ədalı qaçqın!..

Zülfünü qoynunda bəsləmiş gecə,
Süzgün gözlərin, gül yüzün pək incə,
Gönül məst olur sən gülümsədikcə,
Ey nazlı dağların maralı qaçqın!

Bən istərim ömrüm səninlə gülsün,
Söylə, nə dərdin varsa anlat bütün;
Aman, nə oldu ki, sən böylə düşdün
Yurdundan, elindən aralı, qaçqın!

Ah, səni gördüm də dağıldı huşum,
Vuruldum sana, sanki bir sərxoşum,
Bən də sənin kibi qərib bir quşum,
Gəl bana, ey gönlü yaralı qaçqın!..

# SOLĞUN MƏNƏKŞƏLƏR

*Bir müsamirə xatıratından.*

Boynu bükük, ey öksüz mənəkşələr!
Ah nə çabuq sarardınız, soldunuz?
Nerdə o dünkü sevdalı nəş'ələr?
Nədən böylə həp pərişan oldunuz?

Şəfəqdən doğma ləbləri öpərkən,
Siz ki bəxtiyarca gülümsərdiniz;
Yoqsa o nurdan dökülmüş əllərdən
Ayrılınca, çiçəkləndi dərdiniz?

Gözəl, hər halınız gözəl... Daima
Xəstə gönlüm oqşar sizi, alqışlar;
Uf, nədənsə pək doqunur ruhuma
Vərəmli çöhrələr, məhzun baqışlar...

## ÇƏLİK QOLLAR

*(Bakı işçisinə)*

Onlar, o çəlik qollar, o qollardakı qüvvət
Saçmaqda quduz kinlərə dəhşət,
Yoq, bir daha görməz o çəlik qolları zəncir,
Çıldırsa da hər qanlı cihangir.

Tunc yüzlü böyük dalğa! Sənin qüdrətin aydın,
Düşmanları daim heçə saydın,
Qoş sülhə, çalış, aləmə qüvvətlə ışıq ver,
Çarpışmaq için əzmini göstər.

Ey şanlı əmək ordusu, ey şanlı mübariz!
Çoqlar səni zənn etsə də aciz,
Sən yüksələcək, parlayacaq, parladacaqsın,
Hər qütbə şətarət qatacaqsın.[1]

---

[1] Çelyuskinçilərə işarədir.

## ŞƏRQ QADINI

Bən nə idim? Şərqin əzilmiş qadını!

*(Bir az sükut...)*

Bən nə idim? Uf, onu heç sormayınız!
Varlığım bir quru heç!
Keçmişin ən qaba, ən vicdansız,
Kirli dırnaqları qəhr etdi bəni.
Görmədim gün ışığı;
Doğduğum gündən — əvət — tarixin
Paslı zəncirləri inlətdi bəni;
Hər tərəfdən qara bir mevhumat
Pərdələr çəkdi həmən gözlərimə...
Qoparırkən fəryad,
Etdi qanun ilə din istehza
Bənim öksüzcə qırıq sözlərimə.
Yoq, yalan söylədim, aldanmayınız;
Vardı bir çoq tapınanlar da bana.
Çünki pək dilbər idim,
Süslü kaşanələrin qoynunda,
Bəni sarmışdı ipəklər, tüllər...
Ağlayırdım gülərək,
Alışıb məhbəsə, altın qəfəsə,
Söndürürdüm qaba şəhvətləri bən...
«Pək gözəlsin» — qaniçən sultanlar
Bəni əyləncə yapar,
Çoq zamanlar da bağışlar birinə,

«Ən nəfis işvəli bir qüvvə» — deyə,
Oh, nə miskincə həyat!?
Yeri gəldikdə atarlar Nilə,
Yaxud atəşkədəyə...
Duyğusuz tanrıya qurban olaraq,
Kül olurdum yanaraq, qıvrılaraq.
Daha dəhşətli bəla, — çirkin isən, —
Atacaqlar dərhal
Bir çuqur, bir quyuya, bir kanala.
Yapsalar hər qabalıq, alçaqlıq,
Baş əyərdim susaraq of demədən...
Bir zamanlar bən, əvət, bir heç idim,
Qismətim sillə, dayaq, gönlüm əsir,
Bir böcəkdən də həqir.

Şimdi lakin o dikənlərdən uzaq —
Gülərək, oynayaraq,
Yaşamaq zevqini duymaqdayım ancaq, ancaq...
Yoq, bən artıq sürünən heç deyilim,
Parçalanmış da qaranlıqdan örülmüş kəfənim.
Gəmirilməz beynim,
İştə, ən şanlı üfüqlərdə uçan
Şərqin azadə, gülər bir qızıyım;
Uca həşmətli fəzalardan aşan
Pəmbə bir yıldızıyım!..

# POEMA

# AZƏR

## DÜŞÜNDÜM Kİ...

Düşündüm ki, əməl çəmənzarında
Açar qızıl güllər, zümrüt yapraqlar;
Düşündüm ki, ömrün ilk baharında
Al şəfəqlər saçar qonça dodaqlar.

Düşündüm ki, susar qanlı tufanlar,
Keçər zalım fırtınalar, böhranlar,
Çəkilir dumanlar, sönər vulkanlar,
Ninni söylər bana coşğun ırmaqlar.

Düşündüm ki, bitər hicran dəmləri,
Unutdurur canan həp sitəmləri.
Gülzarı süslərkən xoş qədəmləri
Boyun bükər mənəkşələr, zanbaqlar.

Yazıq!.. Ortalığı zülmətlər aldı,
Ölüm yarı yardan aralı saldı,
Həsrətlər içində ruhum bunaldı,
Qanatdı gönlümü xain dırnaqlar.

## Ay qız[1]

Ey səhər yıldızı, ey yosma dilbər!
Utanma gül, bunca nazlanış yetər.
Gül!.. Sussun bülbüllər, qızarsın güllər
Hər gülüşündən, hər sözündən, ay qız!

Gözlərimdə dünya gülər, sən gülsən;
Qiyamət olmaz ki, insafa gəlsən?!
Aləm bilir, nələr çəkdim, ah, bilsən,
Nələr çəkdim sənin yüzündən, ay qız!

Nazlı xuramanı seyr etdikcə bən,
Vurğun gönül rəqs edər sevincindən,
Olmazmı aşiqə bir busə versən
O ahu baqışlı gözündən, ay qız?!

## AZƏR DÜŞÜNÜRKƏN...

«Ə»[2]

Azər düşünür... Bəlkə otuz yıldır o hər an
Düşkün bəşərin eşqini, fəryadını inlər.
Yaqdıqca yaqar beynini bir kölgəli böhran,
Əflaka sorar dərdini, yıldızları dinlər.
Göz qırparaq ancaq ona yıldızlar edər naz,
Dilsiz və sağır göylər onun halını duymaz.

Bəsləndi küçük duyğusu azadə çocuqkən,
Pək incə tərənnümlər öpən neylər içində.
Vurğundu o həp şe’r ilə ahəngə əzəldən,
Ağlar və gülümsərdi təğənnilər içində.

---

[1] Ay - ey yerinə qullanılmışdır
[2] Hər parçanın əvvəlində «Ə» - əruz, «H» - heca vəznini göstərir.

Hər gün yaralar qəlbini bir sıtmalı rö’ya,
Hər gün uyutur dərdini bir nəş’əli xülya.

Atəşkədələr, fırtınalar yavrusu Azər
Coşduqca alevlər və köpüklər kibi çılğın...
Bə’zən bayılıb sər’əli bir heykələ bənzər,
Yorğun gözü həsrətli üfüqlər kibi dalğın.
Bə’zən o baqışlar yenə şimşək kibi parlar,
Qəsvət savuran hiçliyi bir anda yaqarlar.

Bir gün acı bir sis o gülümsər yüzü sardı,
Yalnızlığa imrəndi, uzaqlaşdı bəşərdən.
Bir qulbəyə saqlandı ki, ıssızca məzardı,
Məhrum idi dünyayı saran xeyr ilə şərdən,
Yıllarca dalıb getdi o böhranlı qəfəsdə,
İnsanları özlərdi hər atəşli nəfəsdə.

«Sərsəm, dəli, xudbin!» - deyə itham ilə hər kəs
Bəhs etdilər Azərdən, o aldırmadı əsla!
Həp onca bir alqışla söyüşdən köpürən səs,
Arif keçinənlər ona yan baqmada hala.
Mö’minlərə sorsan edəcək küfrünə fərman,
Dinsizlərə get, onda bulur şübhəli iman.

Azər daha çoq zevq alır aydın gecələrdən,
Hətta sarışın Ay ona gülmüşdü bir aqşam.
Gülmüşdü bulutlar arasından süzülürkən,
«Hürr ol!» deyə qəlbində doğurmuş yeni ilham.
Artıq o sönük çərçivə şən Azəri sıqmış,
Səyyah olaraq Ayla bərabər yola çıqmış...

Sevdirmiş içindən ona bir cilvə həyatı,
İnsanlara qoşmaq və qavuşmaq dilər əl’an.
Duymaq və duyurmaqda bulur zevqi, nişatı,
Yalnızlığa, ıssızlığa qəlbən edər isyan.
İstər bulut olsun da dənizlər kibi aqsın,

İstər Günəş olsun da qaranlıqları yaqsın.

## Gecə aydınlığı və Gün doğuşu

«Ə»

İştə aydın və sərin yaz gecəsi
Veriyor Azərə uçmaq həvəsi,
Asmalıqdan yürüyor rəqs edərək,
Hər bəyaz kölgə birər canlı çiçək...
Nəş’ədən səndələyən hər yapraq
Sallanır sanki gümüş bir leylaq.
İncə, yaldızlı, sədəf qumlardan
Keçiyorkən... Ona heyran-heyran
Busələr ərz edərək baqdı gülər
Ta uzaqdan çökən atəşkədələr.
Daldı rö’yalara etdikcə məraq -
Əski mə’budları xatırlayaraq.

Yürüyor, həp yürüyorkən Azər
Duydu sahildə dərin zümzümələr.
Sanki hər zümzümə eylər ilham,
Gecənin ruhuna bir tatlı pəyam.
Bütün əşya hərəkətsiz, səssiz,
Yalnız inlər kibi sevdalı dəniz.
Dalğacıqlar öpüşüb titrərkən
Baqışırlardı göyün gözləri şən,
Yol uzun... yolçu yorulmuş artıq,
Dinlənib durdu saatlarca... yazıq!
O dəmin gördüyü dilbər mehtab,
Xasta bir çöhrəyə bənzərdi xərab.
Ona dan yıldızı bakir bir qız
Kibi heyrətlə gülümsər yalınız.
İştə üstün gəliyor zülmətə nur;
Bəlli, bəsbəlli - səhər yaqlaşıyor.

Sönüyor can çəkişən yıldızlar.
Azər açmış da qanat sanki uçar,
O, Günəşdən daha əvvəl oyanan,
Canlanan şəhrə yanaşmış əl’an.
Bir yeşil bağça ki, sahil boyuna
Nəş’ə sərpərdi, həmən qoşdu ona.
Seyr edib bağçayı dinləndi bir az,
Serçələr, gördü, edər razü niyaz.
Həpsi birdən ötüşüb qaynaşaraq
Ninnilər söylədilər oynaşaraq.
Qopdu bir ləhzədə çığlıq, tufan,
Hər ağac dalğası bir başqa cihan...
Bunca alqışlara bais yalnız
Şu dənizdən doğan altın bir qız.

... İştə dalmış duruyor bir rəssam,
O da almaqda Günəşdən ilham,
Durmadan yalvarıyor fırçasına,
Yazıyor, həp pozuyor... Sanki ona
Gəldi yorğunluğa bənzər bir hal,
Süzərək Azəri zənn etdi xəyal:
Bətbəniz yoq, gözü düşmüş çuqura,
Bəlkə vurğun kibi bir şey... Olur a!
Xayır, alnında zəka şö’ləsi var,
Bəlli, ilhamını bir eşq oyalar.
Sordu: «Kimsin, nerədənsin, əhbab?!»
Ona Azər gülərək verdi cavab.

## Azərin cavabı

«H»

Bən yetişdim atəşlə su
Öpüşdüyü bir ölkədən.
İzliyorkən sevgi yolu

Acı duydum hər kölgədən.

Bir yoqsulum, hər diləyim
Diz çökdürür zənginləri.
Bir arifim, bilmədiyim,
Aşar durur ənginləri.

Bən mülayim bir dənizim,
Atəşlidir dalğalarım.
Sülhə qoşan bir acizim,
Əskik olmaz qavğalarım.

Bir avcıyım, eşq umarım
Hər ahunun gözlərindən.
Dərd əhliyim, rəmz anlarım
Hər şairin sözlərindən.

Bir aşiqim, feyz alırlar
Bəndən irfan çobanları.
Bir çobanım, qaval çalar,
İnlətirim vicdanları.

Bən əbədi hürriyyətin
Sevdalı bir cilvəsiyim.
Anlaşılmaz bir xilqətin
Parlar, sönər şö'ləsiyim.

***

## «Ə»

Süzərək Azəri heyran-heyran,
Bir rica eylədi rəssam ondan,
Göstərib bir qocaman daş, dedi: «Gəl,
Yapayım rəsmini, bir baq, nə gözəl!?
Seyrə dal sən yeni doğmuş Günəşi,

Nə də xoş mənzərə!.. Baq, varmı eşi?
Doğuyor sanki dənizdən bir qız,
Həm də altın saçı yaldız-yaldız.»
Güldü Azər, oturub daldı həmən,
Fərq olunmazdı o bir heykəldən.
Bitirib levhəyi yorğun rəssam:
— Qalq, əzizim! — dedi — qalq!..
İştə tamam!..
Bir qadar aqça da ikram etdi.
Süzdü Azər onu heyrətlə, dedi:
— Arqadaş! Aqça niçindir əcəba!
— O sənin rəsmin için...
— Ha, ha, ha!..
Güldü, həp güldü... baqıb rəsmə dedi:
«Nə Günəş?! Sanki baqır bir təpsi...
Hələ gözlər!.. Şu bənim gözlərimin,
Söylə, mə’nası nədir? İnsaf içün.
Bənziyor yapdığın Azər guya
Buzlar üstündə şaşırmış çocuğa.
Deyəcək yoq şu mübarək dənizə,
Acırım sərf edilən sə’yinizə.
Seyr edənlər şu gözəl levhənizi
Bəni yoq, bəlkə görür onda sizi.
Sanki ölgün boyalardan nə çıqar?!
Burda sən’ətdən iraq hər şey var.
İncəsən’ət dediyin pək tənnaz
Bir gözəl qız ki, çabuq ram olamaz.
Başqadır ondakı həşmət, əzəmət,
Bir təsadüflə yaqın gəlməz, əvət.
Bəlkə yıllarca dayansan nazına,
Sadə, bir kərrə gülümsər o sana.
Yoqsa əzmində əgər səbrü səbat,
Boş əməkdir çəkiyorsun, heyhat!..»

Süzdü rəssam onu altdan-yuqarı,

Saçaraq gözləri kin dalğaları.
Alıb əşyasını nifrətlə, həmən
Qaçdı hiddət köpürən sahildən.
Ondan ayrılmayaraq Azər də
Girdi is[1] yağdıran Altın şəhərə[2].
Həp yürür, həp düşünürkən... yolda
Rast gəlib bir sarışın qızcığaza,
Gördü, ağlar da silər göz yaşını...
Dedi: «Yavrum, bu nə? Qaldır başını,
Söylə dərdin nə?..» Çocuq iç çəkərək
Dedi: «Annəm, ögey annəm döyəcək,
Verəcək bəlkə müəllim də cəza!..»
— Dur, niçin?
                    — Sorma!
                    — Bu hiç oldumu ya?!
— Ah, qapıb qaçdı əlifbamı dəmin
Bir sokaq yavrusu, çapqın, miskin!
— Ya baban yoqmu?
                    — O, işdən qovulan
Bir fəqir işçi, səqət bir insan.
— Hiç məraq etmə, quzum, iştə para,
Sağalır elm ilə hər türlü yara.
Oqşayıb Azər onun saçlarını,
Dedi: «Get, bilgi al, öyrən yarını.»
Bir fərəh gəldi qızın gözlərinə,
Utanıb durdu... təşəkkür yerinə
O soluq çöhrə gülümsündü həzin,
Qoşaraq getdi kitab almaq için.

Bunu gördükdə uzaqdan yaramaz
Bir çocuq — olmaz on üçdən yaşı az —
Soqulub Azərə həp əl açaraq:
— Para ver, bən də acım — söylədi — baq!

---

[1] İs - his
[2] Bakı

Sağlam insanda bu adət nə idi?
Baqdı Azər ona heyrətlə, dedi:
«Sana layiqmi dilənmək, ay oğul!
Durma get, haydı, çalış, bir iş bul.»
Öylə boş sözləri dinlərmi çocuq?
Sırıtıb izliyor, ayrılması yoq.
Qaldı Azər şu sırıtqanlığa mat,
Ona eşq etdi bir atəşli tokat.
Seyr edənlər bunu həzm etmədilər,
«Mərhəmətsiz, qaba insan!..» dedilər.
Dinləyib onları Azər gülərək
Dedi: — Əzdad ilə doğdum, gerçək.
Bir əlim iştə su, atəş bir əlim,
Çarpacaq qəlbim, əgər sussa dilim.
Acıdım gərçi dəmincik birinə,
Sonra atdım da tokat digərinə.
Sizi, yoq şübhə ki, ürkütdü bu hal,
Nə yaparsın, həpiniz kor, abdal!
Öylə quş var ki, yiyorlar ətini,
Quş var, ət ver də, duyar ləzzətini.
Bir tokat var, doyurur ac qarını,
Mərhəmət var ki, zəhərlər yarını.

## MƏSCİDDƏ

Bir gün Azər dolaşırkən... yüksək,
Ulu bir mə’bəd önündən keçərək,
Baqdı savrulmada hər pəncərədən
Duyğusuz göylərə çığlıq, şivən.
Pək məraq etdi, həmən girdi o da,
Şaşırıb durdu, nə dəhşət, əcəba!?
Toplaşıb bir yerə ipsiz dəlilər;
Kimi gürlər, kimi sızlar, inlər.
Kimi bir yanda çamurlar yüzünü,
Kimi dırnaqla didər qaş-gözünü.

Biri küllər savururkən başına,
Yalvarır digəri həp göz yaşına.
Kimi bir daş, kimi zəncir alaraq
Qəhr edər kəndini; gözlərdən iraq!..
Fırlayıb minbərə bir şeyx o zaman
«Əlverir — söylədi — fəryadü fəğan.
Yetişir inlədiniz, ağladınız,
Dul qadınlar kibi yas saqladınız.
Gəlin artıq azacıq kəndinizə,
Qanlı göz yaşları cənnətdə sizə
Əbədi zevq, səadət verəcək,
Olacaq həmdəminiz huri, mələk...»

Dinliyorkən onu hər kəs... birdən
Yeni bəhs açdı cəhənnəmlərdən.
Qorqudan titrəşərək həp təkrar
Mələşib ağladılar, ağladılar...
Ən nihayət bitirib sözlərini,
Açdı ətrafı süzən gözlərini.
Şimdi artıq sıra gəlmiş paraya,
Gümüş, altın birikib bir araya,
Doldu bir ləhzədə şeyxin qucağı,
Satılır altına cənnət bucağı.

Qaldı Azər şu tuhaf «alverə» mat,
Acılar duydu içindən, heyhat!..
«Nə əcayib sürü, yahu, bunlar,
Öndə rəhbərlik edər maymunlar.
Cühəla elm, fəzilət satıyor,
Xalqı əfsunlayaraq aldatıyor.
Kəndi əxlaqı sönükkən həpsi
Yeltənir verməyə əxlaq dərsi.
Sadə minbərdə deyil, çoq yerdə
Göz boyar həp şu qaranlıq pərdə.
Hanki bir sərxoşu söylətdim, inan
Bəhs edər, gördüm, o huşyarlıqdan.

Nerdə beş kölgə görür ördəklər
Başlayıb nitqə həmən saz köklər.
Rəqsi tə'lim ediyor aqsaqlar,
Əzəmət düşkünüdür alçaqlar.
Zevqə biganə səfillər bol-bol
Şe'rü sən'ətdə arar bir yeni yol.
Sadədil, hissə uyan abdallar
Həp siyasi kəsilib at nallar.
Bir yığın kor qılavuzluq yaparaq
Göstərir zülməti aydın, parlaq.
Hər gülər yüzdə ölüm, qan görürəm,
Pək yaqın dostları düşman görürəm.
Yurdu sarmış qabalıq, yaltaqlıq,
Yüksəliş varsa, səbəb alçaqlıq...»

Süzdülər Azəri şaşqın-şaşqın...
Azərin dərdi başından aşqın,
Mütəəssir, düşünürkən, birdən
Gördü vaiz eniyor minbərdən.
Ona yaqlaşdı həmən pək sakin,
Saçıyorkən əsəbi gözləri kin.

Dedi: — Şeyxim! Bir az da insaf et,
Nə olur, bir qadar da düz yol get.
Bizi qandırma; haq verib, haqq al,
Sən deyilsin namuslu bir baqqal.
Həp yalan sat da altın al, nə demək?!
Göz yaşından doğarmı huri, mələk.
Ən gözəl dindir iştə dini-həyat,
Başqa yol yoq, ya fənn, ya mevhumat!..
İstər uy dinə, istər uy fənnə,
Çağırır xalqı kəndi cənnətinə.
Biri nəqd iştə, nisyədir birisi,
Çoq olur bəlli, nəqd müştərisi.
Artıq əfsanə devri keçdi, yetər!
Oqşamaz ruhu əski bilməcələr.

Can çəkişdikcə köhnə zevqü şüar
Yeni bir cilveyi-dəha parlar.
O da yoq şübhə — sarsılır bir gün,
Başqa bir ictihad olur üstün.
Əski dahilər «iştə haq» dedilər,
Çırpınıb bir həqiqət izlədilər,
O həqiqət bu gün xəyal oluyor,
Dünkü şən bağcalar bu gün soluyor.
Dəyişirkən, əvət bəşər qafası,
Dəyişir Tanrının da siması.

Ş e y x

*(çılğın)*

Sus yetər, ah, şərəfsiz, allahsız!..

A z ə r

Qızma, şeyxim, sizin yaratdığınız
Tanrı ölmüş də, yoqdur ağlayanı.

Ş e y x

*(yanındakılara)*

Nə diyor, baq, halaldır iştə qanı.
Bəlli, həp söylədiklərin həzyan,
Bizi dünyada yoqmu bir yaşatan?..

A z ə r

Yaşatan varsa iştə xilqətdə,
Mə’də... həp mə’də... həzrəti-mə’də...

*(əlini şeyxin qarnına vuraraq istehzalı təbəssümlə)*

Baq, həqiqət də, bəlkə haq da budur,
Səni hər kim doyursa tanrın odur.
Din için, firqə, ya siyasət için
Nerdə bəslənsə bir ədavət, kin,
Nerdə qan, ya ölüm, ələm görsən,
Buna yalnız səbəb sənin mə'dən...

Ş e y x

*(heyrətlə)*

Saçma, həp saçma, anlamam səni bən,
Nə demək məqsədin şu vəsvəsədən?

A z ə r

Şeyxim, aldatma xalqı, dinlə bəni,
Bütün əfsunlu sözlərin xülya...
Gəl bıraq göylərin hekayəsini,
Enəlim kəndi doğma yurdumuza.

Burda cənnət də var, cəhənnəm də,
Onu, yoq şübhə, bizləriz yaratan.
«Cifə» zənn etdiyin şu aləmdə
Başqa zevq almaq üzrə hər insan.

Kimi cəhl atəşində qavrularaq,
Həp yanar, qəhr olur səfalətdən.
Kimi irfanla şadkam olaraq,
Dəm vurur nəş'ədən, səadətdən.

*(Camaata)*

Gönlünüz cənnət istiyorsa əgər,
Şeyximiz başqa nəğmə bulmalıdır.
Mütəvəkkil duran şu mə'bədlər
Həp kütübxanə, məktəb olmalıdır.
O zaman fəzlü mə'rifət günəşi
Ölgün, azğın cihanı həp süslər.
Şu sönük toprağın bulunmaz eşi,
Qurulur hər bucaqda cənnətlər.

O zaman qanlı, kinli qüvvətlər
Səni dəhşətləriylə inlətməz.
Şərəfin, bənliyin olub da hədər,
Ayaq altında çeynənib getməz!..

## ƏSKƏRLƏR TƏ'LİM EDƏRKƏN...

Son baharın acı bir nəş'əsi var,
Azərin gönlünü həsrətlə yakar.
Sanki bir kölgə kayar yollardan,
Onu heyrətlə süzər hər insan.
O da hər çöhrədə bir rəmz anlar,
Hər keçən kölgəyi süzdükcə dalar.
Onca dünya qoca bir səhnə demək,
Hər kəs aktörlük edər bilmiyərək.
Kimi arif, kimi dilbər və əsil,
Kimi qurnaz, kimi divanə, səfil...
Kimi cani... düşünür fitnə-fəsad.
Kimi zevq əhli, dilər hər kəsi şad.
Kimi pək sadədil, oynaq, şaqraq,
Kimi pək duyğusuz, abdal və bunaq...
Kimi ismət, kimi naz, işvə satar,
Kimi həp varlığa bir təkmə atar.

Göz yumub onlara Azər, köpürən,
Gürləyən şəhrə vida etdi həmən.

Endi bir bağçaya, sahil boyuna,
Sandı hər dalğa salam eylər ona...
Bağça solmuş da ağaclar çıplaq,
İçli bülbülləri ötməz şakaraq.
Can çəkişməkdə soluq yapraqlar,
Nə çiçəklər, nə gülən güllər var.
Hər xiyabanda fəqət əskərlər
Qoşaraq «arş!» deyə tə'lim eylər.
Bağırır onbaşılar: bir, iki, üç!..
Parlar əllərdə silah... Qayəsi: güc!..
Bir yığın işsiz adam bir yanda
Dalaraq seyrə, bulur zevq onda.
Ürəfa taslağı bir qaç kişi də
Ediyor onları tənqid: iştə!

B i r i n c i   t a m a ş a ç ı

Nə fəlakət!.. Ölüb-öldürmək için
Saçıyor paslı gönüllər həp kin.

İ k i n c i   t a m a ş a ç ı

İştə tə'lim olunur cəlladlıq,
Yazıq, insandakı vicdana yazıq...

Ü ç ü n c ü   t a m a ş a ç ı

Ah, nə xoşdur əbədi sülh olsa,
Bəşəriyyət acıdan qurtulsa...

D ö r d ü n c ü   t a m a ş a ç ı

Zalım əllər nə qadar üstünsə,
Qurtuluş yoqdur əzilmiş cinsə.

B e ş i n c i   t a m a ş a ç ı

Ən fəlakətli böyük yanğınlar
Bir qıvılcımlı xətadan başlar.

A l t ı n c ı   t a m a ş a ç ı

Qanatım olsa uçardım da həmən,
Qurtulurdum bəşərin şərrindən.

Y e d d i n c i   t a m a ş a ç ı

Nə səadət!.. Ola insan dərviş,
Hiç də aldırmaya dünya nə imiş.

Dinləyib onları Azər gülərək,
Düşünüb durdu, bu sözlər nə demək!?
Parlayan gözləri diqqət saçaraq
Yaqlaşıb söylədi: Yahu, bana baq!

*(Acı gülüşlə son seyirciyə)*

Əvət, ən xoş təranə, ən eyi yol:
Hər çeşit qeydi at da dərviş ol!..
Yaşayıb qayğısızca bir köşədə,
Zevqə dal... Ən gözəl həyat iştə!
Məskənin daima şən ormanlar,
Həmdəmin xoş baqışlı ceylanlar.

*(Bu sırada bir qaç dəliqanlı da
Azərin ətrafına toplanır)*

Kələbəklər qoşarkən oynaşına
Yürü, en bir yeşil pınar başına.
Quşlar ötdükcə sən də dəmsaz ol,
Gülüşən hər çiçəklə həmraz ol.

Nə öc al kimsədən, nə əz, nə əzil,
Nə qan iç, uf!.. Nə qanlı göz yaşı sil!

B i r i n c i   t a m a ş a ç ı

Bu, fəqət şairanə bir xülya!..
Ruha uyğun sevimli bir rö'ya!..

İ k i n c i   t a m a ş a ç ı

Pək gözəl söylədiklərin, heyhat,
Nerdə? Kim sürdü öylə tatlı həyat?

Ü ç ü n c ü   t a m a ş a ç ı

Barışıb həp sevişsə millətlər,
Bəlkə azcıq susar şu vəhşətlər.

A z ə r

*(Acı gülümsəyişlə)*

... Əvət, insan olursa insanlar,
Şübhəsiz, parlayıb da vicdanlar
Sevgi nurilə kainatı bəzər,
Bıraqıb kini, qurt qoyunla gəzər.
Bəlli.. Ta əskidən böyük başlar
Sülh için uğraşıb çalışmışlar.
Çıqaraq hərbə qarşı həp ürəfa,
Əbədi sülh içində buldu şəfa.
Kimi «qan-qan!..» deyib də çıldıraraq,
Sülhə düşman kəsildi, iştə məraq...
Bizcə kim haqlı! Qan dökənlərmi?
İmrənib sülhə, diz çökənlərmi?
O nə? Həp dalğa keçdiniz... əcəba,
Hanki xoş, hanki pək dikənli, qaba...

Şübhə yoq, sülhə meyl edər hər kəs,
Çünki hər gözdə parlıyor bu həvəs.
Pək böyük səltənətsə dərvişlik,
Olamam bən o xasta fikrə şərik.
Ölü, miskincə ömrə bin nifrət!..
Sizi bən sülhə eyləməm də’vət.
Əbədi sülh ümidi haqqı boğar,
Yaşamaqçın fəqət mübarizə var.
Çarpış, elmi bir inqilab ilə sən
Qəhrəman ol, öc al da vəhşətdən.
Bənliyin şimdi inliyorsa, yarın
Qalibiyyətlə parlasın alnın.
Səni yalnız öyündürür qüvvət,
Qüvvətin varsa, haq sənindir, əvət.
Lakin insanda yoqsa əqlü zəka,
Sadə qüvvətdə yoq səmər əsla.
Əldə me’yar olursa əqlin əgər,
Ölçülür pək qolayca xeyr ilə şər.
Dedilər: «Zülmə qarşı durma, əyil!»
Dedilər: «Hərbə qoş, ya əz, ya əzil!»
Bən derim: «Həpsi laf, inanma, saqın!
Rəhbər olsun da qüvvətin, ağlın.
Yeri gəldikdə sülh için çabala,
Öylə yer var ki, hərbi alqışla.
Quzu gördünmü sev, o, kin bilməz;
Canavar qarşı gəlsə parçala, əz.
Qüvvət üstündə varsa əqli-səlim,
Sana həp kainat olur təslim!»

## QƏRBƏ SƏYAHƏT

İlk baharın son gecəsi... dan yıldızı gülümsərkən,
Azər məraq edib çıqdı Qərbə doğru səyahətə.
Yorğun dənizdən sahilə bayğın rüzgarlar əsərkən,
Xülya dolu Altın şəhər dalmışdı istirahətə.

Azər səhər havasını nuş edərək səfa buldu,
Ətrafını seyr edərkən tren gəldi, yolçu doldu,
O da atəş ocağına vida edib rəvan oldu,
Rast gəldi həp yol boyunca bin bir çeşit qiyafətə.

Gurultulu vaqonlarda hər millətdən nümunə var,
Tanışdıqca hər gönüldə qarşılıqlı sevgi doğar,
Yaşayışdan bəhs edərkən biri gülsə, biri ağlar,
Kimi məs'ud olub, kimi uğramış bir fəlakətə.

Tren keçilməz yolları oraq kibi kəsib biçdi,
Qarşı gəldikcə yar-qaya bir oq kibi dəlib keçdi,
Bir gün Azər yeni doğan Günəşdən bir xəbər seçdi:
«Orta Qərbə varılmış da, yol iriyor nihayətə».

Hər gönüldə çocuqca bir məraq alevlənib durdu,
Pəncərələr qarşısında seyr edənlər həlqə vurdu,
Hər tərəfdən yeşilliklər nəzərləri oqşıyordu,
Dalğalı gül bağçaları isyan edərdi cənnətə.

Süslü köylər trenləri qarşılardı ara-sıra.
Hər guşə bir gəlin kibi gülümsərdi yolçulara,
Əmək pərisi munisdi hər gəncə, hər ixtiyara,
İşsiz qalanlar, şübhə yoq, məhkum idi səfalətə.

Erkək-qadın həp çalışır arı kibi qaynaşaraq,
Dalğalandıqca tarlalar altın kəsər elmas oraq,
Dolğun öküzlər, inəklər bənzərdi — gözlərdən iraq
Şəhərlərdə dərisinə sığmayan əhli-sərvətə.

İştə Qərbin şən göbəyi!.. Tren durdu, Azər endi,
Pəncərələrdən fışqıran çiçəklərə pək imrəndi,
Hər səhnəyi süzüb gəzdi, az görüb də çoq öyrəndi,
Məftun oldu gözlərdəki ciddiyyətə, nəzakətə.

Bir gün çiçək bağçasında bir gənc ona doğru qoşdu,
Sevincindən hoplayaraq ırmaq kibi daşıb coşdu,
Avropanın hər səhnəsi, hər cilvəsi onca xoşdu,
«Baq!» dedi: «Rast gəldinmi hiç bir böylə
əzmü himmətə?

Gözəllikdə örnək almış köy şəhərdən, şəhər köydən,
Hər yer sanki bir rəssamın sən’ətidir həmən-həmən,
Varlı-yoqsul bir musiqi dinlər, əvət, hər qulbə şən...
Hər gönüldə bir həvəs var incəliyə, nəzafətə.

Hər ocaqda, hər bucaqda bilgi, hünər mə’bədi var,
Hər yüzdə ruh yüksəkliyi, hər gözdə bir zəka parlar,
Çəlik əsəblər durmadan həp yeni bir zəfər arar,
Hər qafada bir iman var əməkdəki səadətə.

Gözəl!.. Şu nəş’ələr dolu həşmət dünyası pək gözəl,
Hürriyyət izləyən geniş, sağlam havası pək gözəl,
Yer deyil, göyləri sarsan yılmaz dəhası pək gözəl,
Böyük-küçük həp tapınır ancaq və ancaq qüvvətə.

Bu yerlərdə yalan, qərəz, qayğısızlıq da yoq deyil,
Kölgəli vicdanlar da çoq... zahirdə pək kibar, əsil.
Süslər içində qıvrılan gövərçinlər də var: səfil...
Fəqət yenə həp üstündür fəzilət eşqi zillətə.

İşçiləri çoq dinlədim bulunduqca bir arada,
Hər gün yeni çəkişmə var mə’dənlərdə, fabrikada,
Ağırlıqdan, sıqıntıdan kəskin çıqışlar olsa da,
Zorla-xoşla həpsi yenə cəlb olunur itaətə.

Burda əsla dilənçi yoq... mərhəmət yoq çünki ona,
Yan baqılır aciz, səfil, ölü, cahil bir insana.
Şərqin böyük bir şairi[1] odur ki, varsa hər yana,
Aman bilməz Qərbi hər gün də’vət edər mərhəmətə».

[1] Rabindranat Taqorun o günlərdə avropalılara verdiyi konfranslara işarət.

Azər həmən gülümsədi, əvət, dedi, pək haqqı var,
Həp «sevgi»dən zevq alırlar öylə zərif ixtiyarlar.
Çoqdan bəri Şərqin sazı həp bu ruhda inlər, ağlar,
Saqın! Qulaq verir sanma həris başlar o də’vətə.

Hindin əzilmiş bənliyi yapsa hər sözdə mö’cüzə,
Soyuqqanlı Qərb alışmış göz süzə, ya dodaq büzə.
Məzlum ellər için ancaq bir yol varsa: mübarizə!
Onsuz, şübhə yoq, irəməz Şərq aləmi hürriyyətə.

Əvət, ancaq mübarizə bənlik verir hər millətə,
Nəş’ə sərpən yalnız odur hər şəxsə, hər cəmiyyətə.
Hər yurdu irdirən odur özlədiyi səadətə,
Odur ancaq qavuşduran insanları məhəbbətə!

*Berlin*

## AZAD ƏSİRLƏR

«Ə»

Möhtəşəm bir salon... ahəngi-şətarətlə gülər:
Badələr, zümzümələr, şə’şəələr, dəbdəbələr.
Sanki elmasla donanmış hər yer,
İştə billur kürəciklər və sütunlarda dönər
                    Bir yığın rəng ilə nur;

Çağlayanlar kürələrdən daşaraq,
Süzülən gözləri oqşar və öpərkən... şaqraq,
                    İncə bir şe’r oqunur.

Dəyişib məclisin əvvəlki bədaye rəngi,
Musiqi inləyərək başladı rəqs ahəngi.
Hər gönül kəndinə bir eş bularaq,
Qoyulub rəqsə, haman zevq ilə sərməst olaraq,

Bükülüb qıvrılaraq,
Sardı şən gözləri bayğın bir hal;
Çalğılar incələrək söndü işıqlar, dərhal
Doğdu bir başqa şəfəq.
Saçılıb qumral üfüqdən parlaq,
Bir yığın yıldıza bənzər yapraq,
Uçdular gizli qonan busələr üstündə bir az
Olaraq məhrəmi-raz.
Sonra bir qaz kəsilib hər divar,
Ərz edib durdu bir eşsiz gülzar.
Saçdı fəvvarələr ətrafa çiçək, rəngü ziya,
Bu deyil bir rö'ya...
O gözəl mənzərə birdən soldu,
Musiqi susdu, qədəhlər doldu.
Oldu ülfət və məhəbbət dəmsaz
Sərpərək işvəvü naz.
Çökdü bir incə qaranlıq... yalınız
Parlayıb səhnədə şən bir yıldız,
Tatlı, cazib səsi cəlb etdi məraq,
Çırpınıb sızlayaraq.

«H»

Eşsiz bir yuvanın yeşil qoynunda
Öpərdi ruhumu bayğın nəfəslər.
Aldatdı, ah, əvət, bəni aldatdı
Yaldızlı sevgilər, xain həvəslər.

Vəhşi güllər qarşımda diz çökərdi,
Qumrular peşimcə boyun bükərdi.
Hər gün içimdə bir şəfəq sökərdi,
Oqşardı gönlümü sevdalı səslər.

Gülümsərkən bana çoban yıldızı,
Sanırdım kəndimi göylərin qızı,

Ömrümdə duymazkən incə bir sızı,
Qırdı qanatımı altın qəfəslər.

«Ə»

Qapanıb pərdə, həmən coşdu pərəstiş, alqış...
Rəqsə də’vət edərək çalğı səsi,
Yenidən parladı hər çöhrədə sevdalı baqış,
Yenidən doğdu sarılmaq həvəsi.

Yenidən doldu qədəhlər, hər kəs
Azacıq aldı nəfəs;
Səhnədən parladı xoş bir mehtab,
Verdi hər qəlbə cavab.

Canlı heykəllər! O hər süsdən uzaq, saf, üryan
Gül bədənlər veriyor ruha qida.
Musiqi mə’bədinin tanrısı dilbər qız da
Düşünür ortada heyran-heyran.
Bu nə sən’ət, nə zərafət, nə məlahət derkən,
Pərdələr endi həmən.
Çıqdı hər kəs, azacıq möhtəris insan qaldı,
Məclis artıq yeni bir rəng aldı.

Süzüldü nəş’əli gözlər, gönüllər açdı çiçək,
Hər avcı buldu şikar.
Beş-on amerkalı zəngin də sonradan gələrək
Saçıldı altınlar.
Dəmin üryan duran pərilər də
Süslənib qondular birər masaya;
Hər qədəh buldu çarə bir dərdə,
Kimsə dünyayı almıyordu saya.
Nəş’ədən döndü möhtəris qafalar,
Çılğın eşlər çəkildi lojalara.
Pərdələrdən duyuldu qahqahalar,

Daha məhrəmcə zevqə gəldi sıra.
Saçıb da ortaya məğrur Amerka sərvətini,
Əmərdi işvəli Avropanın bəkarətini.

Fəqət bu süslü tamaşaya qarşı Azərdə
Oyandı nifrətlər.
Yaqında rəngi soluq üç qadın gəlib dərdə,
Açıldı söhbətlər.

B i r i n c i  q a d ı n

Bənim qızım daha gənc... iştə qaldıq ətməksiz,
Nə yaparsın, dikənli bir yaşayış!..
Şu kirli cənnətə vardıq qarardı gözlərimiz,
Qızı sapdırdı bir yığın alqış.

İ k i n c i  q a d ı n

Bənim də qavğada məhv oldu qardaşımla ərim,
İki qız qaldı, bir də yoqsulluq.

*(Bir lojayı göstərir)*

Nə iş bulundu, nə eş... Ah, şu nadir incilərim
Şimdi hər zevqi oqşayan məx-
luq...

Ü ç ü n c ü  q a d ı n

Bənimki iştə şu al pərdədən gülüb də bana,
«Bir az da bəklə!» — diyor.
Nə çarə, bəklərim, az-çoq nə aqça gəlsə ona
Bənimlə sərf ediyor.

İncə bir yaş bəlirdi gözlərdə,
Acı bir iz bıraqdı Azərdə,

Düşündü: «Bəlkə!..» dedi.
«Bir zaman bəlkə dünkü Asiyada,
Əski Qafqasda, vəhşi Afrikada
Qızı cəbrən satıb alırlarmış.
Ona Avropa xalqı pək fahiş
Bir fəlakət demiş də hayqırmış,
Tablo yapmış, rəsimlər aldırmış.
Gülmüş, əylənmiş, eyləmiş heyrət,
Bəsləmiş bəlkə bir yığın nifrət...
Fəqət bu hal nə idi!?
Bunu görməzmi incə gözlüklər?
Satılır burda qızlar azadə,
Həm təbii bir iş qadar sadə.
Ana bir yanda titrəyib bəklər.»

Mədəniyyətdə çırpınan vəhşət
Daha yaldızlı, şairanə, əvət.
Burda öz istəgilə cariyələr
Sana şaqraqca ninnilər söylər.
Bir qəfəs xoşdur, altın olsun da,
Ac gövərçinlər əylənir onda...

«Bıraq, bıraq, yetişir! Bitdim, ah, aman, imdad!..»
«Nədir bu səs?» der ikən qopdu sisli bir fəryad,
Həmən birinci qadın qoşdu kəndi yavrusuna:
«Mələk qızım!» dedi: «Kimlər müsəllət oldu sana?»

İpəkli pərdə açıldıqda qönçə solmuşdu,
Səbəb cinayətə bir kirli şəhvət olmuşdu.
O şən salonda fəqət dalğalandı hüznü sükut,
Sükut içində gülümsərdi süslü bir tabut...

*Berlin, ağustos 1926*

## RƏSSAMIN QIZI

«H»

Çiçəkli bir bağçada qos-qoca bir yapının
Geniş salonlarında binlərcə erkək-qadın
Qapdırmışdı sən’ətə bütün xəyalı, hissi,
Hənuz görülməmişdi böylə «rəsim sərgisi».
İncə-dilbər tablolar, parlaq-zəngin levhələr
Məraqla seyrə dalmış nəzərləri cəzb eylər.
Salonları keçdikcə parlar yeni mənzərə,
Hər levhə ərz edərdi keçmişdən bir xatirə.
Baş salonda gözləri oqşardı bir madonna;
Rafaelin əl işi!.. Heyrandı hər kəs ona.
Həftələrcə, aylarca bu orjinal əsərin
Qarşısında dalmışlar rəssamlar dərin-dərin.
Bir az sola sapınca söndü bütün levhələr,
Canlı bir levhə saçdı gönüllərə nəş’ələr.
Elza, bohemyalı bir adlı rəssamın qızı,
Mavi tülə bürünmüş o bir ilham yıldızı!..
Təsvirə yeltənirdi onu üç fırça birdən,
Qız xəbərsiz kibiydi hüsnündəki tə’sirdən.
Onun süzgün və məğrur ahu baqışlarında
Gülümsərdi möhtəşəm, həzin bir rəngi-sevda.

... Bir gün Azər aqşamlayın
Şəhər kənarına çıqdı.
Bağları süsləyən Ayın
Solğun nuru pək ılıqdı.
Böyük-küçük, qadın-erkək
Təbiətdən feyz umardı.
Hər gözdə bir sevgi, dilək,
Hər qəlbin bir eşi vardı.
Yalnız iki tip Azəri
Bir köşəyə cəlb etmişdi.
Biri Elza, eşsiz pəri,

Biri sevdalı bir gəncdi.
Elza yeşil balkonunda
Çiçəklərə gömülmüşdü,
Aqşam qəribliyi onda
Halə kibi örülmüşdü.
İncə rüzgar qızın ipək
Tellərilə əylənirkən,
Bir ney kibi inləyərək,
Gənc mülazim coşdu həmən:

«Ə»

Çıq bulutlardan, ey əfsanəli qız!
Gəl avut ruhumu, ey şən yıldız!
Bana dünyada təsəlli yalınız,
Gözəlim, həp sənsin.
Sən nə nazəndə mələksin, bilsən?!
Sənsiz avarə bir öksüzdüm bən.
Nəş'əsiz ömrümə sevda sərpən
Gözəlim, həp sənsin
Gəncliyim, iştə bütün duyğularım,
Sənin aşqınla gülümsər, yavrım!
Bənim ən sevgili, eşsiz tanrım
Gözəlim, həp sənsin.

«H»

Qız yaralı qəlbə qarşı
Mərhəmətsiz davranırdı.
Dinlədiyi yalvarışı
Çocuqca bir hal sanırdı.
Hətta bir az gülümsədi,
Sonra pəmbə rəngi soldu.
Qəlbində bir şey titrədi,
Gözlərinə matəm doldu.
Şaşqın kibi baqıb duran

Vurğun gənci bu hal sıqdı.
Bu sırada yan qapıdan
Vüqarlı bir qadın çıqdı.
«Oğlum!» dedi: «dərtli qəlbi
Sən bir daha dərdə saldın.
Qız çəkildi kölgə kibi,
Sən cavabsız, mə'yus qaldın».
— «Səbəb, səbəb!» deyə gəncin
Alev sardı gözlərini:
«O gülüş, o nifrət niçin?
Niçin atıb getdi bəni?»

Q a d ı n

Üç gün oldu, izlər-durursun onu;
Yazıq ki, bir yana çıqılmaz sonu,
Çünki o dilsizdir, eş deyil sana!

Z a b i t

Dilsiz olsa da bən vuruldum ona.

Q a d ı n

Vurulsan da heyhat! O sevməz səni,
Hərb əhlinə qarşı az deyil kini.

Z a b i t

Səbəb! Ah, bu kinə səbəb nə? Söylə!

Q a d ı n

Bu kin ona gəlmiş cihan hərbiylə.
O zaman ki, dünya bir məzbəh oldu,
Hüdud boyu əskər leşiylə doldu.
Tilki diplomatlar dönüb qaplana,

Boyadılar yer yüzünü al qana.
Hər tərəfdə ölüm dalğası vardı,
Göydən dolu kibi qurşun yağardı.
Ah, o zaman kinli bir səs bağırdı:
«İsyan! İsyan! İsyan!» — deyə hayqırdı.
O səs «hərbə qarşı hərb» istiyordu.
«Qılıclardan oraq yapın!» diyordu.
Elzanın babası, o coşğun rəssam
Bohemya xalqına verirdi ilham.
Hökumət ərkanı ona qızdılar,
O gün e’damına fərman yazdılar.
O gün Elza səkiz yaşa dolmuşdu,
Doğuş bayramına hazır olmuşdu.
Babasının ölüm xəbəri gəldi,
Zəhərli oq kibi beynini dəldi.
«Eyvah!» deyə qızı bir dəhşət aldı,
O gündən bəridir ki, dilsiz qaldı.
Artıq duyulmadı o şaqraq səsi,
Fənnə sorduq, bulunmadı çarəsi.
Ah, o gündən bəri Elza nerdə bir
Hərb adamı görsə ürküb diksinir.
Düşmandır gözünə hərbi qiyafət,
Qardaşı olsa da duymaz mərhəmət.

Qadın susdu... Gənci bir şö’lə yaqdı,
Vicdanında acı bir iz bıraqdı.
Azər duyub onu yaqan şö’ləyi,
«Əvət, dedi, hərbə qarşı hərb! Eyi.
Gərçi bu gün hər qan içən «sülh» arar[1],
Hər salondan doğar yeni bir şiar.
«Tərki-silah» nəğmələriylə ancaq
Məzlumlara qarşı qurulur tuzaq.
Kəşf olunur hər gün zəhərli qazlar,

---

[1] Bu misra «Gərçi bu gün kapitalizm sülh arar» şəklində də oquna bilir.

Yarın bilinməz kim kimi boğazlar.
Hənuz dünkü qanlar qurumamışkən,
Yeni bir hərb için planlar çəkən
Vəhşi diplomatlar, quduz nazırlar
Azadlıq yerinə zəncir hazırlar.
O paslı zəncirlər qırılmadıqca
Dar gələcək insanlara bu dünya».

... Zavallı gənc vida etdi qadına,
Döndü qışlasına başda fırtına.
Gözündə canlandı qanlı səhnələr,
Bütün gecə sandı cihanı məqbər.
Gülümsərkən ona səhər yıldızı,
Uyquya dalmışdı rəssamın qızı.

## KÖMÜR MƏ'DƏNİNDƏ

*(Almaniyada, Rur civarında yazılmışdır)*

Yağmurlu bir sabah idi, hər yeri sis almışdı,
Güləryüzlü Günəş xəzan uyqusuna dalmışdı.
Azər qoşdu dumanlı dağların yanıq bağrına,
İsyan dolu ocaqlardan is yağardı hər yana.
Hər mağara ölüm tütən məzarlığa bənzərdi,
O məzarın qurbanları həp nasırlı əllərdi.
Kirdən, çamurdan bunalmış gözlərdə kin çaqardı,
Bir az ətmək çıqar deyə gülən yüzlər də vardı.
Hətta çoqu bu dirliyi bayram sanır, oynardı,
Şarqı söylər də bir yigit öz yurdunu anardı:

Ş a r q ı

Səfalıdır bizim dağlar, bizim ellər,
Qayğı bilməz bizim bağlar, bizim güllər,
Çağlayan bir yanda çağlar, orman gülər,
Bulutlar bir yanda ağlar, çoban dinlər,
Səfalıdır bizim dağlar, bizim ellər.

Bizim dağlar mayıs rö'yasına bənzər,
Yamaclarda sürü-sürü ceyran gəzər,
Ceyran baqışlı yosmalar həp can üzər.
İşvə, əda bilməz, bilmədən göz süzər,
Bizim dağlar mayıs rö'yasına bənzər.

Sevdalıdır bizim dağlar, bizim ellər,
Sevimlidir, şəndir bizim incəbellər.
Nerdə o hər gün duyduğum şirin dillər?
Hər gün öpüb oqşadığım ipək tellər?
Sevdalıdır bizim dağlar, bizim ellər.

Şu bəxtiyar gəncin tatlı sözləri
Düşündürüb durdu yorğun Azəri.
Gönlündə bir yığın dumanlı isyan,
Keçdi qorqunc, əyri, sapa yollardan,
— Yoqsullar məzarı şu kirli mə'dən
Seçilməz Dantenin cəhənnəmindən.

Azər aydınlıqda işdən qovulmuş
Bir ixtiyar gördü, bənizi solmuş...
Müdirə yalvarıb diyor: «Yoq yerim,
Ölsəm belə burda ölmək istərim».
Şişman müdir aldırmıyordu əsla,
O halda bir vəkil girdi ortaya.
Dedilər ki: «İşçi nümayəndəsi!..»
İxtiyarı açdı onun gəlməsi.
O, pək «sol» tanınmış «sosyalist» ikən,
Müdirə haq verib getdi bilmədən.
Bu hal ixtiyarı qarsıb-qavurdu,
Şu xain arqaya söyüb-savurdu.
Azər içindən titrədi,
«Hey!...» dedi:
«Hey zavallı, saqın, yorma kəndini!
Qüvvətdən düşüncə titrək əllərin,

Düşmanların deyil, hətta rəhbərin,
Arqaların belə satarlar səni.
Sən bir makinasın: qırıq və miskin...
Çəkməlisin yükləndiyin hər başı,
Bu baş olsa belə xırsız oynaşı —
Çarə nədir, kəndin öyüb bəyəndin.
Əvət, sən acından ölüm dilərkən,
O çapqınlar saraylarda əylənir,
Saçmalar söylənir, sazlar köklənir,
Fəqət həp əzilən, həp qəhr olan sən!..»
İxtiyar çıldırdı,
Müdir şaşırdı.
«Xayır, getməm, — dedi — acım, yoq yerim,
Ölsəm belə burda ölmək istərim».
Kinli gözlərində atəş parladı,
O çökmüş iskelet həmən fırladı.
Bir parça daş kömür alıb da yerdən,
Sayğısız müdirə hücum edərkən,
«Mücrim» deyə kirli yalan satdılar,
Çılğın ixtiyarı həbsə atdılar.

## MÜHACİRLƏR YUVASI

«Ə»

Azər yürürdü əldə ufaq yolçu çantası,
Birdən göründü qarşıda «Moskof lokantası».
Yorğundu, acdı, girdi də azcıq «yemək», dedi,
Dolğunca bir qadın ona «xoş gəldin» eylədi.
Parlardı çöhrəsində sönən köhnə ehtişam,
Xidmətçilər də eyni çamurdan: əsil madam.
Dün «şanlı xanədanlara» mənsub ikən, bu gün
Bir parça ətmək olsa səadətli bir dügün!..
Yoq hiç birində dünkü təhəkküm satan qürur,

Hər kəs əməklə kəndini tə'min edib durur.
Yoqsul, bir az da kirli salon gərçi can sıqar,
Lakin nədənsə müştərilər çoq girib çıqar.
Bir qısmı bəlli, iştə mühacirdi pək səfil,
Avropa xalqı, yerli camaat də az deyil.
«İsa»ya bənzəyən sarı bir çöhrə Azərin
Dalmışdı qarşısında xəyalata pək dərin.
Azər məraq edib onu söylətmək istədi,
Dalğın mühacir ah çəkərək «Arqadaş! — dedi —
Tam səkiz yıldır iştə biz burada,
Qalmışız kimsəsiz, səfil, arada.
İnqilab atəşilə ürküşdük,
Dağılıb böylə dərbədər düşdük.
Nə bəla varsa Tanrıdan bulduq,
Nə «rəzalət» desən düçar olduq.
Ah, əvət, bən, zavallı sərsəm bən!..
Yeni darülfünun bitirmiş ikən,
Bəni qandırdı baq, şu abdallar,
Çoq şükür, şimdi həpsi at nallar».
Kimdir onlar? Sorunca... Dalğın adam
Dedi: — Baq, gördüyün şu nazlı madam,
Ki seçilməz semiz inəklərdən,
Bir qraf zevcəsiydi zəngin, şən.
Bu!.. Saraydan yetişmə bir afət,
Şimdi çökmüş zavallı bir əzəmət...
Şuracıqdan keçən somurtqan da
Bir prensesdi, namı hər yanda
Duyulurkən edərdilər səcdə,
Ona əl'an ölüm də bir müjdə...
Şu qopuq, iştə əski bir ceneral!..
Pək uzun sərgüzəşti var, xəbər al.
Ona rəhmətli, gorbagor Nikola
Çoq nişan verdi, gərçi pək budala...
        Miralaymış!.. Keçən soluq çöhrə,
        Bu gün artıq o bir qırıq cəhrə...

*(Səhnədəkiləri göstərir)*

Şu həriflər də əski qarunlar,
Həpsinin şimdi başqa sən'əti var.
Ac qarın verdi musiqi həvəsi,
İştə saz kökləyib durur həpsi.
Şu madamlar, əfəndilər o zaman
Kəsilib inqilaba həp düşman
Cibdə altın; qaçıb da qurtuldu,
Yeni bir zevq içində məst oldu.
Burda almanlar eyləmiş iflas,
Vardı hər evdə sanki bir qara yas.
Paralar həp kağız, kağızlar hiç...
Yoqsa altın, həyatdan vaz keç!
O zaman həp şu yadigarlar, əvət
Satıyorlardı başqa bir əzəmət;
Əldə pırlantalar və elmaslar
Həpsi şahanə bir əda taslar.
Qurulub hər salonda işrətlər,
Uzayıb getdi həp səfahətlər.
Hər kəsin çünki e'tiqadı qəvi:
İki-üç ayda inqilab alevi
Bitərək, həp gurultular sönəcək,
Bəxtiyarlar saraylara dönəcək.
Bir yığın ixtilalçı ac, çıplaq
Bəlli, beş gündə xurduxaş olacaq.
Çoq təəssüf ki, tatlı təxminlər
Bir yalan nəğmə oldu... kim dinlər!
Uzayıb durdu inqilab artıq,
Dünkü həşmətlər oldu beş paralıq.
Para bitdikcə bitdi bunlar da,
Qara iş buldular salonlarda.
Məhv olub getdi həp şərəf, namus,
Daha bilməm nələr!? Bu pək mənhus...
Canlanıb durdu müflis almanlar,
Qaldı ac gördüyün qudurğanlar...»

Rəqs etdi salon nəş’əli bir çalğı səsindən,
Bir qız süzülüb çıqdı gövərçin qəfəsindən.
Rəqqasə!.. Qraf yavrusu, pək işvəli bir qız,
Moskofdan uçub Qərbə qavuşmuşdur o yıldız,
Heyrət!.. o nə halət, nə şətarət, nə qiyafət!
Dəhşət!.. o nə səfvət, nə təravət, nə lətafət...
Pək nazlı, şəfəq dalğalı, fəvvarəli bir nur,
Hər cilvəsi, hər halı edər gözləri məshur.
Rəqqasə deyil, xariqədir iştə o afət,
Hər qıvrılışından doğuyor başqa zərafət.
Məftun kibidir kəndinə, dünyaları saymaz,
Qoynunda böyütmüş onu bin ali heyi-naz.
Alqışladılar... güldü, çəkildi,
Alqışladılar... bir daha gəldi,
Məclis gəliyorkən həyəcanə,
Qız başladı bir başqa təranə.

### Qızın təranəsi

«H»

Aydın bir gecəydi rö’yayə daldım,
Baqdım cənnətdəyim, heyrətdə qaldım,
Öpdü al qanatlı mələklər bəni.

Bilməm nə hal oldu, həmən bayıldım,
Bülbüllər ötərkən... səhər ayıldım,
Öpərdi xarəli ipəklər bəni.

Rö’ya füsunilə o gün sərxoşdum,
Bir kələbək kibi gülzarə qoşdum,
Öpdü gözüyaşlı çiçəklər bəni.
        Vurğun kibi gözü bəndə hər kəsin...
        Uf, istəməm, xayır, xayır, öpməsin
        Gözlərdə titrəşən bəbəklər bəni...

«Ə»

Bitirdi işvəli rəqqasə xoş təranəsini,
Öpüncə samiələr ruhu cəzb edən səsini,
Sönük gönüllərə sərpildi incə bir həycan,
Çəkildi, gəlmədi... alqış qopardı həp tufan.

Yenə «İsa»ya bənzəyən yüzdən
Bir təbəssüm bəlirdi... söylədi: «Ən
Çoq bəyəndim şu nazlı afəti bən,
Çünki hər kəs onun əsiri ikən
Enmək, alçalmaq istəməz əsla.
Ləkəsizdir çocuq qadar hala...
Yeni açmış şu qönçənin babası
Bir qraf... xasta, həm bozuq qafası.
Onu tə'min için fəqət böylə
Rəqsə məcbur olur bin işvə ilə.
Baba dursun, şu gördüyün «həzərat!..»
O qızın sayəsində buldu həyat.
Şübhəsiz, rəğbət olmasaydı ona,
Kimsə gəlməzdi böylə bir salona».

... Çəkilib getdi həp misafirlər,
Qaldı kin püskürən beş-altı nəfər.
Bunlar, işsiz qalan mühacirlər,
Etmək istərlər əski yurda səfər.
Bıraqırlarmı?.. Kim bilir, nə olur!?
Burda qalmaq da xeyli qorquludur.
Yaşamaq güc... çalışmaq istərsin,
İş bulunmaz, bulunsa... pək çirkin,
Pək ağır iş verirlər, ən kötüsü:
İşçilər bağlıyor səninlə küsü,
Kimi təhqir edib dodaq büzəcək,
Kimi binbir alayla göz süzəcək...
Sanki iş varmı, olsa şad oluruz,

Qara ətmək yeyib səfa buluruz.
Ah, bir az sönsə inqilab alevi!..
Hər kəsin kəndi yurdu, kəndi evi...
Orda insan acından ölsə belə
Yenə xoşdur... Fəqət şu eldən-elə
Qoşmanın sanki varmı mənası?
Adamın hər gün ağlıyor anası.
Ah, əvət ən böyük bəla, bilsən,
Para yoq, köçmək istəsən belə sən;
Hədər olmazmı çəkdiyin zəhmət?
Yaqalandınsa iştə son dəhşət!..
Deyəcəklər bu köhnə bir canavar,
Əski milyonçu... öl! Gəbər! Nə çıqar!?

Sardı ətrafı bir vərəmli sükut,
Baqışıb durdular bütün məbhut.
Şu sükut arqasınca iç odadan
İncə bir səs duyuldu, qopdu fəğan!..
Nazlı rəqqasə inliyordu... əvət,
Qraf etmişdi ansızın rehlət!

## NİL YAVRUSU

Yığın-yığın aqışan avtolar, tramvaylar
Çiçəkli, süslü, təravətli bir cihana qoşar.
Bu ölkənin yazı şən bir mayıs qadar dilbər,
Səfalı mənzərələr ruha busələr sərpər.
Göz işlədikcə gülümsər yeşil xiyabanlar,
Yeşildi pəncərə, balkon... yeşildi meydanlar.
Çiçəklərin arasından yürürdü afətlər,
Uçardı qəhqəhələrdən qopan səadətlər.
Görülməmiş bu «çiçək sərgisi»ndə ən rə’na
Gözəllər iştə gülümsərdi hər yeşil fidana.
Fəqət bir afəti izlər dururdu həp gözlər,
O gün həmən ona aiddi söylənən sözlər.

Adı Şəmsa, füsunlu bir xilqət,
Saçar ətrafa həp qürur, əzəmət...
O baqışlarda bir qıvılcım var,
Hanki bir qəlbə əks edərsə yaqar.
Şərqin əsmərcə bir bədiəsidir,
Yeni Mısrın öc izləyən səsidir.
Yedi yıldır ki, Nili tərk edərək,
Qərbə uçmuş o nazənin kələbək.
Başda hürriyyət aşqı, sevdası
Daşıyan bir ədib imiş babası.
Məhbəs olmuş gözündə həp yurdu;
«Haq»! — dilərkən... bir ingiliz lordu
Sürgün etmiş ölümlü bir adaya.
Bu xəbərdən sönüb bitən Şəmsa
Köçərək əmcəsiylə bir yerdə,
Yaşıyor böylə qürbət ellərdə...
Isınıb şən mühitə getdikcə,
Hüsnü ətrafı sərxoş etdikcə
Onda həp parlar ehtişamü qürur,
Yüzü lakin nədənsə az gülüyor.
Düşünür... iştə, daima dalğın,
Çırpınan ruhu nəş’əsiz, çılğın,
Daima kinli bir pəyam arıyor,
Anaraq Mısrı intiqam arıyor.

... Sönüyorkən Günəşin son işığı...
Sardı bir rəngü ziya ortalığı.
Keçdiyin yollara baqsan hər yer
Dürlü ahəngi-bədaye’lə gülər.
Soqulub şevq ilə erkək qadına,
Hər səfahət yapılır zevq adına.
Süslü kaşanələrin aləmi var,
Hər gönül bir yeni əyləncə arar.
Şu tuhaf mənzərələrdən Azər
Çoq da zevq almadı!... Yalnız dilbər,
Canlı bir levhəyə məftun olaraq,

Doğdu gönlündə bir atəşli məraq.
Baqdı Şəmsa keçiyor məsti-qürur,
Şimdi gündüzkünə hiç bənzəmiyor.
Pəmbə köksündəki tüldən duvağı,
Öpüyor bir krizantem dodağı.
Görsə hər kim onu Mısrın məşhur
Bir füsunkarını[1] görmüş sanıyor.
O şətarətli, gülümsər yüzdə,
Al dodaqlarda, o qumral gözdə
Öylə bir incə təravət vardı
Ki, bütün gözləri əfsunlardı.
Baqaraq naz ilə həp sağ-soluna,
Girdi pək dalğalı, şən bir salona.
İki-üç xurmacığaz bir köşədən
İşvəkar afəti cəzb etdi həmən.
Sardı ətrafını bir qaç tələbə,
Həpsi bənzərdi yüzündən ərəbə,
Həpsinin umduğu bir tatlı xəyal:
Qurtuluş eşqi, geniş istiqlal.

... Keçdi azcıq... sırıtan bir mə'mur,
İngiliz lorduna bənzər, məğrur,
Əzəmət taslağı, bir tip gəldi,
Onu Şəmsa süzüyorkən, bildi.
Göstərib, baq! — dedi yoldaşlarına,
Gəlsə hər təhlikə Mısrın başına,
Şu bakır çöhrəli insan yapıyor,
Vətənin ən qara cəlladı odur.
Görünür, «sərgi»yi seyr etmək için
Qərbə keçmişdir o qurnaz xain.
Dəyişib cümləsinin bət-bənizi,
Sardı hər çöhrəyi bir nifrət izi.
Biri qalqıb dedi: — Artıq gedəlim.
Güldü Şəmsa, dedi: — Yoq, rəqs edəlim,

[1] Kleopatra.

Güləlim, əylənəlim bir saət...
Etdi hər kəs buna az-çoq heyrət.
Rəqsi əvvəldən o hiç sevməz ikən
Bu şətarət ona gəlmiş nerədən?!
Gözlərindən süzülən işvə, əda
Lordu cəzb etdi həmən bir anda.
Yanaşıb rəqsə edərkən də’vət,
Onu rədd etmədi Şəmsa... Fürsət!
Qoşdular rəqsə bərabər, məmnun...
Gənc ərəblər şaşırıb qaldı zəbun.
Həp yürəkdən qıza kin bəslədilər,
«İştə sapqın və şərəfsiz!» — dedilər.

... Nəş’ə çılğınlığı lordun gözünü
Yapdı bir falçı daşı.
Mey qızıllatdı bakırdan yüzünü,
Sallanıb durdu başı.
Süzərək qız onu, qəlbindəki öc atəşini
Yeniyor qəhvə ilə,
Lorda tez-tez sunaraq badə bıraqmaz peşini
Yeni bir şivə ilə.

... Sallanıb durdu hərif əsnəyərək:
Yetişir — söylədi — gəl!
Süslü, şahanə odam var, gerçək,
Gedəlim, baq, nə güzəl!..
Onu rədd etmədi Şəmsa, getdi
Bir misafir kibi şən.
İngiliz zevqini təbrik etdi
Yolda hər qarşı gələn.

... Yarın erkən Günəşin tatlı, qızıl busələri
Azərin ruhuna gül sərpərkən,
Geyinib çıqdı bir az dinləyə bakir səhəri,
Bir xəbər duydu həmən:
Qomşular bir yeni şey görmək için toplaşaraq,

Sardı hər çöhrəyi getdikcə
məraq.
Görünüb qarşıda bir dəstə polis, ən arada
Keçdi Şərq afəti əsmər Şəmsa.
«İştə, qatil şu gözəl qız!..» — deyə erkək və qadın
Süzdülər həp onu şaşqın-şaşqın.
İki qurşunla bitirmiş gecə azğın lordu,
Bəlki azcıq nəfəs alsın yurdu.
Bəlki azcıq nəfəs alsın əzilən insanlar,
Aqmasın Nilə günahsız qanlar.
Dünkü yoldaşları nifrətlə atarkən salonu,
Şimdi izlərdi onu.
Bir ilahəydi o, hürriyyəti təmsil edərək,
Görmək istərdi dikənlikdə
çiçək...

*Berlin*

## TISBAĞANIN ZEVQİ

«H»

Avropanın yeşil bir yaylasında
Konsert için böyük hazırlıq vardı.
Seyrə gələn bütün erkək, qadında
Pək yeni bir şeyə məraq uçardı.
Orkestro çaldı, pərdə açıldı,
Məraqlı gözlərdən heyrət saçıldı.

Səhnə boşdu, yalnız ən orta yerdə
Yuvarlaqca, boz bir ləkə göründü.
Dəyişdi musiqi həp pərdə-pərdə,
Getdikcə incələn bir şe’rə döndü.
Bağanın qafası çıqıb qılıfdan,
O tatlı ahəngi dinlərdi heyran.
Zürafə boynuna bənzərdi boynu,

Məğrur, ədalı bir duruşu vardı.
Musiqidən sərxoş olurkən... onu
Kim seyr edərsə bir sevinc duyardı.
Birdən çalğı susdu, ahəng pozuldu,
İncə heyvancığaz görünməz oldu.

... Ağsaçlı bir professor, parisli bir lisancı
Azərin yanında gülümsüyordu.
O duymuşdu: Bu mühitə Azər bir az yabancı...
«Gördünmü? Levhə pək gözəl!» diyordu.
«Tısbağalar belə bizdə musiqidən zevq alır.
    Sizdə nasıl, bu sınaqlar varmıdır?»
Azər gülüb «Xayır!» dedi: «Bizdə deyil tısbağa,
    İnsan belə görməz bu zevqi əsla!
Şərqin bir çoq ölkəsini bən gəzib də dolaşdım,
    Çoq ellərə yanaşdım.
Orda insan sürüləri yığın-yığın məhv olur,
    Ətməyini güc bulur.
Çoluq-çocuq ac-yalavac paçavraya bürünür,
    Çöplüklərdə sürünür.
Aşçıların atdıqları gəmikləri qırarlar,
    Bir az ilik ararlar.

O məhsullu Şərqin halı pək səfil...
Öylə yoqsul var ki, ot yeyib yaşar.
Fəqət burda yalnız insanlar deyil,
Tısbağalar belə eşqindən coşar.
Çoq düşündüm bunu dəmindən bəri,
Hər zevqi bir acı bəslər, düşünsən!
İştə Qərbin azğın səadətləri
Alır qida Şərqin fəlakətindən.»

## ŞƏRQƏ DOĞRU

«Ə»

Qərbi sarmışdı dumanlar, sislər...
Acılar duydu içindən Azər.
Özləyib Şərqi, həmən çıqdı yola,
Bəlkə bir düşkünə yardımçı ola.
Bəlkə Şərqin o sıcaq qoynunda
Üşüyən gönlünü azcıq avuta.
Yoqdu yollarda tamaşaya məraq.
Tarlalar ölgün, ağaclar çıplaq...
Qəsvətindən uyuyan yolçulara
Ninni söylərdi uğultuyla bora.
Bir səhər Azər uyurkən, şaqraq
Bir səda sazla həmavaz olaraq,
Onu qaldırdı yataqdan erkən,
Bəlli... varmışdı o gün Şərqə tren.

## Eşidilən türkü

«H»

Vəfalı yar ikən, bir düşman kibi
Qıydı bana heyran olduğum gözəl.
Saldı gözdən, yıllarca Sən'an kibi
Qapısında çoban olduğum gözəl.

Dedim «Öldür bəni»! sallanıb keçdi,
Süzgün baqışları qəlbimi deşdi,
Bir kələbək kibi qanımı içdi
Dərdindən pərişan olduğum gözəl.

Ah, nə çıqılmaz yol imiş bu sevda,
Tə'n etdi hər görən, güldü hər gəda,
Xasta bir quş ikən bəni yuvamda
Dustaq etdi qurban olduğum gözəl.

«Ə»

Türkü susmuşdu, gülümsərdi Günəş,
Hər gönül aldı Günəşdən atəş.
Ta uzaqdan çökən atəşkədələr,
Coşğun elmas dəniz inlər və gülər,
Düşünən Azərə eylərdi səlam,
Kəndisindən umaraq bir ilham.

Yeni varmışdı o, «Altın şəhir»ə,
Yanaşıb durdu bir ölgün çöhrə.
«Yardım et! — söylədi — azcıq para ver,
Yeyəcəksiz, geyəcəksiz bəklər
Yedi baş ailə qulbəmdə bəni,
Ölüdür həpsi, fəqət yoq kəfəni».

Onu Azər süzüyorkən tanıdı,
Bir zaman hökmi-rəvan sultan idi.
Xeyli zəngindi şu miskin cahil,
Əski milyonçu ikən, şimdi səfil...
Öncə bənzərdi o bir torba ətə,
Şimdi bənzər diri bir iskeletə.

Əl açıb söylədi təkrar edərək:
«Görüyorsun ki, acım, eylə kömək».
Dedi Azər: — Bu dilənmək nə imiş,
Çalış, uğraş, bularaq sən də bir iş.
Yoq deyil işçiyə ətmək parası...
Hərifin döndü bu sözdən qafası,
Dedi: — Hiç gəlməz əlimdən qara iş...

A z ə r

Ya!? Bu adət kötü... həm pək müdhiş!..

Səndə baş var ya!

O

*(qafasına işarətlə)*

Şaşırdınmı, bu nə?

A z ə r

Zahirindən nə çıqar, baq içinə,
Varmı elmin?

O

Xayır!..

A z ə r

Artıq yetişir,
Sana ölmək yaşamaqdan eyidir.
Çünki baş yoq, çalışan əllər yoq.
Ölüsün... Get, didinib söyləmə çoq.

O

Sus, yetər, sus! — nə diyorsun bə, sənin
Allahın yoqmu? Bu həzyan nə için?

A z ə r

Allahın burda, əzizim, işi nə!?
O sürülmüş ki, vətən xaricinə...

O

Ya bu çanlar, bu əzanlar nə demək?

A z ə r

Yas tutar keçmişə həp inləyərək.

O

Sən də sapmış kibisin, bəsbəlli...
Sarsılıb getdimi dinin təməli!?

A z ə r

Gündə bir rəngə girirkən dünya,
Hanki şeydir ki, dəyişməz əcəba?
İnqilab!.. İştə dəyişdin belə sən,
Tilki oldun, qoca bir aslan ikən.
Sana bənzər bilirim binlərcə.
Güclü, sərsəm buğa həp oldu cücə.

O

Sən ki, bir əqrəb imişsin gerçək,
Bu zəhərlər, bu dikənlər nə demək!?
Sərvətim əldə bulunsaydı, saqın,
Bana gülməzdi bu gün hər sapqın.

A z ə r

Öyünüb durma, o sərvət əsla
Sana aid deyil, azğın, budala!
Ot satan, pambıq atan, halva qapan
Hər gələn bəhs ediyor milyondan.
Əcəba, sən onu nerdən aldın,
Şübhəsiz, başqalarından çaldın.
O sənin kəndi qazancınsa, niçin
Şimdi qur-qur ötər aclıqdan için?

Get qazan, şimdi də iş var, para var,
Çalışır şimdi də başlar, qollar.
Həp əməkdən çıqıyorkən ətmək,
Böylə arsızca dilənmək nə demək?

Bir də, yükləndiyiniz altınlar
Hanki bir xeyr işə olmuşdu mədar?!
Kiminiz oldu xurafata ənis,
Kiminiz yoqsula cəllad, iblis...
Sizi cəlb etdi sokak töhfələri,
Varınız süslədi aşüftələri.
Uyuturkən sizi qəflət və qürur
Qopdu tufan, əzilib hər məğrur,
Paralar getdi, cəhalət qaldı.
Eviniz ətməyə həsrət qaldı.
İştə, evladınız abdal, sərxoş,
Həpsi cahil, bəcəriksiz, başı boş.
Acırım bən sizə, lakin, eyi bil,
Mərhəmət çoq da gözəl töhfə deyil.
Bu səfalət batağından ancaq,
Sizi qurtarsa ölüm qurtaracaq.

## KOR NEYZƏN

Azər yeşil ormanlardan qulbəsinə dönərkən,
Aqşam qəribliyi saçan üfüqləri dinlədi.
Zümrüd dağlar üstündəki al şəfəqlər sönərkən,
Qomşu bağçalarda həzin bir ney səsi inlədi.
Bu səs yorğun Azərdə pək acı bir iz bıraqdı.
Əsasına dayanaraq adım-adım yürüdü.
Suya gedən köy qızları ona heyrətlə baqdı,
Çoq sürmədi, göy yüzünü bir əsmərlik bürüdü.
Göz qırparaq gülümsədi ona Zöhrə yıldızı,
Sanki o da dinliyordu bu sinirli fəryadı.
Bu sırada yavaş-yavaş susdu neydəki sızı,

Coşğun, yaralı bir səslə yanıq türkü başladı.

T ü r k ü

Gözəlsin, eşin yoq bizim ellərdə,
Dilbərsin, dolaşır adın dillərdə.
İncəsin, yetişmiş incə bellərdə
Əsla sana bənzər çiçək görmədim,
Sənin kibi şən bir mələk görmədim.

Şəhla gözlərində səadət gülər,
Sanki hər afətdən pərəstiş dilər.
Sənin Məcnunların Leylayı neylər?
Sənsiz cənnət xərabəzarə bənzər,
Sənsiz gönül ıssız məzarə bənzər.

Azər həmən qarşıdakı bir bağçaya yanaşdı,
Girmək için izn istədi, bir səs duydu «gəl!» deyə.
Girdi, gözü çardaq altında bir kora sataşdı,
Xoş-beş etdi, gördü bənzər o pək arif kimsəyə.
— Nerəlisin?
— İranlıyım.
— Adın nədir?
— Qəhrəman.
— Ney çalan, türkü söyləyən kimdi?
— Bənim, əmriniz?
— Eşitdim də məraq etdim, olurmu bir də çalsan?
— «Olur» deyə, aldı neyi, dərdli idi, şübhəsiz.
Çaldı, çaldı, inlədikcə, dağı-daşı inlətdi,
Köyə dönən quzuları belə yoldan eylədi.
Acı bir hal keçirərək birdən neyi tərk etdi,
Keçmişini anar kibi həzin-həzin söylədi:
Yad ellərə düşdüm, gəlib-gedən yoq,
Yanarım, sızlarım, ilac edən yoq,
Uğrunda bitdiyim nazik bədən yoq.
Dərd aldı sağımı, ölüm solumu,

Namərd Araz kəsdi bənim yolumu.

Bilmədim, vuruldum yosma bir qıza,
Əridim yürəkdən qan sıza-sıza,
Söyləsəm dərdimi Aya, yıldıza,
Yıldızlar gülümsər, Ay aqıb gedər,
Dinləməz halımı, yan baqıb gedər.

Urmi bir şəhərdir, ətrafı gülzar,
Gül bağları var ki, gəzənlər azar,
Zərdüştün günəşi orda az qızar.
Çoq zaman mayısdan seçilməz yazı;
Xoşdur o toprağın hər sözü, sazı.

O gül diyarında şən bir bülbülə
Uyub qondum bən də qönçə bir gülə.
Xain bir avcının namərd əlilə
Ömrümün baharı xəzana döndü,
Dünya gözlərimdə zindana döndü.

Bu sırada yaşlı bir bağçıvan üzüm gətirdi,
Zavallı kor dərin bir ah çəkib sözü bitirdi.
Mane olmaq istəmədi onu görən ixtiyar,
Yenə getdi «bağışlayın» dedi, «bir az işim var».
O gedərkən acı-acı gülümsədi Qəhrəman,
Anlatdı ki, bənim dayımdır şu yaşlı bağçıvan.
İstəmədi əl açayım hər vicdansız səfilə,
Alıb gətirdi İrandan bəni bu qürbət elə.
Vardım Aras kənarına... həm dirildim, həm öldüm,
Çılğınca bir çocuq kibi həm ağladım, həm güldüm.
Sevgilim də, cəlladım da çünki İranda qaldı...
Hiç aldırmaq istəmədim, yenə bəni dərd aldı.
Azər dedi: — Gönül istər həmdərd ola səninlə...
Zavallı ah çəkib dedi: — Məraq etdinsə, dinlə!

Urmi civarında Əfşar elindən

Anasız-babasız bir gənc idim bən.
On yıl əvvəl katib oldum bir xana,
Hökmü rəvan idi onun hər yana.
Hər kəscə bəllidir Bəbir xan adı,
Baş əydirməmiş bir insan qoymadı.
O pək məğrur idi, xeyli qurnazdı,
Bə’zən hökuməti belə saymazdı.
Həşməti, sərvəti, şanı, şevkəti
Olmuşdu hər yerdə dillər ziynəti.
Evlad deyə Mələksima adında
Tək bir qızı vardı: lətif, xoş əda...
Gözəllər gözəli, sevda günəşi,
O diyarda bəlkə bulunmaz eşi.
Hər cilvəsi dilbər, incə hər halı,
Onu təsvir için şair olmalı.
Bütün əşraf ikən onun vurğunu,
Bəbir xan kimsəyə vermədi onu.
On səkiz baharlıq o qönçə güldən
Hər səhər göz busəsi alırdım bən.
Pək çevik bir avcı idim... Çoq zaman
Kəndisindən ayırmazdı Bəbir xan.
Bir gün yenə ava hazırlanırkən,
Qız «Sən getmə!» deyə söz aldı bəndən.
Getmədim, dinlədim çılğın gönlümü,
Gözə aldırmışdım o gün ölümü.
Avcılar atlanıb yola düşdülər,
Artıq durub düşünməyi kim dinlər?
Mələksima güllü bağa savuşdu,
Gönül çırpınaraq peşincə qoşdu.
Ətrafını sardı gül fidanları,
Saqladı bəndən o nazlı şikarı.
Aradım, aradım, epey yoruldum,
Püsküllü söyüdün[1] altında buldum.
Yüz-yüzə gəlincə, dəyişdi halı,
Baqışından bəlli idi xəyalı.

[1] Məcnun sögüt.

Ehtiras alevi gözünü sardı,
Pəmbə yüzü bir gül kibi qızardı.
«Nə söyləyim!?» deyə bən düşünürkən,
İncə qəhqəhələr qopardı birdən.
Coşdu erkəkliyim, yaqlaşdım ona,
Sarıldım sarmaşıq kibi boynuna.
Sanki bir gövərçin döndü qartala,
Ürküb çəkilərək dedi: «Eşq ola!
Şaşırdınmı, nədir, eşmiyim sana!?»
Bu sözdən içimdə qopdu fırtına.
Ümidimi kəsib dönmək istədim,
Çünki yoqsul idim, «haqlısın» dedim,
Uzaqlaşdım... Yenə nədənsə güldü,
Güldü, şəhla gözü yenə süzüldü.
Qollarını açdı «Getmə, gəl!» dedi.
Yaqlaşıb sevindim, qaçmaq istədi.
Yaqalayım derkən qaçıb yoq oldu,
Baqdım bu nazlanış bir az çoq oldu.
Çinarlıqda yalnız başıma gəzdim,
Bu halda incə bir inilti sezdim.
Həmən qoşdum, sağa-sola saparkən,
Baqdım ki, səs gəlir mənəkşəlikdən.
Varıb gördüm ki, ah, o şe'ri-mənsur
Çiçəklər qoynunda çırpınıb durur.
Köksünü göstərib, dedi: «Dəmincik,
Zəhərlədi bəni səmli bir böcək.»
İpəkli, tül kömləyini yırtaraq
İncə bir iz buldum qırmızımtraq.
Təlaş etdim, həmən qızarmış yeri
Əmib sordum, bəlkə füsunkar pəri
Acıdan qurtulur, derkən... Bayıldı,
Təkrar əmib sordum, bir az ayıldı.
Sorduqca köksündə güllər açıldı,
Gözlərindən həyat nuru saçıldı.
Duydum ki, qız bəni çoqdan sevərmiş,
Yalnız babasından həzər edərmiş.

Əllərim əlində gəlirkən dizə,
Jalədən mey sundu çiçəklər bizə.
O gül qönçəsini qopardığım gün
Bülbüllər şakaraq yapdılar dügün.
Aqşam oldu, boz bulutlar
Döndü vulkanlı dağlara...
Qara geydi yeşil otlar,
Sanki yas çökdü bağlara.
Göy kişnədi, çaqan şimşək
Hər kəsi qorquya saldı.
Avcılar avdan dönərək
Bəbir xanla keyfə daldı.
Məgərsə bir bayquş bizi
Görüb xəbər vermiş ona.
Artıq sönüb sevinc izi,
Qopdu acı bir fırtına.
Məclis dağıldığı anda
Sərxoş Bəbir ayılmışdı,
Bunu duyan qız bir yanda
Qorqusundan  bayılmışdı.
«Ah, bu rəzillik nə deмək,
O qız sana eşmi!?» dedi;
Həmən bəni həbs edərək
İntiqam almaq istədi.
Gecə keçdi... Xidmətçilər
Qollarımı bağladılar,
Gözlərimə mil çəkdilər,
Ürəgimi dağladılar.
O gündən bəridir cihan
Gözümdə bir məhbəs oldu.
Bais ancaq quduz qaplan,
O vicdansız nakəs oldu.
Ah, nolurdu zülm aşiqi
Cəllad hakimlər olmasa,
Kor insanlar hər fasiqi
Kəndinə rəhbər bulmasa...»

Bədbəxt adam hönkür-hönkür
Çocuq kibi ağlıyordu;
Azər dedi: «Pək gülüncdür,
Şu ağlamaq Şərqi yordu.»

## YAŞAMAQ VƏ YAŞATMAQ

Yorğun Azər hənuz yeni qulbəsinə varmışdı,
Arqadaşlar, vətəndaşlar çevrəsini sarmışdı.
İxtiyarlar birər donuq heykəl kibi baqardı,
Gəncliyin elmas gözləri şimşək kibi çaqardı.
Hər yüzdə pək məraqlı bir hal vardı,
Hər kəs Avropadan xəbər sorardı.
Azər gülümsəyib dedi: — Bən gördüyüm insanlar
Bir-birindən ayrı deyil, həpsi bir şey sayıqlar.
Həpsi bir yuvanın quşu, həpsi bir bağ meyvəsi,
Bir saz çalar hər ölkənin, hər dilbərin şivəsi.
Hər kəs bir avcıdır ki, av düşgünü,
Qayə ancaq xoş keçirmək üç günü.
Şərq elləri irişilməz «xəyal» için yaşarkən,
Qərb aləmi az da olsa «həqiqət»dən xoşlanır.
Şərqin sönük duyğusunu afyon ruhu oqşarkən
Onlar yeni bir silah kəşfini səadət sanır.
Şərq uğraşır yalnız «ölməyim» deyə,
Qərb elləri maildir öldürməyə.
Ya o, ya bu qoşar durur həp bir dilək peşincə,
Məqsəd ancaq yarını yoq, bir həyatı xoş bulmaq.
Şərqə görə o diyarda azad ikən düşüncə,
Yazıq!.. Yenə mümkün deyil didişmədən qurtulmaq.
Artdıqca bilgilər artar ehtiras,
Hiç fərqi yoq, əski hamam, əski tas...

B i r i x t i y a r

Of!.. «Yaşamaq, yaşatmamaq» duyğusu
Günü-gündən vicdanları gürlətir.
İnsanların bəncə ən uğurlusu
«Yaşatmaq» zevqini duyan kimsədir.
Hiç bir şərəf verməz xudkamlıq sana,
Yüksəlmək istərsən — acı düşmana.

B i r  g ə n c

Bu yüksəliş, xayır!.. Səfil topraqda
Hənuz bir kimsəyə nəsib olmadı.
Bu yolun yolçusu qalıb tuzaqda,
Sızlayan qəlbinə ilac bulmadı.
Əzmək istəməyən bir gün əzildi,
«Sevgi» izləyənlər dara çəkildi.

Cihan bir bataqlıq... insan adında
Bir yığın möhtəris böcəklə dolmuş.
Bir-birini yeyib yaşarlar onda,
Hər kim gücsüz olmuş, həmən boğulmuş.
Hər şey yalan, güclü olmağa çalış!
Əzilməyə deyil, əzməyə alış!

A z ə r

Hey, qoca dünya, hey! Səndə nələr var!?
Hər gələn səni bir başqa şey sanır.
Kimi bir bataqlıq deyə xor baqar,
Kimi, ifritədir deyə aldanır.
Kimi zindan deyə qızarkən sana,
Üstün dar gəlincə keçər altına.
*(İxtiyarla gəncə)*

Xayır, dünya şən bir gülzara bənzər,
Onda cift ayaqlı «marallar» gəzər.
O nəş'ələr dolu geniş gülşəndə

İstədiyin çiçək də var, dikən də.
Uslu əllər çiçək dərir, gül toplar,
Tənbəlləri çalı, dikən tırmalar.
Diyorlar, insan yonulmuş maymundur,
Bu söz həqiqətə pək az uyğundur.
Şimdi də «maymunlar» gərçi az deyil,
Hər halda bir hacıleylək qaz deyil.
İnsan yonulmuş bir heyvan olsa da,
Endirilməz hiçə ondakı zəka.
O yalnız düşünməz, düşündürür də,
Kəşf edər gündə bir qaranlıq pərdə.
Hər gün beynində bir yıldırım çaqar,
Dilərsə bir anda bir cihan yıqar.
İnsan pək tuhafdır, o hər şey yapar,
Onda yaşamaq da, yaşatmaq da var.
«Yaşatmam, yaşarım» deyən səfillər
Qan içən vəhşilər yolunu izlər.
Sən nə məlɘksin, nə də bir qaplansın:
Nə gülsün, nə dikən... yalnız insansın.
Çalış, parla, yüksəl! Unutma ancaq,
Yaşamaq bir haqsa, yaşatmaq da haq!..

## YURDSUZ ÇOCUQLAR

«Ə»

Qışın aqşamıdı... Bütün daş, topraq
Savrulan qarla donanmışdı yenə.
Hər tərəfdən qadın-erkək qoşaraq,
Varmaq istərdi sıcaq evlərinə.
Yol kənarında böyük, zift əritən
Qazan altında küçük yurtsuzlar
Yaqmış atəş... ısınırkən birdən
İncə bir ruzgar inildər, sızlar.

Fəqət onlar bu soğuqdan, qardan
Bixəbərmiş kibi əyləncə yapar.
Söylənən sözləri həp saçma-sapan,
Saya gəlməz yaramazlıqları var.

Birinin ıslataraq boynunu qar,
Pək sinirləndi həmən küfr edərək:
«Nə tuhaf, sanki qarın nəştəri var,
Ağ bir əqrəbmi bu, ya buzlu sinək?!»

Biri «Sus!» derdi: «Əzizim, bunu sən
Get də, zənginlərə sor! Gör nə diyor?
İştə baq, qarşıda bir pəncərədən
Bizi bir incə qadın seyr ediyor.

Onca bunlar, bu amansız qarlar
Rəqs edən bir kələbəkdən də gözəl...
Səni kəskin boralar qırbaclar,
Ninni söylər ona pürşe’ri-əməl.»

Biri ıslaq, qara ətmək yeyərək
Qomşudan çaldığı bir alma ilə,
Sonra azcıq sırıtıb əsnəyərək,
Dedi: «Yoldaş, bana baq, bir söylə,
Əcəba varlı çocuqlar nə yiyor?»
Biri oynatdı həmən qaş-gözünü,
Dedi: «Hər şey... Onu yalnız bana sor!
Onların bən bilirim iç yüzünü...»

*(Kəndinə məxsus məsxərə bir əda ilə,*
*komikcə bir ahəng ilə təqlid edər)*
Ç o c u q

Annə! Bir şey yemək istər gönlüm.

A n a s ı

Nə dilərsən bulunur, al ye, gülüm!
Bəy baban şimdicə almış xavyar,
Tazə yağ var, yeni gəlmiş bal var.

Ç o c u q

Başqa şey yoqmu?

A n a s ı

Tavuk var, gerçək,
Şimdi xidmətçi qızartıb verəcək.

Ç o c u q

Bıqdım artıq, yenə hər günkü yemək,
Şübhəsiz, mə’dəmi bərbad edəcək.

A n a s ı

Şokolat vardır.

Ç o c u q

O qalsın da sana,
Marmelat yoqmu?

A n a s ı

Xayır...

Ç o c u q

İştə fəna,
Portağal olsa batırsam şəkərə,

Var ümidim bir az iştah gətirə.

A n a s ı

Söylərim şimdi alırlar, lakin
Yaramaz bəlkə o, boş mə'də için...

Arqadaşlar soqulub bir-birinə,
Güldülər məsxərənin sözlərinə.
Bunu Azər də — yaqından gülərək —
Dinləyib derdi: «Əvət, pək gerçək,
Nazü nemətdə yaşarkən onlar,
Qara ətmək belə bulmaz bunlar.
Gecələr... böylə qar altında yatar,
Yenə sağlam və dəmir canları var.[1]

Kim bilir, bəlkə bütün insanlar
Örnək alsaydı da heyvanlardan,
Daha sağlam, daha gürbüzcə yaşar,
Bəlkə ummazdı həkimdən dərman.»

Uzun bıyıqları sarqıq, qalınca bir gevdə
İçib-içib də sapıtmışdı bir yaqın evdə.
Səndələr, söylənirdi əsnəyərək,
Köhnə candarmalardan olsa gərək.

Bir çocuq yaqlaşıb beş-altı adım
Dedi: «Yoldaş! Acız, bir az yardım!..»

S ə r x o ş

*(Qızğın və çılğın)*

Nasıl, nasıl? Sana yoldaşmıyım bən, ah, azğın!

---

[1] Canları - yaxud - tənləri

Köpək yumurcağa baq!.. Öl, gəbər də, gəlmə yaqın.
Çəkil də görməyim artıq, çəkil, rəzil, alçaq!
Bənimlə yoldaş imiş hər domuz, cəsarətə baq!?

Bu halı seyrə dalıb bilmədən gülümsəyərək,
Yürürdü qarşıda şıq bir madam, yanında köpək.
Şən, ufaq bir köpəkdi pək oynaq,
Bir ağızlıq da vardı ağzında.

Dedi qurnaz çocuq: — «Xanım! Bana baq,
Vəhşilikdən bir iz ki, yoq onda,
O ki, qapmaz, verin, ağızlığı bən

*(sərxoşu göstərir)*

Taqayım bir şu zəvzəyən hərifə,
Xalqı ta qapmasın səbəb yoq ikən,
Buna pək uyğun öylə bir töhfə...»

Gülüşdülər də küçük sərsərilər əylənərək,
«Əvət, əvət — dedilər — pək dikənlidir şu köpək».
Buna Azər də güldü qəlbində,
Dedi: Pək haqlısın, əvət bən də
Tanırım öylə azğın insanlar
Ki, ağızlıq vurulmadıqca qapar.
Bə'zi dostlar da var ki, yüzləri şən,
İçi lakin daşır zəhərli dikən.
Qəlbi kin püskürüb də yüzdə gülən
Daha qorqunc olur köpəklərdən.

## BAYRAMDI

Bayramdı... Günəş incə bulutlar arasından
Ətrafa saçıb işvə, gülümsərdi təbiət.
Pürnəş'ə baharın əriyən busəsi hər an

Səhralara, ormanlara sərpərdi təravət.

Hər göz yeni bir sevgi arardı,
Hər yüzdə sevinc izləri vardı.

Çoq yerdə qurulmuşdu səfa məclisi, yalnız
Yoqsulları bir yas kibi xoş gün də sıqardı.
Qış xırpalamış, onları əzmişdi amansız...
Hər qəsvəti yalnız bir ümid eşqi yaqardı:

Bir gün gələcək yaz olacaqdır,
Hər kəs bir az ətmək bulacaqdır.

Bayramdı... böyük bir evi sarmışdı şətarət,
Həp dalğalanır qəhqəhələr, zümzüməciklər.
Sevdalı baqışlarda gülümsərdi zərafət,
Oqşardı gözəllikləri süslər və ipəklər.

Əllərdə qədəhlər öpüşürkən,
Bir incə kaman sızladı birdən...

... Bu dəmdə Azərə yaqlaşdı nazlı bir xilqət,
Çiçəkli dağda yetişmiş o pəmbə güldə fəqət.

İz bıraqmış gülər on altı bahar.

Keçən mayıs onu Azər tanırdı bir köydən,
O bikri-ismətə adət bəlası pək erkən

Məhrəm olmuşdu pudralar, boyalar.

Şu yapma süsləri Azər görüncə süzdü bir az,
Gülümsüyor kibi heyrətlə baqdı... pək qurnaz,

İncə bir şeydi qız, həmən duydu.

Sevimli çöhrəsi azcıq qızardı, söylədi: «Baq,
Gəlincə şəhrə dəyişdim, deyilmi? İştə məraq!

Gönül az-çoq nə görsə həp uydu».

«Xayır, xayır... - dedi Azər: — şu pudralar, boyalar
Deyil gözəllər için... kim sürərsə illəti var,

Sarı yüzlərdə pəmbəlik yaratır.

Əvət, o, çirkin için bəlkə bir təsəlli olur,
Sürüncə yaşlı qadın bəlkə azca nəş'ə bulur,

Buna aldanma sən, inanma, xayır!

Hiç unutmam, səhərdi, pək erkən
Köydə çıqdım da bağça seyrinə bən.
Qopdu tufan, uçuşdu toz-topraq,
Soldu bir anda hər yeşil yapraq.
Tozda gördükcə qönçə gülləri bən
Nə təəssüflər eylədim, bilsən!
Şimdi birdən görüncə böylə səni,
Anaraq dünkü gül hekayəsini,
Acılar duymaq üzrəyim yenidən,
Əcəba, anladınmı Azəri sən!?»
Hər tərəfdən süzülən gözləri sarmışdı məraq.
Öyünən süslü xanımlar gülüşüb oynaşaraq,
Sardılar Azəri soldan-sağdan.
Öncə üzr istədilər, «Sən həkəm olsan — dedilər —
Burda var dürlü çiçək hər bağdan,
Həpsi dündən bəri artıq bunu dərd eylədilər.
Ən gözəl kim, əcəba hanki qadın?
Bir cəvab istəriz, ancaq aydın.»
Güldü Azər, dedi: «Söz yoq, həpiniz şimdi gözəl...
Seçəməm bir-birinizdən sizi bən, ən əvvəl
Sıyrılın həp boyalardan, tozdan.

O zaman ayrılır əlbəttə gözəldən çirkin,
O zaman bəlli olur doğru, yalan.
Aktrisdir deyə sandım sizi əvvəl, lakin
Sonra duydum ki, bu ev səhnə deyil,
Bu oyun son modadır, köhnə deyil...»
Azərin sözləri bir iynə kibi
Qanatıb durdu gülən hər qəlbi.
Kimi nifrət, kimi heyrətlə baqar,
Kiminin gözləri bir şölə çaqar.
Kiminin yer süpürür qaşqabağı,
Bozulur rəngi silinmiş dodağı.
Kimi küskün, kimi əzgin-bezgin...
Birinin parladı qəlbindəki kin.
Dedi: «Bilməm bu dikənlər nə için?
Bir düşün, sən bizi təhqir etdin.»
Azərin gözləri getdikcə gülümsər kibi şən...
Dedi: «Aldanma xayır, bəndə nə kin var, nə dikən.
Bil'əkis, sizdəki mənfi süslər
İncə bir duyğuyu təhqir eylər.
Xayır, Azərdə bulunmaz qabalıq,
Sizə düşmandır o sərsəm və alıq
Ki, «gözəlsin» deyə təqdis eylər,
Sonra təhqir ilə arqanca gülər.
Biri der: «Baq, nə gözəl pudra, boya!
Şu gözəllik kir olur girsə suya.»
Biri der: «Pəmbə hiç uymaz sarıya,
Bənziyor baq, şu qadın soytarıya.»
Fəqət Azər düşünür pək başqa,
Xoşlamaz çünki yalan söz və riya.
Onca bir gül ləkəsiz, tazə gərək,
Oqşamaz ruhunu hər yapma çiçək.
«Əskilik» zevqi yorar, hər «yenilik»
Pək təbii... olurum bən də şərik.
Yenilik xoş, moda xoşdur, lakin
Böylə sərsəm yenilik pək çirkin.
Hər dəgirmən tozu, hər kirli boya

Bir gözəllikmi verir? Yoq, haşa!
Həpiniz xasta, üzülmüş, qansız,
Başqa, pək başqa sizin dərmanınız.
O da yalnız: su, Günəş, bir də hava!..
«Su, Günəş, bir də hava» ən rə’na,
Ən gözəl bir tualetdir... bana baq,
Şu qaranlıq odalardan qaçaraq,
Hürr olun, ta sizi öpdükcə Günəş,
Qızarıb hər yanaq olsun gülə eş.
Hərəkətsiz bir avuc ət kimisiz,
Qapanıb məhbəsə gün görməsəniz,
Nə gözəllik, nə də səhhət qalacaq,
Gündə bir çöhrə vərəmdən solacaq.
Sordunuz: «kim daha dilbər və gözəldir» deyərək
Sevdiyimdən sizi bən xırpaladım bilmiyərək,
Yüzü dilbər, sözü dilbər pək çoq...
Özü dilbər gözəl az, bəlkə də yoq.
Eşsiz olsun da camalın, nə çıqar,
Mə’nəvi hüsnünü bir yoqla nə var?
Bir çoq afət bilirim yüzləri xoş,
Ruhu düşkün və sönük, içləri boş...
Şübhəsiz, nazü qürur, işvə, əda
Tatlıdır şən və gözəl bir qızda.
Gözəlin, bəncə, ən ülvi sifəti:
İncə ruh, əqlü zəka səltənəti...
İnqilab iştə! Atıb çarşafı siz,
O siyah pərdəyi rədd eylədiniz.
Qeyd edərkən bunu tarix, ancaq
Bir fəzilət deyə alqışlayacaq.
Sizi aldatmasın amma bu qürur,
Çarşaf atmaqla bitər sanma qüsur.
Çoq beyinlər yenə həp pərdəlidir,
Mə’nəvi pərdəyi dəf’ etməlidir.»
Azərin sözləri çimdiklədi çoq duyğuları,
Süzdü qumral, ala gözlər onu altdan-yuqarı.
«Yetişir, anladıq artıq!» dedilər,

Söylənən «saçmayı» həzm etmədilər.
Öpüşürlərdi gedərkən həpsi,
Pək tuhafdır bu öpüşmək həvəsi.
Xasta, sağlam nədir? Aldırmazlar,
Vərəm olsan da gönül qırmazlar.
Bu çürük adətə Azər darılıb qızdı həmən,
Dedi: «Üzr istiyorum,
Bu, cinayət kibi bir şey... qabalıq olsa da, bən
Sizə qatil diyorum.
Sizə qatil diyorum! Çünki bu qorqunc adət
Mədəni bir vəhşət!..
Bu öpüşlər saya gəlməz acı, xain və ağır
İztirablar yaratır.
Bir çoq insan bu öpüşlərdə səadət də bulur,
Onu şairlərə sor!
Bən səadət deyil, ancaq duyarım təhlikələr,
Kirli, müsri ləkələr.
Qorqun, azğın ləkələrdən qorqun,
Ev yıqan təhlikələrdən qorqun!

## LALƏ

«H»

Şəhər qadınları «pəmbəgül» deyə
Həpsi vurulmuşdu gözəl Laləyə.
Sisli dağların o eşsiz pərisi
Oqşar dururdu hər xəyalı, hissi.
Tatlı bir musiqi gülər səsində,
İlham izləri var hər cilvəsində.
Gözlərindən uçan bayğın kölgələr
Hər incə duyğudan pərəstiş dilər.
Yürürkən göyərçin rəqs edər kibi
Çırpındırır o hər yaralı qəlbi.

... Qədəhlər dolmuşdu, çalğı inlərdi,
Gözəl qız inləyən səsi dinlərdi.
Bütün gənclər ətrafına qondular,
Şu köy dilbərinə badə sundular.
İçmək istəmədi, israr etdilər,
Bir az içdi, həmən təkrar etdilər.
Ürpərdi tükləri şu ilk adımda,
Duydu vicdanında acı bir səda.
Çoq sürmədi dalğalandı nəş'əsi,
Cəzb etdi hər kəsi nazı, işvəsi.

İçdilər... içdilər... Gözlər bayıldı,
Sinirlər gevşədi, qollar yayıldı.
Gecə keçmiş... «Artıq vaqıtdır» deyə
Hər qadın sokuldu şən bir erkəyə.
Səfa məclisinə vida etdilər,
Billur qəhqəhələr saçıb getdilər.

Lalə də bir gənclə qol-qola çıqdı,
Əsrarlı gecəydi, hava açıqdı.
Bahar mehtabının səfası vardı,
Sevdalı busələr şən qızı sardı.
Ehtiras atəşi olunca kəskin,
Yaqdı ismətini dağ pərisinin.
Səfil bir odanın vəhşi qoynunda
Silinməz bir ləkə qaldı boynunda.

Səhər dan yıldızı gülərkən ona,
Ruhunda qopdu bir acı fırtına,
Yataqda çırpındı, həmən bayıldı...
Yarın son imtahan idi, son yıldı.
O gəlmişdi irfan həyatı görsün,
Köylərinə nurlu izlər götürsün.
O istərdi yoqsul, aciz və miskin
Qız-gəlinə doğru yollar göstərsin.
Fəqət şimdi!?.. Həpsi, həpsi nafilə!..

İnsanlardan qaçıb endi sahilə.
Köpüklü dalğalar coşub çağlarkən
Alevlər, zəhərlər aqdı içindən.
Babası, annəsi, qarlı dağları,
Yavuz nişanlısı, yeşil bağları,
Parladı bir rö'ya kibi gözündə,
Dəhşətlər oynaşdı pəmbə yüzündə.
Günəş gülümsərkən Lalə də güldü,
Birdən-birə dalğalara gömüldü.
Görən balıqçılar imdada qoşdu,
Əfsus!.. O bitmişdi, xəyal olmuşdu.

... Cənazəyi sardı arqadaşları,
Saçıldı gözlərdən inci yaşları.
Qız-gəlin soruşub məraq edərdi:
«Lalə nədən soldu, nə imiş dərdi?»
Azər dedi: «Lalə nəş'ədən soldu,
Tatlı şərab dalğasında boğuldu.»

Bu halda kinli bir səs
İsyan etdi apansız,
Çevrilib baqdı hər kəs,
Şahin baqışlı bir qız.

«Xayır!..» dedi, «xayır!.. bən
Göz yaşı dökməm ona,
Onun bu zillətindən
Heyrət gəlir insana.

Bu hal əskidən bizə
Ən acı bir yadigar...
Qadınlıq çöküb dizə
Bir çoq əsir oldular.

Şən saraylar keçmişdə
Bizi alıb-satardı.

Solub gözdən düşüncə
Hiçliklərə atardı.

Bütün dinlər, qanunlar
Qadınlara xor baqdı,
İsyan edincə onlar
Su yerinə qan aqdı.

Bir çoqları nadanlıq
Pəncəsində sıqıldı.
Kimi olub qurbanlıq,
Atəşlərdə yaqıldı.

Lakin qadınlıq bu gün
Hər zənciri qırarkən,
Bu hal niçin?.. Bir düşün!
Hiç də əfv etmədim bən.

Lalə şən bir çiçəkkən
Niçin solsun hiç yerə?
Bunun zəifliyindən
Zillət gəlir bizlərə.

O sayğısız vəhşidən
Lalə öc almalıydı,
Əvət, onu qəhr edən
Əllər qırılmalıydı.

O kirli dırnaqlarda
Çoq didildik, əlverir.

Yetər, bu gündən sonra
Qadınlıq deyil əsir.»

... Qız köpürdükcə ondan
Eşləri örnək aldı.

O, Azərin ruhundan
Qopan bir teli çaldı.

## MƏZARLIQDAN KEÇƏRKƏN...

«H»

Günəş gülümsərdi, nisan ağlardı...
Azər çıqmış idi səhra seyrinə.
Qarşıda bir yeşil məzarlıq vardı,
Hər daşı bənzərdi hicran şe'rinə.
Yaqında çırpınan soluq bir kölgə
Bir məzar önündə durub inlərdi:
O, gənc bir aşiqdi, küsmüş dirligə,
Azər məraq edib onu dinlərdi:

İştə bən sana gəldim,
Bu gün pək şəndim.
Göz yaşlarımı sildim,
Dərdim yoq bənim.

Artıq yetər, qalq, oyan!
Bütün çiçəklər,
Baş qaldırıb yataqdan,
Həp səni bəklər.

Bir eşq ilə yaşarkən
Sən atdın bəni.
Vəfasız olsan da, bən
Unutmam səni.
Hər gün ıssız türbəndə
Bir az öldüm bən.
Olmazmı şimdi sən də
Bəni düşünsən...

Həyat gözəlmiş!.. Onda
Artıq yoq gözüm.
Yer ver ancaq qoynunda,
İştə son sözüm...

Hənuz sıtmalı gəncin bitməmişdi fəryadı,
Birdən-birə əlində bir tabanca parladı.
İntihar niyyətilə nişan etdi alnını,
Azər «hey, abdal!» deyə xırpaladı şaşqını.
Diksinərək bu səsdən düşdü əldən silahı,
Ölüdən fərqi yoqdu, duyulmasaydı ahı.

Yavrum! — dedi — aç bana, qəlbini kim qanatdı?
Zavallı dərdə gəldi, ah çəkərək anlatdı:

Şən bir sabah idi, vuruldum ona,
Gözlərində mayıs rö'yası vardı.
Eşqimi inlərkən incə ruhuna
Başımda bir dəli sevdası vardı.

İpək saçlarını güllər öpərkən
Hər sirrimi ona açıb dökdüm bən.
Bir mənəkşə verdi bana köksündən,
Ah, o qızda mələk ədası vardı.

Həmən bir baqışda aldı gönlümü,
Üç bahar olur ki, çaldı gönlümü,
Ən sonunda dərdə saldı gönlümü,
Bir gönül ki, bin bir bəlası vardı.

Azər dedi:
O, şimdi bitmiş artıq,
Pək yazıq!..
Bir yapraq kibi solmuş,
Çürümüş, topraq olmuş.

Bərabər ölsən belə,
Ümid yoq yüzün gülə.
Hindin əski adəti
Yapsa da bu vəhşəti,
Haq düşünən bir insan
Xoşlanmaz bu oyundan.
Nəfsə qıyanlar aydın...
Ya xastadır, ya çılğın.
Bu sərsəmlik çoq zaman
Edər gənclikdə tüğyan.
İxtiyarlar ölümdən
Quşqulanıb titrərkən,
Sayğısız bir yığın gənc
Bulur həyatı iyrənc,
İşlər durur nihayət,
Umulmaz bir cinayət.
Saqın, bana darılma,
Gözəl düşün, yanılma!

Ölüm var ki, həyat qadar dəyərli,
Həyat var ki, ölümdən də zəhərli...
Yaşamaq da xoşdur, ölmək də xoşdur,
Qayəsiz həyatda ölüm də boşdur.
Hər sönük eşq için üzülmək fəna,
Dar gəlməsin dünya genişkən sana.
Er-gec məzar alır bizi qoynuna,
Uyma, saqın, vaqtı gəlmədən ona.
Matəmlərə boğma sisli ömrünü,
Çalış da xoş keçir şu üç-beş günü.
«Ölüm də xoş...» dedim, qapılma hissə,
Böyük bir eşq için lazım gəlirsə,
Nəfsinə xor baqan bir qəhrəman ol,
Haqq için başından keçən insan ol!
«El için ağlayan göz kor» olsa da,
İnanma, arqadaş! O, boş bir səda!
Xayır, xudkam olub sapma dar yola,

Həp el için ağla, el için sızla!
Ağla demək — çarpış, vuruş deməkdir,
Ağlamaq insana miskinlik verir.
Bir eyilik yapsan ıssız yurduna,
Səadət pərisi gülümsər sana.
Haq da, həqiqət də göz önündədir,
Yer altında deyil, yer üstündədir.
Bəxtiyarsın, əgər çəkdiyin əmək
Cihan sərgisinə versə bir çiçək.

## DƏNİZ KƏNARINDA

«H»

Şətarətli bir mayısdı... Azər enmiş sahilə,
Zümrüd dalğaları seyrə dalmışdı.
Pək yaqında çoluq-çocuq vermiş də həp əl-ələ,
Şən kələbəklərdən örnək almışdı.
Sədəfli qumlar üstündə top oynardı oğlanlar,
Qızlar da bir yanda şarqı söylərdi.
Bir tərəfdə mürgüləyən beş-on sönük ixtiyar
Bu çığlığa qarşı nifrət eylərdi.

Q ı z l a r ı n ş ə r q i s i

Səhər çağı gəzə-gəzə
Çıqmışdım erkən dənizə,
Günəş gülümsərkən bizə,
Dalğalar döndü elmasa,
Sırma işləndi atlasa.
Ağ yelkənlər qanat açar,
Süzülüb naz ilə uçar,
Ənginlərə fərəh saçar.
Dalğaların çağıltısı
Salamlar eşsiz mayısı.

Fırtına yoq, açıq hava...
Balıqçılar çıqmış ava.
Dalğaları qava-qava
Qatlanır hər üzüntüyə;
Yalnız «ac qalmayım» deyə...

İ x t i y a r l a r

— Artıq yetər.
— Çoq oldunuz...
— Ah, yaramaz çapqınlar!
— Ey, bana baq!
— Bıraq canım, söz anlamaz
sapqınlar.
— Həya, ədəb, tərbiyə yoq...
— Baq şu keçən qurnaza!?
— Qarışmış oğlan qıza.

İ k i - ü ç   q a d ı n

— Zəmanəniz zınqıldasın,
— Oğlan da, qız da azğın...
— Vaqtilə biz də gənc idik.
Böylə yapmadıq, saqın!
— Xayır, Allah əsirgəsin!
Biz sayğısız deyildik,
Böyüklərin qarşısında həmən susduq, əyildik.
Baq o çimən yumurcağa!
— Bıraq, batsın, gəbərsin!
— Sizin qomşunun çocuğu...
— Ona çocuqmu dersin!?
Bizimkilər evdən çıqmaz.
— Bənimkilər də öylə...
— Yüzmək də bir əyləncəmi yürək üzüntüsüylə?

Bir ixtiyar çılğın kibi həmən bağırdı, durdu,
Ah! — Həp gənclik azdı, çoluq-çocuq qudurdu.
Qızlar bu sözlərə qarşı sarsılaraq üzüldü,
Azər bunu seyr edərək qəhqəhələrlə güldü;
Günü keçmiş nasehlərə yaqlaşaraq «dur!» — dedi;
Sizin tərbiyəniz artıq bu gün için əskidi.
— Siz nəsiniz? — Qorqu, zillət bayquşları... cümləniz
Kəklik kibi başı qarda, quyruğundan xəbərsiz.
Bir-birinə qarışdırdı oğlanları, qızları,
Saqın! — dedi — dinləməyin teli qırıq sazları.
Hər sözə bel bağlayıb da mə'yus olmayın, xayır;
Duyduğunuz laqırdılar başdan-başa saçmadır.
Hər saçmaya aldanmayın «haq və həqiqət» deyə, —
Onlar sizi sürükləyir sönüklüyə, hiçliyə,
Əsrin yavruları olun... əvət, ancaq cəsarət,
Ancaq çəlik qollar verir insanlara səadət.
Çırpınış sükutdan gözəl, gülüş iniltidən xoş,
Günəş kölgədən uğurlu... çalış nura doğru qoş!
Çocuq düşə-düşə böyür, əzilməyən düzəlməz,
Miskinlərə, acizlərə cənnət pəyamı gəlməz.
Baq, yüzüyor ənginlərdə bir balıqçı yavrusu,
Balıq kibi oynar durur, bilməz dəniz qorqusu.
Yediyiniz balıq qadar sizdə yoqmudur hünər?
Tavuk kibi küməslərdə sönüb bitdiniz, yetər!
Artıq yetər, evinizin çəpərini aşmalı,
Qartal kibi geniş üfüqlərə doğru qoşmalı...

Bu halda bir şey gurladı, maraqlandı çocuqlar:
— Nədir bu səs?
Yıldırımmı?
— Hər nə varsa göydə var,
— Əvət, doğru...
Baqın, iştə!
— Qos qoca bir təyyarə...
— Kim bilir nerdən gəliyor, yolu hanki diyarə?

Azər dedi: — Bən bilirim, şu qəhrəman yolçular,
Şərqə uçan bir karvan ki, bulutları qamçılar.
İçlərində bəlkə sizlər kibi çocuqlar da var,
İştə, Qərbi atıb gəlmiş, yeni mühitlər arar.
Buzlu qütübləri aşar, əgər fürsət bulursa,
Bu gün-yarın yüksələcək hiç şübhə yoq ki, Marsa.
Hər qüvvətə üstün gəlir ancaq qorqusuz bəşər,
Cihan yigit ərlərindir, qorqaq gözə çöp düşər.
Qorqu-sinsi bir mərəz ki, azar-azar öldürür,
Nəş’əsiz bir ömrü ancaq mübarizə güldürür.

## VƏHŞİ QADIN

Yazın atəş savuran sıtmalı, qızğın günəşi
Bir-birindən ayırırkən hər eşi,
Azər etmişdi yanıb örsələnən şəhrə vida,
Nəfəs alsın da bir az dağlarda.
Tarlalardan, dərələrdən, təpələrdən keçərək,
Qaynaşan buzlu sulardan içərək,
Seyrə daldıqca yeşillikləri eylərdi məraq,
«İştə cənnət» deyə heyran olaraq,
Duydu ormanlar içindən süzülürkən dilbər,
İncə, şakrak və gözəl zümzümələr.
Ruzgar inlər də, edər səcdə yeşil yapraqlar,
Səs verir onlara şən ırmaqlar.
Gülərək bir təpəcikdən sarı, vəhşi güllər,
Sallanır dalğalı, mor sünbüllər.
Bir yığın çingənə qonmuş da pınar başlarına,
   Bu günün zevqini satmaz yarına.
   Əylənir, nəş’ələnir tozlu şəhərlərdən uzaq,
   Dinləməzlər nə imiş qayğı, məraq.
   Bir çoq insanları sarsan acılar, fırtınalar
   Onların şən çadırından qorqar.
   Seyr edərkən şu gözəl levhəyi dalğın Azər

Yeni bir səhnə saçıb durdu kədər.

Qarşıdan bir acı səs yüksəldi,
Şaşıran gözlərə dəhşət gəldi.
Bir qadın çıqdı yeşil çamlıqdan,
Yüz-gözündən yağaraq kin, isyan,
Onu bulmuşdu çobanlar üryan,
Bənziyor bayquşa, lakin insan...
Örtən ancaq o bürüşmüş cəsədi
Bir qarış kirli və yırtıq bezdi.
Hələ yırtıq səsi, vəhşi baqışı,
O baqışlardakı şimşək çaqışı
Pək düşündürdü tamaşaçıları,
Süzdü hər kəs onu altdan-yuqarı.
Soruyorkən ona «Kimsin? Nəçisin?»
Daş kəsilmişdi, bilinməz ki niçin?

B i r  k ö y l ü

Şu qadın, bəlli, sağır ya dilsiz...

Q a d ı n

*(Şaşqın və həyəcanlı)*

Bir suçum yoq, bəni öldürməyiniz!

K ö y l ü

Hiç təlaş etmə, saqın, ağlama, biz
İnsanız, yırtıcı qaplan deyiliz.

Q a d ı n

Nə bəla gəlsə də qaplanlardan,
Yenə bən qorqarım insanlardan.

İ k i n c i   k ö y l ü

Söylə, kimlər sana qıymış böylə?

Q a d ı n

Sorma, azğın bəşərin zülmüylə
Şu keçən qavğada bəxtim döndü,
Var-yoqum yandı, çırağım söndü.
Çarpışırkən quduran millətlər,
Bizi məhv etdi ağır dəhşətlər.
Atdılar atəşə dilsiz qızımı,
Sütəmər yavrumu, şən yıldızımı.
Təkcə bir körpəcə oğlum qaldı,
Yolda canilər əlimdən aldı.
Parçalarkən onu... uf, yandı dilim!
Bən o gündən bəri insan deyilim.

... Susdu birdən-birə biçarə qadın,
Süzdü ətrafını şaşqın-şaşqın,
Yenə ormanlara qaçmaq dilədi.
Ona bir köylü həmən diş bilədi,
Yaqalarkən dedi: «Bir sərsəmə baq!
Kəndi həmcinsinə nifrət qılaraq
Yenə vəhşilərə mail görünür,
Onca insan daha qatil görünür.»

Gülərək söylədi Azər: «Əcəba,
Haqlı kim? Bizmi, o biçarəmi ya!?
Ona tə’n etməyəlim xor baqaraq,
Bir həqiqətdir o, aydın-çıplaq...
Onu yaqmış bəşərin «mərhəməti!»
İştə hərbin acı bir aqibəti.
İştə on yıldır o, insandan uzaq,
Çöldə vəhşilərə mə’nus olaraq
Yaşamış... yasdığı həp daş, topraq,

Yaşamış tö’məsi həp ot, yapraq.
Yenə xoş onca bu gün ormanlar,
Canavarlar, ayılar, qaplanlar.
Ona həmcinsidir ancaq düşman,
Oqutur vəhşiyə rəhmət insan.»

... Hər ağızdan coşaraq laf aqını,
Köylülər sardılar ürkək qadını.
«Edəriz biz sana yardım» dedilər,
Ən yaqın bir köyə əzm eylədilər.

Beş-altı gün aradan keçdi... bir səhər Azər
Keçincə köydəki meydançadan, dokundu ona
Acı bir levhə, bir dikənli xəbər.
«Vurun, vurun!» deyə kin püskürən beş-altı nəfər
Hücum edərdi o yurdsuz və kimsəsiz qadına,
Hər tərəfdən yağardı nifrətlər.

T a m a ş a ç ı l a r

— Bıraq, yetər!
— Gəbər, alçaq!
— Yetər, bıraq!
— Suçu nə?
— Bıraq zavallıyı...
— Xırsızlıq eyləmişmi yenə?

B i r   d ü k a n ç ı

Onu hiç sorma, getdi var-yoqumuz,
Obur qadın, bir az ac qalsa hər nə var çalıyor,
Əlində bir qocaman ətmək, iştə parçalıyor.
O bir insan qılıqlı kirli domuz.

Azərin gözləri şimşək kibi birdən çaqaraq,
Dedi: «Əl saqlayın, artıq yetişir sillə, dayaq.

Sizcə xırsızlara lazımsa cəza,
Doludur həp dünya.
Öylə xırsız bilirim: çaldığı milyonlarla
Möhtəşəm, süslü salonlarda edərkən tuğyan,
Onu təhqir edən olmaz əsla!
Əzilir qarşı qoyan.
Varlı xırsızları alqışlayaraq hər kəs öyər,
Bəlkə heykəl də yaparlar adına,
«Çaldı bir parçacıq ətmək» deyə hər kölgə söyər,
Bəslənir kin şu səfil, ac qadına.
Ona xırsız deyən abdallara heyrət!.. Yalınız
Ac və yoqsuldur o dilsiz məxluq,
Əvət, ancaq suçu yoqsulluq... Onunçin haqsız...
Ən silinməz ləkədir yoqsulluq!»

## KÖYDƏ

«H»

Köydə ikən Azər bir aqşam çağı
Qəhvəxana qarşısında əyləndi.
İranlı bir dərviş əldə nacağı
«Hu, mədəd, ya Əli!» deyə söyləndi.
Bəhs edərək qədim əfsanələrdən,
Keçmiş ərəbləri öyüb dururdu.
Sonra «hiçdir insan, hiçdir nə görsən,
Hiçdir cihan...», — deyə saçıb savurdu.
Azər gülümsədi: «Tuhaf şey! — dedi,
Hərifin satdığı məta: hiç, yalan...
Aldığı bir avuc gümüş... hey, gidi!
Nə boldur bu köydə mevhumat alan!?
Şu sərsəridənsə, gözəl deyilmi
Əyləndirsə bizi saz aşıqları.
Var, dedilər, amma dayazdır elmi,
Söylədiyi sözlər həp çobanvarı.

Bu halda şən bir aşıq
Salamladı məclisi,
Sızlayınca saz artıq
Coşub durdu gur səsi.

A ş ı q

Bən bir qartalım ki, zümrüd dağların
Çiçəkli qoynunda yeşil yuvam var;
Gül bənizli, şahin baqışlı yarın
Gönlümə saçdığı yeni ilham var.
Keçən qış bir maral izilə qoşdum,
Qaçırdım avımı, ona qavuşdum.
Qafam döndü, sanki dəli, sərxoşdum,
Dedim: bir avcıdan sana salam var.

Gülümsərkən yüzü, dodağı, soldu,
Fırtınadan ürküb bana soquldu.
Sevişdik... ayrıldıq... artıq yoq oldu,
O gündən sevdalı başda bəlam var.

Bu halda köy meydanında
Davul, zurna səsi coşdu,
Məclis dağıldı bir anda,
Hər kəs gurultuya qoşdu.
Köydə dügün varmış deyə
Azər də pək məraq etdi,
Uydu qayğısız dəstəyə,
Dügün şənliyinə getdi.
Bir tərəfdə qadın, erkək
    Yallı[1] gedər, oynaşırdı,
    Çoluq-çocuq gülüşərək
    Arı kibi qaynaşırdı.
    Şərqi söylər bir tərəfdə

[1] Qadın və kişilərin əl-ələ rəqs etməsi.

Yosma qızlar, şən gəlinlər.
Yigit ərlər bir tərəfdə
Sevdalı sözləri dinlər.

Bu sırada çalğı birdən
Ahəngini dəyişdirdi.
Bir pəhlivan qoşub həmən
Güləş meydanına girdi.
Hoplarkən önə, geriyə,
Balıq ətlər şişib durdu.
Bana bir eş yoqmu? - deyə
Hər kəsə meydan oqurdu.
Bu halda qalın gevdəli,
Soyunmuş bir köylü gəldi,
Əlinə dəymədən əli
Yenildi, həddini bildi.
Sonra gürbüz, çevik, əsmər
Bir gənc atıldı meydana,
Şaşa qaldı seyircilər,
Eş deyildi çünki ona.
Beş-on məktəblidən başqa
Hər kəs bir az şübhələndi.
Köylülər bunu bir şaka
Sanır kibi həp əyləndi.
Çünki o bir müəllimdi,
Tanımayan yoqdu onu.
Bəkləməzdi kimsə şimdi
Ondan bu qorqunc oyunu.
Gönüllü gənc çoq sürmədən
Döndü çevik bir qaplana.
Üstün gəldi şöhrət güdən
Ayı kibi pəhlivana.
Hərif sarsıldı, ansızın
Umulmaz bir zərbə yedi.
Əl çalaraq erkək, qadın
Çəlik qola «Var ol!» dedi.

Gənc müəllim geyinərək
Gəldi Azərin yanına,
Üzr istəyib dedi: «Gerçək,
Bu hal uyğun deyil bana.
Nə etməli? El adəti...
Köyün başqa aləmi var,
Buna şəhər cəmaəti
Bəlli bir şey ki, yan baqar.»

Azər dedi: «Hiç yanılma, dinlə bəni,
El adəti ürkütməsin böylə səni.
Şəhərləri sıtma, vərəm sarmış bütün,
Hərəkət yoq, qan yoq, həpsi xasta, ölgün...
Gecə-gündüz bülbül kibi həp qəfəsdə,
Günəş görməz, hava yutmaz bir nəfəsdə.
Şəhər dursun, yaqındakı çoq köyləri
Görənlərin ürpəriyor həp tüyləri.
Sıtmadan, pis xastalıqdan çürümüşlər,
Onlarda yoq sizlərdəki şən gülüşlər.
Onlarda yoq sizlərdəki çevik bədən,
Onlarda yoq əsər sizdəki şənlikdən.
Dəmin güləşməyə «əski adət» dedin,
Bən şaşırdım, bəlkə onu fərq etmədin.
Əski olsun, bu xoş adət ən mədəni,
Ən yaldızlı adətlərdən daha yeni...
Bənim ən çoq dilədiyim sizlər için:
Sağlam bədən, sağlam sinir, sağlam beyin.
Dünya geniş bir meydan ki, heyvan, insan
Aman bulmaz çarpışmadan, vuruşmadan.
Hər kəs birər pəhlivandır o meydanda,
Birincilik qalır ancaq üst olanda.
Cahil-alim həp çarpışır, həp güləşir,
Meydanda tək qalmaq için pəncələşir.
İnsan var ki, gülüb dururkən qüvvətə,
Qarşı gəlsə məcbur olur itaətə.

Tutduğun yol böyük... Sən el rəhbərisin,
Bütün səslərdən üstündür sənin səsin.
Bağır, hayqır, can ver ıssız bucaqlara,
Bilgi nuru yağdır sönmüş ocaqlara.
Zəif biləklərdən çəlik qollar yarat!
Hər uyuşmuş beyinə bir qıvılcım at!
Çalış bütün boşluqlar əzminlə dolsun,
Hər bataqlıq çiçəkli bir cənnət olsun.
Bilgi saçar hər qaranlıq yurda işıq,
Yalnız əmək verir bizə bəxtiyarlıq.

## GƏLİN KÖÇƏRKƏN

Qışın, ılıq – sevdalı bir gecənin qoynunda
Sevinc dolu bir oda xulyaları oqşardı.
Yığın-yığın qız-gəlin çalar oynardı onda,
Gürbüz dəliqanlılar ırmaq kibi coşardı.
Yalnız gözəl Sərvinaz, o içli-dilbər gəlin
Üzüntüdən bunalmış, matəmlərə batmışdı.
Çünki xudkam annəsi onu sərvətcə zəngin,
Mə’rifətcə pək yoqsul bir abdala satmışdı.
Sərvinaz incə ruhlu, düşüncəli bir qızkən
Böylə uğursuz işə «xeyir» deyə susmuşdu,
Onun sərgüzəştini bir köşədə bəkləyən
Gənc müəllim Azərlə kəsik-kəsik qonuşdu.

«Bu qız!» dedi: «Yoqsul bir dəmirçinin yavrusu…
İki yıldır əlindən çəkicini bıraqdı.*
Arqasız, ac qaldılar Sərvinazla qarısı,
Ana qalın bir kötük, qız incə bir yapraqdı.
Gündən-günə şu yapraq solub-solub bunaldı,
Gözəl ala gözlərə qondu öksüzlük sisi.
Qadın bir ay keçməmiş onu məktəbdən aldı,
Fabriqaya yazdırıb yarım bıraqdı dərsi.

* «Öldü» mənasına alınmalı

Fabriqada tütündən uçan zəhərli tozlar
Qızın təravətindən hər gün bir az çalırdı.
Pəmbə, lətif yanaqlar hər gün solur bir qadar,
Aclıq ucundan qadın buna məmnun qalırdı.
Biz qapıbir qomşuyuz… aqşam evə gəlincə
Qız sıqılmasın – deyə dərslərinə baqardım.
Hər ay bizə xoş gəldi bu məraqlı əyləncə,
Hətta anam-babam da az-çoq edərdi yardım.
İkinci yıl bən artıq təhsilimi bitirdim,
Uzaqlarda hücra bir köyə müəllim oldum.
Uğurlu bir yol deyə məsləkimə can verdim,
Çalışdıqca gönüldə bin dürlü nəş'ə buldum.
Hər ay məktub yazardı, unutmazdı Sərvinaz,
Hər cümləsi yorulmuş duyğuma gül sərpərdi.
Bir gün nədənsə birdən susdu bizim incə saz,
Məktub kəsildi şaşdım, həp tüklərim ürpərdi.
Xəbərləşib duydum ki, annəsi qorqunc, ağır
Yatalağa tutulmuş, can çəkişmək üzrədir.
Həmən şu zəngin, qızı şikar için yaqlaşır,
Altın saçıb uğursuz cənazəyi diriltir.
Qadın nankor çıqmamış, qarşılıq olsun deyə
Qızı nifrət etdiyi şu bəxtiyara vermiş;
Aman verməmiş belə göz yaşını silməyə,
Evlad ana əlilə altın məzara girmiş.
Şu inqilab əsrində azad ikən qadınlar
Bu zə'fə qarşı bilməm can dayanırmı?… Asla!
Sərvinazın qəlbində bir az da xastalıq var,
İştə bu ən qorqulu, ən çəkilməz bir bəla…»

…Tar çalındı bu halda, hər kəs sözü bitməyən
Dərdli gəncə yalvardı, bir az türkü söyləsin.
Zavallının içində həmən qopub bir şivən,
Həzin-həzin inlədi gömdüyü bir eşq için:

Hiç sorma halımı yaralıyam bən,

Şən olmaz bir daha viranə gönlüm.
Beynimi yaqan bir yığın hiçlikdən
Sanki bir şey sorar divanə gönlüm.

Issız bir yuvanın qoynunda daim,
Qərib bir quş kibi sönər bənliyim.
Bilməm ki, dərdimi kimə söyləyim?!
Qaldı hər sevgiyə biganə gönlüm.

Səndən nələr umdum yazıq, pək yazıq!..
Yanğın oldu şəfəq sandığım işıq.
Of, yetər bir daha vurulmaz artıq
Hər süzgün baqışa pərvanə gönlüm.

Hər kəs alqışlıyorkən şu titrək, yanıq səsi,
Sərvinazın qəlbində sanki bir şey qırıldı,
Həmən üzgün baqışla tərk etdi şən məclisi,
Gənc müəllim bir daha ilhamına sarıldı:

Of nə yamandır o küskün baqışlar,
Ey ipək telləri zərəfşan gəlin.
Hər kəs sevincindən səni alqışlar,
Yalnız bənim halım pərişan, gəlin!

Getmə dur, gönüldə bin həsrətim var,
Söylənəcək dərdim, fəlakətim var,
Səndən sana gizli şikayətim var,
Ey mələk ədalı xuraman gəlin!

Nə söyləyim, halım əyandır sana,
Sənsiz gülüstanlar zindandır bana,
Sən bir yana, bütün dünya bir yana,
Ey sevda bağından ərməğan gəlin!

Hər kəs inləyən gənci həsrətlə dinliyorkən,

Birdən-birə dışarda bir gurultu duyuldu.
Bağça, oda bir anda bəy tərəfindən gələn,
Gülən, şarqı söyləyən qadın-erkəklə doldu.
Zavallı gənc bu halı bəkləmiyormuş sanki,
Solğun bir duman kibi şən odadan çəkildi.
Məraqlı Azər şimdi, qızın mə'şuqu hanki
Bir gönülmüş anladı, kölgəli sirri bildi.
Çal oynasın, vur gəlsin! Hər kəsə mey sunuldu.
«Var olsun gəlin!» deyə alqış tufan edərkən
Birdən qızın annəsi çıldırıb da saç yoldu,
«Aman yardım!» diyordu «Getdi yavrum əlimdən».
Büt kəsilib qız-gəlin məclisə kül savruldu,
Həmən bir çığlıq qopub ətrafı dəhşət aldı.
Böyük-küçük bu sıra yanıb-yanıb qavruldu,
Yalnız dalğın Azəri dərin bir heyrət aldı.

… Bir gün sonra öyləyin Günəş tüllər örtünmüş
Solğun bir gəlin kimi kainatı süzərdi.
Göz bəbəyi Sərvinaz tabut içində sönmüş,
Həsrətindən çıldıran annəsini üzərdi.
Suçlu qadın çiçəklər, ipəklərlə süslənən
Cənazə qarşısında yapraq kibi titrədi.
Ayrılmaq istəməzdi sovurduğu çiçəkdən,
«Xayır, ıssız məzara onu bıraqmam!» dedi.
O sayğısız annəyi Azər dəxi dinlədi,
Sapqın mühitə qarşı bu fəryadı inlədi:

> Bir çiçək ki, duyğuları oqşayaraq gülümsər,
> Xulyalara nəş'ə sərpər, gönüllərə nur saçar.
>
> Yazıq! Onu öncə kəndi əllərimiz qəhr edər,
> Sonra şaşqın vicdanımız bir heçliyi salamlar.

Bir quşcuğaz şimdi ötər güldən-gülə uyarkən
Xain avcı bir anda susdurur o şaqraq səsi.
Sonra acır al damlalar əllərini boyarkən,

Əfsus o bitmiş, duyulmaz gönül açan nəğməsi.

Gönül var ki, vulkan kibi alev saçar hər yana,
Haq söyləyən ilhamları ölmüşlərə can verir.
Düşünmədən söndürüb də matəm tutarlar ona,
Yalnız savrulmuş külləri məzarlara şan verir.

Yazıq! Gedən gəlməz artıq, anma qəhr olmuşları,
Bıraq ıssız məzarları, bir az insan ol barı!
Yaşamaq gərçi xoş əməl,
Yaşatmaq daha gözəl!..

## SƏLMANIN SƏSİ

Oktyabr için

«H»

Hər günəşə vardım, ləkəli gördüm,
Hər vicdana girdim, kölgəli gördüm.
Parlaq imanları şübhəli gördüm,
Məgərsə hər cilvə bir xülya imiş.

Altın əsiridir həp irzü namus,
Yoqsullara gün yoq, ya məhv ol, ya sus!
Hər kəs insanlıqdan dəm vurur, əfsus!
Həp yalan, təməlsiz bir sevda imiş.

Yaralı gönlümü dikənlər deşdi,
Kimdən vəfa umdum, qanımı içdi.
Cavan ömrüm fəryad içində keçdi,
Səadət əməli bir rö’ya imiş.

«Ə»

Bunu Azər keçiyorkən duydu,
«Nə gözəl səs!» deyə dərhal uydu.
Pək məraq etdi, dərin zevq aldı,
Xilqətin şe’rinə heyran qaldı.
Sordu: «Kimdir əcəba?» — bildiklər:
«Bir yetim qız, adı Səlma» dedilər.
Öncə yoqsuldu, alıb bir makinə,
Çalışır, yardım edər annəsinə.
Dikiyor incə-ipək kömləklər,
Həm gözəl şərqi təğənni eylər.
Sandı Azər görüyor bir rö’ya,
Girdi pək sadə küçük bir odaya.
Gəldi Səlma, gülərək əl verdi,
«Nə səadət!» deyə yer göstərdi.

*(Xastalıqdan yeni qalqmış annəsinə işarətlə)*

İştə annəm yeni qalqmış, baqınız,
Sağalıb həp sizi özlər yalınız.

Qonuşub içdilər azcıq qəhvə,
Yad deyildir əvət, Azər bu evə.
Bir zamanlar yağaraq dəhşətlər
İki biçarəyi etdikdə hədər.
Qurtuluş yolları bulmuş Azər,
Qoşaraq yardıma olmuş rəhbər.

Həsbihal eylədilər, söylədilər,
Gəldi həp xatirə keçmiş günlər.
Dedi Azər: «Nə çıqar keçmişdən,
Fəzlə bəhs etmiyəlim bir hiçdən.
Varsa ən doğru həqiqət, o — «bu gün!»
«Bu gün»ün hökmünü öyrən də düşün!
Keçiyorkən bəni cəlb etdi səsin,
Sözlərindən səni gördüm bədbin.»

A n n ə s i

Neyləsin, həp çalışır, zəhməti çoq,
Yenə bir güldürəcək taleyi yoq...
Güldü Azər, dedi: «Tale nə deмək!?
Yetişir olsa təşəbbüslə əmək.
Öncə kəşf etməlisin bənliyini,
Etsə məs’ud edər ancaq o səni.
Var hər insanda böyük iste’dad,
Onu bul, yoqsa nə yapsan — bərbad...
Gedəlim, gəl! — dedi gəl, izlə bəni,
Sana Azər tanıtır taleyini.»
Uydu Səlma ona, qalqıb getdi,
Şu tuhaf rəhbəri tə’qib etdi,
Keçdilər dar və geniş yollardan,
Vardılar bir evə... Azər o zaman
Göstərib baq dedi: «Yavrum! Burası
Möhtəşəm bir yapı, sən’ət yuvası.
Səndə var bülbülə bənzər bir hal,
Gəl şu əlhan ocağından feyz al!
Musiqi rəmzini öyrən, lakin
Gecələr evdə çalış ətmək için.»
Durdu Səlma...
Dedi: — Çoq qız ləkələnmiş burada,
Şu mühit iştə pək azğın, hətta
Mələk olsam da görən tə’n edəcək,
Bəni əxlaqı sönük zənn edəcək.
Dedi Azər:
Sağır ol, dinləmə hər kölgəyi sən,
İncəlir hər qabalıq sən’ətdən.
Bəşərin uyduğu əxlaq, adət
Bir yığın yıpramış ölgün hikmət.
Güldü Səlma, düşünüb haq verdi,
Aqibət ismini qeyd etdirdi.
Keçdi yıllar, dəyişib mevsimlər,

Yazın aqşamdı... Yürürkən Azər
Daldı birdən-birə... munis, şaqraq,
İncə bir səs duyaraq etdi məraq.
Saparaq girdi şəhər bağçəsinə,
Buldu pək süslü, böyük bir səhnə.
Baqdı, səs yaz kulubundan gəliyor,
Dalğalar nəş'ələnib yüksəliyor.

**Səlmanın səsi**

«H»

Hər gülşənə vardım, çiçəklər güldü,
Sevdalı bülbüllər səlama gəldi.
Hər bəzmə uğradım, meylər töküldü,
Qədəhlər öpüşüb xurama gəldi...

Elmaslar, incilər qarşımda söndü,
Gözəllər yanımda xəyala döndü.
Billur qəhqəhələr susmuş göründü,
Susmuş kamançalar ilhama gəldi.

Pərişan zülfümü dağıtdım yüzə,
Sehr etdi hər teli sanki bir gözə,
Gördülər qarışmış gecə gündüzə,
Ölülər nəş'ədən qiyama gəldi.

«Ə»

Baqdı Azər, coşaraq alqışlar,
Qadın, erkək qızı həp sarmışlar.
«Yaşa, var ol!» — deyə səs yüksəldi,
Töhfələr, süslü dəmətlər gəldi.

Qızda parlardı qürur, istiğna,
Qoşdu hər kəs kimi Azər də ona,
Dedi: «Təbrik edəyim gəl səni bən,
Sana nerdən bu səadət bilsən?
Düşün əvvəlki səfalət dəmini!
İnqilab atəşi parlatdı səni.
İnqilab açdı sənin şəhpərini...»

Qız gülümsər kibi, şən rəhbərini
Öpdü ruhundakı şe'riyyətlə,
Gözlərindən süzülən hörmətlə...

## «İNQİLAB XIRSIZI»

Azər qonaq[*] getmişdi bir gün qomşu bir köyə
O köy şöhrət almışdı «küçük bir şəhər» deyə,
Dəgirmənlər yanından yavaş-yavaş yüksəldi.,
Ətraf vəhşi ormanlıq… mənzərə pək gözəldi.
Yeşil çinar dibində bir yığın köylü gördü.
Çılğın bir dəniz kibi həpsi kin püskürürdü,
Hər kəs hücuma hazır ağ sıvalı bir evə,
Orda bir qız yaşarmış, adı: zəhərli civə.

B i r i n c i  k ö y l ü

«Ah bu alçaq fahişə gəbərməli, ölməli».
İ k i n c i  k ö y l ü

Gəbərməli, ölməli, köyün yüzü gülməli…

Ü ç ü n c ü  k ö y l ü

Onun əlində gənclik qıvrılır için-için.

---

[*] Əsli – qonuqdur

D ö r d ü n c ü  k ö y l ü

Xayır, biz sağ olduqca qurtuluş yoq onunçin.

B i r i n c i  k ö y l ü

İştə xain qarşıki pencərədən göründü.

İ k i n c i  k ö y l ü

Bəlli, qaçmaq istiyor, baq bir şala büründü.

A z ə r  d e d i:

Bən şaşarım insanların ağlına
Niçin hər kəs düşman kəsilmiş ona!?

B i r  i x t i y a r

Çünki köyü həp o sapqın azdırdı.

A z ə r  s o r d u:

Pəki onu hanki sapqın azdırdı?

B i r  k ö y l ü

Söz yoq ki, irzə kəm baqan bir erkək.

A z ə r

O halda xaindən öc almaq gərək…
Dün o qız ləkəsiz bir mə’sum ikən,
Niçin bu gün «qəhbə» desin hər gələn?
Niçin acizlərə ləkə sürülsün,
Erkək fahişələr haqlı görülsün.

Bəncə əsil qəhbə: şəhvət vurğunu
O alçaq ki, öncə sapdırmış onu.
Ona… yalnız ona cəza verməli.
Kimsə, qırılmalı sayğısız əli.
Birdən – xayır! … deyə bir səs gürlədi:
«Söylədiyin sözlər əbəsdir» dedi.
O bir ixtiyardı, yanıq çöhrəsi,
Kinli qəhqəhəsi, acı nə'rəsi.
Yıldırım tə'siri yapdı Azərə.
– Xayır, xayır!… dedi: Saqın boş yerə
Hiç yorma kəndini, güclü səfillər
Bizdən cəza deyil, pərəstiş dilər.
Hər şey qüvvətdədir, qalan həp yalan…
Gücsüzlük ən böyük qüsurdur, inan!
Bütün cihan qüvvət tərəfdarıdır,
Qəvi iblis olsa belə tanrıdır.
Acizlərin haqqı ölümdür ancaq,
Bu qız da iştə öylə bir oyuncaq…

*(Bu sırada köşə başında görünən və onlara doğru gələn şişman və məğrur bir şəxsi göstərir)*

Bunu əgri yola sapdıran cəsur
Qurt dedik qulağı çıqdı – baq odur.
İlk öncə keyfini sürdü bir zaman,
Doyunca dəf etdi həmən başından.
İştə əsil xain! … vurun, öldürün,
Solmuş bənizləri bir az güldürün.
Xayır, bu hiç mümkün deyil, çünki siz
Kölgəsindən qorqan tilkilərsiniz.
Həm də ona qarşı çıqmaq qolaymı?
«Şura sədri!» O hər səfilə taymı?
Yakıb yıkar, basıb kəsər, məhv edər,
Amiri-mütləqdir, nə yapsan hədər…

Şura sədri yaqlaşdı,

Hər kəs yerində şaşdı.
Kimi sırıtıb durdu,
Kimi boynunu burdu.
Hərif altdan yuqarı
Süzüncə ixtiyarı,
Nə var? – dedi – nə olmuş,
Nə söylənir şu bayquş?
Ona uyan sərsəmlər
Bilməli ki, az gülər.
O bir köhnə yadigar,
Hər sözündə zəhər var.
Hər gün uydurur fitnə
Hökumət əleyhinə.

İxtiyar bu sözlərdən
Sarsılıb coşdu birdən.
Sus! – dedi, sus! … bu böhtan
Yalan, yalan, həp yalan…

Onun fəryadı sədrə,
Kar etmədi bir zərrə.
Yalnız kənardan gələn
Soluq bir qadın həmən
İxtiyara soquldu,
Aman – dedi – çoq oldu.
Gəl gedəlim, gəl yetər,
Varsa ədalət əgər
Xain er-gec məhv olur,
Əzilənlər qurtulur.
«Haqq, ədalət» sözləri ixtiyarı güldürdü,
İsyanlı bir baqışla bir heçliyə tükürdü.
Qadıncığaz yalvardı: «Babacığım, gəl!» deyə…
Çəkildilər, getdilər… pək həzindi o levhə.
Azər məraq etdi də, gözləri şimşək çaqan
Bir gəncə sordu: Yavrum! Sədrə qarşı bu isyan
Niçin?… Nə yapmış hərif ixtiyarla qadına?

Gənc, Azəri qolundan tutub çəkdi bir yana,
Dedi: «Şu ixtiyarın məşhur «Mirzə»dir adı.
Soluq qadıncığaz da onun təkcə evladı…
Ah zavallı Mirzənin gözəl keçmişi vardı,
Bütün köylülər onu sevgilərlə anardı».

«Mirzə» yarım əsrlik bir bilgi heykəliydi,
Düşkünləri qaldıran yalnız onun əliydi.
O sarsılmaz ömrünü irfan eşqinə verdi,
Hər obayı, hər evi aydınlatmaq istərdi.
O istərdi can versin ölgün, ıssız ellərə,
Mevhumat islərilə paslanmış gönüllərə.
Hər dürlü zülmə qarşı göküs gərdi ər kibi,
Zülmətə üstün gəldi parlaq bir səhər kibi.
O, donmuş beyinlərə isyan atəşi verdi,
Yüz-gözünü unladı* doğru yolu göstərdi.
Ah, o yoqsul müəllim çoq zamanlar ac qaldı,
Açdı da kor gözləri, cəhalətdən öc aldı.

Bizim şura sədri də o korlardan biriydi,
Qotur tutmuş əndamı bir kəmik, bir dəriydi.
«Mirzə» çocuqkən onu sağaltdı «öksüz» deyə,
Bəsləyərək evində beş yıl etdi tərbiyə.
Çoq sürmədi Mirzənin qızı Sonayı aldı,
Yoqsulluğa daş atdı, aclığa həsrət qaldı.

… Yazın, yaylağa gələn bəylər ilə saz oldu,
Bir vəzifə alınca bizləri saymaz oldu.
Bütün ərzaq işləri keçdi onun əlinə,
Hər kəs əgildi artıq şu bəylər vəkilinə.
O yıl quraqlıq oldu, yeni vəkil çıldırdı,
Aclıqdan solanlara yılan kimi saldırdı.
Dünkü yetim ən qaba candarmaları geçdi,
Yoqsulların qanını bir cəllad kimi içdi.

---

* Aktörlüğə işarət

Hətta Mirzə yüz kərə çocuq kibi yalvardı,
Hərif qulaq vermədi, gündən-günə şımardı.
Bir gün sərxoş olmuşdu, ağlı başda degildi,
Bir qadını əzərkən altı ay həbs edildi.

Günlər, aylar keçdi… mevsim bahardı,
İnqilab alavı ətrafı sardı.
Yürəklər çarparaq çatıldı qaşlar,
Diksindi qayğısız dumanlı başlar.
Şaşqın diplomatlar tavuğa döndü,
Parlaq düşüncələr bir anda söndü.
Kimi inqilabçı kürkünə girdi,
Kimi yelkənini suya endirdi.
Sərvətlə öyünən yoqsul beyinlər
Şöhrət güdüb «bənim-bənim» deyənlər
Bir şimşək çaqınca boyun bükdülər,
Qüvvət qarşısında həp diz çökdülər.

Bizim köylərdə də işlər dəyişdi,
Bəyzadələr qaçdı, köylülər şişdi.
Varlılar yoqsula əməkdaş oldu,
Başlar quyruq oldu, quyruq baş oldu.
Yoqsullar sevindi cənnət var deyə,
Solğun çöhrələr başladı gülməyə.
Əfsus!… çoq az sürdü sevinc izləri,
Dəhşətli bir kabus əzdi bizləri.

Ah, o kabus iştə dəmin gördügün
Şura sədri idi… Ayıldıq bir gün
Onu başımızın üstündə gördük,
Görüncə mat qaldı həp böyük, küçük.
Məgərsə məhbəsdə şu canlı fitnə
İnqilabçı soyu vermiş kəndinə.
Yeni rəngə girmiş dünkü bir xəbis,
Səhər mələk olmuş gecəki iblis.

Hərif öncə pək də qaba degildi,
Yoqsullara qarşı bir az əgildi.
Unutdular köhnə küçük Neronu,
Şura sədri seçdi köylülər onu.
Bir ay keçmədi ki, o donmuş yılan
Canlanıb başladı yeni bir tuğyan.
Yenə hər gələnə bir tuzaq qurdu,
Yenə söyüb döydü, yenə qudurdu.
Mirzə hər tərəfdə çıqardı qavğa,
Qarşı çıqdı bütün bu haqsızlığa!
Hərif həmən onun evini aldı,
Məktəblərdən qovub çörəkdən saldı.
Hökumətə yalan xəbərlər verdi,
«İnqilab düşmanı» deyə göstərdi.
Sonra qızını da bəyənməz oldu,
Üç gün keçmədi ki, evdən qovuldu.
İki yavrusunu əlindən aldı,
Qadına ancaq bir göz yaşı qaldı.

*(Qarşıdakı evə işarətlə)*

Sonra şu evdəki qıza vuruldu,
Bir zaman keyfini sürüb yoruldu.
Bu da gözdən düşdü… ondan çıqalı,
Mə'sum bir qız ikən oldu «el malı».

Ən sonunda əvət, bu son aylarda,
Başqa bir qız buldu bizim civarda.
O bir afət, o bir sevda yıldızı,
Ədalı, işvəli bir knyaz qızı…
Gecə-gündüz dinlər onun sazını,
Dünya batsa çəkər onun nazını.
Bizim sədrin içi-tışı başqadır,
Maymun kibi bizi əldə oynadır.

Nasırlı əllərə qarşı daima
Qəsidələr söylər, alqışlar, ama
Aclıqdan yanaraq dönsələr külə,
Yüzlərinə baqmaq istəməz belə.
Əfsunlamış onu yosma qadını,
İncə əllər başdan alır ağlını.
Çünki zevq əhlidir, incə ruhu var,
İkiyüzlü şeytan hər işdən çıqar.

A z ə r

Fənalığı, zülmü tərviç edənlər,
O pis bataqlıqda kəndisi inlər.
Bir alçağa qarşı quyruq sallayan,
O alçaqdan daha səfildir, inan!

G ə n c

Köylü nə yapsın ki, nerəyə getsə,
Rast gələcəkdir şu xain iblisə,
Postaxanə, divan onun əlində…
Kim e'tiraz etsə… Həmən bir gündə
«İnqilab duşmanı» deyə həbs edər,
Yurdundan, evindən olur dərbədər.

A z ə r

O halda bir molla çağır… Bir kərə
Fatihə söyləsin sizin köylərə.
Bir ölkə ki, səsi-ünü çıqmaya,
Haqsızlığa qarşı yumruq sıqmaya,
O bir məzarlıq ki, görənlər şaşar,
İçində həp canlı ölülər yaşar.

Bu halda bir tatlı səs uzaqdan «Azər!» dedi,
Köyləri təftiş için gəlmiş o bir gənc idi.

Anlatdı ki, üç gündür işdən başı yorulmuş,
Vəzifələr bitmiş də şimdicə rahat olmuş…
Azər dedi: Təftişdən nələr buldun, nə varmış?
Gənc müfəttiş söylədi: Balıq başdan qoqarmış!?

A z ə r

Nerdə misafirsiniz?

M ü f ə t t i ş

İştə cicim pək yaqın…

A z ə r

*(istehzalı təbəssümlə)*

Diyorlar sədrin evi gözəlmiş!..

M ü f ə t t i ş

Saqın! Saqın!..
Dəmin sana dedim ya balıq başdan qoqarmış,
Sədrin sayğısızlığı çıqılmaz yola varmış…
O, inqilab xırsızı, bir rəzil ki, yoq eşi,
Bu gündən sökülməli quduz qaplanın dişi…
Azərin yanındakı köylü gəncin gözləri
Nəş'ədən gülümsədi duyarkən bu sözləri.
Bu halda köy qarışdı davul-zurna səsindən,
Çoluq-çocuq qoşardı, hoplardı nə'rəsindən.
Hər kəs toplandı məscid yanındakı meydana,
Qosqoca bir makinə səs salmışdı hər yana.
Qomşudakı tarlada işlədikcə traktor,
Yarıb yerin bağrını bir dev kibi gurluyor.
Diksinən çocuqların bərəlmişdi gözləri,
Qadın-erkək süzərkən gülümsərdi yüzləri.

Uzaq köylərdən gələn məraqlılar da vardı,
Hər baqışda heyrətlə sevinc izi parlardı.
Epey zaman keçdi də seyr edənlər bıqmadı,
Şura sədri nədənsə, hənuz gəlib çıqmadı.
Biri dedi avtoda[1] əldə süngü üç nəfər,
Onu alıb götürdü, bəlli dutsaq[2] etmişlər.
Bunu görən sevgili metrəsi kınağına
Aldı bütün dəyərli şeylərini faytona,
Köyə vida eylədi sallayaraq qolunu,
Ömürlük bir sərvətlə tutdu şəhər yolunu.
Hər kəs dedi: çoq şükür şu taundan qurtulduq…
Getsin də hiç gəlməsin, yetər bunca qul olduq.
Bu sırada bir çoban
Qalın səslə uzaqdan
Bağırdı: «Hey yoldaşlar!
Aman gəlin, yanğın var!»
Hər kəsi dəhşət aldı,
Sevinc izi azaldı.
Erkək-qadın coşdular,
Yanan yerə qoşdular.
Məraq edib Azər də
Müfəttişlə bir yerdə
Yardım içün getdilər.
Yaqlaşırkən bir nəfər
Dedi: İştə bu müdhiş!?
Yanan sədrin eviymiş.
Görünür, son qadını
Məxsus yapmış yanğını.

Başdan-başa evi alev sarmışdı,
Toz, duman ta bulutlara varmışdı,
Köylülərdən kimi edərdi yardım,
Varmadı yaqına kimi bir adım.
Çoqu sevinirdi içindən buna,

---

[1] Avtomobil
[2] Dustaq

Yalnız qoca Mirzənin qızı Sona
Sədrin ilk hərəmi o solmuş qadın
«Yardım edin!» dedi: «Aman, durmayın!»
Alıcı bir şahin kibi soquldu,
Alevlər içinə həmən qayb oldu.
Çünki yanıyordu iki yavrusu,
Onu qorqutmadı ölüm qorqusu.
Üç dəliqanlı da verib əl-ələ
Yardıma qoşdular onun iziylə.
Çoq sürmədi qadın geriyə döndü,
Qucağında bayğın bir qız göründü.
Qızı ısmarlayıb qomşu qadına,
Yenidən soquldu azan yanğına.
… Bir az sonra çıqdı dəliqanlılar,
Dedilər: Mirzənin, qızı həp sızlar,
«Yavrum!… Oğlum!» deyə çırpınıb durur,
Yazıq ki, oğlundan iz belə yoqdur.
Çıq deyə yalvardıq, baqarmı? Asla
Çılğın kibi qoşur həp sağa-sola,
Hıçqırır, bağırır, inildər, ağlar,
«Yavrum!…» deyə hər kölgəyi qucaqlar.

Bir gənc «Aman!» – dedi – həmən getməli,
Getməli də onu xilas etməli…

Bu halda bir «Yavrum!..» səsi duyuldu,
Tavanlar çöküb də qadın məhv oldu.
Ana qurban getdi evlad uğruna,
Hər gönüldə qopdu acı fırtına.
Qız-gəlindən həzin bir ah yüksəldi,
Köyün qadınları fəryada gəldi.
Yüksələn fəryadı Azər dinlədi,
«İştə ana qəlbi… seyr edin – dedi.
Ana qəlbi, ana vicdanı başqa…
Yanğın, fırtına, yıldırım, qasırğa
Titrədir bəlkə ən güclü erkəyi,

Fəqət incə ruhlu ana yürəyi
Yavrusunu xilas için hər dərdə,
Hər dəhşətə qarşı isyan edər də,
Qorqu bilməz o bir şəfqət heykəli!..
Hər kəs o heykəli təqdis etməli…»

Atəşlər içində ana sönərkən
Oğlu bulunmuşdu bir evciyəzdən.
Yanğından ürkərək şu qumral çocuq
Qorqudan sararmış, bət-bəniz uçuq…
Bağçadan savuşub yaqın qomşuda
Bulmuş saqlanacaq gizli bir oda,
Bir yük arqasına sığınıb qalmış,
Hər kəsdən xəbərsiz… uyquya dalmış…
Süzərkən çocuğu həp gənc, ixtiyar
Kül olmuş bir vücud için yandılar.
Bütün köyü sardı acı bir sızı,
Dillərdən düşmədi Mirzənin qızı.

Bir ay keçmədi ki, ağlar gözləri
Bir səhər bürüdü sevinc izləri.
Dərdli köyə şən bir xəbər yayıldı,
O gün hər kəs için bayram sayıldı;
Çünki haq almışdı o gün yerini,
Şəhər məhkəməsi «Şura sədri»ni
«İnqilab xırsızı» e'lan etmişdi,
Həmən həbsə alıb divan etmişdi.

## İSYAN

Azər düşünür, dalğa keçərkən...
Birdən-birə həp dalğalı, həp şən
Bir vəlvələ qopdu,
Bir fırtına, bir zəlzələ qopdu.
Sarmışdı bütün ölkəyi heyrət,
Lakin...
Çoq yüzdə gülümsərdi şətarət,
Hər nəş'əli gəncin
Ruhunda açılmışdı çiçəklər,
Coşmuşdu diləklər.
Bir yanda şəfəq dalğalı, nazəndə aqınlar,
Qızlar və qadınlar
Oynar, sevinir, şənlik edərlər,
Həp pəmbə dodaqlarda zəfər şarqısı gürlər.

Qızlar və qadınlar!..
Həsrətkən ışıq aləmə onlar,
Zillətdə asırlarca bunalmış da əzilmiş,
Hürriyyəti ancaq yeni bilmiş...
Sıyrıldı Günəş sisli bulutdan,
Hər kəs süzüyorkən onu heyran...
Parlarkən üfüqlər,
Birdən-birə çarşaflar atıldı,
Həp coşdu nütüqlər.
Erkəklərə meydan oqunurkən,
Onlar da qatıldı,
Çarşaf kibi, qalpaq da yoq olsun... deyə birdən
Erkək və qadın dalğalanıb gürlədi, coşdu,
Mə'bədlərə qoşdu.
Gənclik dedi: «Onlar da dəyişsin,
Məktəb və kütübxanəyə keçsin.»

İsyan!..
İsyan diyə hər gözdən, ağızdan

Bir nifrət uçardı.
İsyan!..
Keçmişlərə, keçmişdəki adətlərə isyan!
Hər yüzdə təhəkküm izi vardı.
İsyan!..
Mə’bədlərə, qalpaqlara, çarşaflara isyan!..
Şaşqınlığa yoq zərrəcə imkan.
Hər fəlsəfə, qanun dəyişirkən,
Bir nöqtədə dursan da düşünsən,
Məqbər yapacaqlar kəmiyindən.
İsyan!..
Həp əski hürufata da isyan!..
İsyan!..
Həp köhnə xurafata da isyan!..

Ətrafı süzən yaşları keçkin
Erkək və qadınlar buna şaşmış...
Çarşafların altında duyulmaqda qəzəb, kin,
Həp hövsələ daşmış...
— Bir baq nə rəzalət!..
Artıq nə həya qaldı, nə ismət!..
Gənclik azaraq, həddini bilməz,
Yoq, yoq, bu çəkilməz,
— Hər gün bir oyun, bir yeni fitnə,
Mə’bədlə işin nə?!
— Bən Tanrıya tapdım, nə vəzifən,
Mən’ etmədim əsla səni yoldan sapıyorkən...
Çarşaflar atılsın! — diyən əlbət
Namusa təcavüz ediyor, bəlli həqiqət.

Onlar köpürürkən...
Azər gülərək söylədi: «Sizdən
Hiç bir yenilik ummadı bir kimsə, əzizim!
Bilməm bu köpürmək nəyə lazim?..
Yoq, sizlərə aid deyil əsla çalınan saz;
Bəsbəlli, kötüklər aşılanmaz.

Yalnız yəşərən tazə fidanlar
Az-çoq yenilik zevqini anlar.
Əcdadımızın adəti bəlli,
Hər haləti bəlli...
Lakin biz o adətləri atdıq,
Atdıq, bu gün artıq
Onlardakı əfsanəli şeylər,
Bizlərcə sönük uyquya bənzər.

Söz yoq ki, bu gün gəncliyə baqsan,
Bir sel kibi hər an
Sağlam, yeni məfkurələr izlər.
Bizlər!?
Bizlərdəki adət də təbii
Bunlarca sönük, yıpramış əski...
Bilməm ki, bu yorğun yürüyüşlə
Gənclik niçin uysun bizə, söylə!
Bizlər yeniləşsək bilə, daim
Bir əskilik az-çoq bizə hakim...
Ən doğru yol iştə!
Heç olmayalım onlara əngəl bu gedişdə.
Onlar qoşacaq, çarpışacaqlar,
Bir çoq uçurumlar aşacaqlar.
Lazimsə cəhalətlə güləşmək,
Bir çarə var: ancaq yeniləşmək!..
Onlardakı himmət və mətanət
Qırbaclayacaq Şərqi nihayət.
Onlardakı qüdrət və məharət
Er-gec verəcək xalqa səadət.
Onlar mədəniyyətlə günəşlər yaqacaqlar,
Keçmişlərə üstdən baqacaqlar.
Onlar güləcək, yüksələcəklər,
Həp yüksələcək, həp güləcəklər.
Onlar güləcək, güldürəcəklər,
Bizdən daha xoş gün görəcəklər!»

# LÜĞƏT

## A

| | |
|---|---|
| Alayişi-cahan | Dünyanın bulaşıq işləri, boş, mənasız dəbdəbə və zinətləri |
| Alam | Ələmlər, kədərlər, qüssələr |
| Alihə | Yaradan (allah sözünün qadın cinsi. |
| Afəl | Keçici, sönmüş, yox olmuş |
| Ati | Gələcək, növbəti |
| Afaq | Üfüqlər |
| Afyon | Tiryək |
| Alinihijat | Əsilzadə, əsil-nəcabətli |
| Alıq | Axmaq, səfeh |
| Aqça | Pul |
| Alay | Zarafat, istehza |
| Aşüftə | Aşiq, vurğun, məftun, dilaşüftə – qəlbdən aşiq olmuş, vurulmuş |

## B

| | |
|---|---|
| Biləkis | Əksinə |
| Bir qaç | Bir neçə |
| Bıyıq | Bığ |
| Bədaye | Bədiilik, gözəllik |
| Bədəl | Əvəz |
| Bəliğ | Gözəl danışan |
| Bədiə | Nadirə, gözəl şey |
| Budala | Axmaq, səfeh |
| Bunalmaq | Əldən düşmək |
| Büd’ | Başlanğıc |
| Bimar | Xəstə |
| Bəstər | Yataq |
| Bəşarət | Xoş xəbər |
| Bora | Çovğun |
| Büti-tərsa | Xristian gözəli |
| Bəzl | Səxavətlə paylamaq, sərf etmək |
| Bürhan | Dəlil |
| Balıq ət | Əzələ |
| Bar | Yük |

| | |
|---|---|
| Bahəm | Birgə |
| Bisəmər | Boş, nəticəsiz |
| Biəsər | Tə'sirsiz |
| Bəzm | Məclis |
| Baziçə | Oyuncaq |
| Bakır | Mis |
| Büd'i-xilqət | Yaradılışın ibtidası, başlanğıc |
| Bəid | Uzaq; xəyali-bəid – uzaq xəyal |
| Bərq | Şimşək |
| Bərg | Yarpaq, bərgi-ümmid – ümidin olması |
| Bəni-bəşər | İnsan oğlu |
| Bərfalud | Qar kimi, ağ |
| Bipərva | Qorxmaz, cəsur |

## C

| | |
|---|---|
| Çapuq | Cəld |
| Cavid | Əbədi; baharistani-cavid – həmişəbahar olan yer |
| Caməxab | Gecə paltarı |
| Camid | Donmuş; heykəli-camid – heykəl kimi hərəkətsiz |
| Cangüza | Əzab verən, incidən |
| Cəbin | Alın; cəbini-lətif – gözəl alın |
| Cəbhə | Alın |
| Cədəlgah | Vuruşma meydanı, qovğa yeri |
| Cərihə | Yara |
| Cilvənüma | Parlayıb görünən, cilvələnən |
| Cifə | Leş |
| Çingənə | Qaraçı |
| Cühəla | Cahillər, avamlar |
| Çan | Zəng |
| Çamlıq | Şam meşəsi |
| Çapqın | Dəcəl, ərköyün, quldur |
| Çatıq | Çatma; düyünlənmiş (qaş) |
| Çah | Quyu |
| Çəlik | Polad |
| Çeşmi-məxmur | Xumar göz |
| Çin | Qırış |
| Çığlıq | Qışqırıq |

| | |
|---|---|
| Çıldırmaq | Ağlını itirmək |

## D

| | |
|---|---|
| Darülfünun | Universitet |
| Dayaq | Döymək, zopa |
| Dami-bəla | Bəla toru |
| Dahiyə | Dahi adamlar, böyük ağıl sahibləri; böyük işlər; bəla, müsibət |
| Dil | Ürək, könül |
| Dilgüşa | Könülaçan, qəlbə fərəh verən |
| Dilaşub | Könül qıran, ürəyi həyəcanlandıran |
| Dilxun | Ürəyi qana dönmüş |
| Dilfikar | Qəlbi yaralı olan |
| Dilaşüftə | Ürəyi sınıq |
| Dünkü | Dünənki, keçmiş |
| Dürlü | Cürbəcür |
| Dünbalə | Burada: son |
| Dügün | Toy |
| Dəni | Alçaq |
| Dəmin | İndicə |
| Dərnək | Yeyib-içmək məclisi |
| Dərağuş | Qucaqlamaq |

## E

| | |
|---|---|
| Etizar | Üzr istəmək |
| Etiyad | Adət, vərdiş |
| Ehtiraz | Çəkinmə |
| Evdət | Qayıdış |
| Eş | Yoldaş |
| Eşsiz | Taysız |
| Erkək | Kişi |

## Ə

| | |
|---|---|
| Əbd | Qul, kölə; bəndə |
| Əmcə | Əmi |
| Əməl | Arzu |
| Əmniyyət | Əminlik |

| | |
|---|---|
| Ə’ma | Kor |
| Əl’an | İndicə |
| Əlmö’mününə üxüvvə | Mö’minlər qardaşdır |
| Əl’aman | Aman istəmək |
| Əlhan | Nəğmələr, təranələr |
| Əlvah | Lövhələr |
| Əza | Yas |
| Əzvaq | Zövqlər |
| Əzabi-əlim | Şiddətli əzab |
| Əzhar | Çiçəklər, güllər |
| Əzdad | Ziddiyyətlər |
| Ənbiya | Nəbilər, peyğəmbərlər |
| Əndəlib | Bülbül; əndəlibanə – bülbül kimi |
| Ənis | Dost |
| Ənin | Ah-nalə, sızıltı |
| Ənud | İnadkar, tərs |
| Ərvəğan | Tünd qırmızı, gül |
| Ərbabi-hal | Hal əhli olanlar |
| Ərz | Yer, yer kürəsi |
| Ərus | Gəlin |
| Ərvah | Ruhlar |
| Ərşi-pürəxtər | Ulduzlu göy |
| Əsəfiştimal | Təəssüf doğuran |
| Əcz | Acizlik |
| Əlaf | Sələflər, ata-babalar |
| Əxlaf | Xələflər, övlad |
| Əhbab | Dost, yaxın yoldaş |
| Əhrar | Hürr adamlar, azad yaşayanlar |
| Əşkbar | Ağlayan, göz yaşı tökən |
| Əşraf | Aristokratlar, varlı və nüfuzlu adamlar |
| Ətmək | Çörək |
| Əflak | Göylər |
| Əf’al | İşlər, hərəkətlər |
| Əkşi | Turş |

**F**

| | |
|---|---|
| Fasiq | Pozğun |
| Fahiş | Hiddətini aşan |

| | |
|---|---|
| Fərar | Qaçmaq |
| Fərt | Həddən artıq, ifrat |
| Fərzanə | Aqil, alim, biliyi ilə fərqlənən |
| Fəriştə | Mələk, məlaikə; çox gözəl |
| Fərş | Yer; ərşü fərş – yer və göy |
| Fərrüxbal | Xoşbəxt, rahat qəlbli |
| Fənn | Elm |
| Fəzlə | Artıq |
| Firdövsi-ə'la | Uca göylərdəki cənnət |
| Fitrət | Yaradılış, xilqət, təbiət |
| Füruzan | Parlayan, parlaq |
| Fünun | Elmlər |
| Füyuzat | Feyzlər |

**G**

| | |
|---|---|
| Gəm | Cilov |
| Gidi | Yaramaz, sırtıq |
| Giryənümun | Ağlar, ağlar görünən |
| Giryan | Ağlar |
| Gevşəmək | Zəifləmək, yumşalmaq |
| Guşeyi-üzlət | Təklik bucağı |
| Gürbüz | Sağlam, güclü, möhkəm |

**H**

| | |
|---|---|
| Hal | İndi |
| Hami | Himayə edən, saxlayan |
| Hafizəpira | Xatirə bəzəyən, yadda saxlayan |
| Həqaiq | Həqiqətlər |
| Həmduş | Çiyin-çiyinə |
| Hərasan | Qorxan, ürkən |
| Hənuz | Hələ |
| Həmiyyə | Qeyrət, nəcabət |
| Həzyan | Boş söz, cəfəngiyyat |
| Həbbə | Dən, toxum |
| Həpsi | Hamısı |
| Həmşirə | Bacı |
| Hərim | Özgəyə, naməhrəmə girmək qadağan olan yer |

| | |
|---|---|
| Həfrə | Çuxur, quyu |
| Hiçləgah | Gərdək |
| Hiçləgahi-ədəm | Yoxluq otağı, qəbir, məzar |
| Hübut | Enmə, yuxarıdan aşağı düşmə |
| Hürriyyət | Azadlıq |
| Hüma | Dövlət quşu, cənnət quşu, səadət gətirən |
| Hüdud | Sərhəd |
| Humma, atəşi-humma | Qızdırma |

**X**

| | |
|---|---|
| Xavyar | Dənəvər kürü, kürülərin ən bahalısı |
| Xalt etmək | Qələt etmək |
| Xamuş | Sakit, dinc |
| Xabalud | Yatmış |
| Xak | Torpaq, yer |
| Xəndənisar | Gülən, gülüş və sevinc saçan |
| Xətvə | Addım |
| Xüsran | Ziyan, zərər |
| Xudkam | Özünü sevən, eqoist |
| Xuşəçin | Başaq yığan |
| Xoşbin | Nikbin, optimisti |
| Xızlı | Sür'ətli |
| Xırpalamaq | Geyib köhnəltmək, kobud davranmaq |
| Xırsız | Oğru |

**I**

| | |
|---|---|
| Issız | Sahibsiz, kimsəsiz, ucqar |

**İ**

| | |
|---|---|
| İqbal | Xoşbəxtlik, uğur |
| İdbar | Bəxtsizlik |
| İbtilayi-qəram | Eşqə mübtəla olma, sevdaya tutulma |
| İğbirar | Qəmə düşmə, qubara qapılma, qüssə |
| İğfal | Azdırmaq, adlatmaq |
| İz'an | Ağıl, zəka, fərasət |
| İlqa | Təlqin etmə |

| | |
|---|---|
| İltica | Pənah aparma, sığınma |
| İttihad | Birlik |
| İmrənmək | Arzulamaq, qibtə etmək |
| İma | İşarə, işarə ilə anlatma, bildirmə |
| İnfial | Qəmlənmə, kədər duymaq, ruhi narahatlıq |
| İncizab | Cazibə, məftunluq, böyük həvəs |
| İnşad | Deklamasiya, ifadəli oxu |
| İrşad | Doğru yola yönəltmə, mürşidin müridlərinə həqiqət yolu göstərməsi |
| İsar | Saçma, yayma; səxavət göstərmə, bağışlama |
| İste’la | Ucaltma, yüksəltmə |
| İstiğna | Ehtiyacsız olmau, özünü varlı bilmək |
| İstikrah | İyrənmə, nifrət etmə |
| İstirham | Rəhm istəmək, əfv istəmək |
| İstiqbal | Gələcək |
| İstimdad | Kömək istəmək, yardım diləmək |
| İhzar | Hazır etmə |
| İctihad | Din yolunda cidd-cəhd ilə çalışma, müctəhidlik |
| İştika | Şikayət etmə |
| İllət | Xəstəlik; səbəb |
| İxtilal | Qarmaqarışıqlıq, üsyan |
| İxtiyar | Qoca |
| İştə | Bax, budur |
| İffət | Bəkarət, namusluluq |

**K**

| | |
|---|---|
| Kahin | Ruhani rəis, qeybdən xəbər verə bilməyi iddia edən |
| Kədərza | Kədər gətirən |
| Kəndi | Özü |
| Kələbək | Kəpənək |
| Kəsrət | Çoxluq, bolluq |
| Kizb | Yalan |
| Kövkəb, kövkəbidirəxşan | Ulduz, parıldayan ulduz |
| Köy | Kənd |

| | |
|---|---|
| Kötü | Pis, yaramaz |
| Kürreyi-ərz | Yer kürəsi |
| Küməs | Hin |
| Künh | Bir şeyin və ya bir məsələnin kökü, ən dərin nöqtəsi, mahiyyəti |
| Külxanbəyi | Xuliqan, fırıldaqçı |

## Q

| | |
|---|---|
| Qandırmaq | Aldatmaq |
| Qafa | Baş, kəllə |
| Qəhr | Qəzəb, acıq |
| Qəvi | Güclü |
| Qəsvətnüma | Sıxıntılı, hüznlü, qüssə gətirən |
| Qə'vr | Çuxurun dərin yeri, dibi; məc.: bir işin kökü, həqiqəti |
| Quşqulanmaq | Şübhələnmək, ehtiyatlanmaq |
| Qurnaz | Hiyləgər, oyanıq, zirək |
| Qüdsiyyət | Müqəddəslik, paklıq |
| Qülbə | Otaq |
| Qürb | Yaxınlıq, qürbi-həq - Allaha yaxınlıq |
| Qəla | Bahalıq, qəhtü qəla – qıtlığa görə şeylərin qəhət olması |
| Qəhr-xənd | Acı-acı, əsəbi gülüş |
| Qeyd | Qayğı |
| Qılavuz | Bələdçi |
| Qıvılcım | Qığılcım |
| Qoşmaq | Qaçmaq |

## L

| | |
|---|---|
| Laf | Boş danışmaq |
| Lafü gəzaf | Lüzumsuz, mənasız laqqırtı, boş söhbət, boş sözlər |
| Lahuti | Ruhani aləmə mənsub, mə'nəvi aləm, üluhiyyət aləmi; ilahi |
| Ləbbərləb | Ağzına kimi |
| Ləbriz | Dolu, ağzına qədər dolu; ləbrizi-səadət – səadətlə dolu |
| Ləm'an | Parlama, parıldama |

| | |
|---|---|
| Ləm'ənisar | Şö'lələnən, parıldayan, ləm'əsaçan |
| Lərzan | Titrək, titrəyən |
| Lərzədar | Titrək, titrəyən; ruhi-lərzədari-şəb – gecənin titrəyən ruhu |
| Lərziş | Titrətmə |
| Levs | Çirk, murdarlıq; levsi-riya – riyakarlığın çirkinliyi |
| Leyl | Gecə |
| Leylaq | Yasəmən |
| Leylü nahar | Gecə-gündüz |
| Lisançı | Dilçi |
| Lisan | Dil |

## M

| | |
|---|---|
| Madər | Ana |
| Mafat | İtirilmiş, zərər |
| Mazi | Keçmiş zaman |
| Mevt | Ölüm |
| Məbhut | Çaşmış, özünü itirmiş |
| Məqabir | Məqbərələr, məzarlar; teyfi-məqabir – qəbristanlıq kabusu (teyfi) |
| Mədid | Uzun, sürəkli |
| Mədar olmaq | Xeyir işə vasitə olmaq, xalq xeyrinə sərf olunmaq |
| Məzalim | Zülmlər, ədalətsizliklər |
| Məzbəh və məz-bəhə | Sallaqxana; qırğın yeri. Caviddə insan məzbəhi, müharibə meydanı |
| Mələkiyyət | Mələklik, pak, gözəllik |
| Mələkrüxsar | Mələk yanaqlı, gözəl |
| Məlcə' | Sığınacaq yeri, pənah yeri |
| Məmzuc | Qarışıq, qarışdırılmış |
| Mənəkşə | Bənövşə |
| Mənazir | Mənzərələr |
| Mən' etmək | Çəkindirmək |
| Mə'nus | Dost, yoldaş |
| Məraq etmək | Narahat olmaq |
| Mərarət | Acılıq, təlxkamlıq, dilxorluq |
| Mərdud | Rədd edilmiş, qovulmuş |
| Mərkəb | Minik heyvanı |

| | |
|---|---|
| Mərdümgiriz | İnsanlardan qaçan |
| Məsərrət | Şənlik, şadlıq |
| Məsiha | İsa peyğəmbərin ləqəbi |
| Məshur | Sehr edilmiş, sehr ilə aldadılmış; vurğun, vurulmuş |
| Məfsədət | Fitnə-fəsad, pozğunluq |
| Məhabət | Heybətli görünüş |
| Məhasin | Gözəlliklər |
| Mühal | Qeyri-mümkün, çətin |
| Məhzur | Təhlükə, qorxu, təhlükəli |
| Məhzun | Hüzünlü |
| Məhtab | Ay işığı, aylı gecə |
| Məczub | Cəzb olunmuş; aşiq |
| Mə’va | Yer, məskən |
| Məşhud | Şahid olunmuş |
| Mədfən | Qəbir |
| Mə’dələt | Ədalət |
| Mə’mur | Abad |
| Mə’tuf | Tuş gəlmiş, gözləri bir aynaya mə’tuf oldu – baxdı |
| Misafir | Qonaq |
| Mini-mini | Balaca-balaca |
| Miralay | Polkovnik |
| Mövcə | Dalğa, ləpə |
| Mövcid | Yaradan, doğuran; mövcidi-ilham – ilham gətirən, ilhama gətirən (şair) |
| Möhnətfəza | Qəm artıran, əziyyət çoxaldan, bəlaya salan |
| Möhtəriz | Çəkinən, qorxan |
| Möhtəmil | Ehtimal olunan |
| Möhtəsir | Ehtiraslı, yanğılı |
| Mö’tad | Adət etmiş |
| Mübrəm | Möhkəm, dəf’ edilməz; ehtiyaci-mübrəm – ödənilməsi zəruri ehtiyac olan |
| Müğfil | Aldadıcı, yalançı; sərabi-müqfil – aldadıcı ilğım |
| Müğbər | Acıqlı, incik |
| Müəzzəb | Əzab çəkən, əziyyət içində olan |
| Müəlla | Yüksək, əzəmətli |

| | |
|---|---|
| Müzlim | Qaranlıq, zülmət içində olan; məchul |
| Müztərib | İztirablı |
| Müqtədir | Qüdrətli, bacarıqlı |
| Mükəddər | Kədərli, tutqun |
| Mükərrər | Təkrar olunan, dəfələrlə |
| Mülazim | Leytenant |
| Müləvvəs | Murdar, çirkin, bulaşıq |
| Mültəci | İltica edən, pənah aparan, sığınan |
| Münəvvər | İşıqlı, nurlu |
| Münkəsir | Sınıq, qırıq |
| Münfəil | Pərt olmuş, utanmış |
| Mürtəsəm | Rəsm edilmiş, surəti çəkilmiş |
| Müsəllət | Zəhlətökən |
| Müsəlləm | Doğru, inkaredilməz |
| Müstəid | Meyilli, hazır, qabil |
| Müstəğrəq | Qərq olmuş, batmış; ənvarə müstəğrəq – başdan-başa nur içində |
| Müstevli | Fəth edən, hakim olan |
| Müsri | Yoluxucu |
| Mücrim | Günahkar |
| Mücəhhəz | Təchiz olunmuş |
| Mütəvərrim | Vərəmli, xəstə |
| Mütəhəssirun | Həsrətlə |
| Mütəcəssis | Arayıb axtaran, bilmək istəyən |
| Mütəfəkkir | Burada: fikirli, qayğılı |
| Mütəsəvvər | Təsəvvür olunan |
| Müftəris | Yırtıcı |
| Müxəyyəl | Xəyala gətirən, xəyali |
| Mühəyy | Hazır, bir işi görməyə hazır olmaq |
| Mühib | Qorxunc, heybətli |
| Mühlik | Həlakedici, öldürücü |
| Müşəvvəş | Həyəcanlanmış, qarışmış |
| Mucib | Səbəb |

## N

| | |
|---|---|
| Nam | Ad |
| Nadim | Peşman |
| Nazir | Baxan, tamaşa edən |
| Naim | Yatan; hüsni-naimi-cavid – əbədi susan |

| | |
|---|---|
| | gözəllik |
| Nasiyə | Alın |
| Nasut | İnsanlıq, insan aləmi, lahutun əksi |
| Naseh | Nəsihətçi |
| Nasıl | Necə |
| Naşinidə | Eşidilməmiş |
| Nafilə | Boş yerə, hədər |
| Naçaq | Burada: dərvişlərdə olan təbərzin |
| Nari-hicr | Ayrılıq odu |
| Nədamət | Peşimanlıq |
| Nəhy | Qadağa |
| Nəğəmat | Nəğmələr, mahnılar |
| Nəzafət | Təmizlik |
| Nəzreyi-xunin | Qanlı baxış, qanlı gözlər |
| Nəfəxat | Nəfxələr, nəfəslər |
| Nəcmi-geysudar | Quyruqlu ulduz, kometa |
| Nəşvəza | Nəş’əli |
| Nəş’əpəzir | Nəş’ə alan |
| Nəşidə | Nəğmə, şe’r, şərqi |
| Nevdəmidə | Yeni göyərmiş (çəmən) |
| Niza’ | Çəkişmə, dava-dalaş |
| Nigah | Baxış |
| Nisan | Aprel |
| Nisyan | Unudulma |
| Nimxat | Yarıyuxulu |
| Nişimən | Oturacaq yer, yaşayış yeri; məclis |
| Nevşüküftə | Yeni açılmış (gül) |
| Nevzad | Yeni doğulmuş, bala; nevzadi-təbiət – təbiətin balası (günəş haqqında) |
| Nev’ərus | Təzə gəlin, məc.: ilk bahar |

**O**

| | |
|---|---|
| Oyalamaq | Fikrini yayındırmaq, əyləndirmək |
| Obur | Çox yeyən, qarınqulu |
| Orman | Meşə |

**Ö**

| | |
|---|---|
| Örsələmək | Əzmək, dağıtmaq, əldən salmaq |
| Örsələnmək | Əzilmək, büzüşmək |

| | |
|---|---|
| Öksüz | Yetim |

## P

| | |
|---|---|
| Paçavra | Əski, cır-cındır |
| Peyröv | Birinin arxasınca gedən, birini izləyən |
| Peydərdərpey | Dalbadal |
| Pəyam | Sifariş |
| Pərran | Uçan, qanadlanan |
| Pəmbə | Çəhrayı |
| Pək | Çox |
| Pəki | Çox yaxşı |
| Pir | Qoca; rəhbər; piri-mürşid – qoca rəhbər, yol göstərən |
| Pişgah | Ön tərəf; pişgahi-nigah – göz qabağında olan yer, tərəf |
| Pürğübar | Tozlu, toza bulaşmış; dərdli, kədərli |
| Pürzəhəb | Qızıl dolu, qızıllı |
| Pürsükun | Səssiz, sakit |
| Pürteyf | Kabusla dolu |
| Pürzəfər | Zəfərlə, qalibiyyətlə; qələbəli |
| Püriğbirar | Tozlu, qubarlı |
| Püriştika | Şikayətli, çox şikayətli olan |
| Pürməal | Mə’nalı |
| Pürməali | Yüksək keyfiyyətləri olan |
| Pürməlal | Çox qəmgin, çox kədərli |
| Pürfikrət | Fikirli, əndişəli; ağıllı |
| Pür’əzhar | Çiçək dolu yer |
| Pür’itab | Töhmətli, məzəmmətli |
| Pürzəhəb | Qızılla dolu |
| Pırlanta | Brilyant |
| Pınar | Bulaq |

## R

| | |
|---|---|
| Rahzən | Yolkəsən, quldur |
| Rəbii | İlk bahara məxsus |
| Rəqiq | İncə, zərif |
| Rəzmgah | Müharibə yeri, hərb meydanı |
| Rəyyan | Sudan doymuş; ləbi-rəyyan – sudan |

| | |
|---|---|
| | doymuş dodaq; dəniz |
| Rəhakar | Xilasedici, qurtarıcı |
| Rəhnümayi-şər | Şərə aparan, ziyan yolunu göstərən |
| Rəxavət | Süstlük |
| Rə’d | İldırım |
| Rə’na | Gözəl |
| Rəncur | Xəstə, kədərli |
| Rihlət etmək | Ölmək, vəfat etmək, köçmək |
| Rical | Böyük, hörmətli adamlar; dövlət adamları |
| Ruzü şəb | Gündüz-gecə |
| Rövzə | Bağça, bağ, güllü-çiçəkli yer |
| Rövşən | İşıqlı |

## S

| | |
|---|---|
| Samiə | Dinləyən, qulaq asan qız, qadın |
| Saqın | Bax ha, ehtiyatlı ol |
| Sakin | Sakit |
| Səbahət | Gözəllik |
| Səbz | Yaşıl |
| Sədr | Döş, sinə |
| Səm | Zəhər; səmli böcək – zəhərli cücü |
| Səmli | Zəhərli |
| Səngdil | Daşqəlbli, rəhmsiz, mərhəmətsiz |
| Səqət | Şikəst |
| Səlim | Sağlam |
| Sər’ədar | Epileptik |
| Sərvətü saman | Var-dövlət |
| Sərgəştə | Avara; heyrətdə olan |
| Sərmədiyyət | Əbədilik |
| Sərşar | Dolu, ağzına qədər doldurulmuş; bol, gen-bol |
| Səfvət | Saflıq, təmizlik, paklıq |
| Səhabəpuş | Buludla örtülü; səhabəpuşi-hicab – hicab pərdəsilə örtülü |
| Səhhar | Sehr edən, sehrbaz; məc.: çox cazibəli gözəl; ləbi-səhhar – çox gözəl dodaq |
| Sinək | Milçək |
| Simax | Qulaq, qulaq yolu, eşitmək yolu |

| | |
|---|---|
| Simin, təni-simin | Gümüşü, gümüş bədən |
| Sinsi | Gizli; sinsi mərəz – gözə görünməz xəstəlik |
| Siyəhrəng | Qara rəngli |
| Sitarə | Ulduz |
| Soytarı | Məsxərəçi, yaltaq, xalqı gülünc hərəkətlərilə güldürən adam |
| Sur | Ziyafət, toy, şadyanalıq |
| Suziş | Yanğı |
| Sümt | Səssizlik, sükut |
| Süslü | Bəzəkli |
| Sükut | Sakitlik |
| Süfli | Alçaq, yerə məxsus |
| Süfliyyət | Alçaqlıq |
| Sırma | Gümüşü və ya qızılı sapla vurulmuş bəzək |
| Sıcaq | İsti |
| Sıtmalı | Qızdırmalı |
| Semiz | Kök |
| Seyhə | Qışqırıq |
| Somurtqan | Qaşqabaqlı |
| Sokaq | Küçə |
| Sırıtmaq | Sırtılıb gülmək |

## Ş

| | |
|---|---|
| Şayan | Layiq |
| Şaka | Zarafat, əylənmə |
| Şahrah | Baş yol, prospekt |
| Şəbab | Gənclik |
| Şəms | Günəş |
| Şəhamətli | İgid, vüqarlı |
| Şətarət | Cəldlik, vurnuxma |
| Şəkkiyyat | Şəkklər, şübhələr |
| Şəhpər | Qanad; uçuş lələkləri |
| Şum | Uğursuz |
| Şəbnəvərd | Gecə gəzib dolaşan, şəbnəvərdi-səma – gecələri səmanı, göyləri dolaşan (ay) |
| Şəbrəng | Qara, qaranlıq gecə rəngində olan |
| Şərarə | Qığılcım |

| | |
|---|---|
| Şahmari-üsyan | Asilik ilanı; məc.: cinayətli hərəkət |
| Şəhrah | Baş yol, böyük yol |
| Şə'şəəbar | Şö'ləsaçan, ziya saçan |
| Şitaban | Tələsən, tələsmə |
| Şükufəzar | Güllük, çəmənlik |

**T**

| | |
|---|---|
| Taban | Parlaq, işıq saçan |
| Tabfərsa | Gücdən, taqətdən salan |
| Taslamaq | Özünü yalandan hünərli göstərmək, özündə olmayan şeyi var kimi göstərmək, lovğalanmaq |
| Tatlı | Şirin |
| Taqətsuz | Taqətdən salan |
| Təbdil | Dəyişmək |
| Təbəsbüs | Yaltaqlıq, alçalma |
| Təvərrüm | Vərəm olmaq, vərəmləmə |
| Təqdis | Müqəddəsləşdirmə, şöhrətləndirmə |
| Təqərrüb | Yaxınlaşma |
| Təəb | Əziyyət, iztirab |
| Təbah | Dağılmış, pozuq |
| Təzyin | Bəzəmək |
| Təzyir | Saxtalıq, qeyri-səmimi |
| Təməvvüc edən | Dalğalanan, titrəyən |
| Təməddün | Mədəniləşmə, mədəniyyət |
| Təməllüq | Yaltaqlıq |
| Təməsxür | Ələ salma, istehza etmə, təhqir etmə |
| Təmyiz | Seçmə, fərq qoyma |
| Təmcid | Ehtiram göstərmə, böyütmə |
| Təkmə | Təpik |
| Tənnaz | Gözəl, boylu-buxunlu |
| Tənəffür | Nifrət etmək |
| Təni-simin | Gümüş bədən; məc.: ay, qəmər |
| Tərəbza | Zövq verən, sevinc yaradan |
| Tərəbnisar | Sevinc saçan, sevindirən |
| Tərəhhüm | Rəhm etmək |
| Tərəb | Sevinc, şadlıq |
| Tərcih | Üstünlük; tərcih etmək – üstün tutmaq |
| Tərsa | Xristian |

| | |
|---|---|
| Təlxkam | Kefi pozuq, bədbəxt |
| Təğənni | Nəğmə oxumaq |
| Təhəssür | Həsrət çəkmək |
| Təhəvvül | Dəyişmə, çevrilmə |
| Təsəttür | Bürünmək |
| Təcəddüd | Yeniləşmə |
| Təsmim | Zəhərləmə |
| Təsxiri-qülub | Ürəkləri fəth etmə, məftun etmə |
| Təfərrücgah | Gəzinti yeri, səyahət yeri |
| Təhəvvür | Şiddət və qəzəb göstərmə, acıqla üstünə hücum etmə |
| Təxəttür | Yada salma |
| Təcəlli | Parıltı, görünmə |
| Təcərrüd | Ayrılıb təkləşmə, qarışmama |
| Təğafil | Xəbərsizlik, özünü xəbərsizliyə vurmaq |
| Təhəkküm | İstehza |
| Toqat | Sillə |
| Tizpərvaz | İti uçan, tez qanadlanan |
| Timarxana | Xəstəxana; dəlilər xəstəxanası |
| Tir | Ox |
| Tirə | Qara, qaranlıq |
| Tiflanə | Uşaqcasına |
| Tren | Qatar |
| Təpsi | Məcməyi |
| Tuzaq | Tələ |
| Tuhaf | Qəribə, əcaib |
| Tüyur | Quşlar |
| Türrəyi-şəbrəng | Qara saçlar |

## U

| | |
|---|---|
| Ufaq | Kiçik |
| Uslu | Ağıllı |
| Uğraşmaq | Çalışmaq |
| Uslanmaq | Dinc durmaq, yaramazlıq etməmək |

## Ü

| | |
|---|---|
| Übudiyyət | Qul olma, itaət etmə |
| Ürəfa taslağı | Yalançı ruhani, saxta ariflik |

| | |
|---|---|
| Ürəfa | Ariflər |
| Üryan | Çılpaq |

**V**

| | |
|---|---|
| Va əsəfa | Heyif, çox təəssüf |
| Validə | Ana |
| Varəstə | Azad olmuş, qurtulmuş, varəsteyi-məzalim – zülmlərdən xilas olmuş |
| Vəq’ə | Hadisə |
| Vəsvəsə | Şeytan pıçıltısı |
| Vəqur | Vüqarlı |
| Vəqf | Bir xeyir işə ayrılmış (mal); vəqfi-sevda; yaşarmış vəqfi-sevda, safü üryan - özünü eşqə, sevdayə vəsf etmiş, vermiş… |
| Vəğa | Gurultu, qovğa |
| Vəcdalud | Vəcd içində, özünü itirmişcəsinə eşqə tutulmuş |
| Vəhdət | Birlik |
| Vəcdəfruz | Vəcdə gətirən, vəcd artıran, həyəcan oyadan hadisə |
| Vird | Dua, təkrar-təkrar oxunan Qur’an ayəsi, ya hər hansı bir hədis, söz |
| Vüslətgüzin | Vüsal axtaran, məşuqəsinə çatmağa çalışan |
| Vühuş | Vəhşi heyvanlar |
| Venüs | Venera |

**Y**

| | |
|---|---|
| Yaldızlı | Qızıl suyuna çəkilmiş; aldadıcı |
| Yavuz | Sərt, cəsur |
| Yavru | Bala, körpə |
| Yarın | Sabah |
| Yekavaz | Bir səslə |
| Yeltənmək | Gücə düşmək |
| Yosma | Şən, nazlı |

**Z**

| | |
|---|---|
| Zaid | Üstəgəl, üstün; artıq |
| Zair | Ziyarət edən, ziyarətçi |
| Zahir | Parlaq, aydın; nücumi-zahirə – parılday-an ulduzlar |
| Zəlam | Qaranlıq, zülmət; zəlami-təhəyyür – heyrət qaranlığı |
| Zəbun | Zəif, köməksiz |
| Zəki | Ağıllı |
| Zərafət | Zəriflik, incəlik |
| Zərrinpər | Zərqanadlı, səyyahi-zərrinpər – quyruq-lu ulduz, kometa |
| Zəhralud | Zəhərli, zəhərə bulaşmış; çox acı (söz və s.) |
| Zəhrxənd | Acı gülüş, istehzalı gülüş |
| Zə'f | Zəiflik |
| Zib | Bəzək, yaraşıq |
| Zill | Kölgə |
| Ziştbin | Pis görən, çirkin bilən, pessimist |
| Zift | Qır |
| Zində | Yaşayan, diri |
| Züvvar | Ziyarətçilər |
| Züll | Zillət, alçaqlıq |
| Zünun | Zənnlər, gümanlar, şübhələr |

**Əkrəm Cəfər,**
**Teymur Kərimli**

## MÜNDƏRİCAT

*Bir neçə söz (Turan Cavid)* ............................................5
*Hüseyn Cavidin həyat və yaradıcılığı*
*(G. Babaxanlı-Kəngərli, T.Kərimli)* ..............................11

**KEÇMİŞ GÜNLƏR**

Hübuti-Adəm ...............................................................35
Bakıda.........................................................................38
Yadi-Mazi....................................................................42
Otuz yaşında ...............................................................44
Gecəydi… ...................................................................46
Bir rəsm qarşısında......................................................49
Elmi-bəşər ..................................................................50
Qadın! .........................................................................52
Küçük sərsəri ..............................................................54
Öksüz Ənvər ...............................................................55
İlk bahar.......................................................................57
Qız məktəbində ............................................................58
Çiçək sevgisi ...............................................................59

**BAHAR ŞƏBNƏMLƏRİ**

Hərb və fəlakət ............................................................63
Dəniz tamaşası ............................................................68
Şeyx Sənan..................................................................72
Rəqs.............................................................................73
Hər yer səfalı, nəş’əli…...............................................75
Çəkinmə, gül!...............................................................76
Sevinmə, gülmə, quzum!.. ...........................................77
Pəmbə çarşaf ...............................................................78
Xuraman-xuraman........................................................79
Uyuyor.........................................................................80
Görmədim ...................................................................82
Bən istərim ki… ...........................................................84
Vərəmli qız ..................................................................85
Kars və Oltu ətrafında səbəbsiz (!?) olaraq
alçaqcasına qətl və yəğma edilən
məzlumlar için..............................................................86

Çoban türküsü ....................................................................89
Dün və bu gün ......................................................................90
Qürubə qarşı ........................................................................93
Hərb ilahı qarşısında ...........................................................95
İştə bir divanədən bir xatirə ..............................................97

**UNUTULMUŞ ŞEYLƏR**

Ey ruhi-pürsükun!.. .........................................................109
Küçük bir levhə ..................................................................111
İki həmşireyi-lətafətvan ....................................................112
Bir qızın son fəryadı, yaxud
zindan güşəsindən bir səs ..................................................114
Qomşu çiçəyi .....................................................................116
Nəcmi-geysudar ................................................................117
İbtilayi-qəram ....................................................................118
Şe’r məftunu ......................................................................119
Dəniz pərisi ........................................................................120
Bilməm kimə?.. ..................................................................121
Bu gecə ..............................................................................123
A…h, yalnız sən! ...............................................................124
Qəmər ................................................................................125
Niçin!? ...............................................................................126
Get .....................................................................................128
Mə’yus bir qəlbin fəryadı ..................................................129
Son baharda .......................................................................130

**MÜXTƏLİF ŞE’RLƏR**

Verdim o gün ki, zülfi-pərişanə gönlümü… ......................135
Qəzəl .................................................................................136
Qəzəl .................................................................................137
Qəzəl .................................................................................138
Qəzəl .................................................................................139
Hacı Zeynalabidin Tağıyevin
yardımı münasibətilə ..........................................................140
Mərsiyə .............................................................................144
Növhə ................................................................................145
Hali-əsəf – istimalımı təsvirdə
bir ahi-məzlumanə .............................................................149

Qoca bir türkün vəsiyyəti............................................153
Bənim tanrım...............................................................156
Bir zamanlar ................................................................157
Novruz bayramı...........................................................158
«İsmayıl bəy» ...............................................................160
Türk əsirləri..................................................................162
Qaçqın ..........................................................................164
Solğun mənəkşələr ......................................................165
Çəlik qollar...................................................................166
Şərq qadını ...................................................................167

**POEMA**

Azər...............................................................................171
Lüğət…………………………………………….275

**H. CAVİD**

**ƏSƏRLƏRİ**

**5 CİLDDƏ**

**I CİLD**

Bakı – 2006

Direktor: Ş.Alışanlı
Baş redaktor: T.Kərimli
Kompüter tərtibçisi: C.Qasımov

Formatı 84x108 1/32. Həcmi 19 ç.v.Tirajı 1000.
Sifariş №. 154. Qiyməti müqavilə əsasında.

Azərbaycan Milli Elmlər Akademiyasının «Elm» Redaksiya-Nəşriyyat
və Poliqrafiya Mərkəzində yığılıb səhifələnmişdir.

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel.: 447 75 05

mətbəəsində çap olunmuşdur